# Ədəbiyyat

METODİK VƏSAİT

10



Ədəbiyyat 10 METODİK VƏSAİT

LAYİHƏ

SOLTAN ƏLİYEV, BİLAL HƏSƏNOV, AYNUR MUSTAFAYEVA

# ƏDƏBİYYAT
# 10

Ümumi təhsil müəssisələrinin 10-cu sinifləri üçün Ədəbiyyat fənni üzrə dərsliyin
METODİK VƏSAİTİ

©Azərbaycan Respublikası Təhsil Nazirliyi

**Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International (CC BY-NC-SA 4.0)**

Bu nəşr Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International lisenziyası (CC BY-NC-SA 4.0) ilə **www.trims.edu.az** saytında əlçatandır. Bu nəşrin məzmunundan istifadə edərkən sözügedən lisenziyanın şərtlərini qəbul etmiş olursunuz:

İstinad zamanı nəşrin müəllif(lər)inin adı göstərilməlidir.

Nəşrdən kommersiya məqsədilə istifadə qadağandır.

Törəmə nəşrlər orijinal nəşrin lisenziya şərtlərilə yayılmalıdır.

Bu nəşrlə bağlı irad və təkliflərinizi
**bn@bakineshr.az** və **derslik@edu.gov.az**
elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

BAKI NƏŞR

LAYİHƏ

## BAŞLIQLAR

Fənn kurikulumu tələblərinin "Ədəbiyyat" dərslik komplektində reallaşdırılması mexanizmlərinin şərhi ........ 4
X sinif üzrə məzmun standartları və təlim nəticələri........ 8
Fənn üzrə məzmun standartlarının reallaşdırılması cədvəli ........ 9
X sinifdə ədəbiyyat dərslərinin illik planlaşdırılması nümunəsi ........ 12
Yeni təlim texnologiyalarından istifadə ........ 23
Fəndaxili və fənlərarası inteqrasiya........ 25
Şagirdlərin özünüqiymətləndirmə meyarları........ 27
Müasir məktəbdaxili qiymətləndirmə ........ 29

**Mövzular üzrə təlim materialları ilə iş texnologiyasının şərhi**
Söz sənətimiz – mənəvi sərvətimiz ........ 33

**ŞİFAHİ XALQ ƏDƏBİYYATI**
Azərbaycan şifahi xalq yaradıcılığı........

**QƏDİM DÖVR AZƏRBAYCAN ƏDƏBİYYATI**
Qədim dövr Azərbaycan ədəbiyyatı ........ 40
"Kitabi-Dədə Qorqud" eposu ........ 43
Salur Qazanın evinin yağmalandığı boy ........ 45

**İNTİBAH DÖVRÜ AZƏRBAYCAN ƏDƏBİYYATI**
İntibah dövrü ədəbiyyatı ........
Nizami Gəncəvinin həyatı, yaradıcılıq yolu........ 54
Nizami Gəncəvi. İskəndərnamə (ixtisarla) ........ 56
*Kiçik summativ qiymətləndirmə* ........ 65

**ORTA ƏSRLƏR AZƏRBAYCAN ƏDƏBİYYATI**
Orta əsrlər ədəbiyyatı ........ 68
İmadəddin Nəsiminin həyatı, yaradıcılıq yolu........ 70
İmadəddin Nəsimi. Sığmazam (ixtisarla)........ 73
Şah İsmayıl Xətayinin həyatı, yaradıcılıq yolu........79
Şah İsmayıl Xətayi. Dəhnamə (ixtisarla)........ 81
*Kiçik summativ qiymətləndirmə* ........ 90

Məhəmməd Füzulinin həyatı, yaradıcılıq yolu........ 93
Məhəmməd Füzuli. Məni candan usandırdı ........ 94
Məhəmməd Füzuli. Leyli və Məcnun (ixtisarla) ........ *99*
*Kiçik summativ qiymətləndirmə* ........108

LAYİHƏ

## ERKƏN YENİ DÖVR AZƏRBAYCAN ƏDƏBİYYATI


Erkən realizm dövründə ədəbiyyat ........ 111
"Koroğlu" eposu ........ 114
Həmzənin Qıratı qaçırması (ixtisarla) ........ 116
Molla Pənah Vaqifin həyatı, yaradıcılıq yolu ........ 121
Molla Pənah Vaqif. Pəri ........ 124
*Kiçik summativ qiymətləndirmə* ........ 129


## AZƏRBAYCAN ƏDƏBİYYATINDA MAARİFÇİ REALİZM DÖVRÜ


Maarifçi-realist ədəbiyyat ........ 132
Qasım bəy Zakirin həyatı, yaradıcılıq yolu ........ 134
Qasım bəy Zakir. Badi-səba, mənim dərdi-dilimi ........ 136
Mirzə Fətəli Axundzadənin həyatı, yaradıcılıq yolu ........ 140
Mirzə Fətəli Axundzadə. Hekayəti-müsyö Jordan həkimi-nəbatat və dərviş Məstəli şah cadukünі-məşhur (ixtisarla) ........ 142
Mirzə Fətəli Axundzadə. Aldanmış kəvakib (ixtisarla) ........ 152
*Kiçik summativ qiymətləndirmə* ........ 158

Aşıq Ələsgərin həyatı, yaradıcılıq yolu ........ 162
Aşıq Ələsgər. Dağlar ........ 164
Seyid Əzim Şirvaninin həyatı, yaradıcılıq yolu ........ 168
Seyid Əzim Şirvani. Guş qıl... (ixtisarla) ........ 170
Nəcəf bəy Vəzirovun həyatı, yaradıcılıq yolu ........ 175
Nəcəf bəy Vəzirov. Müsibəti-Fəxrəddin (ixtisarla) ........ 177
*Kiçik summativ qiymətləndirmə* ........ 188

Gündəlik planlaşdırmaya aid nümunə ........ 191
Mənbələr ........ 207




LAYİHƏ

# FƏNN KURİKULUMU TƏLƏBLƏRİNİN "ƏDƏBİYYAT" DƏRSLİK KOMPLEKTİNDƏ REALLAŞDIRILMASI MEXANİZMLƏRİNİN ŞƏRHİ

Ümumtəhsil məktəblərinin X sinifləri üçün ədəbiyyat fənni üzrə dərslik komplekti "Ümumi təhsil pilləsinin dövlət standartları və proqramları (kurikulumları)" əsasında hazırlanmışdır. Ədəbiyyat fənni üzrə dərslik komplektində Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda qarşıya qoyulan hədəflər, şagirdlərin ədəbi təhsilinin məzmununda nəzəri biliklərlə yanaşı, praktik bilik və bacarıqların vacibliyi, mənimsənilənlərin konkret fəaliyyətin nəticəsinə çevrilməsinin təmin edilməsi ön plana çəkilmişdir.

Eyni zamanda fənn kurikulumundakı aşağıdakı mühüm müddəa tam orta təhsil pilləsində ədəbiyyatın öyrədilməsi üçün metodoloji zəmin yaratmışdır: **"Azərbaycan ədəbiyyatının çoxəsrlik inkişaf yolunun, ədəbi ənənə və əlaqələrin, Azərbaycan ədəbiyyatının görkəmli simalarının yaradıcılığının tarixi-xronoloji ardıcıllıqla, yeni təlim texnologiyalarının tətbiqi ilə öyrədilməsi tələbi şagirdlərin dərin, sistemli bilik və bacarıqlara yiyələnmələrini, mənimsənilənlərin konkret fəaliyyətin nəticəsinə çevrilməsini təmin edir".**

Dərslik komplekti hazırlanarkən pedaqogika, psixologiya, ədəbiyyatşünaslıq, ədəbiyyatın tədrisi metodikası elmlərinin son nailiyyətləri, milli və beynəlxalq tədqiqatlar, ədəbiyyat tədrisi üzrə son illərdə toplanmış təcrübə ətraflı öyrənilmiş və nəzərə alınmışdır.

## DƏRSLİK

Ümumtəhsil məktəblərinin 10-cu sinifləri üçün "Ədəbiyyat" dərsliyinə milli və bəşəri dəyərləri özündə əks etdirmiş, həqiqi vətəndaşın tərbiyəsində mühüm rol oynayacaq əsərlər daxil edilmiş, bu nümunələrin fəal/interaktiv metodlar və informasiya-kommunikasiya texnologiyalarından istifadə ilə öyrədilməsinə önəm verilmişdir.

"Ədəbiyyat" dərsliyinə daxil edilmiş təlim materialları qədim Azərbaycan ədəbiyyatından XX əsrə qədərki dövrü əhatə edir. Başqa sözlə, dərsliyə bu və ya digər mərhələnin xülasəsini əks etdirən yığcam icmallar, klassik sənətkarların həyatı, yaradıcılığı ilə bağlı qısa məlumat, məktəb təcrübəsində özünü doğrultmuş və monoqrafik şəkildə öyrənilən bədii əsərlər daxil edilmişdir.

Bundan əlavə, dərslikdə sinifdənxaric oxu üçün tövsiyə olunan əsərlərin siyahısı, lüğət, eləcə də qısa ədəbiyyatşünaslıq terminləri lüğəti verilmişdir.

Dərslikdəki mövzular iki qrupa ayrılır:

1. İcmal mövzular.
2. Monoqrafik mövzular.

İcmal mövzular dövrün sosial-siyasi, ədəbi-mədəni mənzərəsi, söz sənətimizin aparıcı nümayəndələrinin yaradıcılığı haqqında şagirdlərdə müəyyən təsəvvür yaratmaq, onları monoqrafik mövzuların öyrənilməsinə hazırlamaq məqsədini güdür. Bu mövzuların X sinifdə öyrənilməsi məqsədəuyğun sayılmış, müvafiq məzmun standartlarının reallaşdırılması nəzərdə tutulmuşdur. Məzmun standartlarının məhdud şəkildə müəyyənləşdirilməsi tədqiqatın daha geniş və səmərəli olmasına imkan yaradacaqdır. Lakin müəllim qarşıya qoyduğu məqsəddən, sinfin səviyyəsindən asılı olaraq, onların sayını

LAYİHƏ

artıra da bilər. İşin bu istiqamətdə qurulması, təbiidir ki, şagirdlərdən daha çox müstəqillik və məsuliyyət tələb edir. Mətnin oxusu sinifdə həyata keçirilir, əlavə mənbələrə (azı iki mənbənin olması məqsədəuyğundur) müraciət olunur, sonda müzakirə formalarından biri tətbiq edilir. İşin davam etdirilməsinə ehtiyac duyulduğu dərsdə aşkara çıxarılır və şagirdlər dərslikdə tövsiyə olunmuş mənbələr (eləcə də əlavə mənbələr seçə bilər) əsasında müstəqil araşdırmalarını davam etdirirlər. Növbəti dərsdə – ev tapşırığının yerinə yetirilməsi səviyyəsi müəyyənləşdirilərkən müstəqil tədqiqatın nəticələri müzakirə olunur.

Dərsliyə daxil edilmiş sənətkarların *həyatı, yaradıcılıq yolu* daha geniş araşdırma aparmaqla öyrənilir. Araşdırma üzrə hazırlığın ilkin mərhələsi – dərslikdəki materialla sinifdə tanışlıq və sonrakı işlər fərqli məzmunda təşkil edilə bilər. Başqa sözlə, diskussiya, müzakirə xəritəsi, debat və s. tətbiqi, kiçik qrupların təqdimatları əsasında müzakirənin aparılması mümkündür.

Bütün hallarda dərsdə – ilkin hazırlıq mərhələsində mənimsənilmiş bilik və bacarıqların mənbələr əsasında inkişaf etdirilməsi, zənginləşdirilməsi vacibdir. Bununla yanaşı, şagirdlər dərslikdə tövsiyə olunan mənbələrdən istifadə ilə məhdudlaşmamalı, mətnlər üzrə təklif edilmiş suallar əsasında digər internet mənbələrindən də faydalanmalıdır. *Dərslikdə təklif edilmiş mənbələr diqqətlə seçilmiş, şagirdlər üçün anlaşıqlı olması, oxunacaq materialların həcmi nəzərə alınmışdır.* Əvvəlki siniflərdə şagirdlər mənbələrlə iş üzrə müəyyən bacarıqlara yiyələnmişlər. Bu dərslikdə əsas mənbə kimi "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 12 yanvar 2004-cü il tarixli sərəncamına uyğun olaraq nəşr edilərək bütün məktəb kitabxanalarına paylanılmış və elektron formada internetdə yerləşdirilmiş kitablar, həmçinin şagird üçün elektron "Ədəbiyyat" vəsaiti (edebiyyat.ucoz.com) tövsiyə edilmişdir. Bununla yanaşı, şagirdlər daha geniş müstəqil araşdırma aparmaq üçün əlavə mənbələrdən istifadə edə bilərlər.

*Müxtəlif mənbələrdən materialların seçilməsi, təhlil və müqayisə edilməsi, ümumiləşdirmə aparılması, təqdimatların hazırlanması və s. şagirdlərdə məntiqi, tənqidi və yaradıcı təfəkkürün inkişafına əhəmiyyətli dərəcədə təsir edəcəkdir. Ədəbi əsərin mövzusu, ideyası, obrazları, bədii xüsusiyyətləri və s. barədə dərslikdə verilmiş istiqamətləndirici məlumatın mənbələr əsasında zənginləşdirilməsi və tamamlanması tədqiqat səciyyəli olub şagirdlərdə müstəqil düşüncənin formalaşmasına imkan yaradacaqdır. Təhlil dərslərində tapşırıqların icrası prosesində şagirdlərin mənbələrlə təmin edilməsi vacibdir. Bu, tədqiqatın səmərəliliyinə, cavabların daha əhatəli olmasına imkan yaradır. Müstəqil araşdırma zamanı əhatə edilməsi təklif olunan suallarla (ev tapşırığının tərkibində verilmişdir) bağlı dərslikdə istiqamətləndirici məlumat verilməmişdir. Bu sualların araşdırılması şagirdlərdən daha yüksək fəallıq və müstəqillik tələb edir.*

*Bədii əsərlərin məzmunu ilə bağlı dərslikdə əks etdirilmiş suallar mətnin necə qavranıldığını aşkara çıxarmağa və mənimsənilənləri möhkəmləndirməyə imkan verir. Bu suallar üzrə aparılan iş sonrakı mərhələnin – təhlilin səmərəliliyinə əhəmiyyətli dərəcədə təsir edir. Deməli, fakt, əhvalat və hadisələrin mənimsənilməsi sonrakı mərhələdə yaradıcı xarakterli işlərin reallaşdırılmasına zəmin olur. Başqa sözlə, faktoloji (deklarativ) bilik daha yüksək səviyyəli biliklərin öyrənilməsinə imkan yaradır.*

Oxunacaq bədii əsərlərin vəsaitə daxil edilməsi isə şagirdlərlə aparılan işin səmərəli təşkilinə imkan verəcəkdir. **Unudulmamalıdır ki, şagirdlər hər bölmədəki bədii əsəri hələ tədrisinə qədər müstəqil oxumalıdırlar. Bunun vacib olması metodikada çoxdan**



LAYİHƏ

**əsaslandırılmışdır. Bu mərhələ metodikada *əsərin ilkin qavranılması* adlanır, ilkin qavranmanın aşkara çıxarılması sonrakı mərhələlərdə işin səmərəli qurulmasına səbəb olur. Klassik ədəbi nümunələrin ilkin oxusunda – qavranılmasında, əlbəttə, çətinliklər yaranır; əsərin bütünlüklə və aydın başa düşülməsi heç də həmişə mümkün olmur. Lakin bu, həmin işdən imtina edilməsinə əsas vermir. Lüğətlərdən, izah və şərhlərdən yararlanmaqla həyata keçirilən oxu faydalı olur. Belə əsərlərin əksəriyyətinin misra və beytlərinin şərhi elektron vəsaitə daxil ediləcəkdir. Lakin bu məsələnin həllində müəllimin özünün müstəqil, yaradıcı işi daha vacibdir; müxtəlif mənbələrdən (klassik əsərlərlə bağlı araşdırma, şərh, izahlı lüğətlərdən və s.) istifadə etməklə çətinliyi əsaslı şəkildə aradan qaldırmaq mümkündür.** Bu da xatırladılmalıdır ki, klassik əsərlərdəki tanış olmayan sözlərin hamısını dərslikdəki lüğətə daxil etmək mümkün olmadığı kimi, vacib də deyildir; şagirdlər məzmun standartının tələbinə uyğun olaraq *müxtəlif lüğətlərdən* istifadə bacarığına yiyələnməlidirlər. *Eləcə də unudulmamalıdır ki, şagirdlərin öyrəndikləri və öyrənəcəkləri yeni sözlərin hesabını aparmaq mümkün deyildir; onlar müstəqil mütaliə, digər fənlər və s. vasitəsi ilə hər gün yeni sözlər mənimsəyirlər. Başlıca diqqət yeni öyrənilən sözlərin şagirdlərin nitqinə daxil olması, onu zənginləşdirməsinə yönəlməlidir.*

Məzmun standartlarının dərslikdə reallaşdırılması ilə bağlı bir mühüm cəhəti də unutmaq olmaz; bəzi standartların tərkibindəki hər hansı tələbin necə reallaşdığını birbaşa dərsdə – iş prosesində müşahidə etmək mümkündür. Məsələn, 2.1.1. standartına (Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla təqdimat və çıxışlarında obrazlı ifadələrdən istifadə edir) uyğun olaraq təqdimat və ya çıxış edən şagirdin "obrazlı ifadələrdən" necə istifadə etməsi müəllimin müşahidəsi nəticəsində aşkara çıxarılır və qiymətləndirilir.

Dərslikdə aşağıdakı *pedaqoji prinsiplər* gözlənilmişdir:

- düzgünlük – məzmun standartlarına uyğunluq, faktların dəqiqliyi, mübahisəli elmi məsələlərin olmaması, orfoqrafik, durğu işarələri və qrammatik qaydaların gözlənilməsi;
- əyanilik – bədii mətnlərlə bağlı şəkil, cədvəl və illüstrasiyalarla, slaydlar, videomateriallardan istifadə;
- tərbiyəedicilik – təlim materiallarının müasir dünyagörüşünün, milli-mənəvi və bəşəri dəyərlərin formalaşdırılmasına istiqamətlənməsi;
- tamlıq – elmi-nəzəri, praktik, təsviri, qiymətləndirmə materiallarının olması, onların üzvi şəkildə əlaqələndirilməsi;
- ardıcıllıq – təlim materiallarının sadədən mürəkkəbə doğru sıralanması, əvvəlki təlim materialları vasitəsilə növbəti materialların mənimsənilməsinə zəmin yaradılması;
- yaş səviyyəsinə uyğunluq – təlim materiallarının məzmun və həcm baxımından onların ehtiyaclarına uyğun müəyyənləşdirilməsi, dərsliyinin poliqrafiya, dizayn cəhətdən şagirdlərin estetik tələbatına cavab verməsi;
- təlim vaxtına uyğunluq – tədrisə ayrılan vaxtın dəqiq nəzərə alınması;
- oxunaqlılıq – bədii materialların, şərhlərin, izahların, nəzəri məlumatların və s.) maraqlı və yığcam olması, aydın üslubda, sadə dildə ifadə edilməsi;
- inkişafetdiricilik – məntiqi tənqidi, yaradıcı təfəkkürün, informasiya-kommunikasiya texnologiyaları ilə işləmək bacarığının formalaşdırılması;
- inklüzivlik – potensial imkanları, qavrama səviyyəsindən asılı olmayaraq, bütün şagirdlərə diferensial yanaşmanın təmin edilməsi və onların təlim maraqlarının təmin olunması;
- inteqrativlik – ədəbi təhsilin məzmun komponentlərinin bir-biri ilə və digər fənlərlə sistemli şəkildə üzvi əlaqələndirilməsi.

LAYİHƏ

Ədəbiyyatımızın inkişaf mərhələləri müəyyənləşdirilərkən BDU-nun Müasir Azərbaycan ədəbiyyatı kafedrasının hazırladığı dərslikdəki dövrləşdirmə, ədəbi prosesə yeni yanaşma, elmi-metodoloji prinsip və tələblər diqqət mərkəzində saxlanılmışdır (Müasir Azərbaycan ədəbiyyatı. I–II cild. Bakı: Bakı Universiteti nəşriyyatı, 2007.) Eləcə də, hazırda ümumtəhsil məktəblərində istifadə olunan "Ədəbiyyat" dərsliyindəki Azərbaycan ədəbiyyatının dövrləşməsi nəzərə alınmışdır (N.Cəfərov, T.Kərimli, Z.Əsgərli, A.Bakıxanova. Ədəbiyyat. X sinif üçün dərslik. Bakı: Çaşıoğlu, 2012).

## MÜƏLLİM ÜÇÜN METODİK VƏSAİT

X sinif dərsliyində təlim materiallarının mənimsənilməsi və müvafiq fəaliyyət növlərinin tətbiqi üç əsas metodoloji mərhələyə bölünür: *mövzu ilə bağlı əvvəlki biliklərin aktuallaşdırılması; yeni biliyin mənimsənilməsi; bilik və bacarıqların tətbiqi, dəyərləndirilməsi.*

1. Təlim materialının öyrənilməsi üzrə işin ilk mərhələsi – motivasiya idraki maraqoyatmanı, əqli fəallığı stimullaşdırır, şagirdləri tədqiqata yönəldir.
2. Yeni biliyin mənimsənilməsi:
   - icmal mövzular;
   - monoqrafik mövzular.

Mövzular üzrə araşdırma aparmaq üçün aşağıdakı **mənbələrin** tövsiyə olunması məqsədəuyğundur:

- şagirdlər üçün internetdə yerləşdirilmiş vəsait (*edebiyyat.ucoz.com*);
- Azərbaycan ədəbiyyatı tarixinin ayrı-ayrı dövrləri üzrə materiallar;
- sənətkarın öz yaradıcılığı ilə bağlı ədəbi qeydləri;
- klassiklərin həyat və yaradıcılığına həsr olunmuş monoqrafiyalar, məqalələr;
- internet materialları (vikipediya materialları, ədəbi ensiklopediyalar, ədəbiyyatşünaslıq terminləri lüğəti, klassik ədəbiyyatda işlənilmiş ərəb və fars sözləri lüğəti və s.)

Klassik ədəbi irsin tədrisində *müəllimin bələdçilik fəaliyyəti* mühüm əhəmiyyət kəsb edir. Bu, ilk növbədə, klassik ədəbiyyatımızın mənimsədilməsindəki obyektiv çətinliklərlə bağlıdır. Dərsliyə daxil edilmiş mövzuların ədəbiyyatımızın ən qədim dövrlərdən başlayaraq XX əsrə qədərki dövrünü əhatə etməsi, ərəb və fars dilinə məxsus sözlərin çoxluğu, sufilik, hürufilik simvolikasını əks etdirən məcazların geniş işlənilməsi və s. obyektiv çətinliklər təlimin təşkilinə xüsusi yanaşma tələb edir. Təcrübə göstərir ki, klassik ədəbi irsin tədrisində *müəllimin izahına* nisbətən tez-tez müraciət edilir. Müəllimin izahı şagirdlərin bu və ya digər ədəbi dövrün inkişaf qanunauyğunluqlarını, əsərdə qoyulmuş mənəvi-estetik problemləri, eləcə də ayrı-ayrı nəzəri anlayış və ədəbi hadisələrin mahiyyətini və özəlliyini başa düşmələrinə imkan yaradır.

## X sinif üzrə məzmun standartları və təlim nəticələri

**X sinfin sonunda şagird:**

- ifadəli oxudan müxtəlif ədəbi növdə olan əsərlərin emosional-obrazlı qavranılması və təhlili məqsədi ilə istifadə edir;
- müxtəlif ədəbi növdə olan əsərlərin məzmununu qavrayır, fakt və hadisələr, obrazlarla bağlı yazıçı mövqeyini aydınlaşdırır;
- əsərin mövzusunu, ideyasını, başlıca problemini, obrazlarının səciyyəsini müəyyənləşdirir, bağlı olduğu dövrün ictimai-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə ona qiymət verir;
- çoxsüjetli epik və dramatik əsərləri, lirik şeirləri bədii xüsusiyyətlərinə görə təhlil edir.

LAYİHƏ

**Məzmun xətləri üzrə əsas və alt standartlar**
**1. Ədəbiyyat və həyat həqiqətləri**
**Şagird:**
*1.1. Bədii nümunələrin məzmununu mənimsədiyini nümayiş etdirir.*
1.1.1. Müxtəlif vəznli şeirlərdə (heca, əruz, sərbəst) və süjetli əsərlərdə (dastan, poema, hekayə, povest, roman, dram, komediya, faciə) tanış olmayan sözlərin mənasını mənşəyinə və işlənmə məqamına görə izah edir.
1.1.2. İfadəli oxudan müxtəlif ədəbi növdə olan əsərlərin emosional-obrazlı qavranılması, təhlili məqsədi ilə istifadə edir.
1.1.3. Mürəkkəb süjetli və kompozisiyalı bədii nümunələri hissələrə ayırır, plan tərtib edir, məzmununu müxtəlif formalarda (geniş, yığcam, yaradıcı) nağıl edir.
1.1.4. Müxtəlif ədəbi növ və janrda olan bədii nümunələrdə əksini tapan mühüm mənəvi, əxlaqi-etik dəyərləri müəyyənləşdirir.
1.1.5. Müxtəlif vəznli (heca, əruz) şeirlərdə, mürəkkəb süjet və kompozisiyalı bədii nümunələrdə bədii təsvir və ifadə vasitələrini (epitet, bənzətmə, metafor, metonimiya, simvol, mübaliğə, litota, bədii sual, təkrir, bədii təzad, inversiya) müəyyənləşdirir.
*1.2. Bədii nümunələrin təhlili üzrə bacarıqlar nümayiş etdirir.*
1.2.1. Müxtəlif vəznli şeirləri (heca, əruz, sərbəst) və süjetli bədii nümunələri (dastan, poema, hekayə, povest, roman, dram, komediya, faciə) janr, dil baxımından müqayisə edir.
1.2.2. Davranış və əməllərinə, başqaları ilə qarşılıqlı münasibətlərinə, yazıçının mövqeyinə, digər surətlərin mühakimələrinə əsaslanmaqla obrazları təhlil edir.
1.2.3. Müxtəlif vəznli (heca, əruz, sərbəst) şeirlərdə, süjetli ədəbi nümunələrdə bədii təsvir və ifadə vasitələrinin obrazlılığın yaradılmasındakı rolunu aydınlaşdırır və münasibət bildirir.
1.2.4. Bədii nümunələrin mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün sosial-siyasi, mənəvi dəyərləri baxımından təhlil edir və nəticə çıxarır.

**2. Şifahi nitq**
**Şagird:**
*2.1. Şifahi nitq bacarıqları nümayiş etdirir.*
2.1.1. Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla təqdimat və çıxışlarında obrazlı ifadələrdən istifadə edir.
2.1.2. Obrazların nitqinə istinad edərək yazıçı mövqeyi ilə bağlı fikirlərini əsaslandırır.
*2.2. Bədii nümunələrin müzakirəsində ünsiyyət mədəniyyəti nümayiş etdirir.*
2.2.1. Müzakirələrdə mövzuya, problemə, yazıçı mövqeyinə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir.
**3. Yazılı nitq**
**Şagird:**
*3.1. Yazılı nitq bacarıqları nümayiş etdirir.*
3.1.1. Yaradıcı yazıların məzmununa uyğun üslub müəyyənləşdirir, müxtəlif mənbələrdən seçdiyi inandırıcı faktlardan istifadə edir.
3.1.2. Müşahidələrinə, əlavə məlumatlara əsaslanmaqla əsərin ideyasına, probleminə münasibət bildirir, ümumiləşdirmələr aparır, nəticə çıxarır.
3.1.3. 3-3,5 səhifə həcmində nəqli, təsvir, təhlil xarakterli mətnlər (ədəbi və sərbəst mövzuda inşa, esse, məruzə) yazır.

LAYİHƏ

# FƏNN ÜZRƏ MƏZMUN STANDARTLARININ REALLAŞDIRILMASI CƏDVƏLİ

| BÖLMƏ VƏ MÖVZULAR | | Məzmun xətti 1 | | | | | | | | | Məzmun xətti 2 | | | Məzmun xətti 3 | | | Saatlar |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | M.st. 1.1 | | | | | M.st. 1.2 | | | | M.st. 2.1 | | M.st. 2.2 | M.st. 3.1 | | | |
| | | 1.1.1 | 1.1.2 | 1.1.3 | 1.1.4 | 1.1.5 | 1.2.1 | 1.2.2 | 1.2.3 | 1.2.4 | 2.1.1 | 2.1.2 | 2.2.1 | 3.1.1 | 3.1.2 | 3.1.3 | |
| | 1. Söz sənətimiz – mənəvi sərvətimiz... | | | | | | | | | | + | | + | | | | 1 |
| Qədim dövr Azərbaycan ədəbiyyatı | 2. Azərbaycan şifahi xalq yaradıcılığı | | | | | | | | | | + | | + | | | | 1 |
| | 3. Qədim dövr Azərbaycan ədəbiyyatı | | | | | | | | | | + | | + | | | | 1 |
| | 4. "Kitabi-Dədə Qorqud" eposu | | | | | | | | | | + | | + | | | | 1 |
| | 5. "Salur Qazanın evinin yağmalandığı boy". Məzmun üzrə iş | + | | | + | + | | | | | | | | | | | 1 |
| | 6. "Salur Qazanın evinin yağmalandığı boy". Məzmun üzrə iş | + | | | + | + | | | | | | | | | | | 1 |
| | 7. "Salur Qazanın evinin yağmalandığı boy". Təhlil üzrə iş | | | + | | | | + | + | + | | | | | | | 1 |
| | 8. "Salur Qazanın evinin yağmalandığı boy". Tətbiq. Müzakirə. Yaradıcı iş | | | | | | + | | | + | | | | + | + | + | 1 |
| İntibah dövrü ədəbiyyatı | 9. İntibah dövrü ədəbiyyatı | | | | | | | | | | + | | + | | | | |
| | 10. N.Gəncəvinin həyatı, yaradıcılıq yolu | | | | | | | | | | + | | + | | | | 1 |
| | 11. N.Gəncəvi. "İskəndərnamə". Məzmun üzrə iş | + | | | | + | | | | | | | | | | | 1 |
| | 12. N.Gəncəvi. "İskəndərnamə". Məzmun üzrə iş | + | | | | + | | | | | | | | | | | 1 |
| | 13. N.Gəncəvi. "İskəndərnamə". Təhlil üzrə iş | | | | | | | + | | + | | | + | | | | 1 |
| | 14. N.Gəncəvi. "İskəndərnamə". Təhlil üzrə iş | | | | | | | + | + | + | + | | | | | | 1 |
| | 15. *Kiçik summativ qiymətləndirmə* | | | | | | | | | | | | | | | | |
| Orta əsrlər Azərbaycan ədəbiyyatı | 16. Orta əsrlər ədəbiyyatı | | | | | | | | | | + | | + | | | | 1 |
| | 17. Nəsiminin həyatı, yaradıcılıq yolu | | | | | | | | | | + | | + | | | + | 1 |
| | 18. İ.Nəsimi. "Sığmazam". Məzmun üzrə iş | + | | | + | + | | | | | | | | | | | 1 |
| | 19. İ.Nəsimi. "Sığmazam". Məzmun üzrə iş | + | | | | + | | | | | | | | | | | 1 |
| | 20. İ.Nəsimi. "Sığmazam". Təhlil üzrə iş | | + | | | | | + | + | + | | | | | | | 1 |
| | 21. Ş.İ.Xətayinin həyatı, yaradıcılıq yolu | | | | | | | | | | + | | + | | | | 1 |
| | 22. Ş.İ.Xətayi. "Dəhnamə". Məzmun üzrə iş | + | | | | + | | | | | | | | | | + | 1 |
| | 23. Ş.İ.Xətayi. "Dəhnamə". Məzmun üzrə iş | + | | | | + | | | | | | | | | | | 1 |
| | 24. Ş.İ.Xətayi. "Dəhnamə". Təhlil üzrə iş | | | | | | | + | + | + | | | | | | | 1 |
| | 25. Ş.İ.Xətayi. "Dəhnamə". Təhlil üzrə iş | | | | | | | | + | | | | | + | + | + | 1 |
| | 26. *Kiçik summativ qiymətləndirmə* | | | | | | | | | | | | | | | | |

LAYİHƏ

| | | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | 27. M.Füzulinin həyatı, yaradıcılıq yolu | | | | | | | | | + | | + | | | | 1 |
| | 28. M.Füzuli. "Məni candan usandırdı...". Məzmun üzrə iş | + | | | + | + | | | | | | | | | | 1 |
| | 29. M.Füzuli. "Məni candan usandırdı...". Təhlil üzrə iş | | + | | | | | + | + | + | | | | | | 1 |
| | 30. M.Füzuli. "Leyli və Məcnun". Məzmun üzrə iş | + | | | + | + | | | | | | | | | | 1 |
| | 31. M.Füzuli. "Leyli və Məcnun". Məzmun üzrə iş | + | | | + | + | | | | | | | | | | 1 |
| | 32. M.Füzuli. "Leyli və Məcnun". Təhlil üzrə iş | | | | | | | + | | + | | | | | | 1 |
| | 33. M.Füzuli. "Leyli və Məcnun". Təhlil üzrə iş | | | | | | | + | + | + | | + | | | | 1 |
| | *34. Kiçik summativ qiymətləndirmə* | | | | | | | | | | | | | | | 1 |
| Azərbaycan ədəbiyyatında erkən realizm dövrü | 35. Erkən realizm dövründə ədəbiyyat. | | | | | | | | | | + | + | + | | | 1 |
| | 36. "Koroğlu" eposu | | | | | | | | | | + | | + | | | 1 |
| | 37. "Həmzənin Qıratı qaçırması". Məzmun üzrə iş | + | | | | + | | | | | | | | | | 1 |
| | 38. " Həmzənin Qıratı qaçırması". Məzmun üzrə iş | + | | + | + | + | | | | | | | | | | 1 |
| | 39. "Həmzənin Qıratı qaçırması ". Təhlil üzrə iş | | | + | | | | + | + | + | | | | | | 1 |
| | 40. M.P.Vaqifin həyatı, yaradıcılıq yolu | | | | | | | | | | + | | + | + | + | + | 1 |
| | 41. M.P.Vaqif. "Pəri". Məzmun üzrə iş | + | | | + | + | | | | | | | | | | 1 |
| | 42. M.P.Vaqif. "Pəri". Təhlil üzrə iş | | + | | | | + | + | + | | | | | | | 1 |
| | 43. *Kiçik summativ qiymətləndirmə* | | | | | | | | | | | | | | | 1 |
| Azərbaycan ədəbiyyatında maarifçi realizm dövrü | 44. Maarifçi-realist ədəbiyyat | | | | | | | | | | + | | + | | | 1 |
| | 45. Q.Zakirin həyatı, yaradıcılıq yolu | | | | | | | | | | + | | + | | | 1 |
| | 46. Q.Zakir. "Badi-səba, mənim dərdi-dilimi..." Məzmun üzrə iş | + | | | | + | | | | | | | | | | 1 |
| | 47. Q.Zakir. "Badi-səba, mənim dərdi-dilimi..." Təhlil üzrə iş | | + | | | | + | + | + | | | | | | | 1 |
| | 48. M.F.Axundzadənin həyatı, yaradıcılıq yolu | | | | | | | | | | + | | + | | | 1 |
| | 49. M.F.Axundzadə. "Hekayəti-müsyö Jordan həkimi-nəbatat və dərviş Məstəli şah caduküni-məşhur". Məzmun üzrə iş | + | | | | + | | | | | | | | | | 1 |
| | 50. M.F.Axundzadə. "Hekayəti-müsyö Jordan həkimi-nəbatat və dərviş Məstəli şah caduküni-məşhur". Məzmun üzrə iş | + | | | + | + | | | | | | | | | | 1 |
| | 51. M.F.Axundzadə. "Hekayəti-müsyö Jordan həkimi-nəbatat və dərviş Məstəli şah caduküni-məşhur". Təhlil üzrə iş | | | | | | | + | | + | | | + | | | 1 |
| | 52. M.F.Axundzadə. "Hekayəti-müsyö Jordan həkimi-nəbatat və dərviş Məstəli şah caduküni-məşhur". Təhlil üzrə iş | | | | | | | | | | | + | | + | + | + | 1 |
| | 53. M.F.Axundzadə. "Aldanmış kəvakib". Məzmun üzrə iş | + | | | | + | | | | | | | | | | 1 |

LAYİHƏ

| | | | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | 54. M.F.Axundzadə. “Aldanmış kəvakib”. Təhlil üzrə iş. | | | + | | | | + | + | + | | | | | | | 1 |
| | 55. M.F.Axundzadə.“Aldanmış kəvakib” Tətbiq. Müzakirə. Yaradıcı iş | | | | | | | | | | | | | + | + | + | 1 |
| | *56.Kiçik summativ qiymətləndirmə* | | | | | | | | | | | | | | | | |
| | 57.Aşıq Ələsgərin həyatı, yaradıcılıq yolu | | | | | | | | | | + | + | + | | | | 1 |
| | 58.Aşıq Ələsgər. “Dağlar”. Məzmun üzrə iş | + | | | | + | | | | | | | | | | | 1 |
| | 59.Aşıq Ələsgər. “Dağlar”. Təhlil üzrə iş | | | | | | | + | + | + | | | | | | | 1 |
| | 60.S.Ə.Şirvaninin həyatı, yaradıcılıq yolu | | | | | | | | | | + | | + | | | | 1 |
| | 61.S.Ə.Şirvani. “Guş qıl...”. Məzmun üzrə iş | + | | | | + | | | | | | | | | | | 1 |
| | 62.S.Ə.Şirvani. “Guş qıl...”. Təhlil üzrə iş | | + | | + | | | + | + | + | | | | | | | 1 |
| | 63.N.Vəzirovun həyatı, yaradıcılıq yolu | | | | | | + | | | | + | | + | | | | 1 |
| | 64.N.Vəzirov. “Müsibəti-Fəxrəddin”. Məzmun üzrə iş | + | | | | + | | | | | | | | | | | 1 |
| | 65.N.Vəzirov. “Müsibəti-Fəxrəddin”. Məzmun üzrə iş | + | | | + | + | | | | | | | | | | | 1 |
| | 66.N.Vəzirov. “Müsibəti-Fəxrəddin”. Təhlil üzrə iş | | | | | | + | + | | + | | | + | | | | 1 |
| | 67..N.Vəzirov. “Müsibəti-Fəxrəddin”. Tətbiq. Müzakirə. Yaradıcı iş | | | | | | | | | | | + | | + | + | + | 1 |
| *68.Kiçik summativ qiymətləndirmə* | | | | | | | | | | | | | | | | | 1 |

## X sinifdə ədəbiyyat dərslərinin illik planlaşdırılması nümunəsi

Aşağıda tövsiyə xarakterli illik iş planı verilmişdir. İş planı həftədə 2 saat olmaqla ildə 34 həftəyə və ya 68 saata nəzərdə tutulmuşdur. Müəllim mövzuların tədrisi zamanı qarşıya qoyduğu təlim məqsədlərindən və şəraitdən asılı olaraq tövsiyə olunan illik planlaşdırma nümunəsində dəyişiklik edə bilər.

| Həftələr | Mövzular | Reallaşdırılan standartlar | Fənlərarası inteqrasiya | Strategiyalar: metodlar, iş formaları | Resurslar | Qiymətləndirmə üsul və vasitələri |
|---|---|---|---|---|---|---|
| 1-ci həftə | Söz sənətimiz – mənəvi sərvətimiz... | 2.1.1. 2.2.1. | Az.d. 1.2.3. X.d. 2.1.2. | Söhbət, sorğu, müzakirə, diskussiya, İNSERT, ziqzaq, problemin həlli, cütlük şəklində iş bütün siniflə birgə iş | 1.Azərbaycan klassik ədəbiyyatından seçmələr. 3 cilddə. I cild, Bakı: Şərq-Qərb, 2005, səh. 10-12; II cild, səh. 5-7; III cild, 4-6. 2. Ədəbiyyat (X sinif şagirdləri üçün elektron vəsait): edebiyyat.ucoz.com 3. XIX əsr Azərbaycan şeiri antologiyası. Bakı: Şərq-Qərb, 2005, səh. 5-6, 8, 12-13. | Müsahibə (müəllimin diaqnostik qeydiyyat vərəqi), müşahidə (müşahidə vərəqləri), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), şagirdin təqdimatı |

LAYİHƏ

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | | | | | | |
| | Azərbaycan şifahi xalq yaradıcılığı | 2.1.1.<br>2.2.1. | Az.d.<br>1.2.3.<br>X.d.<br>2.1.2. | Müzakirə, təq-dimat, İNSERT, diskussiya, kiçik qruplarda iş | 1. Azərbaycan folkloru. (Məktəblilər üçün seçmələr). Bakı: Şərq-Qərb, 2005, səh. 5-12.<br>2. Ədəbiyyat (X sinif şagirdləri üçün elektron vəsait): edebiyyat.ucoz.com | Təqdimat (meyar cəd-vəli), (şifahi sual-ca-vab) şifahi nitq bacarıq-ları üzrə qeydiyyat və-rəqi, müşahidə (müşa-hidə vərəqləri), tap-şırıqvermə (tapşırıq), şagirdin təqdimatı |
| **1. QƏDİM DÖVR AZƏRBAYCAN ƏDƏBİYYATI** | | | | | | |
| 2-ci həftə | Qədim dövr Azərbaycan ədəbiyyatı | 2.1.1.<br>2.2.1. | Az.d.<br>1.2.3.<br>X.d.<br>2.1.2.<br>Üm.t<br>2.1.1.<br>Az.t.<br>5.1.2.<br>5.1.3. | Müsahibə, müzakirə, problemin həlli, təqdimat, müzakirə xəritəsi, diskussiya, kiçik qruplarda iş | 1. Azərbaycan klassik ədəbiyyatından seçmələr. 3 cilddə. I cild, Bakı: Şərq-Qərb, 2005, səh. 6-7, 9-14.<br>2. Ədəbiyyat (X sinif şagirdləri üçün elektron vəsait): edebiyyat.ucoz.com. | Müsahibə (müəllimin qeydiyyat vərəqi), təq-dimat (meyar cədvəli), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qey-diyyat vərəqi), müşahidə vərəqləri, tapşırıqvermə (tapşırıq), layihə (şa-girdin təqdimatı) |
| | "Kitabi-Dədə Qorqud" eposu | 2.1.1.<br>2.2.1. | Az.d.<br>1.2.3.<br>X.d.<br>2.1.2.<br>Üm.t<br>2.1.1. | Müzakirə, təqdi-mat, kiçik və bö-yük qruplarda iş | 1. Ədəbiyyat (X sinif şagirdləri üçün elektron vəsait): edebiyyat.ucoz.com.<br>2. Kitabi-Dədə Qorqud. Bakı: Öndər, 2004, səh. 5-7. | Təqdimat (meyar cədvə-li), şifahi sual-cavab (şifa-hi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), müşa-hidə (müşahidə vərəqlə-ri), tapşırıqvermə (tapşı-rıq), şagirdin təqdimatı |
| 3-cü həftə | "Salur Qaza-nın evinin yağmalandığı boy". Məzmun üzrə iş | 1.1.1.<br>1.1.4.<br>1.1.5. | Az.d.<br>2.1.1.<br>X.d.<br>3.1.1. | Oxu, təqdimat, müzakirə, kiçik qruplarda iş. | | Oxu (mətn), təqdimat (meyar cədvəli), müşahidə (müəllimin qeydiyyat vərəqi), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq) |
| | "Salur Qazanın evinin yağmalandığı boy". Məzmun üzrə iş | 1.1.1.<br>1.1.4.<br>1.1.5. | Az.d.<br>2.1.1.<br>X.d.<br>1.1.1.<br>3.1.1.. | Oxu, müsahibə, təqdimat, mü-zakirə, kiçik qruplarda iş. | | Oxu (mətn), müsahibə (müəllimin qeydiyyat vərəqi), müşahidə (müşahidə vərəqləri), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq) |
| 4-cü həftə | "Salur Qazanın evinin yağmalandığı boy". Təhlil üzrə iş | 1.1.3.<br>1.2.2.<br>1.2.3.<br>1.2.4. | Az.d.<br>2.2.2.<br>2.2.3.<br>X.d.<br>3.1.4. | Müzakirə, müsahibə, təd-qiqat, təqdimat, müzakirə, problemin həlli, kiçik qruplarda iş | 1.Dədə Qorqud dünyası. Məqalələr. Bakı: Öndər, 2004, səh.25, 48-49, 73-74.<br>2. Ədəbiyyat (X sinif şagirdləri üçün elektron vəsait): edebiyyat.ucoz.com. | Müsahibə (müəllimin qeydiyyat vərəqi), təqdimat (meyar cədvəli), müşahidə (müşahidə vərəqləri), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq) |
| | "Salur Qazanın evinin | 1.2.1.<br>1.2.4.<br>3.1.1. | Az.d.<br>3.1.1<br>3.1.2. | Müsahibə, yazı, təqdimat, mü-zakirə, fərdi iş | | Müsahibə (müəllimin qeydiyyat vərəqi), təq-dimat (meyar cədvəli), |



LAYİHƏ

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | yağmalandığı boy”. Tətbiq. Müzakirə. Yaradıcı iş | 3.1.2.<br>3.1.3. | X.d.<br>4.1.1. | | | yazı (yazı bacarıqlarının inkişafı üzrə qeydiyyat vərəqi), müşahidə (müşahidə vərəqləri), tapşırıqvermə (tapşırıq) |
| 5-ci həftə | İntibah dövrü ədəbiyyatı | 2.1.1.<br>2.2.1. | Az.d.<br>1.2.3.<br>X.d.<br>2.1.2.<br>Üm.t<br>2.1.1.<br>Az.t.<br>5.1.2.<br>5.1.3. | Müsahibə, müzakirə, problemin həlli, təqdimat, müzakirə xəritəsi, diskussiya, kiçik qruplarda iş | 1. Azərbaycan klassik ədəbiyyatından seçmələr. 3 cilddə. I cild, Bakı: Şərq-Qərb, 2005, səh. 6-7, 9-14.<br>2. Ədəbiyyat (X sinif şagirdləri üçün elektron vəsait): edebiyyat.ucoz.com. | Müsahibə (müəllimin qeydiyyat vərəqi), təqdimat (meyar cədvəli), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), müşahidə vərəqləri, tapşırıqvermə (tapşırıq), layihə (şagirdin təqdimatı) |
| | N.Gəncəvinin həyatı, yaradıcılıq yolu | 2.1.1.<br>2.2.1. | Az.d.<br>1.2.3.<br>X.d.<br>2.1.2. | Müsahibə, təqdimat, müzakirə, kiçik və böyük qruplarda iş | 1. Ədəbiyyat (X sinif şagirdləri üçün elektron vəsait): edebiyyat.ucoz.com.<br>2. Gəncəvi N. Sirlər xəzinəsi. Bakı: Lider nəşriyyatı, 2004, səh. 5-6,11-19.<br>3. Gəncəvi N. Yeddi Gözəl. Bakı: Lider nəşriyyatı, 2004, səh. 4-6, 8-9. | Müsahibə (müəllimin qeydiyyat vərəqi), təqdimat (meyar cədvəli), müşahidə (müşahidə vərəqləri), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), şagirdin təqdimatı |
| 6-cı həftə | N.Gəncəvi. “İskəndər-namə”. Məzmun üzrə iş | 1.1.1.<br>1.1.5. | Az.d.<br>2.1.1.<br>X.d.<br>3.1.1. | Oxu, müsahibə, təqdimat, müzakirə, fərdi iş, kiçik qruplarda iş | | Oxu (mətn), müsahibə (müəllimin qeydiyyat vərəqi), təqdimat (meyar cədvəli), müşahidə (müşahidə vərəqləri), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq) |
| | N.Gəncəvi. “İskəndər-namə”. Məzmun üzrə iş | 1.1.1.<br>1.1.5. | Az.d.<br>2.1.1.<br>X.d.<br>3.1.1. | Oxu, müsahibə, təqdimat, müzakirə, kiçik qruplarda iş | | Oxu (mətn), müsahibə (müəllimin qeydiyyat vərəqi), təqdimat (meyar cədvəli), müşahidə (müşahidə vərəqləri), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq) |
| 7-ci həftə | N.Gəncəvi. “İskəndər-namə”. Təhlil üzrə iş | 1.2.2.<br>1.2.4.<br>2.2.1. | Az.d.<br>1.2.4.<br>X.d.<br>2.1.2.<br>3.1.4.<br>Az.t.<br>1.2.1.. | Müsahibə, təqdimat, müzakirə, diskussiya, problemin həlli, kiçik qruplarda iş | 1.Ədəbiyyat (X sinif şagirdləri üçün elektron vəsait): edebiyyat.ucoz.com.<br>2. N.Gəncəvi. İskəndərnamə. Şərəfnamə. Bakı: Lider nəşriyyat, 2004, səh. 9-12.<br>3. N.Gəncəvi. İskəndərnamə. İqbalnamə. Bakı: Lider nəşriyyat, 2004, səh. 11-14. | Müsahibə (müəllimin qeydiyyat vərəqi), təqdimat (meyar cədvəli), müşahidə (müşahidə vərəqləri), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq) |



LAYİHƏ

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | N. Gəncəvi. "İskəndərna-mə". Təhlil üzrə iş | 1.2.2. 1.2.3. 1.2.4. 2.1.1. | Az.d. 1.2.4. X.d. 3.1.4. Az.t. 1.2.1. | Təqdimat, müzakirə, diskussiya, kiçik qruplarda iş | 1. Ədəbiyyat (X sinif şagirdləri üçün elektron vəsait): edebiyyat.ucoz.com. 2. Gəncəvi N. İskəndərnamə. Şərəfnamə. Bakı: Lider nəşriyyat, 2004, səh.9-12. 3. Gəncəvi N. İskəndərnamə. İqbalnamə. Bakı: Lider nəşriyyat, 2004, səh. 8, 11-14. | Müsahibə (müəllimin qeydiyyat vərəqi), təqdimat (meyar cədvəli), müşahidə (müşahidə vərəqləri), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq) |
| | *Kiçik summativ qiymətləndirmə* | | | | | |
| | **2. ORTA ƏSRLƏR AZƏRBAYCAN ƏDƏBİYYATI** | | | | | |
| 8-ci həftə | Orta əsrlər ədəbiyyatı | 2.1.1. 2.2.1. | Az.d. 1.2.3. X.d. 2.1.2. Üm.t 2.1.1. | Müsahibə, təq-dimatlar, müza-kirə, diskussiya, debat, problemin həlli, fərdi iş, kiçik qruplarda iş | 1. Azərbaycan klassik ədəbiyyatından seçmələr. 3 cilddə. II cild, Bakı: Şərq-Qərb, 2005, səh. 6, 10-13, 15. 2. Ədəbiyyat (X sinif şagirdləri üçün elektron vəsait): edebiyyat.ucoz.com. | Müsahibə (müəllimin qeydiyyat vərəqi), təq-dimat (meyar cədvəli), müşahidə (müşahidə vərəqləri), şifahi sual-cavab (şifahi nitq ba-carıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), layihə (şa-girdin təqdimatı) |
| 9-cu həftə | İ.Nəsiminin həyatı, yara-dıcılıq yolu | 2.1.1. 2.2.1. 3.1.3. | Az.d. 1.2.3. X.d. 2.1.2. | Təqdimat, müza-kirə, problemin həlli, kiçik qrup-larda iş | 1.Ədəbiyyat (X sinif şagirdləri üçün elekt-ron vəsait): edebiy-yat.ucoz.com. 2. Nəsimi İ. Seçilmiş əsərləri. 2 cilddə. I cild, Bakı: Lider nəş-riyyat, 2004, səh. 5-9. | Təqdimat (meyar cəd-vəli), müşahidə (müşa-hidə vərəqləri), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiy-yat vərəqi), tapşırıq-vermə (tapşırıq), şa-girdin təqdimatı |
| | İ.Nəsimi. "Sığmazam". Məzmun üzrə iş | 1.1.1. 1.1.4. 1.1.5. | Az.d. 2.1.1. X.d. 3.1.1. | Oxu, müsahibə, təqdimat, müza-kirə, fərdi iş, kiçik qruplarda iş | | Oxu (mətn), müsahibə (müəllimin qeydiyyat vərəqi), təqdimat (me-yar cədvəli), müşahidə (müşahidə vərəqləri), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq) |
| 10-cu həftə | İ.Nəsimi. "Sığmazam". Məzmun üzrə iş | 1.1.1. 1.1.5. | Az.d. 2.1.1. X.d. 3.1.1. | Müsahibə, mü-zakirə, təqdimat, ikihissəli gündə-lik, problemin həlli fərdi iş, cüt-lük şəklində iş, kiçik qruplarda iş | | Müsahibə (müəllimin qeydiyyat vərəqi), təq-dimat (meyar cədvəli), tapşırıqvermə (tapşırıq) |

LAYİHƏ

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | İ.Nəsimi. “Sığmazam”. Təhlil üzrə iş | 1.1.2. 1.2.2. 1.2.3. 1.2.4. | Az.d. 2.1.1. X.d. 3.1.4. | Təqdimat, müzakirə, əqli hücum, problemin həlli, kiçik qruplarda iş | 1. Ədəbiyyat (X sinif şagirdləri üçün elektron vəsait): edebiyyat.ucoz.com. 2. Nəsimi İ. Seçilmiş əsərləri. 2 cilddə. I cild, Bakı: Lider nəşriyyat, 2004, səh. 5-9. | Təqdimat (meyar cədvəli), müşahidə (müşahidə vərəqləri), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq) |
| 11-ci həftə | Ş.İ.Xətayinin həyatı, yaradıcılıq yolu | 2.1.1. 2.2.1. | Az.d. 1.2.3. X.d. 2.1.2. Az.t. 4.1.1. 4.1.2. | Müsahibə, təqdimat, müzakirə, problemin həlli, kiçik qruplarda iş | 1.Ədəbiyyat (X sinif şagirdləri üçün elektron vəsait): edebiyyat. ucoz.com. 2. Xətayi Ş. İ. Əsərləri. Bakı: Şərq-Qərb, 2005, səh. 5-6, 12-13, 18-20. | Müsahibə (müəllimin qeydiyyat vərəqi), təqdimat (meyar cədvəli), müşahidə (müşahidə vərəqləri), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), şagirdin təqdimatı |
| | Ş.İ.Xətayi. “Dəhnamə”. Məzmun üzrə iş | 1.1.1. 1.1.5. 3.1.3. | Az.d. 2.1.1. X.d. 3.1.1. | Oxu, əqli hücum, oxu, təqdimat, müzakirə, kiçik qruplarda iş | | Oxu (mətn), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), şagirdin təqdimatı |
| 12-ci həftə | Ş.İ.Xətayi. “Dəhnamə”. Məzmun üzrə iş | 1.1.1. 1.1.5. | Az.d. 2.1.1. X.d. 3.1.1. | Oxu, müsahibə, təqdimat, müzakirə, diskussiya, kiçik qruplarda iş | | Oxu (mətn), müşahidə (müşahidə vərəqləri), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq) |
| | Ş.İ.Xətayi. “Dəhnamə”. Təhlil üzrə iş | 1.2.2. 1.2.3. 1.2.4. | Az.d. 2.1.1. X.d. 3.1.4. | Əqli hücum, təqdimat, müzakirə, problemin həlli, cütlük şəklində iş, kiçik qruplarda iş | 1. Ədəbiyyat (X sinif şagirdləri üçün elektron vəsait): edebiyyat.ucoz.com. 2. Xətayi Ş. İ. Əsərləri. Bakı: Şərq-Qərb, 2005, səh. 22-25. | Təqdimat (meyar cədvəli), müsahibə (müşahidə vərəqləri), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq) |
| 13-cü | Ş.İ.Xətayi. “Dəhnamə”. Təhlil üzrə iş | 1.2.3. 3.1.1. 3.1.2. 3.1.3. | Az.d. 3.1.1. 3.1.3. X.d. 4.1.1. 4.1.2. | Müsahibə, əqli hücum, təqdimat, müzakirə, problemin həlli, fərdi iş, | 1. Ədəbiyyat (X sinif şagirdləri üçün elektron vəsait): edebiyyat.ucoz.com. 2. Xətayi Ş. İ. Əsərləri. Bakı: Şərq-Qərb, 2005, səh. 22-25. | Müsahibə (müəllimin qeydiyyat vərəqi), təqdimat (meyar cədvəli), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq) |
| | *Kiçik summativ qiymətləndirmə* | | | | | |
| 14-cü həftə | M.Füzulinin həyatı, yaradıcılıq yolu | 2.1.1. 2.2.1. | Az.d. 1.2.3. X.d. 2.1.2. | Müsahibə, təqdimat, müzakirə, təqdimat, problemin həlli, kiçik qruplarda iş | 1. Ədəbiyyat (X sinif şagirdləri üçün elektron vəsait): edebiyyat.ucoz.com. 2. Füzuli M. Əsərləri. 6 cilddə. I cild, Bakı: Şərq-Qərb, 2005, səh. 11, 16-17, 23, 25. 3. Füzuli M. Əsərləri. 6 cilddə. II cild, Bakı: Şərq-Qərb, 2005, səh. 7. | Müsahibə (müəllimin qeydiyyat vərəqi), müşahidə (müşahidə vərəqləri), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), şagirdin təqdimatı |



LAYİHƏ

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | M.Füzuli. "Məni candan usandırdı..." Məzmun üzrə iş | 1.1.1.<br>1.1.4.<br>1.1.5. | Az.d. 2.1.1.<br>X.d. 3.1.1. | Əqli hücum, oxu, təqdimat, müzakirə, ikihissəli gündəlik, kiçik qruplarda iş | | Oxu (mətn), təqdimat (meyar cədvəli), müşahidə (müşahidə vərəqləri), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq) |
| 15-ci həftə | M.Füzuli. "Məni candan usandırdı..." Təhlil üzrə iş | 1.1.2.<br>1.2.2.<br>1.2.3.<br>1.2.4. | Az.d. 2.1.1.<br>X.d. 3.1.4 | Əqli hücum, təqdimat, müzakirə, problemin həlli, problemin həlli, kiçik qruplarda iş | 1. Ədəbiyyat (X sinif şagirdləri üçün elektron vəsait): edebiyyat.ucoz.com.<br>2. Mir Cəlal. Füzuli sənətkarlığı. III nəşri, Bakı: Kaşqari, 2007, səh.122, 129. | Təqdimat (meyar cədvəli), müşahidə, (müşahidə vərəqləri), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq) |
| | M.Füzuli. "Leyli və Məcnun". Məzmun üzrə iş | 1.1.1.<br>1.1.4.<br>1.1.5. | Az.d. 2.1.1.<br>X.d. 3.1.1. | Oxu, təqdimat, müzakirə, kiçik qruplarda iş | | Oxu (mətn), təqdimat (meyar cədvəli), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq) |
| 16-cı həftə | M.Füzuli. "Leyli və Məcnun". Məzmun üzrə iş | 1.1.1.<br>1.1.4.<br>1.1.5. | Az.d. 2.1.1.<br>X.d. 3.1.1. | Oxu, problemin həlli, təqdimat, müzakirə, kiçik qruplarda iş | | Oxu (mətn), təqdimat (meyar cədvəli), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq) |
| | M.Füzuli. "Leyli və Məcnun". Təhlil üzrə iş | 1.2.2.<br>1.2.4. | Az.d. 1.2.4.<br>X.d. 3.1.4 | Müsahibə, təqdimat, müzakirə, problemin həlli, cütlük şəklində iş, kiçik qruplarda iş | 1. Ədəbiyyat (X sinif şagirdləri üçün elektron vəsait): edebiyyat.ucoz.com.<br>2. Füzuli M. Əsərləri. 6 cilddə. II cild, Bakı: Şərq-Qərb, 2005, səh. 5-6.<br>3. Mir Cəlal. Füzuli sənətkarlığı. III nəşri, Bakı: Kaşqari, 2007, səh. 292-295. | Müsahibə (müəllimin qeydiyyat vərəqi), təqdimat (meyar cədvəli), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq) |
| 17-ci həftə | M.Füzuli. "Leyli və Məcnun". Təhlil üzrə iş | 1.2.2.<br>1.2.3.<br>1.2.4.<br>2.1.2. | Az.d. 1.2.3.<br>2.1.1.<br>X.d. 2.1.1.<br>2.1.3.<br>3.1.4. | Müsahibə, təqdimat, müzakirə, problemin həlli, cütlük şəklində iş, kiçik qruplarda iş | 1. Ədəbiyyat (X sinif şagirdləri üçün elektron vəsait): edebiyyat.ucoz.com.<br>2. Füzuli M. Əsərləri. 6 cilddə. II cild, Bakı: Şərq-Qərb, 2005, səh.5-6.<br>3. Mir Cəlal. Füzuli sənətkarlığı. III nəşri, Bakı: Kaşqari, 2007, səh. 300-308. | Müsahibə (müəllimin qeydiyyat vərəqi), müşahidə (müşahidə vərəqləri), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq) |
| | *Kiçik summativ qiymətləndirmə* | | | | | |

LAYİHƏ

| AZƏRBAYCAN ƏDƏBİYYATINDA ERKƏN REALİZM DÖVRÜ | | | | | | |
|---|---|---|---|---|---|---|
| 18-ci həftə | Erkən realizm dövründə ədəbiyyat | 2.1.1.<br>2.2.1. | Az.d.<br>1.2.3.<br>X.d.<br>2.1.2.<br>Üm.t<br>2.1.1. | Müsahibə, İNSERT, təqdimat, müzakirə, akvarium, diskussiya, cütlük şəklində iş, kiçik qruplarda iş | 1. Azərbaycan klassik ədəbiyyatından seçmələr. 3 cilddə. III cild, Bakı: Şərq-Qərb, 2005, səh.4-8, 11-12.<br>2. Ədəbiyyat (X sinif şagirdləri üçün elektron vəsait): edebiyyat.ucoz.com. | Müsahibə (müəllimin qeydiyyat vərəqi), təqdimat (meyar cədvəli), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), layihə (şagirdin təqdimatı) |
| | "Koroğlu" eposu | 2.1.1.<br>2.2.1. | Az.d.<br>1.2.3.<br>X.d.<br>2.1.2.<br>Üm.t<br>2.1.1 | Oxu, müsahibə, təqdimat, müzakirə, diskussiya, problemin həlli, kiçik qruplarda iş | 1. Azərbaycan klassik ədəbiyyatından seçmələr. 3 cilddə . III cild, Bakı: Şərq- Qərb, 2005, səh.7.<br>2. Ədəbiyyat (X sinif şagirdləri üçün elektron vəsait):edebiyyat.ucoz.com<br>3. Koroğlu. Bakı: Lider nəşriyyat, 2005, səh.24-25, 36, 39, 40-41. | Oxu (mətn), müsahibə (müəllimin qeydiyyat vərəqi), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), şagirdin təqdimatı |
| 19-cu həftə | "Həmzənin Qıratı qaçırması". Məzmun üzrə iş | 1.1.1.<br>1.1.5. | Az.d.<br>2.1.1.<br>X.d.<br>3.1.1. | Oxu, müsahibə, səsli oxu, təqdimat, müzakirə, diskussiya, kiçik qruplarda iş | | Oxu (mətn), müsahibə (müəllimin diaqnostik qeydiyyat vərəqi), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq) |
| | "Həmzənin Qıratı qaçırması". Məzmun üzrə iş | 1.1.1.<br>1.1.3.<br>1.1.4.<br>1.1.5. | Az.d.<br>2.1.1.<br>2.2.3.<br>X.d.<br>3.1.1. | Oxu, müsahibə, təqdimat, müzakirə, təqdimat, problemin həlli, fərdi iş, kiçik qruplarda iş | | Oxu (mətn), müsahibə (müəllimin qeydiyyat vərəqi), təqdimat (meyar cədvəli), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq) |
| 20-ci həftə | "Həmzənin Qıratı qaçırması". Təhlil üzrə iş | 1.1.3.<br>1.2.2.<br>1.2.3.<br>1.2.4. | Az.d.<br>2.2.3.<br>X.d.<br>3.1.4. | Müsahibə, təqdimat, müzakirə, problemin həlli, fərdi iş, kiçik qruplarda iş | 1. Ədəbiyyat (X sinif şagirdləri üçün elektron vəsait): edebiyyat.ucoz.com<br>2. Koroğlu. Bakı: Lider nəşriyyat, 2005, səh. 37, 38, 45. | Müsahibə (müəllimin qeydiyyat vərəqi), təqdimat (meyar cədvəli), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq) |
| | M.P.Vaqifin həyatı, yaradıcılıq yolu | 2.1.1.<br>2.2.1.<br>3.1.1.<br>3.1.2.<br>3.1.3. | Az.d.<br>1.2.3.<br>X.d.<br>2.1.2. | Müsahibə, tədqiqat, müzakirə, problemin həlli, fərdi iş, kiçik qruplarda iş | 1. Azərbaycan klassik ədəbiyyatından seçmələr. 3 cilddə. III cild, Bakı: Şərq-Qərb, 2005, səh.13-14.<br>2. Ədəbiyyat (X sinif şagirdləri üçün elektron vəsait): edebiyyat.ucoz.com<br>3. Vaqif M. P. Əsərləri. Bakı: Şərq-Qərb, 2004, səh.5-6, 9-10. | Müsahibə (müəllimin qeydiyyat vərəqi), təqdimat (meyar cədvəli), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), şagirdin təqdimatı |



LAYİHƏ

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 21-ci həftə | M.P.Vaqif. "Pəri". Məzmun üzrə iş | 1.1.1.<br>1.1.4.<br>1.1.5. | Az.d.<br>2.1.1.<br>X.d.<br>3.1.1. | Oxu, müsahibə, təqdimat, ikihissəli gündəlik, müzakirə, problemin həlli, fərdi iş, kiçik və böyük qruplarda iş | | Oxu (mətn), müsahibə (müəllimin qeydiyyat vərəqi), təqdimat (meyar cədvəli), müşahidə (müşahidə vərəqləri), tapşırıqvermə (tapşırıq) |
| | M.P.Vaqif. "Pəri". Təhlil üzrə iş | 1.1.2.<br>1.2.1.<br>1.2.2.<br>1.2.3. | Az.d.<br>2.1.1<br>X.d.<br>3.1.4. | Əqli hücum, təqdimat, müzakirə, problemin həlli, fərdi iş, kiçik qruplarda iş | 1. Azərbaycan klassik ədəbiyyatından seçmələr. 3 cilddə. III cild, Bakı: Şərq-Qərb, 2005, səh.13-14.<br>2. Ədəbiyyat (X sinif şagirdləri üçün elektron vəsait): edebiyyat.ucoz.com<br>3. Vaqif M. P. Əsərləri. Bakı: Şərq-Qərb, 2004, səh.7-8, 11. | Təqdimat (meyar cədvəli), müşahidə (müşahidə vərəqi), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq) |
| 22-ci həftə | *Kiçik summativ qiymətləndirmə* | | | | | |
| | Maarifçi-realist ədəbiyyat | 2.1.1.<br>2.2.1. | Az.d.<br>1.2.3.<br>X.d.<br>2.1.2.<br>Üm.t<br>2.1.1. | Müsahibə, təqdimat, müzakirə, İNSERT, diskussiya, problemin həlli, fərdi iş, kiçik və böyük qruplarda iş | 1. Ədəbiyyat (X sinif şagirdləri üçün elektron vəsait): edebiyyat.ucoz.com.<br>2. XIX əsr Azərbaycan şeiri antologiyası. Bakı: Şərq-Qərb, 2005, səh. 5-6, 8-9, 10, 12, 18, 22, 25. | Müsahibə (müəllimin qeydiyyat vərəqi), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), şagirdin təqdimatı |
| 23-cü həftə | Q.Zakirin həyatı, yaradıcılıq yolu | 2.1.1.<br>2.2.1. | Az.d.<br>1.2.3.<br>X.d.<br>2.1.2. | Müsahibə, təqdimat, müzakirə, problemin həlli, fərdi iş, kiçik qruplarda iş | 1. Ədəbiyyat (X sinif şagirdləri üçün elektron vəsait): edebiyyat.ucoz.com.<br>2. XIX əsr Azərbaycan şeiri antologiyası. Bakı: Şərq-Qərb, 2005, səh.19-21.<br>3. Zakir Q. Seçilmiş əsərləri. Bakı: Avrasiya Press, 2005, səh. 4-8, 10-11. | Müsahibə (müəllimin qeydiyyat vərəqi), təqdimat (meyar cədvəli), müşahidə (müşahidə vərəqləri), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq) |
| | Q.Zakir. "Badi-səba, mənim dərdi-dilimi..." Məzmun üzrə iş | 1.1.1.<br>1.1.5. | Az.d.<br>2.1.1.<br>X.d.<br>3.1.1. | Oxu, müsahibə, müzakirə, təqdimat, müsahibə, ikihissəli gündəlik, problemin həlli, fərdi iş, kiçik və böyük qruplarda iş | | Oxu (mətn), müsahibə (müəllimin qeydiyyat vərəqi), təqdimat (meyar cədvəli), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq) |
| 24-cü həftə | Q.Zakir. "Badi-səba, mənim dərdi-dilimi..." Təhlil üzrə iş | 1.1.2.<br>1.2.1.<br>1.2.2.<br>1.2.3. | Az.d.<br>2.1.1.<br>1.2.1.<br>4.1.2.<br>X.d.<br>3.1.2.<br>3.1.4. | Müsahibə, təqdimat, müzakirə, problemin həlli, fərdi iş, kiçik və böyük qruplarda iş | 1. Ədəbiyyat (X sinif şagirdləri üçün elektron vəsait): edebiyyat.ucoz.com.<br>2. XIX əsr Azərbaycan şeiri antologiyası. Bakı: Şərq-Qərb, 2005, səh. 5-8.<br>3. Zakir Q. Seçilmiş əsərləri. Bakı:Avrasiya Press, 2005, səh. 17. | Müsahibə (müəllimin qeydiyyat vərəqi), təqdimat (meyar cədvəli), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq) |



LAYİHƏ

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | M.F.Axundzadənin həyatı, yaradıcılıq yolu | 2.1.1.<br>2.2.1. | Az.d.<br>1.2.3.<br>X.d.<br>2.1.2. | Təqdimat, müzakirə, problemin həlli, kiçik və böyük qruplarda iş | 1. Axundzadə M. F. Əsərləri. 3 cilddə. I cild, Bakı: Şərq-Qərb, 2005, səh. 4-7,10, 14-16.<br>2. Ədəbiyyat (X sinif şagirdləri üçün elektron vəsait): edebiyyat.ucoz.com. | Təqdimat (meyar cədvəli), müşahidə (müşahidə vərəqi), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), şagirdin təqdimatı |
| 25-ci həftə | M.F.Axundzadə. "Hekayəti -müsyö Jordan həkimi-nəbatat və dərviş Məstəli şah caduküni-məşhur". Məzmun üzrə iş | 1.1.1.<br>1.1.5. | Az.d.<br>2.1.1.<br>X.d.<br>3.1.1. | Oxu, müsahibə, tədqiqat, müzakirə, oxu, kiçik və böyük qruplarda iş | | Oxu (mətn), müsahibə (müəllimin qeydiyyat vərəqi), tədqiqat (meyar cədvəli), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq) |
| | M.F.Axundzadə. "Hekayəti-müsyö Jordan həkimi-nəbatat və dərviş Məstəli şah caduküni-məşhur". Məzmun üzrə iş | 1.1.1.<br>1.1.4.<br>1.1.5 | Az.d.<br>2.1.1.<br>X.d.<br>3.1.1. | Oxu, müsahibə, təqdimat, müzakirə, diskussiya, problemin həlli, kiçik qruplarda iş | | Oxu (mətn), müşahidə (müşahidə vərəqləri), təqdimat (meyar cədvəli), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq) |
| 26-cı həftə | M.F.Axundzadə. "Hekayəti-müsyö Jordan həkimi-nəbatat və dərviş Məstəli şah caduküni-məşhur". Təhlil üzrə iş | 1.2.2.<br>1.2.4.<br>2.2.1 | Az.d.<br>1.2.3.<br>1.2.4.<br>X.d.<br>2.1.3.<br>3.1.4. | Təqdimat, müzakirə, müsahibə, problemin həlli, fərdi iş, kiçik qruplarda iş | 1. Ədəbiyyat (X sinif şagirdləri üçün elektron vəsait): edebiyyat.ucoz.com. | Təqdimat (meyar cədvəli), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), müsahibə (müəllimin qeydiyyat vərəqi), müşahidə (müşahidə vərəqi), tapşırıqvermə (tapşırıq) |
| | M.F.Axundzadə. "Hekayəti- müsyö Jordan həkimi-nəbatat və dərviş Məstəli şah caduküni-məşhur". Tətbiq. Müzakirə. Yaradıcı iş | 2.1.2.<br>3.1.1.<br>3.1.2.<br>3.1.3. | Az.d.<br>3.1.1.<br>X.d.<br>4.1.1. | Müsahibə, təqdimat, müzakirə, yazı, problemin həlli, fərdi iş, bütün siniflə birgə iş | 1. Ədəbiyyat (X sinif şagirdləri üçün elektron vəsait): edebiyyat.ucoz.com. | Yazı (yazı bacarıqlarının inkişafı üzrə qeydiyyat vərəqi), təqdimat (meyar cədvəli), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), müşahidə (müşahidə vərəqi), tapşırıqvermə (tapşırıq) |
| 27-ci həftə | M.F.Axundzadə. "Aldanmış kəvakib". Məzmun üzrə iş | 1.1.1.<br>1.1.5. | Az.d.<br>2.1.1.<br>X.d.<br>3.1.1. | Oxu, təqdimat, müzakirə, müsahibə, fərdi iş, kiçik və böyük qruplarda iş | | Oxu (mətn), təqdimat (meyar cədvəli), müsahibə (müəllimin qeydiyyat vərəqi), müşahidə (müşahidə vərəqləri), tapşırıqvermə (tapşırıq) |

LAYİHƏ

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | M.F.Axundzadə. “Aldanmış kəvakib”. Təhlil üzrə iş | 1.1.3.<br>1.2.2.<br>1.2.3.<br>1.2.4. | Az.d. 2.1.1.<br>X.d. 3.1.4. | Təqdimat, müzakirə, müsahibə, problemin həlli, müqayisə, kiçik və böyük qruplarda iş | 1.Axundzadə M. F. Əsərləri. 3 cilddə. I cild, Bakı: Şərq-Qərb, 2005, səh. 22-27.<br>2.Azərbaycan nəsri antologiyası. 5 cilddə. I cild, Bakı: Şərq-Qərb, 2006, səh. 12-16.<br>3.Ədəbiyyat (X sinif şagirdləri üçün elektron vəsait): edebiyyat.ucoz.com. | Təqdimat (meyar cədvəli), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq) |
| 28-ci həftə. | M.F.Axundzadə. “Aldanmış kəvakib”. Tətbiq. Müzakirə. Yaradıcı iş | 3.1.1.<br>3.1.2.<br>3.1.3. | Az.d. 3.1.1.<br>X.d. 4.1.1. | Müsahibə, təqdimat, müzakirə, yazı, problemin həlli, fərdi iş, bütün siniflə birgə iş | 1. Ədəbiyyat (X sinif şagirdləri üçün elektron vəsait): edebiyyat.ucoz.com. | Yazı (yazı bacarıqlarının inkişafı üzrə qeydiyyat vərəqi), təqdimat (meyar cədvəli), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), müşahidə (müşahidə vərəqi), tapşırıqvermə (tapşırıq) |
| | *Kiçik summativ qiymətləndirmə* | | | | | |
| 29-cu həftə | Aşıq Ələsgərin həyatı, yaradıcılıq yolu | 2.1.1.<br>2.1.2.<br>2.2.1. | 1.2.3.<br>X.d. 2.1.2. | Müsahibə, təqdimat, müzakirə, problemin həlli, oxu, kiçik və böyük qruplarda iş | 1. Aşıq Ələsgər. Əsərləri. Bakı: Şərq-Qərb, 2004, səh. 5-8, 14-18.<br>2. Azərbaycan aşıq şeirindən seçmələr. 2 cilddə. I cild, Bakı: Şərq-Qərb, 2005, səh.5, 11, 12.<br>3. Ədəbiyyat (X sinif şagirdləri üçün elektron vəsait): edebiyyat.ucoz.com. | Müsahibə (müəllimin qeydiyyat vərəqi), təqdimat (meyar cədvəli), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), şagirdin təqdimatı |
| | Aşıq Ələsgər. “Dağlar”. Məzmun üzrə iş | 1.1.1.<br>1.1.5. | Az.d. 2.1.1.<br>X.d. 3.1.1. | Müsahibə, ikihissəli gündəlik, oxu, təqdimat, müzakirə, problemin həlli, fərdi iş, kiçik və böyük qruplarda iş | | Müsahibə (müəllimin qeydiyyat vərəqi), müşahidə (müşahidə vərəqləri), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə |
| 30-cu həftə | Aşıq Ələsgər. “Dağlar”. Təhlil üzrə iş | 1.2.2.<br>1.2.3.<br>1.2.4. | Az.d. 2.1.1.<br>X.d. 3.1.4. | Təqdimat, müzakirə, problemin həlli, kiçik qruplarda iş | 1. Aşıq Ələsgər. Əsərləri. Bakı: Şərq-Qərb, 2004, səh. 12-13, 19.<br>2. Azərbaycan aşıq şeirindən seçmələr.2 cilddə. I cild, Bakı: Şərq-Qərb, 2005, səh.13.<br>3. Ədəbiyyat (X sinif şagirdləri üçün elektron vəsait): edebiyyat.ucoz.com. | Təqdimat (meyar cədvəli), müşahidə (müşahidə vərəqi), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq) |

LAYİHƏ

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | S.Ə.Şirvaninin həyatı, yaradıcılıq yolu | 2.1.1.<br>2.2.1. | Az.d.<br>2.1.1.<br>X.d.<br>2.1.3. | Müsahibə, təqdimat, müzakirə, debat, müzakirə xəritəsi, problemin həlli, fərdi iş, kiçik qruplarda iş | 1. Ədəbiyyat (X sinif şagirdləri üçün elektron vəsait): edebiyyat.ucoz.com.<br>2. XIX əsr Azərbaycan şeiri antologiyası. Bakı: Şərq-Qərb, 2005, səh. 18-19, 23.<br>3. Şirvani S.Ə. Əsərləri. 3 cilddə. I cild, Bakı: Avrasiya Press, 2005, səh.4-6, 12, 17-22. | Müsahibə (müəllimin qeydiyyat vərəqi), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), müşahidə (müşahidə vərəqi), tapşırıqvermə (tapşırıq), şagirdin təqdimatı |
| 31-ci həftə | S.Ə.Şirvani. "Guş qıl...". Məzmun üzrə iş | 1.1.1.<br>1.1.5. | Az.d.<br>2.1.1.<br>X.d.<br>3.1.1. | Müsahibə, oxu, müzakirə, ikihissəli gündəlik, təqdimat, problemin həlli, fərdi iş, kiçik qruplarda iş | | Oxu (mətn), müşahidə (müşahidə vərəqləri), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), təqdimat (meyar cədvəli), tapşırıqvermə |
| | S.Ə.Şirvani. "Guş qıl...". Təhlil üzrə iş | 1.1.2.<br>1.1.4.<br>1.2.2.<br>1.2.3.<br>1.2.4. | Az.d.<br>2.1.1.<br>X.d.<br>3.1.4. | Müzakirə, təqdimat, problemin həlli, kiçik qruplarda iş | 1. Ədəbiyyat (X sinif şagirdləri üçün elektron vəsait): edebiyyat.ucoz.com.<br>2. Şirvani S.Ə. Əsərləri. 3 cilddə. I cild, Bakı: Avrasiya Press, 2005, səh.10-11. | Şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq) |
| 32-ci həftə | N.Vəzirovun həyatı, yaradıcılıq yolu | 1.2.1.<br>2.1.1.<br>2.2.1. | Az.d.<br>2.1.1.<br>X.d.<br>2.1.3. | Müsahibə, təqdimat, müzakirə, problemin həlli, fərdi iş, kiçik qruplarda iş | 1.Azərbaycan dramaturgiyası antologiyası. Bakı: Şərq –Qərb, 2007, 4 cilddə. I cild, səh. 5-6.<br>2. Ədəbiyyat (X sinif şagirdləri üçün elektron vəsait): edebiyyat.ucoz.com.<br>3. Vəzirov N. Əsərləri. Bakı: Şərq-Qərb, 2005, səh. 4-8. | Müsahibə (müəllimin qeydiyyat vərəqi), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), müşahidə (müşahidə vərəqi), tapşırıqvermə (tapşırıq), şagirdin təqdimatı |
| | N.Vəzirov. "Müsibəti-Fəxrəddin". Məzmun üzrə iş | 1.1.1.<br>1.1.5. | Az.d.<br>2.1.1.<br>X.d.<br>3.1.1. | Müsahibə, oxu, təqdimatlar, müzakirə, kiçik və böyük qruplarda iş | | Oxu (mətn), müsahibə (müəllimin qeydiyyat vərəqi), müşahidə (müşahidə vərəqləri), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq) |
| | N.Vəzirov. "Müsibəti-Fəxrəddin". Məzmun üzrə iş | 1.1.1.<br>1.1.4.<br>1.1.5. | Az.d.<br>2.1.1.<br>X.d.<br>3.1.1. | Müsahibə, müzakirə, təqdimat, problemin həlli, kiçik və böyük qruplarda iş | | Təqdimat (meyar cədvəli), müsahibə (müəllimin qeydiyyat vərəqi), müşahidə (müşahidə vərəqləri), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq) |



LAYİHƏ

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 33-cü həftə | N.Vəzirov. “Müsibəti-Fəxrəddin”. Təhlil üzrə iş | 1.2.1. 1.2.2. 1.2.4. 2.2.1. | Az.d. 1.2.4. X.d. 2.1.2. 2.1.3. 3.1.4. | Müsahibə, müzakirə, təqdimat, problemin həlli, fərdi iş, kiçik qruplarda iş | 1. Ədəbiyyat (X sinif şagirdləri üçün elektron vəsait): edebiyyat.ucoz.com. 2.Vəzirov N. Əsərləri. Bakı: Şərq-Qərb, 2005, səh.8-10. | Müsahibə (müəllimin qeydiyyat vərəqi), müşahidə (müşahidə vərəqləri), təqdimat (meyar cədvəli), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq) |
| 34-cü həftə | N.Vəzirov. “Müsibəti-Fəxrəddin”. Tətbiq. Müzakirə. Yaradıcı iş | 2.1.2. 3.1.1. 3.1.2. 3.1.3. | Az.d. 3.1.1. 3.1.2. 3.1.3. X.d. 4.1.1. 4.1.2. | Müsahibə, təqdimat, müzakirə, yazı, problemin həlli, fərdi iş, bütün siniflə birgə iş | 1. Ədəbiyyat (X sinif şagirdləri üçün elektron vəsait): edebiyyat.ucoz.com. | Müşahidə (müşahidə vərəqləri), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), müsahibə (müəllimin qeydiyyat vərəqi), təqdimat (meyar cədvəli), yazı (yazı bacarıqlarının inkişafı üzrə qeydiyyat vərəqi) |
| | *Kiçik summativ qiymətləndirmə* | | | | | |

Az.d.–Azərbaycan dili, X.d.–Xarici dil, Üm.t.–Ümumi tarix, Az.t.–Azərbaycan tarixi

## Yeni təlim texnologiyalarından istifadə

Müəllimlər yeni texnologiyaların, xüsusən fəal/interaktiv təlimin tətbiqi ilə bağlı xeyli təcrübə qazanmışlar. Əvvəlki siniflərin dərslik komplektində bu məsələyə geniş yer verilmişdir. Məhz buna görə də vəsaitdə ədəbiyyatımızın klassik dövrünün tədrisində daha çox müraciət olunan təlim metodlarına diqqət yetirilməklə kifayətlənilmişdir.

### Layihələrin hazırlanması

Layihə üzrə iş öyrədici və yaradıcı səciyyə daşıyan, şagirdlərin bilik və bacarıqlarının tətbiqini, dərinləşdirilməsini nəzərdə tutan, fərdi, kiçik və ya böyük qruplarda yerinə yetirilən müstəqil tədqiqat fəaliyyətidir. Layihənin icrası zamanı müəllim bələdçi kimi öz tövsiyələri ilə şagirdlərin araşdırmalarının düzgün yönləndirilməsinə yardımçı olur.

Layihə şagirdlərin mənbələr üzrə müstəqil araşdırma aparmalarına, bilik və bacarıqlarını tətbiq etməklə problemi həll etmələrinə imkan yaradır, onlarda əməkdaşlıq, birgə fəaliyyət bacarıqlarını formalaşdırır. Təlimi layihələrinin müxtəlif növləri vardır. Ədəbiyyat dərslərində fəaliyyət növü baxımından **sənətkarın həyatı, yaradıcılığı, bədii əsər, ədəbiyyat tarixinin mərhələləri ilə bağlı** layihələr üzrə iş məqsədəuyğundur.

Layihələrə hazırlıqda dərslikdəki mətnlə işin düzgün təşkili mühüm əhəmiyyət kəsb edir. Şagirdlər, ilk növbədə, dərslikdəki sualları və onların ilkin aydınlaşdır-

LAYİHƏ

masına imkan verən istiqamətləndirici mətni mənimsəməlidirlər. Sinfin əlavə mənbələrlə təmin edilməsi məqsədəuyğundur. Mətnlə iş üsullarının öyrənilməsi şagirdlərdə müstəqil araşdırma aparmaq, əməkdaşlıq etmək, ünsiyyət vərdişlərini zənginləşdirmək kimi bacarıqların inkişafına imkan yaradır.
Şagirdlər layihə üzrə işin nəticəsini aşağıdakı meyarlar üzrə dəyərləndirə bilər:

| Meyarlar | +/ – |
|---|---|
| Mən layihə üçün zəruri olan əlavə mənbələrdən istifadə etdim. | |
| Mövzu üzrə məlumatların dərinləşdirilməsi və zənginləşdirilməsi üçün axtarış apardım. | |
| Araşdırma zamanı əsas və ikinci dərəcəli məlumatları müəyyənləşdirdim, zəruri və qənaətləndirici olanları seçdim. | |
| Mənbələr üzrə əldə olunanları əlaqələndirdim, ümumiləşdirdim və nəticə çıxardım. | |
| Nəticələrin təqdimolunma formasını (yazılı və ya şifahi təqdimat, slayd və s.) müəyyənləşdirdim. | |

**Müzakirə**

Müzakirə müəyyən mövzu, problem üzrə məlumat, ideya, təəssürat və s. bağlı fikirlərin qarşılıqlı mübadiləsidir. Müzakirənin müxtəlif formaları vardır. Bunlardan daha geniş tətbiq olunanı *diskussiyadır*. O, latın sözü olub *araşdırma*, *tədqiqat* deməkdir. Diskussiya müəyyən problem üzrə ortaq məxrəcə gəlinməsi, tərəfləri razı salan ümumi qənaətin yaranması məqsədilə aparılan müzakirədir. Diskussiyanın iştirakçıları müzakirə edilən məsələlər üzrə zəruri biliklərə malik olmalıdır. Onlar müzakirə olunan məsələ barədə ardıcıl, bir-biri ilə əlaqəli mülahizələr söyləyir, fikirlərini əsaslandırırlar. Diskussiyada müzakirə olunacaq problem əvvəlcədən müəyyənləşdirildiyi üçün iştirakçılar ciddi hazırlaşmaq imkanına malik olurlar.

Klassik ədəbi irsin öyrənilməsinə həsr olunan dərslərdə mühüm yer tutan diskussiya təlim metodu kimi bu və ya digər problemlə bağlı fikir mübadiləsinə və müzakirəyə geniş meydan açır.

Yaxşı təşkil edilmiş diskussiya böyük təlim-tərbiyə əhəmiyyətinə malikdir, o, problemin dərindən qavranılmasına, şagirdlərdə öz mövqeyini müdafiə etmək, başqalarının rəyi ilə hesablaşmaq, fərqli mülahizələrə dözümlü yanaşmaq kimi bacarıqların formalaşdırılmasına imkan yaradır.

Müzakirənin digər növlərindən fərqli olaraq, diskussiyada məqsəd iştirakçıların müzakirə olunan məsələ ilə bağlı mümkün qədər güzəştli mövqe tutması, razılığa gəlməsidir. Belə ki, diskussiya bu və ya digər tərəfin qalib gəlməsinə deyil, həqiqət axtarışlarına, optimal qərar qəbul edilməsinə istiqamətlənir. Ümumi mövqe, qənaət isə, adətən, iştirakçıların ifadə etdiyi müxtəlif baxışlarda öz əksini tapan fikirlərin

LAYİHƏ

cəmindən deyil, sintezindən ibarət olur. Diskussiyanın nəticəsi iştirakçıların ya hamısının, ya da əksəriyyətinin obyektiv, əsaslandırılmış mövqeyini əks etdirir.

Bədii əsər üzrə müzakirədə də diskussiya elementləri mühüm yer tutur; bu, şagirdlərin fəallığına, bilik və bacarıqların zənginləşməsinə əhəmiyyətli təsir edir.

## Müzakirə xəritələri

Müzakirə xəritəsi mövzu və ya problem üzrə ideya, məlumat, təəssürat, təhlil və təkliflərin qarşılıqlı mübadiləsidir. Onun əsas vəzifəsi problemi təhlil edərək həlli yolunu tapmaq, düzgün qərar qəbul etmək üçün imkan yaratmaqdır.

Bu qəbildən müzakirə şagirdlərdə dinləmək, təqdim etmək, sual vermək mədəniyyətini formalaşdırır, onların məntiqi və tənqidi təfəkkürünü, şifahi nitqini inkişaf etdirir.

Müzakirə üçün ziddiyyətli yanaşmalara imkan verən mövzu, problem müəyyənləşdirilir. Problem aktual, şagirdlər üçün güccatan səviyyədə olmalı, həlli ciddi çətinlik yaratmamalıdır. Şagirdlər problem üzrə tədqiqat aparır, mənbələrlə işləyir, öz mövqelərini dəqiqləşdirir, mülahizələrini əsaslandırmaq üçün dəlillər, faktlar seçir, fikirlərini müzakirə üçün təqdim edirlər.

Müzakirədən əvvəl şagirdlərə müzakirə qaydaları xatırladılır. Müzakirə prosesini inkişaf etdirən suallar vermək və şagirdlərin cavablarını nəzərdən keçirməklə müəllim müzakirəni tənzimləyir. Bu zaman cavabı "bəli" və ya "xeyr" olan qapalı suallar vermək məqsədəuyğun hesab edilmir.

Müzakirədə mövzuya aid "Nə baş verdi? Nə üçün baş verdi? Bu, başqa cür ola bilərdimi və necə? Siz bu vəziyyətdə nə edərdiniz? Sizin fikrinizcə, həmin qəhrəman nə hiss etdi? Siz bu şəraitdə necə hərəkət edərdiniz? Sizcə, kim haqlıdır? Nə üçün?" kimi suallardan istifadə olunur.

*Vəsaitdə müzakirə xəritəsinin tətbiqi ilə bağlı nümunə olduğundan ondan istifadə qaydaları burada xatırladılmır.*

## "Akvarium"

Müzakirənin bir forması kimi "akvarium"un tətbiqində diqqət yetirilməli olan ən mühüm cəhət mübahisə edən tərəflərin vahid fikrə gəlməsinin vacib olmamasıdır. Onun tətbiqində başlıca məqsəd problemin müzakirəsində səmərəliliyə nail olmaq və düzgün diskussiya aparmaq bacarığını inkişaf etdirməkdir. "Akvarium"un tətbiqində iki variant müşahidə olunur. Vəsaitdə aşağıdakı variantla bağlı nümunə verilmişdir.

Diskussiyanın aparılması qaydaları müəyyənləşdirilir. Sonra sinif iki qrupa ayrılır, onlardan birinin oturduğu dairənin önündə – "xarici dairədə" ikinci qrup əyləşir. Qruplardan birincisi – "daxili dairədə" oturanlar müəyyənləşdirilmiş mövzu üzrə diskussiya aparır, "xarici dairədə" oturanlar isə diskussiyanın qaydalar üzrə keçib-keçmədiyini müşahidə edir. Müəyyənləşdirilmiş vaxt başa çatdıqda "xarici dairədə" əyləşənlər diskussiyanın gedişini qiymətləndirirlər. Ardınca qruplar yerlərini dəyişirlər, diskussiya əvvəlki qayda ilə davam edir.

LAYİHƏ

## Fəndaxili və fənlərarası inteqrasiya

Ədəbiyyat təlimində fəndaxili inteqrasiya şagirdlərin öyrənilən mövzu, problem üzrə bilik və bacarıqlarının əlaqələndirilməsini nəzərdə tutur. Əvvəlki biliklərdən yeni situasiyada istifadə mövzunun dərindən qavranılmasına, şagirdlərin fəallıq və müstəqilliyinə zəmin yaradır. Ədəbiyyat təlimi prosesində fəndaxili inteqrasiya imkanları aşağıdakılardır:

1. Mövzu, problem, janr baxımından səsləşən əsərlərin əlaqəli öyrənilməsi;
2. Əvvəlki siniflərdə sənətkarın həyatı, yaradıcılığı ilə bağlı mənimsənilmiş biliklərin əlaqələndirilməsi;
3. Ədəbiyyat nəzəriyyəsi üzrə bilik və bacarıqların əlaqələndirilməsi;
4. Şifahi və yazılı nitq bacarıqlarının əlaqələndirilməsi;
5. Bədii əsərlərin oxusu, təhlili, qiymətləndirilməsi üzrə bacarıqların əlaqələndirilməsi.

Şagirdlərin əvvəlki siniflərdə, xüsusən VIII sinifdə klassik ədəbiyyatla bağlı mənimsədikləri X sinfin tədris materialları ilə sıx əlaqəlidir. Təlim prosesində həmin əlaqələrin üzərində dayanılması vacibdir.

Ədəbiyyat kurikulumu inteqrativ səciyyəlidir. Kurikulumda məzmun xətləri və standartları arasında sıx əlaqə, uzlaşma vardır. İnteqrativlik özünü eyni məzmun xətti daxilindəki standartların əlaqəli olması ilə yanaşı, ayrı-ayrı məzmun xətləri arasında da özünü göstərir. Məsələn, əsərin məzmununun mənimsənilməsi ilə bağlı standartlar üzrə iş sonrakı mərhələdə təhlillə bağlı standartların reallaşdırılmasına zəmin yaradır. Eləcə də şifahi və yazılı nitqlə bağlı standartların arasında üzvi əlaqə və bağlılıq öz əksini şagirdlərin müvafiq təlim fəaliyyətində də tapır.

Ədəbiyyat dərslərində *fənlərarası inteqrasiya* imkanlarının reallaşdırılması üzrə ardıcıl iş aparılmalıdır. Bu əlaqə imkanları məzmun standartlarının reallaşdırılması cədvəlində əks etdirilmişdir.

Ədəbiyyatın incəsənətin digər növləri – musiqi, rəssamlıq, heykəltəraşlıq, kino, teatr ilə əlaqəli öyrənilməsi müəllimdən yaradıcılıq və təşəbbüskarlıq tələb edir. Məsələn, Füzulinin qəzəllərinin muğam nümunələri, Aşıq Ələsgərin şeirlərinin saz havalarının müşayiəti ilə oxunması, bədii əsərlərin musiqi, səhnə, kino variantı ilə müqayisə aparılması, bədii əsər üzrə illüstrasiya, rəsm əsəri ilə əlaqə və s. bu qəbildəndir.

Ədəbiyyatın Azərbaycan dili ilə əlaqəsinin reallaşdırılması imkanları, ilk növbədə, hər iki fənn kurikulumunda şifahi və yazılı nitqlə bağlı standartların bir-biri ilə əlaqəli olması ilə şərtlənir. Hər iki fənni eyni müəllim tədris etdiyi üçün ədəbiyyat dərslərində bədii dil, üslub, sənətkarlıq məsələlərinin öyrənilməsi dil dərslərində mənimsənilmiş biliklərlə daha ardıcıl, məqsədyönlü şəkildə əlaqələndirilir.

Ədəbiyyatın tarixlə, coğrafiya ilə əlaqəsi bu və ya digər ədəbi dövrün ictimai-siyasi, mədəni, ədəbi səciyyəsi üzrə verilən məlumatlarda, sənətkarın həyat yolu, əsərdə təsvir olunan hadisələrin baş verdiyi məkan və zaman üzrə biliklərdə öz əksini tapır. İcmal mövzuların tədrisində tarixlə əlaqə xüsusi əhəmiyyət kəsb edir. İcmal mövzuların öyrənilməsi zamanı şagirdlərə tarixi-ədəbi məlumatların verilməsi ayrı-ayrı dövrlərdə ədəbiyyatın inkişaf xüsusiyyətləri barədə aydın təsəvvür yaratmağa xidmət edir. Məsələn, X sinifdə "Qədim dövr Azərbaycan ədəbiyyatı"



LAYİHƏ

mövzusu keçilərkən Zərdüşt, atəşpərəstlik, I minilliyin sonu II minilliyin əvvəllərində ölkənin etnik-sosial mənzərəsinin yaradılması, ədəbiyyatda əvvəlcə ərəb, sonra isə fars dilində yazmaq ənənəsinin səbəbləri və s. barədə konkret məlumatların verilməsi zəruridir.

Ədəbiyyat dərslərində öyrənilən mövzular dil, tarix, coğrafiya, insan hüquqları, din, həyat bilgisi ilə ardıcıl, sistemli şəkildə əlaqələndirilməlidir. Məsələn, X sinifdə Nizami Gəncəvinin "İskəndərnamə" poemasının tədrisi zamanı tarix, coğrafiya, dinlə əlaqə yaradılması zərurəti meydana çıxır. Poemanın ənənəvi girişlə – tövhid, minacat, nətlə başlanmasının səbəbləri, məsnəvinin mahiyyəti, xüsusiyyətləri barədə məlumat vermək, şagirdləri əlavə mənbələrə yönləndirmək lazım gəlir. Əsərin mövzusu, baş qəhrəmanı tarixdən götürüldüyü üçün tarix fənni, coğrafi adlardan istifadə olunduğuna görə coğrafiya fənni üzrə irəlicədən qazanılmış biliklərə istinad olunması mənimsəmənin əhatəliliyinə, dərinliyinə əhəmiyyətli dərəcədə təsir edir.

Dərslik komplekti kurikulumun tələblərinin reallaşdırılması üçün müəllimin *yaradıcı, təşəbbüskar* fəaliyyətinə imkan yaradır. Müəllim dərsə hazırlaşarkən, ilk növbədə sinfin səviyyəsini, qarşıya qoyduğu təlim məqsədlərini nəzərə almalı, mətnlərlə bağlı sual və tapşırıqlardan yaradıcı istifadə etməklə dərsi hansı variantda təşkil etməyin daha faydalı olduğunu müəyyənləşdirməlidir.

Bu və ya digər dərsdə daha çox standartın reallaşdırılması cəhdinə haqq qazandırmaq olmaz. Biliklərin mənimsənilməsində, bacarıqların formalaşmasında ardıcıllığı, mükəmməl sistemi daim diqqət mərkəzində saxlayan müəllim öz seçimini edir və bunu əsaslandırır.

Qarşıya qoyduğu məqsəddən, şagirdlərinin hazırlıq səviyyəsindən çıxış edən müəllim dərslikdən, metodik vəsaitdən, sual və tapşırıqlardan yaradıcı istifadə edir.

## Şagirdlərin özünüqiymətləndirmə meyarları

**Şifahi nitq bacarıqları üzrə özünüqiymətləndirmə meyarları**

| № | Meyarlar | Nail oldum | Nail olmadım |
|---|---|---|---|
| 1 | Fikrin aydın çatdırılması | | |
| 2 | Fikrin əsərdən nümunələrlə şərh edilməsi | | |
| 3 | Çıxışın inandırıcı olması | | |
| 4 | Nitqə cümlələrin düzgünlüyü | | |
| 5 | Yersiz söz və ifadələrin işlədilməməsi | | |
| 6 | Əsərin ideya-bədii xüsusiyyətləri ilə bağlı çıxışda müxtəlif mənbələrdən istifadə | | |
| 7 | Mövzuya, problemə müqayisələr, ümumiləşdirmələr aparmaqla münasibət bildirilməsi | | |
| 8 | Fərqli fikirlərə dözümlü yanaşma | | |
| 9 | Öyrənilmiş yeni sözlərdən istifadə | | |
| 10 | Mövzuya, problemə tənqidi münasibətini əsaslandırılması | | |

LAYİHƏ

**Yazılı nitq bacarıqları üzrə özünüqiymətləndirmə meyarları**

| № | Meyarlar | Bəli | Xeyr |
|---|---|---|---|
| 1 | Yazı işinə uyğun ifadələrlə başladım. | | |
| 2 | Cümlələri dil qaydalarına uyğun qurdum. | | |
| 3 | Sözləri düzgün yazdım, durğu işarələrinə, abzaslara əməl etdim. | | |
| 4 | Təkrarlara yol vermədim. | | |
| 5 | Bədii təsvir vasitələrindən istifadə etdim. | | |
| 6 | Oxşar cəhətləri tapdım. | | |
| 7 | Fərqli cəhətləri müəyyənləşdirdim. | | |
| 8 | Əhvalat və hadisələrə münasibət bildirdim. | | |
| 9 | Fikirlərimi aydın, yığcam ifadə etdim. | | |
| 10 | Yazımda məntiqi ardıcıllığı gözlədim. | | |
| 11 | Fikirlərimi əsərdən nümunələrlə əsaslandırdım. | | |
| 12 | Faktlardan, sitatlardan yerində istifadə etdim, müqayisələr apardım. | | |
| 13 | Mövzu ilə əlaqədar müstəqil fikir söylədim. | | |
| 14 | Müxtəlif mənbələrə dair biliklərimdən istifadə etdim. | | |
| 15 | Tələb olunan həcmdə yazdım. | | |
| 16 | Ümumiləşdirmə apardım, nəticə çıxardım. | | |
| 17 | Mövzunu əhatə etdim. | | |

## Şagirdlərin qrup daxilində bir-birinin fəaliyyətini qiymətləndirmə meyarları

| № | Meyarlar | nail olmur | qismən nail olur | əsasən nail olur | nail olur |
|---|---|---|---|---|---|
| 1 | Əməkdaşlıq edir. | | | | |
| 2 | Fəallıq göstərir. | | | | |
| 3 | Tapşırıqların icrası üçün maraqlı fikirlər səsləndirir. | | | | |
| 4 | Diqqətlə dinləyir, dəstək verir. | | | | |
| 5 | Fərqli fikirlərə hörmətlə yanaşır. | | | | |
| 6 | Öhdəsinə düşən işi icra edir. | | | | |
| 7 | Əlavə mənbələrdən istifadə edir. | | | | |
| 8 | Başqalarına mane olmur. | | | | |
| 9 | Lider kimi də çıxış etməyə hazır olduğunu nümayiş etdirir. | | | | |



LAYİHƏ

**Müasir məktəbdaxili qiymətləndirmə**

Azərbaycan Respublikasının Təhsil Nazirliyinin 28 dekabr 2018-ci il tarixli 8/1 nömrəli Kollegiya Qərarı ilə təsdiq edilmişdir.

## Ümumi təhsil pilləsində təhsilalanların attestasiyasının (yekun qiymətləndirmə (attestasiya) istisna olmaqla) aparılması Qaydası

### 1. Ümumi müddəalar

1.1. Bu Qayda "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununun 29.0.29-cu maddəsinə əsasən hazırlanmışdır və Azərbaycan Respublikasında ümumi təhsil pilləsində təhsilalanların attestasiyasının (yekun qiymətləndirmə (attestasiya) istisna olmaqla) aparılması məsələlərini tənzimləyir.

1.2. Bu Qayda təşkilati-hüquqi formasından asılı olmayaraq, aşağıdakı şəxslərin attestasiyasına şamil edilmir:

1.2.1. ümumi təhsil müəssisələrində tətbiq olunan beynəlxalq səviyyədə akkreditasiya olunan təhsil proqramları üzrə təhsilalanların;

1.2.2. xüsusi və ümumi təhsil müəssisələrində (xüsusi təhsil və inklüziv təhsil siniflərində) təhsilə cəlb olunmuş sağlamlıq imkanları məhdud şəxslərin.

1.3. Ümumi təhsil pilləsində təhsilalanların attestasiyası məqsədi ilə diaqnostik, formativ və summativ qiymətləndirmələr keçirilir.

### 2. Diaqnostik qiymətləndirmə

2.1. Diaqnostik qiymətləndirmə dərs ilinin və ya fənn üzrə tədris resurslarında nəzərdə tutulmuş hər bölmənin əvvəlində aparılmaqla şagirdlərin bilik və bacarıqlarının, o cümlədən maraq və motivasiyasının ilkin qiymətləndirilməsi məqsədi ilə aparılır.

2.2. Diaqnostik qiymətləndirmədə tapşırıqvermə, müşahidə (müəllim tərəfindən şagirdlərin yeni mövzuya olan maraq səviyyəsinin müəyyən edilməsi) üsullarından istifadə olunur.

2.3. Diaqnostik qiymətləndirmənin nəticəsi ilə bağlı müvafiq yazılı qeydlər (nəticələrin qısa təsviri) təhsilalanın fərdi qovluğunda saxlanılır.

### 3. Formativ qiymətləndirmə

3.1. Formativ qiymətləndirmə təhsilalanın hər bir fənn üzrə təhsil proqramında (kurikulumda) müəyyənləşdirilmiş məzmun standartlarının mənimsənilməsinə yönəlmiş fəaliyyətlərini izləmək, bu prosesdə onun qarşısına çıxan çətinlikləri müəyyən edib onları aradan qaldırmaq məqsədi ilə aparılır. Formativ qiymətləndirmə şagird nailiyyətlərinin monitorinqi vasitəsilə tədrisin düzgün istiqamətləndirilməsinə xidmət edir. Müəllim formativ qiymətləndirmə vasitəsilə tədris prosesini tənzimləyir, şagirdlər tərəfindən məzmunun mənimsənilməsinə kömək edir.

LAYİHƏ

3.2. Formativ qiymətləndirmə zamanı tapşırıqvermə, müşahidə (müəllim tərəfindən şagirdlərin yeni mövzuya olan maraq səviyyəsinin müəyyən edilməsi) üsullarından istifadə olunur.

3.3. Formativ qiymətləndirmənin nəticəsi ilə bağlı "Müəllimin formativ qiymətləndirmə dəftəri"ndə və "Məktəbli kitabçası"nda müvafiq yazılı qeydlər aparılır.

3.4. Müəllim dərs ilinin yarımillərinin sonunda "Müəllimin formativ qiymətləndirmə dəftəri"ndəki qeydlər əsasında təhsilalanın yarımillik fəaliyyətinin qısa təsvirini hazırlayır və həmin təsvir təhsilalanın ümumi təhsil müəssisəsindəki fərdi qovluğunda saxlanılır.

## 4. Summativ qiymətləndirmə

4.1. Summativ qiymətləndirmə hər bir fənn üzrə təhsil proqramında (kurikulumda) müəyyənləşdirilmiş məzmun standartlarının mənimsənilməsi ilə bağlı təhsilalanların əldə etdiyi nailiyyətlərin müəyyən olunması məqsədilə aparılır.

4.2. Summativ qiymətləndirmə aşağıdakı iki formada aparılır:

4.2.1. hər bir fənn üzrə dərsliklərdə nəzərdə tutulmuş hər bölmənin daxilində və ya bölmənin sonunda keçirilən kiçik summativ qiymətləndirmə;

4.2.2. hər yarımilin sonunda keçirilən böyük summativ qiymətləndirmə.

4.3. Summativ qiymətləndirmədə tapşırıqvermə üsulundan istifadə olunur.

4.4. I sinifdə summativ qiymətləndirmə aparılmır.

4.5. Kiçik summativ qiymətləndirmə II-XI siniflərdə bütün fənlər üzrə hər yarımildə 3 dəfədən az 6 dəfədən çox olmamaqla müəllim tərəfindən aparılır. Hər fənn üzrə kiçik summativ qiymətləndirmələrin aparılacağı tarix haqqında məlumat tədris ilinin birinci həftəsi ərzində fənn müəllimi tərəfindən sinifdə təhsilalanlara elan olunur.

4.6. Hər bir fənn üzrə kiçik summativ qiymətləndirmə həmin fənnin tədris olunduğu 1 (bir) dərs saatı ərzində aparılır.

4.7. Böyük summativ qiymətləndirmə ümumi təhsil müəssisəsinin rəhbərliyi tərəfindən hər yarımilin sonunda aşağıda sadalanan fənlər üzrə aparılır:

4.7.1. ümumi təhsil müəssisələrinin IV, IX və XI siniflərində bütün fənlər üzrə;

4.7.2. ümumi təhsil müəssisələrinin V-VIII siniflərində ümumi orta təhsil səviyyəsi üçün nəzərdə tutulmuş buraxılış imtahanı fənləri üzrə;

4.7.3. lisey və gimnaziyaların V-VIII siniflərində ümumi orta təhsil səviyyəsi üçün nəzərdə tutulmuş buraxılış imtahanı fənləri ilə yanaşı, müəssisənin Pedaqoji Şurasının qərarı ilə müəyyənləşdirilmiş maksimum 3 fənn üzrə;

4.7.4. ümumi təhsil müəssisələrinin tam orta təhsil səviyyəsində təmayülləşmə tətbiq olunmayan X sinfində tam orta təhsil səviyyəsi üçün nəzərdə tutulmuş buraxılış imtahanı fənləri üzrə;

4.7.5. ümumi təhsil müəssisələrinin tam orta təhsil səviyyəsində təmayülləşmə tətbiq olunan X sinfində tam orta təhsil səviyyəsi üçün nəzərdə tutulmuş buraxılış imtahanı fənləri ilə yanaşı, müəssisənin pedaqoji şurasının qərarı ilə müəyyənləşdirilmiş maksimum 3 təmayül fənni üzrə;

4.7.6. lisey və gimnaziyaların X sinfində tam orta təhsil səviyyəsi üçün nəzərdə tutulmuş buraxılış imtahanı fənləri ilə yanaşı, müəssisənin Pedaqoji Şurasının qərarı ilə müəyyənləşdirilmiş maksimum 3 fənn üzrə.



LAYİHƏ

4.8. Ümumi təhsil müəssisələrinin V-VIII siniflərində ümumi orta təhsil səviyyəsi üçün və tam orta təhsil səviyyəsində təmayülləşmə tətbiq olunmayan X sinfində həmin təhsil səviyyəsi üçün nəzərdə tutulmuş buraxılış imtahanı fənləri ilə yanaşı, müəssisənin pedaqoji şurasının qərarı ilə müəyyənləşdirilmiş maksimum digər 3 fənn üzrə də böyük summativ qiymətləndirmə keçirilə bilər.

4.9. Pedaqoji şuranın qərarı ilə 4.7.3-cü, 4.7.5-ci, 4.7.6-cı yarımbəndlərdə və 4.8-ci bənddə müəyyənləşdirilməsi nəzərdə tutulmuş fənlərin seçimi tədrisin keyfiyyətinə nəzarət etmək məqsədi daşıyır. Pedaqoji Şuranın müvafiq qərarı dərs ilinin əvvəlində qəbul edilir və təhsilalanlara elan edilir.

4.10. Hər bir fənn üzrə böyük summativ qiymətləndirmə ibtidai təhsil səviyyəsində 45, ümumi orta və tam orta təhsil səviyyəsində 45-90 dəqiqə ərzində aparılır.

4.11. II-III siniflərdə böyük summativ qiymətləndirmə keçirilmir.

4.12. Kiçik və böyük summativ qiymətləndirmələr 100 ballıq şkala ilə ölçülür.

4.13. Summativ qiymətləndirmədə istifadə olunan qiymətləndirmə vasitələri (suallar) Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 13 yanvar tarixli 9 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ümumi təhsil sistemində Qiymətləndirmə Konsepsiyası"nın tələbləri nəzərə alınmaqla hazırlanır. Suallar hər bir sinif və fənn üzrə 4 səviyyədə tərtib edilir. 1-ci səviyyə ən aşağı, 4-cü səviyyə isə ən yüksək səviyyəni əks etdirir. Suallar müxtəlif mürəkkəblik səviyyəsində hazırlanır. 1-ci və 2-ci səviyyəyə təhsilalanların əksəriyyətinin cavablandıra biləcəyi suallar aid edilir. 3-cü və 4-cü səviyyəyə daha hazırlıqlı şagirdlərin cavablandıra biləcəyi suallar aid edilir. Səviyyələr üzrə sualların qiymətləndirmə ballarının 100 ballıq şkalada bölgüsü aşağıdakı kimi nəzərdə tutulur:

– 1-ci səviyyə üzrə suallar qiymətləndirmənin 20%-ni (və ya 20 bal) təşkil edir;
– 2-ci səviyyə üzrə suallar qiymətləndirmənin 30%-ni (və ya 30 bal) təşkil edir;
– 3-cü səviyyə üzrə suallar qiymətləndirmənin 30%-ni (və ya 30 bal) təşkil edir;
– 4-cü səviyyə üzrə suallar qiymətləndirmənin 20%-ni (və ya 20 bal) təşkil edir.

4.14. Üzrlü (xəstəlik (tibbi arayış təqdim edildikdə), bədbəxt və fövqəladə hadisə) səbəbdən kiçik summativ qiymətləndirmənin hər hansı birində iştirak etməyən təhsilalanın kiçik summativ qiymətləndirmədə iştirak etməməsi yarımillik balların hesablanmasında nəzərə alınmır. Təhsilalanın iştirak etmədiyi kiçik summativ qiymətləndirmə növbəti kiçik summativ qiymətləndirməyədək təşkil edilir.

4.15. Üzrsüz səbəbdən kiçik summativ qiymətləndirmədə iştirak etməyən təhsilalanların həmin qiymətləndirmə üzrə balı “0” qəbul edilir və yarımillik balların hesablanmasında nəzərə alınır.

4.16. Üzürsüz səbəbdən I və II yarımillər üzrə keçirilən böyük summativ qiymətləndirmələrdə iştirak etməyən təhsilalan həmin qiymətləndirmələr üzrə balı “0” qəbul olunur.

4.17. Təhsilalan I və II yarımillər üzrə keçirilən böyük summativ qiymətləndirmələrdə üzrlü səbəbdən (xəstəlik (tibbi arayış təqdim edildikdə), bədbəxt və fövqəladə hadisə) iştirak edə bilmədikdə, müvafiq summativ qiymətləndirmə günündən sonra növbəti 2 (iki) həftə müddətində onun üçün böyük summativ qiymətləndirmə təşkil edilir. Qeyd olunan müddətdə təhsilalan böyük summativ qiymətləndirmədə hər hansı səbəbdən iştirak etmədikdə böyük summativ qiymətləndirmə üzrə balı “0” qəbul olunur.

4.18. Summativ qiymətləndirmədə iştirak etməyən təhsilalanlar üçün sinifdə istifadə olunan eyni səviyyəli yeni qiymətləndirmə vasitələri (test, imla, inşa, ifadə, çalışma) hazırlanır.



LAYİHƏ

4.19. Təhsilalanın summativ qiymətləndirmədə bu Qaydanın 4.13-cü bədi nəzərə alınmaqla topladığı balların 2, 3, 4, 5 qiymətlərinə uyğunluğu aşağıdakı qaydada müəyyənləşdirilir:

4.19.1. 30-dək (daxil olmaqla) olan ballar "2" qiyməti ilə;

4.19.2. 30-dan 60-dək (daxil olmaqla) olan ballar "3" qiyməti ilə;

4.19.3. 60-dan 80-dək (daxil olmaqla) olan ballar "4" qiyməti ilə;

4.19.4. 80-dən 100-dək (daxil olmaqla) olan ballar "5" qiyməti ilə.

4.20. Təhsilalanın summativ qiymətləndirmədə topladığı ballar və onların uyğunlaşdırıldığı qiymət summativ qiymətləndirmənin aparıldığı tarixdə sinif jurnalında və "Məktəbli kitabçası"nda yazılır.

4.21. Summativ qiymətləndirmələrin nəticələri ilə razılaşmayan təhsilalanların valideynlərinin və ya digər qanuni nümayəndələrinin müraciətlərinə təhsil müəssisəsinin tabeliyindən asılı olaraq Azərbaycan Respublikasının Təhsil Nazirliyi və ya yerli təhsili idarəetmə orqanları tərəfindən baxılır. Yerli təhsili idarəetmə orqanlarının qərarları ilə razılaşmayan təhsilalanların valideynlərinin və ya digər qanuni nümayəndələrinin müraciətlərinə Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən baxılır.

## 5. Yarımillik və illik qiymətlərin hesablanması

5.1. Təhsilalanların kiçik və böyük summativ qiymətləndirmələrdə topladığı ballar əsasında yarımillik ballar hesablanır. Yarımillik balının 2, 3, 4 və ya 5 qiymətlərinə uyğunluğu bu Qaydanın 4.19-cu bəndinə müvafiq olaraq müəyyənləşdirilir. Yarımillik balların miqdarı və onların uyğunlaşdırıldığı qiymət sinif jurnalı və "Məktəbli kitabçası"nda yazılır.

5.2. Böyük summativ qiymətləndirmə aparılmayan fənlər üzrə yarımillik bal kiçik summativ qiymətləndirmələrdə toplanmış ballar əsasında aşağıdakı kimi hesablanır:

$$Y = (ksq_1 + ksq_2 + \ldots + ksq_n) / n.$$

Y – təhsilalanın yarımillik üzrə balını;

***$ksq_1$, $ksq_2$, – $ksq_n$*** – hər kiçik summativ qiymətləndirmədə toplanmış balların miqdarı;

n – kiçik summativ qiymətləndirmələrin sayını bildirir.

5.3. Böyük summativ qiymətləndirmə aparılan fənlər üzrə yarımillik bal kiçik və böyük summativ qiymətləndirmələrdə toplanılan ballar əsasında aşağıdakı kimi hesablanır:

$$Y = \frac{ksq_1 + ksq_2 + _ + ksq_n}{n} - \frac{40}{100} + BSQ - \frac{60}{100}$$

*BSQ* – hər yarımillik üzrə aparılan böyük summativ qiymətləndirmədə toplanmış balların miqdarı.

5.4. Təhsilalanın illik balları onun yarımillik ballarının ədədi ortası kimi hesablanır və illik balın 2, 3, 4 və ya 5 qiymətlərinə uyğunluğu bu Qaydanın 4.19-cu bəndinə müvafiq olaraq müəyyənləşdirilir. Qiymət sinif jurnalı və "Məktəbli kitabçası"nda yazılır.

5.5. İllik qiymətləndirmənin nəticələrinə əsasən təhsilalanların sinifdən-sinfə keçirilməsi Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən təsdiq edilən qaydalarla tənzimlənir.



LAYİHƏ

# MÖVZULAR ÜZRƏ TƏLİM MATERİALLARI İLƏ İŞ TEXNOLOGİYASININ ŞƏRHİ

*Mövzu:* **Söz sənətimiz – mənəvi sərvətimiz...** – 1 saat

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **2.1.1.** Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla təqdimat və çıxışlarında obrazlı ifadələrdən istifadə edir. | • Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla mövzu, problemlə bağlı təqdimat və çıxışlarında obrazlı ifadələrdən istifadə edir. |
| **2.2.1.** Müzakirələrdə mövzuya, problemə, yazıçı mövqeyinə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. | • Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. |

**Dərsin gedişi**

Sinif müəllim üçün yenidirsə, diaqnostik qiymətləndirmənin aparılması məqsədəuyğundur. Bu həmin qiymətləndirmənin üsul və vasitələrindən istifadə edilməklə həyata keçirilir. Diaqnostik qiymətləndirmə həm də yeni mövzunun tədrisi üçün zəmin rolunu oynayır. Belə ki şagirdlər VIII–IX siniflərdə ədəbiyyatımızın qədim dövrlərdən başlayaraq günümüzədək inkişaf yolunu görkəmli sənətkarlarımızın əsərləri nümunəsində izləmiş, yeni ədəbi növ və janrlarla tanış olmuş, bədii əsərlərin məzmun və forma xüsusiyyətlərinin aydınlaşdırılması, qiymətləndirilməsi üzrə bilik və bacarıqlara yiyələnmişlər. Bu, aşağıdakı sualın müzakirə mövzusu kimi seçilməsinə imkan verir: *Ədəbiyyat tarixinin müxtəlif mərhələlərində yaranan ədəbiyyatımız hansı özəllikləri ilə fərqlənir?* Müzakirədə müəllim istiqamətləndirici suallardan istifadə edir. Şagirdlər ədəbiyyatımızın keçdiyi inkişaf yolu ilə bağlı VIII–IX siniflərdə öyrəndiklərini xatırlamaqla müzakirədə fəallıq göstərirlər. Azərbaycan ədəbiyyatı tarixinin müxtəlif dövrləri ilə bağlı şagirdləri maraqlandıran, onlar üçün aydın olmayan məsələlər ortaya çıxır. Bütün bunlar araşdırılacaq **problemin** müəyyənləşdirilməsinə imkan verir: *Azərbaycan ədəbiyyatının tarixi-ədəbi əsasda, dərindən öyrənilməsinin əhəmiyyətini nədə görürsünüz ?*

Araşdırmaya dərslikdəki mətnlə tanışlıqla başlanılır. Mətnin oxusunu fərqli yollarla həyata keçirmək olar.

**Müəllim üçün məlumat**

*Artıq qeyd edildiyi kimi, ədəbiyyat fənn kurikulumunda X–XI siniflərdə ədəbiyyat tədrisinin tarixi-ədəbi prinsip əsasında təşkili məqsədəuyğun sayılmışdır. Bu, sənətkarların həyatı, yaradıcılığı barədə məlumat, eləcə də icmal materialları mənimsədilmədən həyata keçirilə bilməz. Məzmun standartları həmin materialların*



LAYİHƏ

*müstəqil araşdırma şəklində öyrədilməsini təmin edir. Bu dərslərin təşkili məzmununa və quruluşuna görə digər dərslərdən müəyyən qədər fərqlənir. Belə ki bu dərslərdə daha çox müzakirəyə (diskussiya, debat və s.) müraciət olunması məqsədəuyğundur. Problemin araşdırılmasında yalnız kiçik qruplarda iş forması ilə məhdudlaşmaq məqbul sayılmır, digər iş formalarından geniş istifadə olunması vacibdir. Başqa sözlə, araşdırma yalnız fərdi iş, yaxud cütlük şəklində iş və ya bütün siniflə birgə iş formalarından birinin tətbiqi ilə də aparıla bilər və əldə olunanlar müzakirəyə çıxarılır. Əlbəttə, iş formalarının qarşılıqlı şəkildə əlaqələndirilərək tətbiqi də mümkün və faydalıdır. Bu, müəllimdən böyük zəhmət və çeviklik tələb edir.*

*Həmin dərslərdə araşdırmanın kiçik qruplarda aparılması müəyyən özəlliklə müşayiət olunur; təqdimatlardan dərhal sonra, yaxud elə təqdimat prosesində müzakirə həyata keçirilir.*

Dərslikdəki mətndə *(Söz sənətimiz – mənəvi sərvətimiz...)* ədəbiyyat tarixinin hər bir dövrü üçün səciyyəvi olanlar əks etdirilmişdir. Bu mətnin oxusunun necə təşkilindən asılı olaraq, sonrakı işlərin məzmunu barədə təsəvvür qazanılır. Oxunun və ondan sonrakı işin təşkili ilə bağlı bir variant aşağıdakı məzmunda ola bilər. Şagirdlər oxunu İNSERT metodunun tələblərinə (dərslikdəki mətnin surətini çıxartmamaq üçün şərti işarələrə uyğun qeydlər ayrıca vərəqdə qeyd edilir) əməl etməklə fərdi olaraq oxuyurlar. Oxu prosesində şagirdlərin mövcud materiallardan (əvvəlki illərin dərsliklərindən, mətnin sonunda verilmiş mənbələrdən və s.) istifadə etməsi faydalıdır. Oxuya ayrılan vaxt başa çatdıqdan sonra istifadə olunan şərti işarələrdən irəli gələn suallar da nəzərə alınmaqla yığcam müsahibə aparılır. Məhz bundan sonra araşdırılan problem üzrə müzakirənin aparılmasına əlverişli imkan yaranır. Müzakirənin səmərəli keçməsi müəllimin bələdçilik bacarığından asılıdır; o, müzakirəni istiqamətləndirici suallarla idarə edir, diqqəti daha əhəmiyyətli məsələlərin üzərinə yönəldir, bütün şagirdlərin fəallığına və s. səy göstərir. Bu prosesdə hər bir şagirdin fəaliyyəti müəllimin diqqət mərkəzində olur, bu, obyektiv qiymətləndirmə üçün əhəmiyyətlidir.

Müəllim kiçik qruplarda iş formasını tətbiq edərsə, hər dövrlə bağlı məlumatın öyrənilməsini bir qrupa həvalə edə bilər. Bu həm vaxta qənaət etmək, həm də mənbələrə elə sinifdəcə müraciət etmək imkanının genişlənməsi baxımından faydalıdır. Qrupların əldə etdikləri nəticələr təqdimatlar əsasında dinlənilir və elə bu prosesdə müzakirə həyata keçirilir.

Dərslikdəki mətn, artıq qeyd olunduğu kimi, araşdırılan problemin həllinə imkan verən cavabı bütünlüklə əhatə etmir. Məhz buna görə də şagirdlər sinifdə öyrəndiklərinə müstəqil tədqiqat zamanı nələri əlavə edəcəklərini tam aydınlığı ilə təsəvvür etməlidirlər. Məsələn, müəllimin istiqamətləndirməsi sayəsində şagirdlərə məlum olur ki, **ortaq türk ədəbiyyatının yaranmasının əhəmiyyəti** barədə qazanılmış təsəvvürün zənginləşməsi üçün mənbələrdən daha çox aşağıdakı məlumatların mənimsənilməsi və dəyərləndirilməsi vacibdir:

– ən qədim dövrlərdə ümumtürk, ortaq türk ədəbiyyatının yaranmasını şərtləndirən səbəblər;
– ortaq türk eposu nümunələrinin ədəbi-tarixi əhəmiyyəti;
– “Avesta” dini-fəlsəfi, ədəbi abidə kimi;
– islamiyyətdən sonra türklərin yaratdığı divan ədəbiyyatı ənənələri.



LAYİHƏ

Oxunun necə təşkilindən asılı olmayaraq, artıq qeyd edildiyi kimi, şagirdlərin araşdırılan problemlə bağlı sinifdə müəyyən məlumat və mənbələrlə təmin edilməsi çox faydalıdır. Bu, təkcə sinifdəki işin yox, həm də ev tapşırığı qismində icra edilən müstəqil araşdırmanın da səmərəliliyinə əhəmiyyətli dərəcədə təsir edir. Məsələn, yuxarıda xatırladılan məsələ ilə bağlı şagirdlərə aşağıdakı qəbildən yığcam məlumatlar təqdim edilə bilər: *"Bütünlükdə türk dünyasının ortaq dəyərləri ayrılıqda hər bir türk xalqı üçün də doğmadır. Mahmud Kaşğarlının Orta Asiyada qələmə alınan "Divan"ı Azərbaycan türkləri üçün nə qədər dəyərlidirsə, Azərbaycan coğrafiyasında formalaşan "Dədə Qorqud" oğuznamələri də digər türk xalqları üçün də o qədər əziz və doğmadır. Bu gün özbək, türkmən, tatar, qırğız, qazax, Azərbaycan... türklərinin "ortaq dəyərləri" deyəndə də ortaq mifologiyanı, dastan ədəbiyyatını, yazılı irsi əhatə edən, ortaq sözdə, dildə gerçəkləşən mədəniyyət sisteminin bütövlüyü nəzərdə tutulur" (Azərbaycan ədəbiyyatı tarixi. 6 cilddə. I cild. Bakı: Elm, 2004, s. 337).*

Yaxud **XIII–XVI əsrlər – orta dövr Azərbaycan ədəbiyyatı** ilə əlaqədar mənbələrdən daha çox aşağıdakı məlumatlar mənimsənilməsi, dəyərləndirməsi məqsədəuyğundur:

– anadilli ədəbiyyata keçidin zəruriliyini şərtləndirən amillər;
– anadilli ədəbiyyatın ilk nümunələrini yaradan sənətkarların yaradıcılığının əhəmiyyəti;
– sufilik və hürufilik ideyalarının bədii ədəbiyyatda əks etdirilməsinin səbəbləri;
– dövrün ədəbiyyatında ənənəyə bağlılıq və yeniliklər.

Eləcə də **Azərbaycan ədəbiyyatının erkən realizm dövrü ilə** bağlı mənbələrlə iş zamanı aşağıda göstərilənlər üzrə bağlı məlumatların mənimsənilməsi və qiymətləndirilməsi məqsədəuyğundur:

– bədii ədəbiyyatda ənənənin davam etdirilməsi;
– şifahi xalq yaradıcılığının yazılı ədəbiyyata güclü təsiri;
– dastan yaradıcılığının sürətli inkişafı;
– realizmə meyilin artması.

Ayrı-ayrı dövrlərlə bağlı məlumatın sinifdə öyrənilməsi, ilkin araşdırılması kiçik qruplarda iş şəklində reallaşdırılsa da, ev tapşırığının – müstəqil araşdırmanın icrası bütövlükdə mövzunu əhatə edir.

Sinifdə aparılan işin formasından asılı olmayaraq, sonda **nəticə çıxarılır, ümumiləşdirmə aparılır.** Şagirdlərin diqqətinə çatdırılır ki, çıxarılmış nəticə problemə müəyyən dərəcədə aydınlıq gətirsə də, mənbələr üzərində müstəqil işləyərkən şagirdlərin cavabları daha mükəmməl məzmun alacaq, gəldikləri nəticələr daha dolğun olacaqdır. Müəllim növbəti dərsdə – ev tapşırığı ilə bağlı aparılan işdə bu məsələnin üzərinə qayıdılacağını qeyd edir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə müəyyənləşdirilmiş meyarlar əsasında aparılır.

*Qiymətləndirmə meyarları:*

İstifadəetmə

Əsaslandırma, nümayişetdirmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla | Müxtəlif mənbələrdən topladığı materiallara əsas- | Müxtəlif mənbələrdən topladığı materiallara əsaslan- | Müxtəlif mənbələrdən topladığı materiallara əsaslan- |



LAYİHƏ

| | | | |
|---|---|---|---|
| mövzu, problemlə bağlı təqdimat və çıxışlarında obrazlı ifadələrdən istifadə etməkdə çətinlik çəkir. | lanmaqla mövzu, problemlə bağlı təqdimat və çıxış-larında suallar və müəllimin köməyi ilə obrazlı ifadələr-dən istifadə edir. | maqla mövzu, problemlə bağlı təqdimat və çıxışlarında əsasən obrazlı ifadələrdən istifadə edir. | maqla mövzu, problemlə bağlı təqdimat və çıxışlarında obrazlı ifadələrdən istifadə edir. |
| Müzakirələrdə möv-zuya, problemə tən-qidi münasibətini əsaslandırmaqda, fərqli fikirlərə dö-zümlülük nümayiş etdirməkdə çətinlik çəkir. | Müzakirələrdə mövzuya, problemə tənqidi münasibə-tini suallar və müəllimin köməyi ilə əsaslandırır, fərqli fikirlərə qis-mən dözümlülük nümayiş etdirir. | Müzakirələrdə mövzuya, problemə tənqidi münasi-bətini əsaslandırır, fərqli fikirlərə əsasən dözümlülük nümayiş etdirir. | Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. |

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

## *Mövzu:* **Azərbaycan şifahi xalq yaradıcılığı** –1 saat

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **2.1.1.** Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla təqdimat və çıxışlarında obrazlı ifadələrdən istifadə edir. | • Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla mövzu, problemlə bağlı təqdimat və çıxışlarında obrazlı ifadələrdən istifadə edir. |
| **2.2.1.** Müzakirələrdə mövzuya, problemə, yazıçı mövqeyinə tənqidi münasibətini əsaslandırır, fərqli fi-kirlərə dözümlülük nümayiş etdirir. | • Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. |

### Dərsin gedişi

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi müsahibə və ya təqdimatların dinlənilməsi və müzakirəsi əsasında müəyyənləşdirilə bilər. *"Söz sənətimiz – milli sərvətimiz"* mövzusu üzrə sinifdə mənimsənilmiş biliklərin mənbələr əsasında hansı səviyyədə zənginləşdirildiyi, bu prosesdə qazanılmış bilik və bacarıqlar müəyyənləşdirilir, əsaslandırılmış nəticə çıxarılır və müvafiq qiymətləndirmə meyarlarına müraciət edilir.

Araşdırmaya dərslikdəki tapşırığın *(Şifahi xalq ədəbiyyatı barədə bildiklərinizi yada salıb yığcam müzakirə aparın)* icrası ilə başlanılır. Müzakirə zamanı məktəblilərin V–VIII siniflərdə folklor üzrə qazandıqları biliklərin, xüsusən əfsanə, nağıl, dastan janrlarına məxsus özəlliklərin yada salınması və bütün bunlara münasibət bildirilməsinə diqqət yetirilir.

Araşdırılacaq problem şagirdlərin fəal iştirakı ilə müəyyənləşdirilir: *Şifahi xalq ədəbiyyatının növ və janrları hansı özəl xüsusiyyətləri ilə fərqlənir?*

Araşdırma dərslikdəki sualların *(Şifahi xalq ədəbiyyatı nümunələrinin əhəmiyyətini nədə görürsünüz? Lirik folklor nümunələrini janr, mövzu, problem baxı-*



LAYİHƏ

*mından səciyyələndirən əsas xüsusiyyətlər hansılardır? Epik folklor janrlarının hansı səciyyəvi xüsusiyyətləri vardır? Dramatik növün janrlarının özəl xüsusiyyətləri hansılardır?)* və onların aydınlaşdırılmasına istiqamət verən cavabların – mətnin oxusu ilə davam etdirilir.

Mətnin oxusunu fərqli formalarda (səsli, səssiz və s.) həyata keçirmək mümkündür. Unudulmamalıdır ki, bu mövzu icmal xarakterlidir. Onun başlıca məqsədi əvvəlki illərdə şifahi xalq ədəbiyyatı ilə bağlı mənimsənilmiş biliklərin ümumiləşdirilməsi və yekunlaşdırılmasıdır. Oxuya ayrılan vaxtdan səmərəli istifadə etmək üçün kiçik qruplar yaradaraq mətndən parçaların oxusunu onlara həvalə etmək faydalıdır. Oxuya ayrılan vaxt başa çatdıqdan sonra aparılan məlumat mübadiləsi şagirdlərdə məzmunla bağlı aydın təsəvvürün yaranmasına səbəb olur.

Kiçik qruplara sualla bağlı dərslikdəki yığcam, istiqamətləndirici cavabla yanaşı, əvvəllər mənimsədikləri bilikləri də xatırlatmaqla fikir mübadiləsi və müzakirə aparmaq tövsiyə olunur. Əlavə ədəbiyyatdan istifadəyə, folklor nümunələrinin sinifdəcə nəzərdən keçirilməsinə şərait yaradılması vacibdir.

Şagirdlər ev tapşırığı qismində aparacaqları müstəqil araşdırmada mənbələrdən hansı məzmunda və həcmdə məlumat mənimsəyəcəklərini sinifdəki iş prosesində aydın təsəvvür etməlidirlər. Məsələn, *"Şifahi xalq ədəbiyyatı nümunələrinin əhəmiyyətini nədə görürsünüz?"* sualı ilə əlaqədar aşağıdakı istiqamətlərdə məlumatın mənimsənilməsi və dəyərləndirilməsi məqsədəuyğundur:

– folklor nümunələrinin xalqımızın dünyagörüşünün, bədii təfəkkürünün, poetik duyumunun məhsulu olması;
– folklor nümunələrinin milli və ümumbəşəri mənəvi dəyərləri yaşadan və aşılayan qüdrətli tərbiyə vasitəsi olması.
– şifahi xalq ədəbiyyatının ana dilinin zənginliyini, ifadəliliyini, bədiilik imkanlarını əks etdirən qiymətli məxəz olması;
– xalq yaradıcılığının yazılı ədəbiyyat üçün tükənməz mənbə olması.

*"Lirik folklor nümunələrini janr, mövzu, problem baxımından səciyyələndirən əsas xüsusiyyətlər hansılardır?"* sualı ilə əlaqədar mənbələrdən daha çox aşağıdakı məlumatların mənimsənilməsi və dəyərləndirilməsi faydalıdır:

– lirik folklorda daha çox insanın hiss və həyəcanının, ovqatının əks olunması;
– lirik folklorun mövzu, janr, problem baxımından müxtəlifliyi;
– lirik folklorda ictimai motivlərin mühüm yer tutması.

Şagirdlərə aydın olur ki, *"Epik folklor janrlarının hansı səciyyəvi xüsusiyyətləri vardır?"* sualı ilə əlaqədar mənbələrdən aşağıdakı məzmunda məlumatın əldə edilməsi və qiymətləndirilməsi əhəmiyyətlidir:

– epik folklor nümunələrinin lirik folklor nümunələri ilə oxşar və fərqli cəhətləri;
– epik əsərlərdə hadisələrin nağıl edilməsi, təhkiyə və təsvirin əsas yer tutması;
– əfsanə və nağılların oxşar və fərqli cəhətləri;
– əfsanə və rəvayətlərin oxşar və fərqli cəhətləri;
– epik folklorun kiçik janrlarının (tapmaca, atalar sözü və məsəllər və s.) səciyyəvi xüsusiyyətləri;
– epik-lirik əsər olan dastanın müxtəlif növlərinin (qəhrəmanlıq, məhəbbət dastanları) özünəməxsusluğu.



LAYİHƏ

Oxuya ayrılmış vaxt bitdikdən sonra təşkil edilən iş qrup təqdimatlarından – məlumat mübadiləsindən fərqlənə bilər. Bütün qrupların folklor nümunələri və onların janr xüsusiyyətləri ilə əvvəlki siniflərdən tanış olduqları nəzərə alınaraq birbaşa müzakirəyə başlamaq mümkündür. Müzakirə dərslikdəki ilk sualla başlanılır və şagirdlərin fəal iştirakı ilə bütün sualları əhatə edir. Müzakirədə qrupların bir-birinə vermək üçün hazırladıqları sualların və cavabların səsləndirilməsinə vaxt ayrılır. Müzakirənin diskussiya səciyyəsi almasına, şagirdlərin fikirlərini sərbəst ifadə etmələrinə, yaranan sualların cavabsız buraxılmamasına diqqət yetirilir.

İşin hansı formada təşkilindən asılı olmayaraq, ilkin nəticənin çıxarılmasına, ümumiləşdirmənin aparılmasına vaxt ayrılır. Təbiidir ki, şagirdlər mənbələr üzərində işləyərkən cavabları daha mükəmməl məzmun alır, gəldikləri nəticələr daha əhatəli olur. Məhz buna görə də müəllim növbəti dərsdə – ev tapşırığı ilə bağlı aparılan işdə məsələnin üzərinə qayıdılacağını şagirdlərə bir daha xatırladır.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə müəyyənləşdirilmiş meyarlar əsasında aparılır.

*Qiymətləndirmə meyarları:*

İstifadəetmə

Əsaslandırma, nümayişetdirmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla mövzu, problemlə bağlı təqdimat və çıxışlarında obrazlı ifadələrdən istifadə etməkdə çətinlik çəkir. | Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla mövzu, problemlə bağlı təqdimat və çıxışlarında suallar və müəllimin köməyi ilə obrazlı ifadələrdən istifadə edir. | Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla mövzu, problemlə bağlı təqdimat və çıxışlarında, əsasən, obrazlı ifadələrdən istifadə edir. | Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla mövzu, problemlə bağlı təqdimat və çıxışlarında obrazlı ifadələrdən istifadə edir. |
| Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırmaqda, fərqli fikirlərə dözümlülük nümayiş etdirməkdə çətinlik çəkir. | Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini suallar və müəllimin köməyi ilə əsaslandırır, fərqli fikirlərə qismən dözümlülük nümayiş etdirir. | Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə, əsasən, dözümlülük nümayiş etdirir. | Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. |

Müəllim dərslikdəki “Evdə iş” başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

LAYİHƏ

# QƏDİM DÖVR AZƏRBAYCAN ƏDƏBİYYATI

*Mövzu:* **Qədim dövr Azərbaycan ədəbiyyatı** – 1 saat

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **2.1.1.** Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla təqdimat və çıxışlarında obrazlı ifadələrdən istifadə edir. | • Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla mövzu, problemlə bağlı təqdimat və çıxışlarında obrazlı ifadələrdən istifadə edir. |
| **2.2.1.** Müzakirələrdə mövzuya, problemə, yazıçı mövqeyinə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. | • Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi müsahibə, yaxud təqdimatların dinlənilməsi, müzakirə olunması əsasında müəyyənləşdirilə bilər. Şifahi xalq ədəbiyyatının növ və janrları üzrə biliklərin mənbələr əsasında hansı səviyyədə zənginləşdirildiyi və dərinləşdirildiyi aşkara çıxarılır, müvafiq meyarlara müraciət edilir.

Mövzu üzrə işə şagirdlərin ədəbiyyat tarixinin bu dövrü barədəki məlumatlarının aşkara çıxarılması ilə başlanılır. Dərslikdəki tapşırıq: *"Qədim dövr Azərbaycan ədəbiyyatı, onun uğurları barədə ədəbiyyat dərslərində öyrəndiklərinizi yada salıb yığcam müzakirə aparın"* xatırladılır və müəllimin istiqamətləndirici sualları əsasında müzakirə aparılır. Şagirdlər VIII sinifdə qədim dövr ədəbiyyatı haqqında öyrəndiklərini müxtəlif mənbələrdən mənimsədiklərini xatırlatmaqla müzakirədə fəallıq göstərirlər. Azərbaycan ədəbiyyatı tarixinin bu dövrü ilə bağlı şagirdləri maraqlandıran məsələlər ortaya çıxır.

Müzakirə araşdırılacaq problemin müəyyənləşdirilməsinə imkan yaradır. Şagirdlərin fəal iştirakı ilə müəyyənləşdirilən **problem** sual şəklində ifadə edilir: "*Ən qədim zamanlardan X əsrə qədərki ədəbiyyatımız həmin dövrdə türk xalqlarının yaratdığı ədəbiyyatın öncüllərindən olmuşdur" fikrini doğru saymaq olarmı?* Sualın ziddiyyətli xarakterdə olması dərsin fərqli şəkildə təşkilinə imkan yaradır. Başqa sözlə, *müzakirə xəritəsi* metodundan istifadə etməklə dərsdə şagirdlərin yüksək fəallığına nail olmaq mümkündür. Bu metodun tətbiqi qaydaları barədə əvvəlki siniflərdə mənimsənilənlərin yada salınması vacibdir. Bu, işin səmərəli təşkilinə, vaxt itkisinin qarşısının alınmasına səbəb olur. İlk növbədə, dərslikdəki sualların *(Türk xalqlarının qədim dövrlərə aid ortaq ədəbiyyat nümunələri hansı xüsusiyyətləri ilə diqqəti cəlb edir? Xalqımızın qədim inanc və təsəvvürləri, bədii düşüncəsi "Avesta"da əksini necə tapmışdır? "Kitabi-Dədə Qorqud" dastanının möhtəşəm ədəbi-bədii hadisə sayılmasına səbəb nədir? VII–X əsrlər ədəbiyyatının hansı səciyyəvi xüsusiyyətləri vardır?)* aydınlaşdırılmasına istiqamət verən cavabların oxusuna vaxt ayrılır. Oxu prosesində şagirdlərin əlavə mənbələrdən istifadə etmələrinə şərait yaradılması vacibdir. Dərslikdə göstərilən mənbələrdən bəziləri, eləcə də müəllimin məqsədəuyğun saydıqları sinfə gətirilir və onlardan istifadə ilə bağlı



LAYİHƏ

tövsiyələr verilir. İşin icrasına ayrılan vaxt bitdikdən sonra şagirdlərə öz mövqelərini müəyyənləşdirmək, əsaslandıqları dəlilləri, faktları qaydaya salmaq təklif edilir. Sualdakı fikri doğru sayanlar cütlük şəklində birləşir və işlərini davam etdirirlər. Eləcə də sualdakı fikrin əleyhinə olanlar cütlüklər yaradaraq çalışırlar. İndi artıq hər iki tərəfin dəlilləri, faktları sayca daha çox olur. Fikirləri eyni, yaxud yaxın olan cütlər, müəllimin təklifi ilə kiçik qruplarda birləşib qənaətlərini bölüşürlər. Bu, şagirdlərə dəlil və faktlarını daha da dəqiqləşdirməyə imkan yaradır. Yalnız bundan sonra mövqelərin açıqlanması və dinlənilməsi həyata keçirilir. Bütün sinif hər bir qrupun mövqeyi barədə aydın təsəvvür qazanır. Bunun ardınca müzakirəyə başlanılır. Müzakirədə hər bir fakt, dəlil əhatəli təhlil edilir, onların əsaslandırılması diqqət mərkəzində saxlanılır.

Müzakirədə sinifdəki bütün şagirdlərin iştirakına çalışan müəllim, hər bir şagirdin fəaliyyəti barədə də aydın təsəvvür qazanır. Bu, qiymətləndirmə üçün vacibdir.

Müzakirənin sonunda qərar qəbul olunur və ümumiləşdirmə aparılır.

Sinfi əlavə mənbələrlə təmin etmək imkanı məhdud olarsa, müəllim dərsi fərqli variantda təşkil edə bilər. Bu halda müəyyənləşdirilmiş **problemi** aşağıdakı sual şəklində ifadə etmək məqsədəuyğundur: *Qədim dövr Azərbaycan ədəbiyyatı üçün səciyyəvi olan başlıca cəhətlər hansılardır?*

Araşdırma dərslikdəki sualların və onların aydınlaşdırılmasına istiqamət verən cavabların – mətnlərin oxusu ilə davam etdirilir.

Şagirdlər dörd qrupa ayrılır, hər qrupa bir sual təqdim edilir. Qruplara oxuduqları ilə bağlı fikir mübadiləsi və müzakirə aparmaq, mülahizələrini əsaslandırmaq üçün əvvəlki siniflərdə XIII əsrə qədərki ədəbiyyat üzrə qazandıqları biliklərdən bəhrələnmək, ayrı-ayrı janrlara aid bədii nümunələrdən misallar göstərmək təklif olunur.

İşin icrasına ayrılan vaxt başa çatdıqdan sonra kiçik qrupların təqdimatları əsasında **məlumat mübadiləsi** və **müzakirə** aparılır. Müzakirə diskussiya şəklində həyata keçirilir. Qədim dövr ədəbiyyatımızın səciyyəvi xüsusiyyətləri, inkişaf meyilləri, tanınmış nümayəndələrinin yaradıcılığı ilə bağlı fikir ayrılığına səbəb olan mülahizələr üzərində xüsusi dayanılır. Müzakirədə türk xalqlarının ortaq ədəbiyyatı, "Avesta", ərəbdilli və farsdilli ədəbiyyatımızla əlaqədar mübahisə doğuran məqamlara əsaslandırılmış münasibətin bildirilməsinə, söz sənətinin inkişafı ilə dövrün ictimai-siyasi vəziyyəti arasındakı bağlılığın aydınlaşdırılmasına diqqət yetirilir. Bu məsələlərlə əlaqədar şagirdlərin qədim dövr Azərbaycan tarixi, "Babək", "Nizami" bədii filmləri üzrə bilik və məlumatlarının xatırladılması məqsədəuyğundur.

Müzakirədə sərbəst fikir mübadiləsinə, söylənilən mülahizələrin diqqətlə dinlənilməsinə şərait yaradılır, hər bir tənqidi fikrin, fərqli mülahizənin əsaslandırılmasına nail olunur.

**Nəticə və ümumiləşdirmə** aparılarkən bütün qrupların təqdimatları üzrə əldə edilən qənaətlərin yekunlaşdırılması, sistemləşdirilməsi diqqət mərkəzində saxlanılır. Bu, qədim dövrlərdə ortaq türk ədəbiyyatının yaranmasının əhəmiyyəti, şifahi və yazılı ədəbiyyatımızın inkişaf meyilləri, dövrün ayrı-ayrı mərhələləri – ərəbdilli, farsdilli saray ədəbiyyatı üçün səciyyəvi olanlarla bağlı qazanılmış təsəvvürə aydınlıq gətirir. Dolğun təsəvvürün qazanılması isə mənbələr üzrə müstəqil araşdırmadan sonra mümkün olur.

Dərsin hansı variantda təşkilindən asılı olmayaraq, sinifdə öyrənilənlərin zənginləşdirilməsinin və tamamlanmasının zəruri olduğu şagirdlərə izah edilir.

LAYİHƏ

Mənbələrlə iş zamanı, məsələn: *Türk xalqlarının qədim dövrlərə aid ortaq ədəbiyyat nümunələri hansı xüsusiyyətləri ilə diqqəti cəlb edir?* sualı ilə bağlı aşağıdakı məlumatların mənimsənilməsi və dəyərləndirilməsi tövsiyə oluna bilər:

– türk xalqlarının şifahi və yazılı ədəbiyyatının yüzilliklər boyu ortaq səciyyə daşımasının səbəbləri;
– Orxon-Yenisey abidələrinin ilk ortaq türk yazılı abidələri olması;
– əski türk dastanlarının ("Oğuz Qağan", "Şu", "Alp Ər Tonqa") türk bədii təfəkkür və mənəviyyatını əks etdirməsi;
– ortaq türk ədəbiyyatının ədəbi-tarixi əhəmiyyəti.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə müəyyənləşdirilmiş meyarlar əsasında aparılır.

*Qiymətləndirmə meyarları:*
İstifadəetmə
Əsaslandırma, nümayişetdirmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla mövzu, problemlə bağlı təqdimat və çıxışlarında obrazlı ifadələrdən istifadə etməkdə çətinlik çəkir. | Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla mövzu, problemlə bağlı təqdimat və çıxışlarında suallar və müəllimin köməyi ilə obrazlı ifadələrdən istifadə edir. | Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla mövzu, problemlə bağlı təqdimat və çıxışlarında, əsasən, obrazlı ifadələrdən istifadə edir. | Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla mövzu, problemlə bağlı təqdimat və çıxışlarında obrazlı ifadələrdən istifadə edir. |
| Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırmaqda, fərqli fikirlərə dözümlülük nümayiş etdirməkdə çətinlik çəkir. | Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini suallar və müəllimin köməyi ilə əsaslandırır, fərqli fikirlərə qismən dözümlülük nümayiş etdirir. | Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə, əsasən, dözümlülük nümayiş etdirir. | Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. |

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

## *Mövzu:* **"Kitabi-Dədə Qorqud" eposu** – 1 saat

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **2.1.1.** Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla təqdimat və çıxışlarında obrazlı ifadələrdən istifadə edir. | • Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla mövzu, problem və bədii əsərlə bağlı təqdimat və çıxışlarında obrazlı ifadələrdən istifadə edir. |
| **2.2.1.** Müzakirələrdə mövzuya, problemə, yazıçı mövqeyinə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. | • Dastanla bağlı müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. |



LAYİHƏ

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi müxtəlif yollarla müəyyənləşdirilə bilər. Bu, tapşırığın xarakterindən, müəllimin məqsədindən və s. asılıdır. Keçmiş dərsin – "Azərbaycan şifahi xalq yaradıcılığı" mövzusu ilə bağlı mənbələrdən necə istifadə edildiyini, məlumatların hansı səviyyədə qavranıldığını aşkara çıxarmaq üçün təqdimatların dinlənilməsini və müzakirəsini təşkil etmək olar.

Müəllimin müvafiq qiymətləndirmə meyarlarından istifadə etməsi məqsədəuyğundur.

Araşdırmanın səmərəliliyi dərslikdəki sualların və onların aydınlaşdırılmasına istiqamət verən cavabların mənimsənilməsindən asılıdır. Bunun həyata keçirilməsi fərqli təlim metodu və iş formalarının tətbiqi ilə mümkündür. Lakin bütün hallarda mövzu ilə bağlı şagirdlərin mövcud bilik və bacarıqlarına müraciət edilməsi vacibdir. Bu məqsədlə şagirdlərin diqqəti dərslikdəki ilk tapşırığa cəlb edilir*: "Kitabı-Dədə Qorqud" dastanları ilə bağlı ədəbiyyat dərslərində öyrəndiklərinizi yada salıb yığcam müzakirə aparın.*

Müəllim istiqamətləndirici suallarla müzakirənin səmərəli keçməsinə nail olur və nəticədə araşdırılacaq problem müəyyənləşdirilir: *Dastana yüzillər boyu marağın azalmamasına səbəb nədir?*

Dərslikdəki sualların və onların aydınlaşdırılmasına istiqamət verən cavabların oxunmasına vaxt ayrılır. Bu, tədqiqatın aparılmasının başlanğıcı olmaqla mühüm mərhələdir. Mətnin oxusunu fərqli formalarda təşkil etmək olar. Məsələn, dərslikdəki beş sualı kiçik qruplara (hər qrupa bir sual ayırmaqla) təqdim etmək olar. Oxuya ayrılan vaxt başa çatdıqdan sonra qrupların təqdimatı əsasında **müzakirə** aparılır. Bunun ardınca **nəticənin çıxarılması** və **ümumiləşdirmə** həyata keçirilir.

Digər bir variant fərdi oxunun tətbiqi ola bilər. Oxu başa çatdıqdan sonra şagirdlər kiçik qruplarda birləşərək fikir mübadiləsi aparırlar. Yalnız bundan sonra kiçik qrupların təqdimatları əsasında **məlumat mübadiləsi** və **müzakirə aparmaq** mümkündür.

Dərslikdə təklif edilmiş variant şagirdlərin fəallığının artırılması, diqqətli olmaları baxımından daha əlverişlidir. Belə ki mətnin ayrı-ayrı qrup üzvləri tərəfindən oxunması, ümumiləşdirmə aparması, suallar verməsi geniş diskussiyaya yol açır.

Müəllim dərslikdəki cavabların sualları əhatə etmədiyinə diqqəti cəlb edir. Bununla da araşdırmanın dərslikdə göstərilmiş mənbələr əsasında davam etdirilməsinə, cavabların zənginləşdirilməsinə və tamamlanmasına ehtiyac olduğunu anlatmış olur. Hər sualın müzakirəsində mənbələrdən hansı məsələlərin öyrənilməsinə xüsusi diqqət yetirməyin vacib olduğu izah edilir. Məsələn, birinci sualın *("Kitabi-Dədə Qorqud" eposu nə vaxt yaranmışdır? Onun yaranma tarixinin mübahisəli olmasına səbəb nədir?)* mənbələrdən toplanmış məlumat əsasında genişləndirilməsinə ciddi ehtiyac var. Dastanın yaranma tarixi barədə fərqli fikirlərlə tanış olan şagirdlərdə digər mənbələrə də müraciət etmək meyli güclənir. Tədqiqat prosesində şagirdlər dastanın nə vaxt yazıya alınması, elm aləminə məlum olan nüsxələri, Dədə Qorqud obrazı barədə də məlumat əldə edirlər.

İkinci sualla (*Epos hansı mövzudadır? Onun ədəbiyyat tariximiz üçün əhəmiyyəti nədir?*) bağlı dərslikdə verilmiş məlumatın da genişləndirilməsi və tamamlanması vacibdir. Oğuzların birliyi, mübarizəsi, adət-ənənələri, doğma yurda, düşmənə münasibəti, əsərin ədəbiyyat tariximiz üçün əhəmiyyəti və s. bu sualın cavabına əlavə edilməlidir.



LAYİHƏ

Üçüncü sualın (*Dastanda əksini tapmış mühüm problemlər və başlıca ideyalar hansılardır?*) cavabı da mənbələrdəki məlumatların əsasında zənginləşdirilməli və tamamlanmalıdır. Dastanda qaldırılan və bədii həlli verilən problemlər çoxdur. Dərslikdə onlardan çox az qisminə toxunulmuşdur. Unudulmamalıdır ki, dastanın hər boyunda mühüm problemlərə münasibət əksini tapmış, onların bədii həlli verilmişdir. Doğma yurda, yurddaşlara məhəbbət, düşmənə nifrət, anaya, qadına, ailə münasibətlərinə hörmət, adət-ənənələrə rəğbət və s. dastanda bədii həllini tapan problemlərdəndir.

Dördüncü sual *(Eposdakı obrazların hansı səciyyəvi xüsusiyyətləri var? Onlardan hansılarını bir-biri ilə müqayisə etmək olar?)* daha geniş araşdırma tələb edir. Eposda onlarla maraqlı insan obrazları yaradılmışdır. Onların dastandakı mövqeyinə, xarakterlərindəki ümumi və fərdi xüsusiyyətlərə dərslikdə işarə edilmişdir. Şagirdlərə izah edilir ki, mənbələrdən əldə edilmiş məlumatlar həmin obrazları əhatəli səciyyələndirməyə, müqayisə etməyə və dəyərləndirməyə imkan verəcəkdir.

Nəhayət, sonuncu sual *(Dastanın mükəmməl bədii gözəlliyini necə əsaslandırmaq olar?)* maraqlı araşdırmaya meydan açır. Şagirdlərə aydın olmalıdır ki, ulu babalarımızın bədii düşüncəsinin məhsulu olan dastan xalqımızın yaşadığı tarixi dönəmi, mədəniyyətini, dünyagörüşünü, mənəvi dünyasını özündə yaşadan əvəzsiz abidədir. Dilimizin tarixini, zənginliyini və özəlliyini öyrənmək üçün mötəbər mənbə olan dastanın hər yeni nəsil tərəfindən tədqiq edilməsi ənənəyə çevrilmişdir.

Dastanın bədii xüsusiyyətləri ilə bağlı dərslikdə deyilənlərin dərinləşdirilməsi və əlavələrlə zənginləşdirilməsi barədə şagirdlərə istiqamət verilməlidir. Dərslikdən və mənbələrdən öyrəndiklərini konkret bir boyun (yaxşı olar ki, sinifdə öyrənilən “Salur Qazanın evinin yağmalandığı boy”un) üzərində müşahidə etməyin, nümunələr seçməyin əhəmiyyəti şagirdlərə xatırladılmalıdır.

Ədəbi qəhrəmanların nitqinə, məcazların dastana gətirdiyi gözəlliyə, təsvirlərdəki konkretliyə və orijinallığa diqqət yetirməyin, öz cavablarında əsərdəki obrazlı ifadələrdən istifadə etməyin vacib olması barədə şagirdlərə istiqamət verilir.

Sinifdə aparılan işin yekunlaşdırılması ilkin **nəticənin** çıxarılması şəklində həyata keçirilir. Nəticənin tamamlanması, ümumiləşdirmə növbəti dərsdə – ev tapşırığının yoxlanılmasında reallaşdırılır. Başqa sözlə, cavabların mənbələrdən əldə olunmuş məlumatla zənginləşdirilməsi və tamamlanması dolğun nəticənin çıxarılması üçün şərt olur.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə müəyyənləşdirilmiş meyarlar əsasında aparılır. Lakin qiymətləndirmə də növbəti dərsdə – ev tapşırığının yoxlanılmasında davam etdirilir.

*Qiymətləndirmə meyarları:* İstifadəetmə, əsaslandırma, nümayişetdirmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla mövzu, problem və bədii əsərlə bağlı təqdimat və çıxışlarında obrazlı ifadələrdən istifadə etməkdə çətinlik çəkir. | Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla mövzu, problem və bədii əsərlə bağlı təqdimat və çıxışlarında suallar və müəllimin köməyilə obrazlı ifadələrdən istifadə edir. | Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla mövzu, problem və bədii əsərlə bağlı təqdimat və çıxışlarında, əsasən, obrazlı ifadələrdən istifadə edir. | Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla mövzu, problem və bədii əsərlə bağlı təqdimat və çıxışlarında obrazlı ifadələrdən istifadə edir. |

LAYİHƏ

| | | | |
|---|---|---|---|
| Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırmaqda, fərqli fikirlərə dözümlülük nümayiş etdirməkdə çətinlik çəkir. | Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini suallar və müəllimin köməyi ilə əsaslandırır, fərqli fikirlərə qismən dözümlülük nümayiş etdirir. | Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə, əsasən, dözümlülük nümayiş etdirir. | Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. |

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

## *Mövzu:* **Salur Qazanın evinin yağmalandığı boy (ixtisarla)** – 4 saat
### *Birinci saat:* **Məzmun üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.1.1.** Müxtəlif vəznli şeirlərdə (heca, əruz, sərbəst) və süjetli əsərlərdə (dastan, poema, hekayə, povest, roman, dram, komediya, faciə) tanış olmayan sözlərin mənasını mənşəyinə və işlənmə məqamına görə izah edir. | • Boyda tanış olmayan sözlərin mənasını mənşəyinə və işlənmə məqamına görə izah edir. |
| **1.1.4.** Müxtəlif ədəbi növ və janrda olan bədii nümunələrdə əksini tapmış mühüm mənəvi, əxlaqi-etik dəyərləri müəyyənləşdirir. | • Boyda əksini tapmış mühüm mənəvi, əxlaqi-etik dəyərləri müəyyənləşdirir. |
| **1.1.5.** Müxtəlif vəznli (heca, əruz) şeirlərdə, mürəkkəb süjet və kompozisiyalı bədii nümunələrdə bədii təsvir və ifadə vasitələrini (epitet, bənzətmə, metafor, metonimiya, simvol, mübaliğə, litota, bədii sual, təkrir, bədii təzad, inversiya) müəyyənləşdirir. | • Boyda məcazları müəyyənləşdirir. |

### Dərsin gedişi

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi müəyyənləşdirilərkən şagirdlərin mənbələrdən necə bəhrələndiklərini aşkara çıxarmaq vacibdir. Başqa sözlə, şagirdlərin keçən dərsdə üzərində işlədikləri beş sualın hər biri ilə bağlı yeni nə öyrəndikləri müxtəlif metod və iş formalarının tətbiqi ilə müəyyənləşdirilib qiymətləndirilir. Ardıcıl olaraq hər sualın üzərində dayanılır. "Kitabi-Dədə Qorqud" eposunun tarixi mənbə olaraq əhəmiyyəti, incəsənətin müxtəlif növləri üçün mənbə olması ilə bağlı söylənilənlərin müzakirəsinə xüsusi diqqət yetirilir.

Bu, müsahibənin tətbiqi, təqdimatların dinlənilməsi və müzakirə edilməsi ilə həyata keçirilə bilər. Çoxlu sayda təqdimatların dinlənilməsi vacib deyildir. Dinlənilən təqdimatlara digər şagirdlərin münasibəti real vəziyyəti aşkara çıxarmağa imkan verir.

Qeyd edildiyi kimi, bu mərhələdə nəticənin tamamlanması, formativ qiymətləndirmənin aparılmasına da diqqət yetirilir.

**Motivasiya, problemin qoyuluşu.** Bu mərhələdə təşkil olunan iş fərqli məzmunda ola bilər. Şagirdlərin dastanla bağlı mövcud biliklərinə əsaslanmaqla suallar-

LAYİHƏ

dan istifadə, bədii filmdən fraqmentlərin nümayişi və s. motivasiyanın yaradılması məqsədi ilə istifadə oluna bilər. Nəticədə tədqiqat sualı müəyyənləşdirilmiş olur.

**Tədqiqat sualı:** "Sarsılmaz birliyin qarşısında ən güclü düşmən də acizdir" fikri, sizcə, boyun ideya-məzmunu ilə səsləşirmi?

Fərziyyələr dinlənilir və qeyd edilir.

Boydan dərslikdə verilmiş parçanın oxusu ilə **tədqiqatın aparılmasına** başlanılır. Oxunu fərqli formalara təşkil etmək olar. Şagirdlər boyu dərsə qədər mütaliə etdikləri üçün fərdi oxunun tətbiqi məqsədəuyğundur. Tanış olmayan sözlərin mənasının və məcazların müəyyənləşdirilməsinin vacib olduğu şagirdlərə əvvəlcədən xatırladılır.

Oxu prosesində şagirdlərin qarşılaşdığı çətinliklər müəllimin istiqamətləndirici sualları ilə aradan qaldırılır.

Oxu başa çatdıqdan sonra kiçik qruplarda birləşən şagirdlər parçanın məzmunu, tanış olmayan sözlər və müəyyənləşdirdikləri məcazlarla bağlı fikir mübadiləsi aparır, təəssüratlarını ikihissəli gündəlikdə qeyd edirlər. Kiçik qruplar, həmçinin dərslikdə təklif edilmiş sualların cavabı ilə bağlı qənaətlərini bölüşürlər. Yalnız bundan sonra kiçik qrupların təqdimatı əsasında **məlumat mübadiləsi** və **müzakirə** aparılır.

Müzakirədə boyun məzmununun hansı səviyyədə mənimsənilməsi ilə yanaşı, tanış olmayan sözlərin mənasının və məcazların necə müəyyənləşdirildiyi də diqqət mərkəzində saxlanılır.

Oxu ilə bağlı aparılmış işə yekun (əsərin məzmunu bütövlükdə öyrənildikdən sonra – ikinci dərs saatında nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması həyata keçirilir) vurulur.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə müəyyənləşdirilmiş meyarlar əsasında aparılır.

*Qiymətləndirmə meyarları:*

İzahetmə

Müəyyənləşdirmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Tanış olmayan sözlərin mənşəyinə və işlənmə məqamına görə mənasını izah etməkdə çətinlik çəkir. | Tanış olmayan sözlərin mənşəyinə və işlənmə məqamına görə mənasını suallar verməklə və kömək əsasında izah edir. | Tanış olmayan sözlərin mənşəyinə və işlənmə məqamına görə mənasını, əsasən, izah edir. | Tanış olmayan sözlərin mənşəyinə və işlənmə məqamına görə mənasını izah edir. |
| Boyda əksini tapmış mühüm mənəvi, əxlaqi-etik dəyərləri müəyyənləşdirməkdə çətinlik çəkir. | Boyda əksini tapmış mühüm mənəvi, əxlaqi-etik dəyərləri müəllimin köməyi ilə müəyyənləşdirir. | Boyda əksini tapmış mühüm mənəvi, əxlaqi-etik dəyərləri, əsasən, müəyyənləşdirir. | Boyda əksini tapmış mühüm mənəvi, əxlaqi-etik dəyərləri müəyyənləşdirir. |
| Boyda məcazları müəyyənləşdirməkdə çətinlik çəkir. | Boyda məcazları suallar verməklə və kömək əsasında müəyyənləşdirir. | Boyda məcazları, əsasən, müəyyənləşdirir. | Boyda məcazları müəyyənləşdirir. |

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.



LAYİHƏ

*Mövzu:* **Salur Qazanın evinin yağmalandığı boy** – 4 saat
*İkinci saat:* **Məzmun üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.1.1.** Müxtəlif vəznli şeirlərdə (heca, əruz, sərbəst) və süjetli əsərlərdə (dastan, poema, hekayə, povest, roman, dram, komediya, faciə) tanış olmayan sözlərin mənasını mənşəyinə və işlənmə məqamına görə izah edir. | • Boyda tanış olmayan sözlərin mənasını mənşəyinə və işlənmə məqamına görə izah edir. |
| **1.1.4.** Müxtəlif ədəbi növ və janrda olan bədii nümunələrdə əksini tapan mühüm mənəvi, əxlaqi-etik dəyərləri müəyyənləşdirir. | • Boyda əksini tapmış mühüm mənəvi, əxlaqi-etik dəyərləri müəyyənləşdirir. |
| **1.1.5.** Müxtəlif vəznli (heca, əruz) şeirlərdə, mürəkkəb süjet və kompozisiyalı bədii nümunələrdə bədii təsvir və ifadə vasitələrini (epitet, bənzətmə, metafor, metonimiya, simvol, mübaliğə, litota, bədii sual, təkrir, bədii təzad, inversiya) müəyyənləşdirir. | • Boyda məcazları müəyyənləşdirir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsini işi fərqli variantlarda təşkil etməklə aşkara çıxarmaq olar. Lakin bütün hallarda öncə “Salur Qazanın evinin yağmalanması” boyundan oxunmuş parçanın məzmunu ilə bağlı yığcam müsahibənin aparılması məqsədəuyğundur. Bu, ev tapşırığının hansı səviyyədə yerinə yetirilməsi barədə müəllimin ilkin təsəvvür qazanmasına imkan yaradır və beləliklə, sonrakı işlərin səmərəli təşkili mümkün olur.

Dərslikdəki tövsiyəni əsas götürən müəllim kiçik qruplar yaradır. Bütün qruplar eyni işi icra edir: şagirdlər tanış olmayan sözləri lüğətlərdən istifadə edərək mənşəyinə, işlənmə məqamına görə aydınlaşdırır, üzərində dayandıqları məcazların növünü dəqiqləşdirirlər. Şagirdlər ikihissəli gündəlik üzrə işləməklə mətnə daha dərindən nüfuz edir, əhvalat və hadisələrə şəxsi münasibətlərini müəyyənləşdirirlər. Kiçik qruplar, həmçinin dərslikdə təklif edilmiş suallara cavab hazırlayır, bununla bağlı təqdimatlarında qeydlər edirlər.

Kiçik qrupların təqdimatları əsasında **məlumat mübadiləsi** və **müzakirə** aparılır. Müzakirədə ideyanın açılmasında əhəmiyyətli olan təsvirlərin, epizodların üzərində dayanılmasına, onlara münasibət bildirilməsinə diqqət yetirilir. Bunun uğurla həyata keçirilməsində dərslikdəki suallar əhəmiyyətli rol oynasa da, müəllimin istiqamətləndirici suallarına da ehtiyac vardır. Zahirən xırda görünən, əslində, obrazların və boydakı başlıca fikirlərin başa düşülməsində əhəmiyyətli olan təsvirlərə diqqətin cəlb edilməsi faydalıdır. Məsələn, düşmənin məkrli niyyətindən xəbər tutan Burla xatunun təlaşa düşməsi, ağıllı tədbiri ilə kafirləri çaşdırması, oğlu Uruzla söhbəti həm bu obrazların, həm də boydakı ideyanın başa düşülməsində az rol oynamır.

Boyda şagirdlərə tanış olmayan yer adları (Amit, Mərdin), arxaik sözlər (sası, aznavur, çovkan, batman), alınmalar (fani, rükət) işlənmişdir. Müzakirədə diqqət bu sözlərə, eləcə də boydakı məcazlara cəlb edilir.



LAYİHƏ

Deyilmiş fikirlərin vahid ideya şəklinə salınması **nəticənin çıxarılması** və **ümumiləşdirmənin aparılması** mərhələsində həyata keçirilir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə müəyyənləşdirilmiş meyarlar əsasında aparılır.

*Qiymətləndirmə meyarları:*

İzahetmə

Müəyyənləşdirmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Tanış olmayan sözlərin mənşəyinə və işlənmə məqamına görə mənasını izah etməkdə çətinlik çəkir. | Tanış olmayan sözlərin mənşəyinə və işlənmə məqamına görə mənasını suallar verməklə və kömək əsasında izah edir. | Tanış olmayan sözlərin mənşəyinə və işlənmə məqamına görə mənasını əsasən izah edir. | Tanış olmayan sözlərin mənşəyinə və işlənmə məqamına görə mənasını izah edir. |
| Boyda əksini tapmış mühüm mənəvi, əxlaqi-etik dəyərləri müəyyənləşdirməkdə çətinlik çəkir. | Boyda əksini tapmış mühüm mənəvi, əxlaqi-etik dəyərləri müəllimin köməyi ilə müəyyənləşdirir. | Boyda əksini tapmış mühüm mənəvi, əxlaqi-etik dəyərləri, əsasən, müəyyənləşdirir. | Boyda əksini tapmış mühüm mənəvi, əxlaqi-etik dəyərləri müəyyənləşdirir. |
| Boyda məcazları müəyyənləşdirməkdə çətinlik çəkir. | Boyda məcazları suallar verməklə və kömək əsasında müəyyənləşdirir. | Boyda məcazları, əsasən, müəyyənləşdirir. | Boyda məcazları müəyyənləşdirir. |

Müəllim dərslikdəki “Evdə iş” başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

## *Mövzu:* Salur Qazanın evinin yağmalandığı boy – 4 saat
## *Üçüncü saat:* Təhlil üzrə iş

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.1.3.** Mürəkkəb süjetli və kompozisiyalı bədii nümunələri hissələrə ayırır, plan tərtib edir, məzmununu müxtəlif formalarda (geniş, yığcam, yaradıcı) nağıl edir. | • Boyu hissələrə ayırır, seçdiyi hissənin məzmununu hazırladığı plan əsasında yığcam, yaradıcı nağıl edir. |
| **1.2.2.** Davranış və əməllərinə, başqaları ilə qarşılıqlı münasibətlərinə, yazıçının mövqeyinə, digər surətlərin mühakimələrinə əsaslanmaqla obrazları təhlil edir. | • Davranış və əməllərindən, başqaları ilə qarşılıqlı münasibətlərindən, digər surətlərin mühakimələrindən çıxış etməklə boydakı qəhrəmanları təhlil edir. |
| **1.2.3.** Müxtəlif vəznli (heca, əruz, sərbəst) şeirlərdə, süjetli ədəbi nümunələrdə bədii təsvir və ifadə vasitələrinin obrazlılığın yaradılmasındakı rolunu aydınlaşdırır və münasibət bildirir. | • Boydakı məcazların obrazlılığın yaradılmasındakı rolunu aydınlaşdırır və münasibət bildirir. |
| **1.2.4.** Bədii nümunələrin mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün sosial-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə təhlil edir və nəticə çıxarır. | • Boyun mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün sosial-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə təhlil edir və nəticə çıxarır. |



LAYİHƏ

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilməsi və müzakirəsi əsasında müəyyənləşdirilir. Yığcam və yaradıcı nağıletmənin tələblərinə şagirdlərin necə əməl etdiklərinə diqqət edən müəllimin müvafiq qiymətləndirmə meyarlarından istifadə etməsi vacibdir.

**Motivasiya, problemin qoyuluşu.** Motivasiyanı müxtəlif yollardan istifadə etməklə yaratmaq olar. Bunlardan biri sualların tətbiqidir. Müəllim yığcam müsahibə aparır, diqqəti *"Kitabi-Dədə Qorqud" dastanı bizə nə öyrədir?"* sualına yönəldir. Sual əsasında aparılan müzakirə tədqiqat sualının formalaşdırılmasına imkan yaradır.

**Tədqiqat sualı:** Boyda ifadə olunmuş hansı ideyalar bu gün üçün önəmli sayıla bilər?

Fərziyyələr dinlənilib, qeyd edilir.

**Tədqiqatın aparılmasına** dərslikdəki sualların və onların araşdırılmasına istiqamət verən cavabların oxusu ilə başlanılır. Oxunu fərqli formalarda aparmaq mümkündür. Vaxta qənaət olunması, səmərəli müzakirənin aparılması baxımından hər sualın bir qrupa həvalə edilməsi məqsədəuyğundur. Dərslikdəki üç sual, əslində, təhlillə bağlı bütün mühüm məsələləri əhatə edir. Onların cavabı ilə bağlı dərslikdə əks olunanların tamamlanması və zənginləşdirilməsi isə vacibdir. Bu, əsasən, mənbələrdən əldə edilmiş məlumat əsasında mümkündür. Oxudan əvvəl şagirdlərə izah olunur ki, əsərin məzmunu ilə bağlı qazanılmış məlumatlardan bəhrələnmək lazımdır. Başqa sözlə, dərslikdə sualların cavabı kimi əks olunanlara məzmun üzrə qazanılmış məlumatlara əsaslanmaqla əlavələr etmək mümkündür. İstər oxu, istərsə də müzakirə prosesində hər sualla bağlı hansı istiqamətdə araşdırma aparmağın və hansı məzmunda əlavələr etməyin lazım olması barədə şagirdlərdə aydın təsəvvür yaradılmalıdır. Məsələn, *"Boy hansı mövzudadır?"* sualı ilə bağlı dərslikdəki fikrin konkretləşdirilməsi vacibdir. Yaxud ideyanın aydınlaşdırılması üzrə sualın cavabı kimi boydakı başlıca fikirlərdən yalnız biri qeyd edilmişdir. Deməli, sualın cavabının tamamlanması vacibdir. Eləcə də boydakı obrazların təhlili, bədiilik, obrazlılıq vasitələrinin rolunun aydınlaşdırılması ilə bağlı sualların dərslikdəki cavabı əhəmiyyətli dərəcədə zənginləşdirilməlidir. Mətndən görünür ki, obrazların hər biri haqqında dərslikdə məhdud həcmdə danışılmışdır.

Boydakı obrazlardan ikisinin müqayisəli səciyyələndirilməsinə, bədii təsvir və ifadə vasitələrinin rolunun nümunələr əsasında aydınlaşdırılmasına xüsusi diqqət yetirilir.

**Nəticə, ümumiləşdirmə** mərhələsində müəllim istiqamətləndirici suallardan istifadə edə bilər. Bu, deyilənlərin bir ideya şəklinə salınmasında əhəmiyyətli rol oynayır. Çıxarılmış nəticələrin irəli sürülən fərziyyələrlə müqayisə edilməsinə də vaxt ayrılır.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə müəyyənləşdirilmiş meyarlar əsasında aparılır.

*Qiymətləndirmə meyarları:*

Hissələrəayırma, plan tərtibetmə, nağıletmə

Təhliletmə

Aydınlaşdırma, münasibətbildirmə

Təhliletmə, nəticəçıxarma



LAYİHƏ

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Boyu hissələrə ayırır, seçdiyi hissənin planını tərtib etməkdə, məzmununu yığcam, yaradıcı nağıl etməkdə çətinlik çəkir. | Boyu hissələrə ayırır, seçdiyi hissənin planını suallar verməklə və kömək əsasında tərtib edir, məzmununu qismən yığcam, yaradıcı nağıl edir. | Boyu hissələrə ayırır, seçidiyi hissənin planını tərtib edir, məzmununu əsasən yığcam, yaradıcı nağıl edir. | Boyu hissələrə ayırır, seçdiyi hissənin planını tərtib edir, məzmununu yığcam, yaradıcı nağıl edir. |
| Boydakı ədəbi qəhrəmanları davranış və əməllərinə, başqaları ilə qarşılıqlı münasibətlərinə, digər surətlərin mühakimələrinə əsaslanmaqla təhlil etməkdə çətinlik çəkir. | Boydakı ədəbi qəhrəmanları davranış və əməllərinə, başqaları ilə qarşılıqlı münasibətlərinə, digər surətlərin mühakimələrinə əsaslanmaqla qismən təhlil edir. | Boydakı ədəbi qəhrəmanları davranış və əməllərinə, başqaları ilə qarşılıqlı münasibətlərinə, digər surətlərin mühakimələrinə əsaslanmaqla, əsasən, təhlil edir. | Boydakı ədəbi qəhrəmanları davranış və əməllərinə, başqaları ilə qarşılıqlı münasibətlərinə, digər surətlərin mühakimələrinə əsaslanmaqla təhlil edir. |
| Boydakı məcazların obrazlılığın yaradılmasındakı rolunu aydınlaşdırmaqda və münasibət bildirməkdə çətinlik çəkir. | Boydakı məcazların obrazlılığın yaradılmasındakı rolunu müəllimin köməyi ilə aydınlaşdırır, münasibət bildirməkdə çətinlik çəkir. | Boydakı məcazların obrazlılığın yaradılmasındakı rolunu, əsasən, aydınlaşdırır və münasibət bildirir. | Boydakı məcazların obrazlılığın yaradılmasındakı rolunu aydınlaşdırır və münasibət bildirir. |
| Boyun mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün sosial-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə təhlil etməkdə və nəticə çıxarmaqda çətinlik çəkir. | Boyun mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün sosial-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə suallar və müəllimin köməyi ilə təhlil edir və nəticə çıxarır. | Boyun mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün sosial-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə, əsasən, təhlil edir və nəticə çıxarır. | Boyun mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün sosial-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə təhlil edir və nəticə çıxarır. |

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

## *Mövzu:* **Salur Qazanın evinin yağmalandığı boy** – 4 saat
## *Dördüncü saat:* **Tətbiq. Müzakirə. Yaradıcı iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.2.1.** Müxtəlif vəznli şeirləri (heca, əruz, sərbəst) və süjetli bədii nümunələri (dastan, poema, hekayə, povest, roman, dram, komediya, faciə) janr, dil baxımından müqayisə edir. | • Dastanla poemanı janr və dil baxımından müqayisə edir. |



LAYİHƏ

| | |
|---|---|
| **1.2.4.** Bədii nümunələrin mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün sosial-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə təhlil edir və nəticə çıxarır. | • Boyun mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün sosial-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə təhlil edir və nəticə çıxarır. |
| **3.1.1.** Yaradıcı yazıların məzmununa uyğun üslub müəyyənləşdirir, müxtəlif mənbələrdən seçdiyi inandırıcı faktlardan istifadə edir. | • İnşanın, essenin məzmununa uyğun üslub müəyyənləşdirir, müxtəlif mənbələrdən seçdiyi inandırıcı faktlardan istifadə edir. |
| **3.1.2.** Müşahidələrinə, əlavə məlumatlara əsaslanmaqla əsərin ideyasına, probleminə münasibət bildirir, ümumiləşdirmələr aparır, nəticə çıxarır. | • Müşahidələrinə, əlavə məlumatlara əsaslanmaqla boyun ideyasına, probleminə münasibət bildirir, ümumiləşdirmələr aparır, nəticə çıxarır. |
| **3.1.3.** 3-3,5 səhifə həcmində nəqli, təsvir, təhlil xarakterli mətnlər (ədəbi və sərbəst mövzuda inşa, esse, məruzə) yazır. | • Təhlil xarakterli inşa, esse yazır. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi müsahibə, təqdimatların dinlənilməsi və müzakirəsi əsasında müəyyənləşdirilə bilər. Mənbələrdən toplanmış məlumatların hansı səviyyədə mənimsənilməsi, dərslikdən öyrənilənlərlə necə əlaqələndirilməsi diqqət mərkəzində saxlanılır. Boyda dövrün hansı mühüm ictimai və siyasi münasibətlərinin öz əksini tapması, obrazların önəm verdiyi mənəvi-əxlaqi dəyərlərlə bağlı fikirlərin müzakirəsi aparılır. Bu prosesdə müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu.** Dərsdə vaxtın çoxu yazı işinin yerinə yetirilməsinə ayrılır. Şagirdlərin diqqəti dərslikdə təklif olunmuş mövzulara yönəldilir: *"Oğuzların düşmənə qalib gəlməsinin səbəbini nədə görürəm"* (inşa), *"Oğuz igidləri və xanımları barədə düşüncələrim"*(esse).

Şagirdlərin inşa və esse ilə bağlı bilik və bacarıqlarının yada salınması məqsədi ilə yığcam müsahibə aparılır. Bu, tədqiqat sualının formalaşdırılması ilə yekunlaşdırılır.

**Tədqiqat sualı:** Təhlil xarakterli inşa və essenin başlıca xüsusiyyətləri hansılardır?

Fərziyyələr dinlənilir və qeyd edilir.

Yazı işlərinin yerinə yetirilməsi **tədqiqatın aparılması** mərhələsi kimi qəbul olunur.

İşə başlamazdan əvvəl yığcam müsahibə aparılır. Müxtəlif mənbələrdən seçilmiş faktlardan inşada necə istifadə ediləcəyinə aydınlıq gətirilir. Eləcə də boyda ifadə edilmiş ideyalara, problemlərə münasibət bildirərkən şəxsi təəssürat və əlavə məlumatlara əsaslanmağın yolları müəyyənləşdirilir. Bu məqamda xüsusi diqqət yetirilməli olan məsələ yazının icrasında fikrin ifadə tərzinin, üslubun müəyyənləşdirilməsidir. Şagirdlərə artıq məlumdur ki, essedən fərqli olaraq, inşada elmi üslub daha güclü və aparıcı olur. Müxtəlif mənbələrdən əldə olunmuş məlumatların saf-çürük edilməsi, daha tutarlı, inandırıcı olanlardan istifadə edilməsi inşada elmi üs-



LAYİHƏ

lubun çalarlarını xeyli zənginləşdirir. Essedə obrazlılığa, məcazlardan gen-bol istifadəyə, fikrin sərbəst ifadəsinə, şəxsi hiss və təəssüratın çatdırılmasına daha geniş yer verilməsi isə üslubda bədii çalarların güclənməsinə səbəb olur. Müsahibədə məsələnin bu cəhətinə xüsusi diqqət yetirilməsi məqsədəuyğundur.

İşin icrasına ayrılan vaxt başa çatdıqdan sonra yazıdan nümunələrin təqdimatlar əsasında müzakirə edilməsi faydalıdır. Bu, dolğun **nəticənin** çıxarılmasına, **ümumiləşdirmənin** aparılmasına imkan verir.

Dərsin səmərəli təşkili dərslikdə təklif edilmiş növbəti tapşırığın (dastanla poemanın janr baxımından müqayisəsi) icrasına vaxt ayırmağa imkan verir. Dastan və poema janrı barədə kifayət qədər məlumatı olan şagirdlər müəllimin təklifi ilə müzakirədə həvəslə iştirak edirlər.

Yazı işinin və müzakirənin hansı formada təşkilindən asılı olmayaraq, şagirdlərin fərdi qiymətləndirilməsi həyata keçirilə bilər. Bu, dərsdə reallaşdırılmış məzmun standartlarına müvafiq olaraq müəyyənləşdirilən meyarlar əsasında həyata keçirilir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə müəyyənləşdirilmiş meyarlar əsasında aparılır.

*Qiymətləndirmə meyarları:*

Müqayisəetmə

Təhliletmə, nəticəçıxarma

Müəyyənləşdirmə, istifadəetmə

Münasibətbildirmə, ümumiləşdirməaparma, nəticəçıxarma

İnşayazma, esseyazma

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Dastanı janr və dil baxımından poema ilə müqayisə etməkdə çətinlik çəkir. | Dastanı janr və dil baxımından poema ilə müəllimin köməyi ilə müqayisə edir. | Dastanı janr və dil baxımından poema ilə, əsasən, müqayisə edir. | Dastanı janr və dil baxımından poema ilə müqayisə edir. |
| Boyun mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün sosial-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə təhlil etməkdə və nəticə çıxarmaqda çətinlik çəkir. | Boyun mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün sosial-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə suallar və müəllimin köməyi ilə təhlil edir və nəticə çıxarır. | Boyun mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün sosial-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə, əsasən, təhlil edir və nəticə çıxarır. | Boyun mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün sosial-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə təhlil edir və nəticə çıxarır. |
| İnşanın, essenin məzmununa uyğun üslub müəyyənləşdirməkdə, müxtəlif mənbələrdən inandırıcı faktlar seçməkdə və istifadə etməkdə çətinlik çəkir. | İnşanın, essenin məzmununa uyğun üslub müəyyənləşdirməyi, müxtəlif mənbələrdən inandırıcı faktlar seçməyi və istifadəni suallar və müəllimin köməyi ilə reallaşdırır. | İnşanın, essenin məzmununa uyğun üslub müəyyənləşdirməyi, müxtəlif mənbələrdən inandırıcı faktlar seçməyi və istifadəni, əsasən, reallaşdırır. | İnşanın, essenin məzmununa uyğun üslub müəyyənləşdirməyi, müxtəlif mənbələrdən inandırıcı faktlar seçməyi və istifadəni reallaşdırır. |



LAYİHƏ

| | | | |
|---|---|---|---|
| Müşahidələrinə, əlavə məlumatlara əsaslanmaqla boyun ideyasına, probleminə münasibət bildirməkdə, ümumiləşdirmə aparmaqda, nəticə çıxarmaqda çətinlik çəkir. | Müşahidələrinə, əlavə məlumatlara əsaslanmaqla boyun ideyasına, probleminə münasibət bildirməyi, ümumiləşdirmə aparmağı, nəticə çıxarmağı suallar və müəllimin köməyi ilə reallaşdırır. | Müşahidələrinə, əlavə məlumatlara əsaslanmaqla boyun ideyasına, probleminə münasibət bildirməyi, ümumiləşdirmə aparmağı, nəticə çıxarmağı, əsasən, reallaşdırır. | Müşahidələrinə, əlavə məlumatlara əsaslanmaqla boyun ideyasına, probleminə münasibət bildirməyi, ümumiləşdirmə aparmağı, nəticə çıxarmağı reallaşdırır. |
| Təhlil xarakterli inşa, esse yazmada çətinlik çəkir. | Təhlil xarakterli inşanı, esseni mövzunu qismən əhatə etməklə, fikrin ifadəsində məntiqilik və ardıcıllığı gözləməklə yazır. | Təhlil xarakterli inşanı, esseni mövzunu, əsasən, əhatə etməklə, fikrin ifadəsində məntiqilik və ardıcıllığı gözləməklə yazır. | Təhlil xarakterli inşanı, esseni mövzunu əhatə etməklə, fikrin ifadəsində məntiqilik və ardıcıllığı gözləməklə yazır. |

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

## İNTİBAH DÖVRÜ AZƏRBAYCAN ƏDƏBİYYATI

### İntibah dövrü ədəbiyyatı – 1 saat

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **2.1.1.** Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla təqdimat və çıxışlarında obrazlı ifadələrdən istifadə edir. | Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla mövzu, problemlə bağlı təqdimat və çıxışlarında obrazlı ifadələrdən istifadə edir. |
| 2.2.1. Müzakirələrdə mövzuya, problemə, yazıçı mövqeyinə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. | Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi müsahibə və ya təqdimatların dinlənilməsi, müzakirə olunması əsasında müəyyənləşdirilə bilər. Şagirdlər təkmilləşdirdikləri yazı işləri ilə bağlı təqdimat edirlər. Yazılardan nümunələrin səsləndirilməsinə, mətnə – dastana daha çox istinad edilməsinə diqqət yetirilir.

Dastan və poema janrlarının müqayisəsi üzrə hazırlanmış təqdimatların dinlənilməsi və müzakirəsinə vaxt ayrılır. Müzakirədə daha çox şagirdin iştirak etməsi təmin olunur. Müvafiq qiymətləndirmə meyarlarına müraciət edilməsi məqsədəuyğundur.

LAYİHƏ

Araşdırmaya şagirdlərin intibah dövrü ilə bağlı məlumatlarının aşkara çıxarıması ilə başlanılır. Dərslikdəki sual *(İntibah dövrü ilə bağlı tarix fənnindən, dugər mənbələrdən öyrəndiklərinizi yada salıb yığcam müzakirə aparın)* xatırladılır. Şagirdlərin mövcud bilikləri həmin sual əsasında yığcam müsahibənin aparılmasına imkan verir. Müsahibənin uğurlu olmasına aşağı siniflərdə ədəbiyyat fənnindən mənimsənimiş biliklər əhəmiyyətli dərəcədə təsir edir. BİBÖ cədvəlinin ilk iki sütununda müvafiq qeydlər edilir. Müsahibənin sonunda problemin müəyyənləşdirilməsinə imkan yaranır: "Hansı əsaslara görə XI-XII yüzillikləri intibah dövrü saymaq olar?"

Problemin araşdırılmasını fərqli varintlarda təşkil etmək mümkündür. Dərslikdə təklif edilmiş tapşırıq əsasında işin təşkili şagirdlərin fəallaşmasına, müstəqil fikir söyləmələrinə səbəb olur. İlk növbədə dərslikdəki sual ( İntibah dövrü ilə bağlı tarix fənnindən, digər mənbələrdən öyrəndiklərinizi yada salıb yığcam müzakirə aparın) əsasında yığcam müsahibə aparır. "İntibah" anlayışının açıqlanması, həmin dövrdə ölkənin ictimai-mədəni həyatında müşahidə edilən güclü yeniləşmə, inkişaf meyilləri, ədəbiyyatda humanist ideyaların üstünlük təşkil etməsi və s. müzakirənin canlı, diskussiya xarakterli olmasına imkan yaradır.

Şagirdlər müəllimin təklifi ilə BİBÖ cədvəlinin ilk iki sütununda müvafiq qeydlər edirlər.

Tapşırığın sonrakı tələbləri fərdi olaraq yerinə yetirilə bilər. Mətnkənarı sualların cavablarını – dərslikdəki mətni oxuyan şagirdlər öyrəndiklərini ümumiləşdirib qısaca qeyd edirlər. Bu, şagirdləri mətnə dərindən nüfuz etməyə, onun üzərində ətraflı düşünməyə sövq edir. Təbiidir ki, həmin prosesdə şagirdlərin düşüncələrində yeni suallar da yaranır. Həmin suallar ayrıca qeyd olunur.

Tapşırığın növbəti tələbi şagirdləri daha ciddi təlimi fəaliyyətə yönləndirir: "Venn diaqramından istifadə etməklə qədim dövr və intibah dövrü ədəbiyyatımızın başlıca xüsusiyyətlərini müqayisə edin".

Ədəbiyyatımızın qədim dövrü üzrə mənimsənilmiş bilik və bacarıqlar intibah dövrü ədəbiyyatı haqqında fikir söyləməyə, bu istiqamətdə müqayisə aparmağa imkan verir. Əlavə mənbələrdən istifadə işin keyfiyyətinə müsbət təsir edir. Müəllim obyektiv, əsaslandırılmış nəticələrin çıxarılması üçün istiqamətləndirici suallardan istifadə edir.

Tədqiqatçıların (İ. Həbibbəyli, Ə. Səfərli) tapşırıqda əks etdirilmiş fikirləri ilə tanışlığa vaxt ayrılır. Bu fikirlər intibah dövrü ədəbiyyatının özəlliklərinin başa düşülməsi və izahı üçün faydalır.

Tapşırığın növbəti tələbinə uyğun olaraq kiçik qruplarda birləşən şagirdlər fikirlərini dəqiqləşdirib, ümumiləşdirirlər. Bu, təqdimatların hazırlanması işini xeyli asanlaşdırır. Yalnız bundan sonra təqdimatların əsasında fikir mübadiləsi və müzakirə aparılır. Son olaraq BİBÖ cədvəlinin üçüncü sütununda müvafiq qeydlər edilir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə müəyyənləşdirilmiş meyarlar əsasında aparılır.

*Qiymətləndirmə meyarları:*
İstifadəetmə
Əsaslandırma, nümayişetdirmə

LAYİHƏ

| I səviyyə | II səviyyə | III səviyyə | IVsəviyyə |
|---|---|---|---|
| Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla mövzu, problemlə bağlı təqdimat və çıxışlarında obrazlı ifadələrdən istifadə etməkdə çətinlik çəkir. | Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla mövzu, problemlə bağlı təqdimat və çıxışlarında suallar və müəllimin köməyi ilə obrazlı ifadələrdən istifadə edir. | Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla mövzu, problemlə bağlı təqdimat və çıxışlarında, əsasən, obrazlı ifadələrdən istifadə edir. | Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla mövzu, problemlə bağlı təqdimat və çıxışlarında obrazlı ifadələrdən istifadə edir. |
| Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırmaqda, fərqli fikirlərə dözümlülük nümayiş etdirməkdə çətinlik çəkir. | Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini suallar və müəllimin köməyi ilə əsaslandırır, fərqli fikirlərə qismən dözümlülük nümayiş etdirir. | Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə, əsasən, dözümlülük nümayiş etdirir. | Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. |

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **Nizami Gəncəvinin həyatı, yaradıcılıq yolu** – 1 saat

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **2.1.1.** Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla təqdimat və çıxışlarında obrazlı ifadələrdən istifadə edir. | • Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla mövzu, problemlə bağlı təqdimat və çıxışlarında obrazlı ifadələrdən istifadə edir. |
| **2.2.1.** Müzakirələrdə mövzuya, problemə, yazıçı mövqeyinə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. | • Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilməsi və müzakirəsi əsasında müəyyənləşdirilə bilər. İnşa və esse ilə bağlı təqdimatlarda mövzuya müstəqil münasibətin hansı səviyyədə olmasına xüsusi diqqət yetirilir. Janr və dil baxımından dastanla poemanın müqayisəsi üzrə təqdimatlarda isə nümunələrin nə dərəcədə uğurla seçilməsinə daha çox önəm verilir.

Müzakirəyə mövzu ilə bağlı şagirdlərin mövcud biliklərinin aşkara çıxarılması ilə başlanılır. Bunun üçün ilk növbədə dərslikdəki tapşırığın – *"Nizami Gəncəvi*

LAYİHƏ

*barədə bildiklərinizi yada salıb yığcam müzakirə aparın"* yerinə yetirilməsinə vaxt ayrılır. Müzakirə Nizami ilə bağlı şagirdləri maraqlandıran məqamların da aşkara çıxarılmasına səbəb olur. Bundan çıxış edən müəllim araşdırılacaq problemi sual şəklində (bunu şagirdlərin fəal iştirakı ilə müəyyənləşdirmək mümkün və faydalıdır) ifadə edir: *Nizami Gəncəvinin həyatı, yaradıcılığı üçün daha önəmli olanlar hansılardır?*

Bu mövzunun öyrənilməsinə həsr olunan dərsi fərqli şəkildə təşkil etmək olar. Məsələn, *müzakirənin* bu və ya digər formasını tətbiq etməklə aparılan dərs şagirdlərdə müstəqilliyin inkişafı baxımından daha faydalıdır. Lakin bu halda sinfin əlavə mənbələrlə təmin edilməsi vacibdir.

Burada bir variantın üzərində dayanılmışdır.

Dərslikdəki sualların (onların sayı üçdür) və onların aydınlaşdırılmasına istiqamət verən cavabların oxusu ilə araşdırmaya başlanılır. Mətnin oxusunu fərqli formalarda həyata keçirmək mümkündür. Kiçik qruplar yaratmaq, hər qrupa bir sual həvalə etmək vaxta qənaət baxımından məqsədəuyğundur.

Qruplar onlara təklif edilmiş sualların dərslikdəki cavabı ilə tanış olduqdan sonra aşağıdakı işləri yerinə yetirirlər: mətnkənarı sualları ayrı-ayrı qrupların bir üzvü ardıcıl oxuyur. Mətndəki əsas fikri ümumiləşdirib bir neçə cümlə ilə ifadə edir. Mətnə aid suallar verir. Cavablandırmada bütün sinif iştirak edir. Həmin şagird səthi qavranılmış məsələlərə aydınlıq gətirməyə çalışır.

Bu istiqamətdə aparılan iş başa çatdıqdan sonra qrupların təqdimatı əsasında **məlumat mübadiləsi** və **müzakirə** aparılır. Bu mərhələdə müəllimin üzərinə ciddi vəzifə düşür; o, hər sualla bağlı mənbələrdən hansı məlumatların əldə edilməsinin əhəmiyyətli olması barədə şagirdlərdə aydın təsəvvür yaratmağa çalışır. Məsələn, birinci sualla *(Şairin yaşadığı dövrün, aldığı təlim və tərbiyənin başlıca özəllikləri hansılardır?)* bağlı mənbələrdə maraqlı məlumatlar var. O zaman Gəncənin Eldəgizlərin paytaxt şəhərlərindən sayılması, saray mühiti, Nizaminin aldığı təhsil və tərbiyə barədə mənbələrdən əhatəli məlumat əldə etmək mümkündür.

İkinci sualın *(Nizami yaradıcılığa hansı əsərlərlə başlamışdır? Bu əsərlərin əsas mövzusu nə idi?)* cavabını da mənbələrdən istifadə yolu ilə zənginləşdirmək və tamamlamaq mümkündür. Onun müxtəlif janrlarda (qəzəl, qəsidə, rübai) yazdığı lirik şeirlərinin mövzusu, ideyası, bədii xüsusiyyətləri barədə göstərilən mənbələrdə məlumat öz əksini tapmışdır.

Üçüncü sualla *(Şairin poemalarında diqqət daha çox hansı problemlərə cəlb edilmişdir?)* bağlı müəllim şagirdlərə daha diqqətli olmağı tövsiyə edir. Mənbələrdəki məlumat bolluğu şagirdlərin diqqətini yayındırmamalı, onlar dərslikdə göstərilmiş səhifələrdəki ən zəruri məlumatları mənimsəməklə kifayətlənməlidirlər.

Məlumat mübadiləsi və müzakirə zamanı şagirdlərin cavablarının dolğun, əsaslandırılmış olması, nitqlərində ifadəliliyə, obrazlı sözlərdən istifadə etmələrinə xüsusi diqqət yetirilir.

Müəllimin istiqamətləndirici sualları əsasında ilkin **nəticənin** çıxarılması, **ümumiləşdirmənin** aparılmasına vaxt ayrılır.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə müəyyənləşdirilmiş meyarlar əsasında aparılır.

*Qiymətləndirmə meyarları:*

İstifadəetmə

Əsaslandırma, nümayişetdirmə



LAYİHƏ

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla mövzu, problemlə bağlı təqdimat və çıxışlarında obrazlı ifadələrdən istifadə etməkdə çətinlik çəkir. | Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla mövzu, problemlə bağlı təqdimat və çıxışlarında suallar və müəllimin köməyi ilə obrazlı ifadələrdən istifadə edir. | Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla mövzu, problemlə bağlı təqdimat və çıxışlarında, əsasən, obrazlı ifadələrdən istifadə edir. | Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla mövzu, problemlə bağlı təqdimat və çıxışlarında obrazlı ifadələrdən istifadə edir. |
| Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırmaqda, fərqli fikirlərə dözümlülük nümayiş etdirməkdə çətinlik çəkir. | Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini suallar və müəllimin köməyi ilə əsaslandırır, fərqli fikirlərə qismən dözümlülük nümayiş etdirir. | Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə, əsasən, dözümlülük nümayiş etdirir | Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. |

Müəllim dərslikdəki “Evdə iş” başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

## *Mövzu:* **Nizami Gəncəvi. İskəndərnamə (ixtisarla)** – 4 saat
### *Birinci saat:* **Məzmun üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.1.1.** Müxtəlif vəznli şeirlərdə (heca, əruz, sərbəst) və süjetli əsərlərdə (dastan, poema, hekayə, povest, roman, dram, komediya, faciə) tanış olmayan sözlərin mənasını mənşəyinə və işlənmə məqamına görə izah edir. | • Poemada tanış olmayan sözlərin mənasını mənşəyinə və işlənmə məqamına görə izah edir. |
| **1.1.5.** Müxtəlif vəznli (heca, əruz) şeirlərdə, mürəkkəb süjet və kompozisiyalı bədii nümunələrdə bədii təsvir və ifadə vasitələrini (epitet, bənzətmə, metafor, metonimiya, simvol, mübaliğə, litota, bədii sual, təkrir, bədii təzad, inversiya) müəyyənləşdirir. | • Poemada məcazları müəyyənləşdirir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi müxtəlif yollarla aşkara çıxarıla bilər. Vaxta qənaət baxımından müsahibənin tətbiqi daha faydalıdır. Eləcə də Nizaminin lirik şeirlərinin özünəməxsus cəhətləri, poemalarında qaldırdığı problemlərlə bağlı məhdud həcmdə təqdimatların dinlənilməsi və müzakirəsi həyata



LAYİHƏ

keçirilə bilər. Bütün hallarda şagirdlərin mənbələrdən necə bəhrələndiyini, dərslikdəki məlumatlarla necə əlaqələndirdiklərini aşkara çıxarmağa önəm verilir. Bu prosesdə müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu** mərhələsini fərqli məzmunda təşkil etmək mümkündür. Suallardan istifadə yolu ilə motivasiya yaratmağı qarşısına məqsəd qoyan müəllim şagirdlərə tanınmış fatehlər, sərkərdələr barədə bildiklərini xatırlamağı təklif edir. Müsahibənin sonunda tədqiqat sualı formalaşdırılır.

**Tədqiqat sualı:** Ölkələr alan, ərazilər tutan fatehləri ədalətli saymaq olarmı?

Fərziyyələr dinlənilir və qeyd edilir.

İlk növbədə dərslikdə verilmiş sual (Məşhur fatehlərdən kimləri tanıyırsınız?) üzrə fikir mübadiləsi və müzakirə aparılır.

Poemadan dərslikdə verilmiş parçaların ("Dastanın xülasəsi və İskəndərin cahangirlik tarixi", "Dastanın başlanğıcı") oxusu ilə **tədqiqata** başlanılır.

Oxunu fərqli formalarda həyata keçirmək mümkündür. Dərslikdə təklif edilmiş variant mətnin başa düşülməsi, ona müstəqil münasibət bildirilməsi baxımındn faydalıdır. Müəyyənləşdirilmiş cütlərdən biri mətndən parçanı ucadan oxuyur və yoldaşının oxunmuş parça ilə bağlı suallarına cavab verir. Bütün mətn cütlər əvəzlənməklə bu qayda ilə oxunur. Təcrübə göstərir ki, poemanın bir sıra misra və beytlərindəki mətnaltı mənanı müstəqil başa düşməkdə şagirdlər çətinlik çəkirlər. Oxu prosesində bu qəbildən yaranan suallara müəllimin köməyi ilə (müzakirədə bu qəbildən suallara yenidən qayıdılması faydalıdır) aydınlıq gətirilir. Sinifdə oxunan hər iki parçada poemanın, onun qəhrəmanlarının hərəkətlərinin başa düşülüb qiymətləndirilməsində əhəmiyyətli olan məsələlər çoxdur. Birinci parçadan məlum olur ki, şairin məqsədi makedoniyalı İskəndər barədəki tarixi faktları təkrar etmək olmamışdır.

Müxtəlif dillərdən yığdım çox sözlər,
Bunlardan düzüldü yazdığım əsər.
Şeirimdən atsaydım bəzəkli donu,
Azacıq zəhmətlə yazsaydım onu,
Bu böyük fatehin sərgüzəştindən,
Bir vərəq yazmaqla bitirərdim mən.

Həmin parçadan məlum olur ki, İskəndər hansı ölkəyə ayaq basırsa, orada abadlıq işləri aparır, böyük şəhərlər saldırır, bu yerlərə səadət gətirir.

Parçaların məzmununu mənimsəyən şagirdlər İskəndərin uşaqlığı, ilk gənclik illəri, təlim-tərbiyəsi barədə məlumat qazanırlar. Onlarda, həmçinin Feyləqus, Dara obrazları barədə aydın təsəvvür yaranır.

Oxuya ayrılan vaxt başa çatdıqdan sonra şagirdlər kiçik qruplarda birləşərək parçaların məzmunu ilə bağlı fikir mübadiləsi aparırlar. Müəyyənləşdirilmiş məcazlar, tanış olmayan sözlər barədəki qənaətlər səsləndirilir, dəqiqləşdirmələr aparılır. Dərslikdə təklif edilmiş sualların cavabları aydınlaşdırılır və qrupun təqdimatında qeydlər edilir. Bu işlər yekunlaşdırıldıqdan sonra təqdimatlar əsasında **məlumat mübadiləsi və müzakirə** aparılır. Müəllim istiqamətləndirici suallardan istifadə etməklə təqdimatların fəal dinlənilməsinə, müzakirənin səmərəli keçməsinə nail olur.

LAYİHƏ

Oxu ilə bağlı aparılmış işə yekun (əsərin məzmunu bütövlükdə öyrənildikdən sonra – ikinci dərs saatında nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması həyata keçirilir) vurulur.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə müəyyənləşdirilmiş meyarlar əsasında aparılır.

*Qiymətləndirmə meyarları:*

İzahetmə

Müəyyənləşdirmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Tanış olmayan sözlərin mənşəyinə və işlənmə məqamına görə mənasını izah etməkdə çətinlik çəkir. | Tanış olmayan sözlərin mənşəyinə və işlənmə məqamına görə mənasını suallar verməklə və kömək əsasında izah edir. | Tanış olmayan sözlərin mənşəyinə və işlənmə məqamına görə mənasını, əsasən, izah edir. | Tanış olmayan sözlərin mənşəyinə və işlənmə məqamına görə mənasını izah edir. |
| Poemada məcazları müəyyənləşdirməkdə çətinlik çəkir. | Poemada məcazları suallar verməklə və kömək əsasında müəyyənləşdirir. | Poemada məcazları, əsasən, müəyyənləşdirir. | Poemada məcazları müəyyənləşdirir |

Müəllim dərslikdəki “Evdə iş” başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

## *Mövzu:* **Nizami Gəncəvi. İskəndərnamə (ixtisarla)** – 4 saat
## *İkinci saat:* **Məzmun üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.1.1.** Müxtəlif vəznli şeirlərdə (heca, əruz, sərbəst) və süjetli əsərlərdə (dastan, poema, hekayə, povest, roman, dram, komediya, faciə) tanış olmayan sözlərin mənasını mənşəyinə və işlənmə məqamına görə izah edir. | • Poemada tanış olmayan sözlərin mənasını mənşəyinə və işlənmə məqamına görə izah edir. |
| **1.1.5.** Müxtəlif vəznli (heca, əruz) şeirlərdə, mürəkkəb süjet və kompozisiyalı bədii nümunələrdə bədii təsvir və ifadə vasitələrini (epitet, bənzətmə, metafor, metonimiya, simvol, mübaliğə, litota, bədii sual, təkrir, bədii təzad, inversiya) müəyyənləşdirir. | • Poemada məcazları müəyyənləşdirir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi yığcam müsahibə ilə aşkara çıxarılır. Poemadan parçaların məzmununun hansı səviyyədə qavranıldığı, tanış olmayan sözlərin, məcazların necə müəyyənləşdirildiyi barədə müəllim müəyyən təsəvvür qazanır. Bu işin reallaşdırılmasına çox az vaxt sərf edilir. Unudulmamalıdır ki, dərslikdə

LAYİHƏ

təklif edilmiş birinci tapşırıq həmin istiqamətdə aparılmış işin əsaslı şəkildə dərinləşdirilməsinə xidmət edir. Müəllimin təklifi ilə şagirdlər kiçik qruplarda birləşərək evdə təkrar etdikləri parçalardakı başlıca fikirlər, tanış olmayan sözlər və məcazlarla bağlı qənaətlərini bölüşür, fikir mübadiləsi aparırlar. Bu, mənimsənilənlərin dəqiqləşdirilməsinə, zənginləşdirilməsinə imkan yaradır. Qruplar daha sonra dərslikdə təklif edilmiş suallara cavab hazırlayırlar. Suallar elə tərtib edilmişdir ki, şagirdlər poemadakı mühüm hadisələrlə, bir sıra obrazlarla bağlı öyrəndikləri məlumatları dəqiqliklə xatırlatmalı olurlar.

– Niqumaş kimdir? O, İskəndərin təlim-tərbiyəsi ilə necə məşğul olur?
– Şahlıq taxtına çıxan İskəndər ölkəni necə idarə edir?
– İskəndərin zənci hökmdarı ilə müharibə etməsinə səbəb nə olur?
– Daranın onunla müharibə etmək niyyətində olduğunu öyrənən İskəndər necə hərəkət edir?
– İskəndər Daranı qətlə yetirən sərkərdələrlə necə rəftar edir?

Suallara cavab hazırlayan şagirdlərin mühüm hadisələr (İskəndərin ölkəni idarə etməyə başlaması, zənci hökmdarı ilə müharibə, Dara ilə döyüş, Nüşabə ilə görüş və s.) və İskəndər, Niqumaş, Dara, Nüşabə obrazları barədəki təsəvvürləri daha da zənginləşir.

Qrupların təqdimatları əsasında **məlumat mübadiləsi** və **müzakirə** aparılır. Təqdimatların fəal dinlənilməsi təmin edilir. Müzakirədə daha çox şagirdin iştirakına və onun diskussiya səciyyəli olmasına diqqət yetirilir. **Nəticənin** çıxarılması, **ümumiləşdirmənin** aparılmasında müəllim istiqamətləndirici suallardan istifadə edir. Nəticələrin fərziyyələrlə müqayisə edilməsinə vaxt ayrılır.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə müəyyənləşdirilmiş meyarlar əsasında aparılır.

*Qiymətləndirmə meyarları:*

İzahetmə

Müəyyənləşdirmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Tanış olmayan sözlərin mənşəyinə və işlənmə məqamına görə mənasını izah etməkdə çətinlik çəkir. | Tanış olmayan sözlərin mənşəyinə və işlənmə məqamına görə mənasını suallar verməklə və kömək əsasında izah edir. | Tanış olmayan sözlərin mənşəyinə və işlənmə məqamına görə mənasını, əsasən, izah edir. | Tanış olmayan sözlərin mənşəyinə və işlənmə məqamına görə mənasını izah edir. |
| Poemada məcazları müəyyənləşdirməkdə çətinlik çəkir. | Poemada məcazları suallar verməklə və kömək əsasında müəyyənləşdirir. | Poemada məcazları, əsasən, müəyyənləşdirir. | Poemada məcazları müəyyənləşdirir. |

Müəllim dərslikdəki “Evdə iş” başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

LAYİHƏ

## *Mövzu:* **Nizami Gəncəvi. İskəndərnamə (ixtisarla)** – 4 saat
## *Üçüncü saat:* **Təhlil üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.2.2.** Davranış və əməllərinə, başqaları ilə qarşılıqlı münasibətlərinə, yazıçının mövqeyinə, digər surətlərin mühakimələrinə əsaslanmaqla obrazları təhlil edir. | • Davranış və əməllərindən, başqaları ilə qarşılıqlı münasibətlərindən, digər surətlərin mühakimələrindən çıxış etməklə poemadakı qəhrəmanları təhlil edir. |
| **1.2.4.** Bədii nümunələrin mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün sosial-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə təhlil edir və nəticə çıxarır. | • Poemanın mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün sosial-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə təhlil edir və nəticə çıxarır. |
| **2.2.1.** Müzakirələrdə mövzuya, problemə, yazıçı mövqeyinə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. | • Poema ilə bağlı müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. |

### Dərsin gedişi

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi fərqli yollarla müəyyənləşdirilə bilər. Vaxta qənaət baxımından müsahibənin tətbiqi məqsədəuyğundur. Lakin təqdimatların dinlənilib müzakirə edilməsindən də imtina etmək olmaz. Belə olan halda çoxlu sayda təqdimatın dinlənilməsinə ehtiyac olmur. Bir neçə təqdimatın dinlənilib müzakirə edilməsi real vəziyyət barədə aydın təsəvvür qazanılmasına imkan verir. Hər iki halda parçaların məzmununun hansı səviyyədə qavranıldığı, tanış olmayan sözlərin və onların mənşəyinin necə müəyyənləşdirildiyi, məcazların doğru seçilib-seçilmədiyi diqqət mərkəzində saxlanılır.

Müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu.** Bu mərhələdə işi fərqli variantlarda təşkil etmək olar. Variantlardan biri suallardan istifadə ola bilər. Şagirdlərin tarixi şəxsiyyət kimi İskəndər haqqındakı məlumatlarını xatırlamağı təklif edən müəllim sonda tədqiqat sualını formalaşdırır.

**Tədqiqat sualı:** Şərqdə məşhur olan fateh İskəndəri əsərinə gətirməsi şairə hansı niyyətini ifadə etməyə imkan yaratmışdır?

Fərziyyələr dinlənilir, təkrara yol verilmədən qeyd edilir.

Poemadan oxunmuş parçalar onun mövzusu, ideyası barədə fikir yürütməyə imkan verir. Tarixi İskəndər şair üçün bir vasitə rolunu oynamışdır. Nizami hökmdar, dövlət, dövlətin idarə olunması, insan səadəti və azadlığı barədəki humanist ideallarını, gəldiyi son qənaətləri ifadə etmək üçün bu mövzuya müraciət etmişdir. Məhz buna görə də poema ideya baxımından çox zəngindir. Bu ideyaların əhatəli ifadəsi üçün məşhur İskəndərin prototip seçilməsi əlverişli idi.

Ədəbi qəhrəman kimi İskəndərin təhlili dərslikdə çox az yer tutur. Onu ətraflı səciyyələndirmək üçün göstərilmiş mənbələr əsasında araşdırmaların aparılması vacibdir. Lakin poemadan oxunmuş parçalardan mənimsənilmiş məlumatlar elə bu dərsdə – təhlilə həsr olunmuş birinci dərsdə şagirdlərin əsaslandırılmış fikir söyləmələrinə imkan verir. İskəndərin uşaqlığı, təlim-tərbiyəsi, müharibə etdiyi hökmdarlara münasibəti, müxtəlif vəziyyətlərdə davranışı, başqalarının (Nüşabə və s.) onun haqqındakı mühakimələri,

LAYİHƏ

ölkəsində və digər yerlərdə həyata keçirdiyi xeyirxah əməllər oxuda mənimsənilmiş olur. Poemanın oxusundan əldə edilmiş məlumatların dərslikdəkilərlə əlaqələndirilməsi, uzlaşdırılması yolları bir daha şagirdlərə izah olunur.

Dərslikdə təklif olunmuş yol vaxta qənaət baxımından əlverişlidir. Belə ki mətnkənarı suallar qrupların arasında bölünür. Bir neçə qrup bir sualın üzərində işləyir. Şagirdlərə məzmunla bağlı mənimsədikləri məlumatdan necə bəhrələnmələri barədə istiqamət verilir. Cavablar hazırlandıqdan sonra şagirdlər mətnkənarı sualların dərslikdəki cavablarını oxuyur və yazdıqları ilə müqayisə edirlər.

İşin bu istiqamətdə təşkili şagirdlərdə müstəqil təhlil bacarığının inkişafına əhəmiyyətli dərəcədə təsir edir.

Poemada şairin zəmanəsinə, yaratdığı ədəbi qəhrəmanlara münasibəti çox aydın ifadəsini tapmışdır. Bu, əsərin yazıldığı dövrdə ictimai vəziyyət, əxlaqi-mənəvi dəyərlər barədə fikir söyləməyə imkan verir. Bu baxımdan, məsələn, şairin Feyləqus, Dara, Nüşabə haqqında dedikləri, onların əməllərinə verdiyi qiymət daha maraqlıdır. Bu cəhətə mənbələrlə iş zamanı da xüsusi diqqət yetirməyin vacib olduğu şagirdlərə tövsiyə edilir.

Müəllimin təklifi ilə kiçik qruplarda birləşən şagirdlər fikir mübadiləsi aparır, öyrəndiklərini dəqiqləşdirirlər. Ardınca təqdimatlar əsasında **məlumat mübadiləsi** və **müzakirə** aparılır. Müəllim təqdimatların fəal dinlənilməsinə, müzakirənin diskussiya səciyyəli olmasına nail olur. Aparılan işlər yekunlaşdırıldıqdan (tamamlanmış nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması təhlilə həsr olunmuş ikinci dərs saatında reallaşdırılır) sonra qiymətləndirmə həyata keçirilir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə müəyyənləşdirilmiş meyarlar əsasında aparılır.

*Qiymətləndirmə meyarları:*
Təhliletmə
Təhliletmə, nəticəçıxarma
Əsaslandırma, nümayişetdirmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Poemadakı ədəbi qəhrəmanları davranış və əməllərinə, başqaları ilə qarşılıqlı münasibətlərinə, digər surətlərin mühakimələrinə əsaslanmaqla təhlil etməkdə çətinlik çəkir. | Poemadakı ədəbi qəhrəmanları davranış və əməllərinə, başqaları ilə qarşılıqlı münasibətlərinə, digər surətlərin mühakimələrinə əsaslanmaqla qismən təhlil edir. | Poemadakı ədəbi qəhrəmanları davranış və əməllərinə, başqaları ilə qarşılıqlı münasibətlərinə, digər surətlərin mühakimələrinə əsaslanmaqla, əsasən, təhlil edir. | Poemadakı ədəbi qəhrəmanları davranış və əməllərinə, başqaları ilə qarşılıqlı münasibətlərinə, digər surətlərin mühakimələrinə əsaslanmaqla təhlil edir. |
| Poemanın mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün sosial-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə təhlil etməkdə və nəticə çıxarmaqda çətinlik çəkir. | Poemanın mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün sosial-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə suallar və müəllimin köməyi ilə təhlil edir və nəticə çıxarır. | Poemanın mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün sosial-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə, əsasən, təhlil edir və nəticə çıxarır. | Poemanın mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün sosial-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə təhlil edir və nəticə çıxarır. |



LAYİHƏ

| | | | |
|---|---|---|---|
| Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırmaqda, fərqli fikirlərə dözümlülük nümayiş etdirməkdə çətinlik çəkir. | Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini suallar və müəllimin köməyi ilə əsaslandırır, fərqli fikirlərə qismən dözümlülük nümayiş etdirir. | Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə, əsasən, dözümlülük nümayiş etdirir. | Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. |

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

### *Mövzu:* **Nizami Gəncəvi. İskəndərnamə (ixtisarla)** – 4 saat
### *Dördüncü saat:* **Təhlil üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.2.2.** Davranış və əməllərinə, başqaları ilə qarşılıqlı münasibətlərinə, yazıçının mövqeyinə, digər surətlərin mühakimələrinə əsaslanmaqla obrazları təhlil edir. | • Davranış və əməllərindən, başqaları ilə qarşılıqlı münasibətlərindən, yazıçının mövqeyindən, digər surətlərin mühakimələrindən çıxış etməklə poemadakı qəhrəmanları təhlil edir. |
| **1.2.3.** Müxtəlif vəznli (heca, əruz, sərbəst) şeirlərdə, süjetli ədəbi nümunələrdə bədii təsvir və ifadə vasitələrinin obrazlılığın yaradılmasındakı rolunu aydınlaşdırır və münasibət bildirir. | • Poemadakı məcazların obrazlılığın yaradılmasındakı rolunu aydınlaşdırır və münasibət bildirir. |
| **1.2.4.** Bədii nümunələrin mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün sosial-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə təhlil edir və nəticə çıxarır. | • Poemanın mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün sosial-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə təhlil edir və nəticə çıxarır. |
| **2.1.1.** Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla təqdimat və çıxışlarında obrazlı ifadələrdən istifadə edir. | • Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla bədii əsərlə bağlı təqdimat və çıxışlarında obrazlı ifadələrdən istifadə edir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilməsi və müzakirə edilməsi əsasında müəyyənləşdirilə bilər. Başlıca diqqət mənbələrdən əldə olunmuş məlumatın məzmununa, İskəndər və digər hökmdar obrazları ilə bağlı dərslikdəki suallarla və mətnlə əlaqəsinə, şagirdlərin müstəqilliyin səviyyəsinə yönəldilir. Müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

Dərslikdəki sualların və onların araşdırılmasına istiqamət verən cavabların oxusu ilə **tədqiqat** davam etdirilir. Şagirdlər əvəzlənməklə mətnkənarı sualların cavablarını oxuyur, əsas fikri ümumiləşdirib qısaca danışır. Poemanın oxusundan əldə etdiyi məlumatla mətni zənginləşdirir. Şagird oxuduğu və əlavələri ilə bağlı sinifə suallar verir. Bu prosesdə yaranan müzakirədə izahına ehtiyac duyulan məsələlərə aydınlıq gətirir. Birinci sualla *(Poemadakı hökmdar obrazları hansı səciyyəvi xüsusiyyətləri ilə diqqəti cəlb edir? Onların oxşar və fərqli xüsusiyyətləri hansı-*

LAYİHƏ

*lardır?)* bağlı dərslikdəki yığcam cavaba şagirdlər poemanın oxusundan əldə etdikləri məlumat əsasında əlavələr edə bilirlər. Maraqlıdır ki, şair yaratdığı digər ədəbi qəhrəmanlar kimi, hökmdar obrazlarını da hərtərəfli tanıtmağa, təqdim etməyə qayğı ilə yanaşır. Hökmdar obrazları ilə bağlı təsvirlər onların hər birinin xarakteri, həyata baxışı, niyyəti, başqalarının ona münasibəti barədə aydın təsəvvür yaradır. Bu da maraqlıdır ki, şair onlara şəxsi münasibətini də gizlətmir. Onların taleyində öz əməllərinin mühüm rol oynadığına diqqəti çəkən sənətkar, hökmdarları, əslində, hamını – müasirlərini və daha sonrakı dövrlərin insanlarını xəbərdar edir.

Şagirdlər poemanın məzmunu ilə tanış olarkən İran hökmdarı Dara haqqında təsəvvür qazanırlar. O, paxıldır; ölkəsini ədalətlə idarə edən Feyləqusa həsəd aparır. O, ədalətsizdir; ölkəsində haqq-ədalət gözlənilmir, şərəfsiz, ləyaqətsiz adamlar iş başındadırlar. O, zalımdır; məhrumiyyət içində yaşayan xalqı ədalətsiz müharibələrə sürükləməklə insan qırğınına bais olur.

Əsərin məzmunu ilə tanışlıq hökmdar Feyləqus obrazı barədə də əhatəli məlumatın öyrənilməsinə imkan yaradır. O, ölkəsini ədalətli qanun və qaydalarla idarə edir. Ağıllı tədbirləri sayəsində xalqın firavan yaşamasına nail olur.

Nüşabə şairin böyük rəğbət bəslədiyi qəhrəmanlarındandır. Ölkəsini bacarıqla idarə edən bu hökmdar qadın fərasəti, ağıllı tədbirləri ilə xalqın əmin-amanlıq içində yaşamasına nail olur.

Zənci hökmdarı Pələngər amansız və işğalçıdır. Zalımlığı ilə yaxınlarını belə vahiməyə salan Pələngər məhv olur. Şairin fikrincə, o öz əməllərinin qurbanı olur.

İkinci sualda *(Poemanın maraqla oxunmasına səbəb nədir? Onu mənzum roman adlandırmaq olarmı?)* iki tələb əks olunmuşdur. Əsərin yüzillər boyu maraqla oxunmasının səbəbləri dərslikdə əhatəli şərh edilməmiş, şagirdlərin müstəqil araşdırmalarına istiqamət verilmişdir. Poemanın oxusunda şagirdlər bu möhtəşəm abidədə insanın mənəvi azadlığı, ləyaqəti, mənalı ömrü, cəmiyyətin mənəvi kamilliyi, tərbiyəvi-əxlaqi dəyərlərin qorunub saxlanması, ictimai ədalət kimi mühüm məsələlərə geniş yer verildiyini duymuş olurlar. Dərslikdəki materialdan da istifadə etməklə bunları ilkin formada şərh etmək şagirdlər üçün çətin olmur.

"İskəndərnamə"nin mənzum roman adlandırılması ilə bağlı təklif edilmiş sual təsadüfi deyildir. O, şagirdləri ciddi şəkildə düşünməyə, müvafiq mənbələrə, xüsusən ədəbiyyat nəzəriyyəsi üzrə araşdırmalara müraciət etməyə istiqamətləndirir. Sual şagirdləri ciddi diskussiyaya cəlb edir. Şagirdləri, yeri gəldikcə bu qəbildən sualların üzərində düşündürmək faydalıdır. Bu, onları müstəqil olaraq orijinal fikir söyləməyə təhrik edir.

Müəllimin təklifi ilə kiçik qruplarda birləşən şagirdlər fikir mübadiləsi aparır, qənaətlərini bölüşürlər. Yalnız bundan sonra kiçik qruplar təqdimatlar əsasında **məlumat mübadiləsi** və **müzakirə** aparırlar. Poemanın ideyasının əsasında dayanan fikirlərin aydınlaşdırılması, bədii təsvir və ifadə vasitələrinin əsərin təsir gücünün artırılmasında rolunun müəyyənləşdirilməsi, şagirdlərin öz nitqlərində obrazlı söz və ifadələrdən istifadə etməsi müzakirə zamanı diqqətdə saxlanılır.

Həm məlumat mübadiləsində, həm də müzakirədə hansı məsələləri mənbələr əsasında zənginləşdirməyin, tamamlamağın lazım olduğu aşkara çıxarılır. Müəllimin istiqamətləndirici sualları dolğun **nəticənin** çıxarılmasına, **ümumiləşdirmənin** aparılmasına imkan yaradır. Nəticənin irəli sürülmüş fərziyyələrlə müqayisəsinə diqqət yetirilir.

LAYİHƏ

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə müəyyənləşdirilmiş meyarlar əsasında aparılır.

*Qiymətləndirmə meyarları:*

Təhliletmə

Aydınlaşdırma, münasibətbildirmə

Təhliletmə, nəticəçıxarma

İstifadəetmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Poemadakı ədəbi qəhrəmanları davranış və əməllərinə, başqaları ilə qarşılıqlı münasibətlərinə, digər surətlərin mühakimələrinə əsaslanmaqla təhlil etməkdə çətinlik çəkir. | Poemadakı ədəbi qəhrəmanları davranış və əməllərinə, başqaları ilə qarşılıqlı münasibətlərinə, digər surətlərin mühakimələrinə əsaslanmaqla qismən təhlil edir | Poemadakı ədəbi qəhrəmanları davranış və əməllərinə, başqaları ilə qarşılıqlı münasibətlərinə, digər surətlərin mühakimələrinə əsaslanmaqla, əsasən, təhlil edir. | Poemadakı ədəbi qəhrəmanları davranış və əməllərinə, başqaları ilə qarşılıqlı münasibətlərinə, digər surətlərin mühakimələrinə əsaslanmaqla təhlil edir. |
| Poemadakı məcazların obrazlılığın yaradılmasındakı rolunu aydınlaşdırmaqda və münasibət bildirməkdə çətinlik çəkir. | Poemadakı məcazların obrazlılığın yaradılmasındakı rolunu müəllimin köməyi ilə aydınlaşdırır, münasibət bildirməkdə çətinlik çəkir. | Poemadakı məcazların obrazlılığın yaradılmasındakı rolunu, əsasən, aydınlaşdırır və münasibət bildirir. | Poemadakı məcazların obrazlılığın yaradılmasındakı rolunu aydınlaşdırır və münasibət bildirir. |
| Poemanın mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün sosial-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə təhlil etməkdə və nəticə çıxarmaqda çətinlik çəkir. | Poemanın mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün sosial-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə suallar və müəllimin köməyi ilə təhlil edir və nəticə çıxarır. | Poemanın mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün sosial-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə, əsasən, təhlil edir və nəticə çıxarır. | Poemanın mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün sosial-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə təhlil edir və nəticə çıxarır. |
| Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla mövzu, problem və bədii əsərlə bağlı təqdimat və çıxışlarında obrazlı ifadələrdən istifadə etməkdə çətinlik çəkir. | Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla mövzu, problem və bədii əsərlə bağlı təqdimat və çıxışlarında suallar və müəllimin köməyi ilə obrazlı ifadələrdən istifadə edir. | Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla mövzu, problem və bədii əsərlə bağlı təqdimat və çıxışlarında, əsasən, obrazlı ifadələrdən istifadə edir. | Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla mövzu, problem və bədii əsərlə bağlı təqdimat və çıxışlarında obrazlı ifadələrdən istifadə edir. |

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

LAYİHƏ

## BİRİNCİ BÖLMƏ ÜZRƏ KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ

*Qiymətləndirmə Ə. Xaqaninin "Eyləsəm səfər..." əsəri üzrə aparıla bilər.*

### Əfzələddin Xaqani
### Eyləsəm səfər...

İraqa, İrana eyləsəm səfər,
Başıma yağıştək yağar simü-zər.

Orada şairə qiymət verən var,
Xəzinəm ləl ilə, gövhərlə dolar.

Şahlar məclisimdə diz çökər mənim,
Başıma tabaqla zər tökər mənim.

Bakir sözlərimin aşiqi olan,
Ariflər əlimi öpər hər zaman.

Lakin üzüm gülməz, gözlərim ağlar,
Qəlbimdə dağ qədər ağır intizar...

Vətən həsrətilə töküb göz yaşı,
"Ah, vətən!" deyərəm mən hər sözbaşı.

Şamaxı! Ey mənim sevimli yurdum,
Mən sənin qoynunda xaniman qurdum.

İndisə acığın tutmuşdur mana,
Sənin qucağından ayrılsam, ana,

Ümidim, pənahım Təbrizdir, Təbriz,
O şəhər də mənə doğmadır, əziz.

Siz mənə həyatı etdiniz əta,
Sən mənə anasan, Təbrizdir ata.

Anasından küsən körpə bir uşaq
Ata ağuşunda yer tapar ancaq!

*(Tərcümə edən: M.Soltan)*

LAYİHƏ

## QİYMƏTLƏNDİRMƏ ÜÇÜN TÖVSİYƏ OLUNAN SUAL VƏ TAPŞIRIQLAR

1. Şeir hansı mövzuda yazılmışdır? Fikrinizi əsaslandırın.

2. Şeirdə tanış olmayan sözləri müəyyənləşdirin, onların alınma, yaxud dilimizə aid olduğunu əsaslandırın.

3. Əsər hansı vəzndə yazılmışdır? Fikrinizi əsaslandırın.

4. Sizcə, şeir hansı formada – janrda yazılmışdır? Suala cavab vermək üçün nələrə diqqət yetirdiyinizi də əhatə etməklə fikrinizi qısaca yazın.

5. Şeirdə hansı məcazlardan istifadə edilmişdir? Fikrinizi təsdiq edən nümunələr göstərin.

6. Əsərdəki bədiiliyin, obrazlılığın artmasına məcazların rolunu nümunələr göstərməklə aydınlaşdırın.

7. Müəllifin Təbrizi *doğma, əziz, ata* adlandırmasının səbəbini necə izah edərsiniz? Fikrinizi əsaslandırıb qısaca yazın.

8. Şeirin müəllifi haqqında sizdə hansı təsəvvür yarandı? Fikrinizi qısaca yazın.

9. Şeirdəki başlıca fikri müəyyənləşdirib yazın.

10. Şeirin sizdə daha güclü təəssürat yaradan beyti hansı oldu? Səbəbini qısaca yazın.



LAYİHƏ

# ORTA ƏSRLƏR AZƏRBAYCAN ƏDƏBİYYATI
## (XIII–XVI ƏSRLƏR)

*Layihə:* **Orta əsrlər ədəbiyyatı (XIII–XVI əsrlər)** – 1 saat

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **2.1.1.** Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla təqdimat və çıxışlarında obrazlı ifadələrdən istifadə edir. | • Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla mövzu, problemlə bağlı təqdimat və çıxışlarında obrazlı ifadələrdən istifadə edir. |
| **2.2.1.** Müzakirələrdə mövzuya, problemə, yazıçı mövqeyinə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. | • Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi müsahibə və ya təqdimatların dinlənilməsi, müzakirə olunması əsasında müəyyənləşdirilə bilər. Şagirdlərin "İskəndərnamə"də yaradılmış hökmdar obrazları, əsərdə şairin humanist fikirlərinin əks olunması, qadın obrazlarının səciyyəvi xüsusiyyətləri barədə mənbələrdən əldə etdikləri əlavə məlumatın məzmunu, əsərin müxtəlif tədqiqatçılar tərəfindən mənzum roman adlandırılmasına münasibət, əsaslandırılmış nəticənin çıxarılması bu prosesdə diqqət mərkəzində saxlanılır və müvafiq qiymətləndirmə meyarlarına müraciət edilir.

Araşdırmaya şagirdlərin ədəbiyyat tarixinin orta dövrü barədəki məlumatlarının aşkara çıxarılması ilə başlanılır. Dərslikdəki sual *(Orta ərlərdə – XIII-XVI yüzilliklərdə Azərbaycan ədəbiyyatı, onun görkəmli nümayəndələrinin yaradıcılığı haqqında ədəbiyyat dərslərində öyrəndiklərinizi yada salıb yığcam müzakirə aparın)* əsasında təşkil edilən müzakirədə şagirdlərin XIII–XVI əsrlər ədəbiyyatı ilə bağlı VIII sinifdə öyrəndikləri, xüsusən Nəsimi, Xətayi, Füzuli və b. Yaradıcılığı barədə fikirləri, tarix dərslərindən mənimsədikləri səsləndirilir. Müzakirə problemin müəyyənləşdirilməsi ilə tamamlanır. Onunla bağlı sualın təsdiq formasında ifadə olunması *debat* metodunun tətbiq edilməsi niyyətindən irəli gəlir: *XIII–XVI yüzilliklərdə yaranan söz sənətimiz ədəbiyyat tarixinin qızıl dövrünü təşkil edir.*

Şagirdlər öncə dərslikdəki sualların *(XIII–XVI yüzilliklərdə ədəbiyyatımızda hansı inkişaf meyilləri olmuşdur? İ.Həsənoğlunun əsərləri hansı səbəblərə görə dəyərli hesab olunur? "Dastani-Əhməd Hərami" poemasında əksini tapmış mühüm problemlər və başlıca ideyalar hansılardır? Qazi Bürhanəddin yaradıcılığını ədəbiyyatımız üçün dəyərli edən hansı cəhətlərdir? Həbibinin poeziyasında hansı mənəvi-əxlaqi dəyərlər əksini tapmışdır? Qurbaninin əsərlərində hansı problemlərə diqqət yetirilmişdir?)* aydınlaşdırılmasına istiqamət verən cavablarla tanış olurlar. Bunun fərdi oxu ilə həyata keçirilməsi məqsədəuyğundur. Şagirdlərin istifadəsində əlavə məlumat mənbələrinin (dərslikdə göstərilənlərdən bəziləri, tarix dərslikləri,

LAYİHƏ

müəllimin məqsədəuyğun saydıqları və s.) olması vacibdir. Şagirdlər dərslikdə təklif olunmuş tapşırığa uyğun olaraq mətnkənarı sualların cavablarını ümumiləşdirib qısaca qeyd edirlər. Şagirdlər, həmçinin oxu zamanı onları düşündürən sualları və ilkin cavablarını yığcam yazırlar.

Tədqiqatçıların (İ.Həbibbəyli, N.Cəfərov) dərslikdə verilmiş fikirlərinin öyrənilməsi məktəblilərin dövrlə bağlı təsəvvürlərinin konkretləşməsinə səbəb olur.

Oxuya ayrılan vaxt başa çatdıqdan sonra mövqelər müəyyənləşdirilir. Bir tərəf *təsdiqedici* mövqedə olur, yəni mövzu necə ifadə edilibsə, o şəkildə də qəbul edilir. Başqa sözlə, bu tərəf XIII–XVI yüzillikdə yaranan söz sənətimizi ədəbiyyat tarixinin qızıl dövrü hesab edir. İkinci tərəf isə *təkzibedici* mövqedə dayanır. Daha dəqiq deyilsə, birinci tərəflə razılaşmır. Hər iki tərəf cütlük şəklində və ya kiçik qruplarda birləşərək öz mövqelərini müdafiə etmək, əsaslandırmaq üçün dəlillər hazırlayır. Hər bir dəlil üzərində ciddi iş gedir; şagirdlərin hər biri bu dəlilləri izah və sübut etməyə, nəticə çıxarmağa və qarşı tərəfə sual verməyə hazır olmalıdır. İş başa çatdıqdan sonra qruplar (əks mövqedə olanlar da) öz dəlillərini digər qrupların hazırladıqları ilə müqayisə edirlər. Şagirdlərə öz mövqelərini bir daha dəqiqləşdirmək təklif olunur. Sonra sinif iki qrupa bölünür. Bir şagird (çox da ola bilər) *hakim* seçilir. Yalnız bundan sonra tərəflər arasında polemika başlanır. Bir tərəfin sözçüsünün (pedaqoji ədəbiyyatda *spiker* də deyilir) sualına digər tərəfin sözçüsü cavab verir. Sözçülərin əvəzlənməsi faydalıdır. Bu, bütün şagirdlərin fəallığına, nitqinin inkişafına əhəmiyyətli təsir edir. Əvvəlcədən müəyyənləşdirilmiş vaxt bölgüləri (buna nəzarət edən bir, yaxud iki şagird olur) başa çatdıqda sual və cavab verən tərəflər mövqelərini müntəzəm dəyişirlər. Müzakirə prosesində dəqiq faktların, rəqəmlərin sadalanması, bədii əsərlərdən nümunələrin göstərilməsi dəlillərin əsaslandırılması baxımından faydalıdır.

Mübahisə edən tərəflərin qarşısında bir məqsəd dayanır: mövqelərinin doğru olduğuna hakimi (hakimləri) inandırmaq. Məhz hakim hansı tərəfin mövqeyinin doğru olduğu barədə qərar verir. Lakin o nə üçün bu qərarı verdiyini əsaslandırmalıdır. Tərəflərdən hansının mövzunu daha dərindən mənimsəməsi, dəlillərinin məntiqli olması, nəticələrinin obyektivliyi onun seçimi üçün əsas şərt olur.

Bu, nəticənin çıxarılması kimi dəyərləndirilir.

Əlbəttə, müəllim məqsədindən, sinfin səviyyəsindən asılı olaraq, dərsi başqa variantda da təşkil edə bilər. Lakin o, tətbiq ediləcək təlim metodları, priyom və iş üsulları ilə şagirdlərin tanışlığına xüsusi diqqət yetirir, əvvəlcədən təlimatlandırma aparır.

Dərsin hansı variantda təşkilindən asılı olmayaraq, şagirdlərin sinifdə öyrəndiklərinə müstəqil tədqiqat zamanı nələri əlavə edəcəkləri barədə aydın təsəvvürü olmalıdır. Məsələn, müəllimin istiqamətləndirməsi sayəsində şagirdlərə aydın olur ki, *“XIII–XVI yüzilliklərdə ədəbiyyatımızda hansı inkişaf meyilləri olmuşdur?”* sualı ilə bağlı mənbələrdən daha çox aşağıdakı məlumatların mənimsənilməli və dəyərləndirilməsi məqsədəuyğundur:

– anadilli ədəbiyyatın sürətlə inkişaf etməsinin başlıca səbəbləri;
– fars və ərəb dillərində ədəbiyyat nümunələrinin yaranmaqda davam etməsi;
– anadilli lirik və epik poeziyanın inkişafının yeni ədəbi məktəblərin meydana gəlməsi üçün zəmin yaratması;

LAYİHƏ

– sufilik və hürufilik ideyalarının söz sənətində dünyəvi məhəbbəti və bəşəri dəyərləri inkar etməməsi;
– anadilli saray ədəbiyyatının ozan-aşıq sənətinə müsbət təsir göstərməsi.

Yaxud *"Qazi Bürhanəddin yaradıcılığını ədəbiyyatımız üçün dəyərli edən hansı cəhətlərdir?"* sualı ilə əlaqədar mənbələrdən aşağıdakı məzmunda məlumatların öyrənilməsi və qiymətləndirilməsi faydalıdır:

– Qazi Bürhanəddin həm klassik poeziya, həm də şifahi xalq yaradıcılığından bəhrələnməklə anadilli şeirimizin dəyərli örnəklərini yaratmışdır. Şairin qəzəl və rübailərində məhəbbət mövzusu əsas yer tutsa da, tuyuqlarının ideya-məzmunu ictimai-fəlsəfi və əxlaqi motivlərlə zəngindir;
– şairin lirikası yüksək obrazlılığı, ənənəvi məcazların yeni məzmunda işlədilməsi ilə diqqəti cəlb edir;
– şair sufiyanə əsərlərlə yanaşı, insani məhəbbəti, gözəli, gözəlliyi vəsf edən şeirlər də yazmışdır.
– Qazi Bürhanəddin yaradıcılığı özündən sonrakı anadilli poeziyaya, o cümlədən türk xalqlarının ədəbiyyatına güclü təsir göstərmişdir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə müəyyənləşdirilmiş meyarlar əsasında aparılır.

*Qiymətləndirmə meyarları:*
İstifadəetmə
Əsaslandırma, nümayişetdirmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla mövzu, problemlə bağlı təqdimat və çıxışlarında obrazlı ifadələrdən istifadə etməkdə çətinlik çəkir. | Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla mövzu, problemlə bağlı təqdimat və çıxışlarında suallar və müəllimin köməyi ilə obrazlı ifadələrdən istifadə edir. | Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla mövzu, problemlə bağlı təqdimat və çıxışlarında, əsasən, obrazlı ifadələrdən istifadə edir. | Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla mövzu, problemlə bağlı təqdimat və çıxışlarında obrazlı ifadələrdən istifadə edir. |
| Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırmaqda, fərqli fikirlərə dözümlülük nümayiş etdirməkdə çətinlik çəkir. | Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini suallar və müəllimin köməyi ilə əsaslandırır, fərqli fikirlərə qismən dözümlülük nümayiş etdirir. | Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə, əsasən, dözümlülük nümayiş etdirir. | Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. |

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

LAYİHƏ

*Mövzu:* **İmadəddin Nəsiminin həyatı, yaradıcılıq yolu** – 1 saat

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **2.1.1.** Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla təqdimat və çıxışlarında obrazlı ifadələrdən istifadə edir. | • Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla mövzu, problemlə bağlı təqdimat və çıxışlarında obrazlı ifadələrdən istifadə edir. |
| **2.2.1.** Müzakirələrdə mövzuya, problemə, yazıçı mövqeyinə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. | • Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. |
| **3.1.3.** 3-3,5 səhifə həcmində nəqli, təsvir, təhlil xarakterli mətnlər (ədəbi və sərbəst mövzuda inşa, esse, məruzə) yazır. | • Təhlil xarakterli məruzə yazır. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi *(1. XIII–XVI əsrlərdə Azərbaycan ədəbiyyatı barədə öyrəndiklərinizi mənbələrdən topladığınız məlumat əsasında zənginləşdirin və tamamlayın. 2. Yazılı qeydlər əsasında şifahi təqdimata hazırlaşın. 3. "Orta dövr Azərbaycan ədəbiyyatının əvvəlki mərhələdən fərqi" mövzusunda məruzəyə hazırlaşın)* səviyyəsi müxtəlif yollarla aşkara çıxarıla bilər. Müsahibə, müzakirə, təqdimatların dinlənilməsi və s. bu qəbildəndir. Bütün hallarda başlıca diqqət şagirdlərin mənbələrdən hansı səviyyədə bəhrələndiyinin aydınlaşdırılmasına yönəldilir. Bu mərhələdə müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

**Motivasiya** mərhələsində şagirdlərin Nəsimi ilə bağlı məlumatları aşkara çıxarılır. Şagirdlərin dərslikdəki *"İ.Nəsiminin həyatı, yaradıcılığı və yaşadığı dövrlə bağlı nə bilirsiniz? Ədəbiyyat, tarix, coğrafiya dərslərində qazandığınız bilikləri xatırlayın, yığcam müzakirə aparın". Tapşırığını yerinə yetirməsi üçün vaxt ayrılır.* BİBÖ üzrə cədvəl çəkilir, müsahibə zamanı "Bilirik", "Bilmək istəyirik" sütunlarında müvafiq qeydlər aparılır. Tapşırığın icrası zamanı şagirdlər Nəsiminin şəxsiyyəti, yaradıcılığı ilə bağlı onları maraqlandıran, düşündürən məsələlərə də toxunurlar. Müzakirə zamanı şagirdlər İ.Nəsiminin VIII sinifdə öyrəndikləri "Ağrımaz" qəzəli ilə bağlı mülahizələr söyləyir, fəallıq göstərirlər.

Motivasiyanın yaradılmasının digər variantı "Nəsimi" filmindən bir epizodun (https://www.youtube.com/watch?v=IXN38dSKFOM) nümayiş etdirilməsi və yığcam müzakirəsidir.

Bütün bunlar araşdırılacaq **problemin** müəyyənləşdirilməsinə, konkret sualın formalaşdırılmasına imkan verir: *Nəsiminin həyatının, yaradıcılığının bütün dönəmlərdə diqqət çəkməsinə səbəb nadir?*

Dərsdə Azərbaycan Respublikası prezidentinin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqinda" sərəncamı əsasında İ.Nəsiminin məktəb və rayon kitabxanalarına paylanmış kitabı nümayiş etdirilir.

LAYİHƏ

Şagirdlərə həmin kitabdan əlavə mənbə kimi necə istifadə edəcəkləri ilə bağlı tövsiyələr verilir.

**Araşdırmanın** bir variantı dərslikdə təklif edilmiş tapşırığın yerinə yetirilməsi ola bilər. Kiçik qruplar yaradılır, mətnkənarı suallarla bağlı cavablar qruplarda oxunur, məzmunu ümumiləşdirilərək bir neçə cümlə ilə qeyd edilir. Digər qruplara vermək üçün mətnlə bağlı bir neçə sual müəyyənləşdirilir. Əldə edilmiş nəticələrlə bağlı təqdimatlar üzrə məlumat mübadiləsi və müzakirə aparılır. Müzakirə zamanı ədəbiyyatşünas alimlərin Nəsimi yaradıcılığı ilə bağlı fikirlərinə münasibət bildirilir. BİBÖ cədvəlinin "Öyrəndik" sütununda müvafiq qeydlər edilir.

Digər variant aşağıdakı şəkildə ola bilər.

Dərslikdəki sualların *(Nəsiminin dövrü, həyatı və yaradıcılığı üçün önəmli olanlar hansılardır? İ.Nəsiminin təriqət şeirləri üçün səciyyəvi cəhətlər hansılardır? Sənətkarın dünyəvi şeirləri hansı xüsusiyyətləri ilə diqqəti cəlb edir? Şairin lirikası hansı poetik keyfiyyətləri ilə seçilir?)* aydınlaşdırılmasına istiqamət verən cavabların oxusu ilə araşdırmaya başlanılır. Mətnin oxusunu fərqli formalarda həyata keçirmək mümkündür. Onun həcmi fərdi oxunun tətbiqi üçün daha məqsədəuyğundur. Kiçik qruplar yaratmaq, hər qrupa bir sual həvalə etmək vaxta qənaət baxımından məqsədəuyğundur

Araşdırmaya ayrılan vaxt başa çatdıqdan sonra **təqdimatların mübadiləsi** və **müzakirəsi** aparılır. Bu mərhələdə müəllimin üzərinə ciddi vəzifə düşür; o, hər sualla bağlı mənbələrdən hansı məlumatların əldə edilməsinin əhəmiyyətli olması barədə şagirdlərdə aydın təsəvvür yaratmağa çalışır. Unudulmamalıdır ki, mətndə suallarla bağlı ən mühüm cəhətlərə toxunulmuş, tədqiqat üçün istiqamət verilmişdir. Nəsiminin həyata baxışı, yaradıcılığının mahiyyəti barədə mükəmməl təsəvvürün qazanılması onun dövrü, bu dövrün mühüm sosial-siyasi vəziyyəti barədə məlumatlı olmaqdan çox asılıdır.

Dərslikdə məsələnin bu cəhətinə toxunulmuş, mənbələrdən, digər fənlərdən geniş məlumatın əldə edilməsi üçün imkan yaradılmışdır. Eləcə də hürufiliyin mahiyyəti, yaranmasının ictimai səbəbləri dərslikdə yığcam şərh edilmiş, məlumatın mənbələr əsasında zənginləşdirilməsi və tamamlanması nəzərdə tutulmuşdur. Dərslikdə, həmçinin Nəsiminin hürufiliyə meyil etməsinin, əqidəsinə ömrü boyu sadiq qalmasının səbəbləri əhatəli açıqlanmamış, bunu şagirdlərin araşdırma aparmaqla müstəqil şərh etmələrinə imkan yaradılmışdır.

Şairin yaradıcılığı üçün səciyyəvi olan cəhətlərin dərslikdə çox az qisminə yer verilmişdir. Təriqət şeirlərində hürufi ideyalarının təbliğ olunduğu, dünyəvi şeirlərində ictimai-fəlsəfi görüşlərinin, saf məhəbbətin və s. ifadə edildiyi ön plana çəkilmiş, bədii səənətkarlıq xüsusiyyətləri ilə bağlı yönləndirici məlumat verilmişdir. Deməli, şairin yaradıcılığı üçün səciyyəvi olanların mənbələr əsasında zənginləşdirilməsi və dəyərləndirilməsi şagirdlərin müstəqil araşdırmalarının nəticəsi kimi özünü göstərməlidir.

Oxu prosesində yaranan sualların aydınlaşdırılmasında müəllim yardımçı olur. O, istiqamətləndirici suallardan istifadə etməklə çətinliklərin aradan qalxmasına nail olur.

LAYİHƏ

Müəllimin təklifi ilə kiçik qruplarda birləşən şagirdlər fikir mübadiləsi aparır, düşüncələrini bölüşürlər. Kiçik qruplara təqdimat zamanı tədqiqatçıların dərslikdə verilmiş fikirlərinə də münasibət bildirmək, fikirlərini əsaslandırmaq tapşırılır. Məhz bundan sonra təqdimatlar əsasında **məlumat mübadiləsinin** və **müzakirənin** aparılması faydalıdır. Müzakirədə şagirdlərin nitqinin ifadəliliyinə, obrazlı söz və ifadələrdən məqamında istifadəyə, mənbələrdən hansı həcmdə və məzmunda məlumat toplamağın faydalı olmasına bir daha diqqət çəkilir.

**Nəticə** və **ümumiləşdirmə** müəllimin istiqamətləndirici suallarının tətbiqi ilə həyata keçirilir. Şairin poeziyasında mənəvi dəyərlərin yüksək sənətkarlıqla canlandırıldığı barədə ümumi qənaət yaradılır. BİBÖ cədvəlində “Öyrəndik” bölümündə qeydlər aparılır.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə müəyyənləşdirilmiş meyarlar əsasında aparılır.

*Qiymətləndirmə meyarları:*

İstifadəetmə

Əsaslandırma, nümayişetdirmə

Məruzəyazma

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla mövzu, problemlə bağlı təqdimat və çıxışlarında obrazlı ifadələrdən istifadə etməkdə çətinlik çəkir. | Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla mövzu, problemlə bağlı təqdimat və çıxışlarında suallar və müəllimin köməyi ilə obrazlı ifadələrdən istifadə edir. | Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla mövzu, problemlə bağlı təqdimat və çıxışlarında, əsasən, obrazlı ifadələrdən istifadə edir. | Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla mövzu, problemlə bağlı təqdimat və çıxışlarında obrazlı ifadələrdən istifadə edir. |
| Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırmaqda, fərqli fikirlərə dözümlülük nümayiş etdirməkdə çətinlik çəkir. | Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini suallar və müəllimin köməyi ilə əsaslandırır, fərqli fikirlərə qismən dözümlülük nümayiş etdirir. | Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə, əsasən, dözümlülük nümayiş etdirir | Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. |
| Təhlil xarakterli məruzə yazmada çətinlik çəkir. | Təhlil xarakterli məruzəni mövzunu qismən əhatə etməklə, fikrin ifadəsində məntiqilik və ardıcıllığı gözləməklə yazır. | Təhlil xarakterli məruzəni mövzunu, əsasən, əhatə etməklə, fikrin ifadəsində məntiqilik və ardıcıllığı gözləməklə yazır. | Təhlil xarakterli məruzəni mövzunu əhatə etməklə, fikrin ifadəsində məntiqilik və ardıcıllığı gözləməklə yazır. |

Müəllim dərslikdəki “Evdə iş” başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.



LAYİHƏ

*Mövzu:* **İmadəddin Nəsimi. Sığmazam (ixtisarla)** – 3 saat

*Birinci saat:* **Məzmun üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.1.1.** Müxtəlif vəznli şeirlərdə (heca, əruz, sərbəst) və süjetli əsərlərdə (dastan, poema, hekayə, povest, roman, dram, komediya, faciə) tanış olmayan sözlərin mənasını mənşəyinə və işlənmə məqamına görə izah edir. | • Şeirdə tanış olmayan sözlərin mənasını mənşəyinə və işlənmə məqamına görə izah edir. |
| **1.1.4.** Müxtəlif ədəbi növ və janrda olan bədii nümunələrdə əksini tapan mühüm mənəvi, əxlaqi-etik dəyərləri müəyyənləşdirir. | • Şeirdə əksini tapmış mühüm mənəvi, əxlaqietik dəyərləri müəyyənləşdirir. |
| **1.1.5.** Müxtəlif vəznli (heca, əruz) şeirlərdə, mürəkkəb süjet və kompozisiyalı bədii nümunələrdə bədii təsvir və ifadə vasitələrini (epitet, bənzətmə, metafor, metonimiya, simvol, mübaliğə, litota, bədii sual, təkrir, bədii təzad, inversiya) müəyyənləşdirir. | • Şeirdə məcazları müəyyənləşdirir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi müxtəlif yollarla aşkara çıxarıla bilər. Müsahibə, müzakirə, təqdimatların dinlənilməsi və s. bu qəbildəndir. Bütün hallarda başlıca diqqət şagirdlərin mənbələrdən hansı səviyyədə bəhrələndiyinin aydınlaşdırılmasına, Nəsiminin poeziya tariximizdə mövqeyinin, şeirlərində əks olunan mənəvi-əxlaqi dəyərlərlə bağlı mülahizələrin müzakirəsinə yönəldilir. Bu mərhələdə müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu** mərhələsinin təşkili fərqli məzmunda ola bilər. Şagirdlərin VIII sinifdə "Ağrımaz" qəzəli ilə bağlı mənimsədiyi bilikləri bir daha xatırladan müəllim yığcam müsahibə aparır, Nəsimi əqidəsinə sadiq, hürufi ideyalarının alovlu təbliğatçısı kimi səciyyələndirilir.

Motivasiyanın digər variant "Sığmazam" qəzəlinin bədii oxusunun və ya "Nəsimi filmindən şeirin səsləndirildiyi parçanın dinlənilməsi, ifanın yığcam müzakirəsi (https://www.youtube.com/watch?v=okkXl37JI6Q) ola bilər.

Dərslikdə verilmiş "Nəsiminin təriqət şeirləri yazmasına səbəb, sizcə, nədir?" sualı ilə bağlı fikir mübadiləsi aparılır. Müsahibənin və fikir mübadiləsinin sonunda tədqiqat sualı formalaşdırılır.

**Tədqiqat sualı:** Hürufiliyin təbliğinə həsr olunmuş şeirlərdə, sizcə, hansı hiss və düşüncələrə daha geniş yer verilir?

Fərziyyələr dinlənilir və qeyd edilir.

**Araşdırmanın** bir variantı dərslikdə təklif edilmiş tapşırığın yerinə yetirilməsi ola bilər. Şagirdlər Nəsiminin təriqət şeirləri yazmasının səəbəbi ilə bağlı sual üzərində düşünür, cavabını cədvəldə qısaca qeyd edərək fikir mübadiləsi və müzakirə

LAYİHƏ

aparırlar.Şeirin məzmunu üzərində işləyən şagirdlər əsəri fərdi olaraq səssiz oxuyur, tanış olmayan sözlərin mənasını, mənşəyini aydınlaşdırırlar. İkihissəli gündəlikdə daha maraqlı hesab etdikləri məcazlarla, seçimlərinin səbəbi ilə bağlı qeydlər aparılır. İzahına ehtiyac duyduqları misra və beytləri, onların izahını cədvəldə qeyd edirlər. Kiçik qruplarda birləşən şagirdləraraşdırma zamanı gəldikləri qənaətləri bölüşür, qarşılaşdırları çətinlikləri müəllimlə müzakirə edirlər. Kiçik qrupların yerinə yetirilmiş işlərlə bağlı təqdimatları əsasında fikir mübadiləsi və müzakirə aparılır.

Digər variant aşağıdakı şəkildə ola bilər.

**Tədqiqata** qəzəlin fərdi oxusu ilə başlanılır. Qəzəl hələ dərsə qədər şagirdlər tərəfindən müstəqil oxunsa da, ilkin qavramanın səviyyəsi qənaətbəxş olmur. Hürufi termin və ifadələri ilə zəngin olan beytlərdə ifadə olunmuş fikirləri izah etməkdə şagirdlər çətinlik çəkirlər. Məzmun üzrə işin bir variantı dərslikdəki tövsiyyə ola bilər; şagirdlər qəzəlin dərslikdə verilmiş açıqlamasını (açıqlama Ə.Səfərliyə məxsusdur) fərdi olaraq oxuyurlar. Bu prosesdə, həmçinin tanış olmayan sözlərin mənası və məcazların aydınlaşdırılması həyata keçirilir.

Yaranan çətinliklər müəllimin istiqamətləndirici sualları ilə aradan qaldırılır. Bu məzmunda işin icrasına ayrılan vaxt tamam olduqdan sonra şagirdlər müəllimin təklifi ilə kiçik qruplarda birləşib öyrəndikləri ilə bağlı fikir mübadiləsi aparırlar. Bu, cavablarda dəqiqləşdirmə və zənginləşdirmənin aparılmasına əlverişli imkan yaradır. Yalnız bundan sonra kiçik qrupların təqdimatı əsasında **məlumat mübadiləsi** və **müzakirə** aparılır.

İşin başqa bir variantda təşkili müəllimin nisbətən daha fəal olmasını tələb edir. Belə ki, müəllim qəzəlin ilk dörd beytinin izahlı oxusunu öz üzərinə götürür. Şagirdlər beytlərin dərslikdəki şərhləri əsasında müəllimin izahlı oxusunda fəal iştirak edirlər. Şeirdə əksini tapmış mühüm mənəvi dəyərlərin müəyyənləşdirilməsi üzrə iş aparılır. Oxu prosesində tanış olmayan sözlərin və məcazların müəyyənləşdirilməsi, izahı həyata keçirilir. Əlbəttə, oxu ilə bağlı digər variantlar da var. Müəllim qarşısına qoyduğu məqsəddən, sinfin səviyyəsindən və s. asılı olaraq, variantlardan birini seçir.

Aparılan işlərə yekun (tam nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması məzmunun öyrənilməsinə həsr edilən ikinci dərs saatında həyata keçirilir) vurulduqdan sonra qiymətləndirmə aparılır.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə müəyyənləşdirilmiş meyarlar əsasında aparılır.

*Qiymətləndirmə meyarları:*

İzahetmə

Müəyyənləşdirmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Tanış olmayan sözlərin mənşəyinə və işlənmə məqamına görə mənasını izah etməkdə çətinlik çəkir. | Tanış olmayan sözlərin mənşəyinə və işlənmə məqamına görə mənasını suallar verməklə və kömək əsasında izah edir. | Tanış olmayan sözlərin mənşəyinə və işlənmə məqamına görə mənasını, əsasən, izah edir. | Tanış olmayan sözlərin mənşəyinə və işlənmə məqamına görə mənasını izah edir. |



LAYİHƏ

| | | | |
|---|---|---|---|
| Şeirdə əksini tapmış mühüm mənəvi, əxlaqi-etik dəyərləri müəyyənləşdirməkdə çətinlik çəkir. | Şeirdə əksini tapmış mühüm mənəvi, əxlaqi-etik dəyərləri müəllimin köməyi ilə müəyyənləşdirir. | Şeirdə əksini tapmış mühüm mənəvi, əxlaqi-etik dəyərləri, əsasən, müəyyənləşdirir. | Şeirdə əksini tapmış mühüm mənəvi, əxlaqi-etik dəyərləri müəyyənləşdirir. |
| Şeirdə məcazları müəyyənləşdirməkdə çətinlik çəkir. | Şeirdə məcazları suallar verməklə və kömək əsasında müəyyənləşdirir. | Şeirdə məcazları, əsasən, müəyyənləşdirir. | Şeirdə məcazları müəyyənləşdirir |

Müəllim dərslikdəki “Evdə iş” başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **İmadəddin Nəsimi. Sığmazam (ixtisarla) –** 3 saat
*İkinci saat:* **Məzmun üzrə iş**

| **Standartlar** | **Təlim nəticələri** |
|---|---|
| **1.1.1.** Müxtəlif vəznli şeirlərdə (heca, əruz, sərbəst) və süjetli əsərlərdə (dastan, poema, hekayə, povest, roman, dram, komediya, faciə) tanış olmayan sözlərin mənasını mənşəyinə və işlənmə məqamına görə izah edir. | • Şeirdə tanış olmayan sözlərin mənasını mənşəyinə və işlənmə məqamına görə izah edir. |
| **1.1.5.** Müxtəlif vəznli (heca, əruz) şeirlərdə, mürəkkəb süjet və kompozisiyalı bədii nümunələrdə bədii təsvir və ifadə vasitələrini (epitet, bənzətmə, metafor, metonimiya, simvol, mübaliğə, litota, bədii sual, təkrir, bədii təzad, inversiya) müəyyənləşdirir. | • Şeirdə məcazları müəyyənləşdirir. |

## Dərsin gedişi

Ev tapşırığının *(1. Mənasını aydınlaşdırdığınız sözlərin (beşdən az olmayaraq) alınma, yaxud dilimizə aid olduğunu əsaslandırın. 2. Müəyyənləşdirdiyiniz məcazların növünü dəqiqləşdirin)* yerinə yetirilməsi səviyyəsi müsahibənin tətbiqi ilə müəyyənləşdirilir. Bu, vaxta qənaət baxımından məqsədəuyğundur. Əsərdə işlənilmiş sözlərin mənşəyi, məcazların növünün müəyyənləşdirilməsi şagirdlərə yalnız zahiri cəhətlərin, belə demək mümkünsə, gözlə görünənlərin izahında kömək edir.

Şagirdlərin müstəqil işinin nəticəsi ilə bağlı təsəvvür qazanan müəllim dərslikdəki birinci tapşırığın *(Beytləri açıqlamaları ilə müqayisə edin. Açıqlamalara əlavələr etməklə onları zənginləşdirin)* yerinə yetirilməsi üzrə işin necə təşkil ediləcəyi barədə qərar verir. Müəllim bu tapşırıqla bağlı cütlük şəklində işləməyi şagirdlərə həvalə edə bilər. Bu iş forması müəllimə bütün sinfə nəzarət etmək, ehtiyac duyanlara yardımçı olmaq imkanı verir.

İkinci və üçüncü tapşırığın *(Şeirdə ahəng yaradan vasitələri müəyyənləşdirin. “Məndə sığar iki cahan, mən bu cahana sığmazam” misrasında hansı bədii ifadə vasitəsi işlənib?)* fərdi olaraq yerinə yetirilməsi məqsədəuyğundur.



LAYİHƏ

Müəllim şagirdlərə kiçik qruplarda birləşərək aşağıdakı sual və tapşırıqlar üzrə fikir mübadiləsi aparmağı təklif edir:

1. "*Günəş mənəm, ay mənəm, bal mənəm, şəkər mənəm" misrasında hansı bədii ifadə vasitəsi işlənib?*
2. "Haşimiyəm, qüreyşiyəm" dedikdə şair nəyi nəzərdə tutur?
3. İnsanın Allahla, bütün maddi və mənəvi aləmlə bir olması fikri hansı misralarda daha qabarıq ifadə olunub?
4. İnsanın ucalığı, ölməzliyi fikri hansı misralarda öz əksini tapıb?
5. Sizcə, Nəsimidən söz düşəndə ilk növbədə bu şeirin xatırlanması nə ilə əlaqədardır?
6. "Şeir müəllif haqqında bildiklərimə nə əlavə etdi?" mövzusunda təqdimata hazırlaşın.

Məktəb təcrübəsindən məlumdur ki, təqdimatların müzakirəsi prosesində fikir ayrılığı və bununla bağlı mübahisələr də meydana çıxır. Belə mübahisələr səmərəli istiqamətə yönləndirilməlidir. Müəllimin təklifi ilə mübahisə edən tərəflər əlavə dəlillər, nümunələr göstərməklə haqlı olduqlarını sübut etməlidirlər. Bu cür mübahisəli məsələlər qruplararası müzakirəyə də çıxarıla bilər.

Kiçik qrupların təqdimatı əsasında **məlumat mübadiləsi** və **müzakirə** aparılır. Müzakirədə hər beytdə ifadə olunmuş fikrin ətraflı başa düşülməsinə, lirik qəhrəmanın coşqun hiss və düşüncələrinin aydınlaşdırılmasına daha çox önəm verilir.

Müəllimin istiqamətləndirici sualları əsaslandırılmış **nəticənin** çıxarılmasına, **ümumiləşdirmənin** aparılmasına imkan yaradır. Nəticələrin fərziyyələrlə müqayisə edilməsinə vaxt ayrılır.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə müəyyənləşdirilmiş meyarlar əsasında aparılır.

*Qiymətləndirmə meyarları:*

İzahetmə

Müəyyənləşdirmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Tanış olmayan sözlərin mənşəyinə və işlənmə məqamına görə mənasını izah etməkdə çətinlik çəkir. | Tanış olmayan sözlərin mənşəyinə və işlənmə məqamına görə mənasını suallar verməklə və kömək əsasında izah edir. | Tanış olmayan sözlərin mənşəyinə və işlənmə məqamına görə mənasını, əsasən, izah edir. | Tanış olmayan sözlərin mənşəyinə və işlənmə məqamına görə mənasını izah edir. |
| Şeirdə məcazları müəyyənləşdirməkdə çətinlik çəkir. | Şeirdə məcazları suallar verməklə və kömək əsasında müəyyənləşdirir. | Şeirdə məcazları, əsasən, müəyyənləşdirir. | Şeirdə məcazları müəyyənləşdirir |

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

LAYİHƏ

*Mövzu:* **İmadəddin Nəsimi. Sığmazam (ixtisarla) –** 3 saat
*Üçüncü saat:* **Təhlil üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.1.2.** İfadəli oxudan müxtəlif ədəbi növdə olan əsərlərin emosionalobrazlı qavranılması, təhlili məqsədi ilə istifadə edir. | • İfadəli oxunu şeirin emosional-obrazlı qavranılması və təhlili vastəsi kimi tətbiq edir. |
| **1.2.2.** Davranış və əməllərinə, başqaları ilə qarşılıqlı münasibətlərinə, yazıçının mövqeyinə, digər surətlərin mühakimələrinə əsaslanmaqla obrazları təhlil edir. | • Davranış və əməllərindən çıxış etməklə lirik qəhrəmanı təhlil edir. |
| **1.2.3.** Müxtəlif vəznli (heca, əruz, sərbəst) şeirlərdə, süjetli ədəbi nümunələrdə bədii təsvir və ifadə vasitələrinin obrazlılığın yaradılmasındakı rolunu aydınlaşdırır və münasibət bildirir. | • Şeirdəki məcazların obrazlılığın yaradılmasındakı rolunu aydınlaşdırır və münasibət bildirir. |
| **1.2.4.** Bədii nümunələrin mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün sosial-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə təhlil edir və nəticə çıxarır. | • Şeirin mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün sosialsiyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə təhlil edir və nəticə çıxarır. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilməsi və müzakirə edilməsi əsasında müəyyənləşdirilir. Şagirdlərin ikihissəli gündəlikdə apardıqları qeydlər qəzəlin məzmunu ilə bağlı mənimsədikləri barədə aydın təsəvvür qazanmağa çatışmazlıqları aradan qaldırmağa imkan verir. Müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu.** Motivasiya suallardan istifadə yolu ilə yaradılır. Lirik qəhrəmanın "monoloquna" diqqəti çəkən müəllim "Lirik qəhrəman qətiyyətli, əzmkar olması ilə oxucunu dərhal cəlb edir" fikrinə münasibət bildirməyi şagirdlərə təklif edir. Yığcam müzakirə tədqiqat sualının müəyyənləşdirilməsi ilə başa çatır.

**Tədqiqat sualı:** "Şeirdə əqidəsinə böyük inamı, insana dərin sevgisi ilə seçilən alovlu hürufi təbliğatçısı obrazı yaradılmışdır" fikrini doğru saymaq olarmı?

Fərziyyələr dinlənilir, təkrara yol verilmədən qeyd edilir.

Problemin araşdırılması üçün dərslikdə üç sual *(Qəzəl hansı mövzuda yazılıb? Şeirin ideya-məzmunu üçün önəmli olan fikirlər hansılardır? Qəzəlin bədiiliyini təmin edən mühüm vasitələr hansılardır?)* və onların araşdırılmasına istiqamət verən yığcam mətn verilmişdir. Araşdırmaya mətnin oxusu ilə başlanılır. Oxunu fərqli formalarda həyata keçirmək olar. Mətnin həcmi kiçik olduğu üçün fərdi oxunun tətbiqi məqsədəuyğundur. Oxudan sonra kiçik qruplar yaradılır, mətnkənarı suallar onların arasında bölünür. Qrupların sayı çox olarsa, iki qrup bir sualın üzərində işləyə bilər. Hazırlanmış cavablar dərslikdəki mətndə müvafiq hissə ilə müqayisə edir, gəldikləri nəticələri Venn diaqramında əks etdirirlər.

Mətndə qəzəlin mövzusu, ideyası haqqında əksini tapmış məlumat məzmunca natamamdır. Mənbələrdən məlumat toplamaqla onu zənginləşdirmək, tamamlamaq



LAYİHƏ

mümkündür. Buna nail olmağın yolları həm oxu prosesində, həm də müzakirədə şagirdlərə izah olunur.

Dərslikdəki mətndə lirik qəhrəmanla bağlı yığcam, lakin tutarlı fikirlər ifadə edilmişdir. Bu fikirlərin qavranılması, eləcə də qəzəlin məzmunu üzrə mənimsənilənlər şagirdlərə lirik qəhrəmanın səciyyəvi xüsusiyyətləri haqqında mühakimə yürütməyə imkan verir. Mənbələrdən əldə olunan məlumatlar isə lirik qəhrəman haqqındakı təsəvvürün tamamlanmasına və bununla da tədqiqat sualının aydınlaşdırılmasına səbəb olur.

Qəzəlin bədii xüsusiyyətləri ilə bağlı olan dördüncü sualın cavabı da mətndə çox yığcam şərh edilmişdir. Qəzəldə ahəng yaradan vasitələr, bol-bol işlənmiş məcazlar, sözlərin ustalıqla seçilməsi və misrada məharətlə yerləşdirilməsi və s. barədə deyilənlərin genişləndirilməsinə, misallarla təsdiqinə ciddi ehtiyac yaranır. Bunların bir qismini şagirdlər elə bu dərsdəcə yerinə yetirə bilirlər. Buna əsərin məzmunu üzrə qazanılmış biliklər imkan yaradır.

Müəllimin təklifi ilə kiçik qruplarda birləşən şagirdlər öyrəndikləri ilə bağlı fikir mübadiləsi aparır, qənaətlərini bölüşürlər.

Kiçik qrupların təqdimatları əsasında **məlumat mübadiləsi** və **müzakirə** aparılır. Müzakirədə mənbələrdən hansı məzmunda məlumatların əldə ediləcəyinə bir daha toxunulur.

Müəllimin istiqamətləndirici sualları dolğun **nəticələrin** çıxarılmasına, **ümumiləşdirmənin** aparılmasına səbəb olur. Nəticələrin fərziyyələrlə müqayisə edilməsinə diqqət yetirilir. Bütün bunlar şeirdən ilk iki beytin ifadəli oxusuna imkan yaradır. Əruz vəznli şeirlərin oxu xüsusiyyətləri müsahibə ilə xatırladıldıqdan sonra ifalar dinlənilir və onlara münasibət bildirilir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə müəyyənləşdirilmiş meyarlar əsasında aparılır.

*Qiymətləndirmə meyarları:*

Tətbiqetmə

Təhliletmə

Aydınlaşdırma, münasibətbildirmə

Təhliletmə, nəticəçıxarma

| **I səviyyə** | **II səviyyə** | **III səviyyə** | **IV səviyyə** |
|---|---|---|---|
| İfadəli oxunu şeirin emosional-obrazlı qavranılması və təhlili vastəsi kimi tətbiq etməkdə çətinlik çəkir. | İfadəli oxunu şeirin emosional-obrazlı qavranılması və təhlili vastəsi kimi müəllimin köməyi ilə tətbiq edir. | İfadəli oxunu şeirin emosional-obrazlı qavranılması və təhlili vastəsi kimi əsasən tətbiq edir. | İfadəli oxunu şeirin emosionalobrazlı qavranılması və təhlili vastəsi kimi tətbiq edir. |
| Lirik qəhrəmanı davranış və əməllərinə əsaslanmaqla təhlil etməkdə çətinlik çəkir. | Lirik qəhrəmanı davranış və əməllərinə əsaslanmaqla qismən təhlil edir. | Lirik qəhrəmanı davranış və əməllərinə əsaslanmaqla əsasən təhlil edir. | Lirik qəhrəmanı davranış və əməllərinə əsaslanmaqla təhlil edir. |

LAYİHƏ

| | | | |
|---|---|---|---|
| Şeirdəki məcazların obrazlılığın yaradılmasındakı rolunu aydınlaşdırmaqda və münasibət bildirməkdə çətinlik çəkir. | Şeirdəki məcazların obrazlılığın yaradılmasındakı rolunu müəllimin köməyi ilə aydınlaşdırır və münasibət bildirməkdə çətinlik çəkir. | Şeirdəki məcazların obrazlılığın yaradılmasındakı rolunu, əsasən, aydınlaşdırır və münasibət bildirir. | Şeirdəki məcazların obrazlılığın yaradılmasındakı rolunu aydınlaşdırır və münasibət bildirir. |
| Şeirin mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün sosial-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə təhlil etməkdə və nəticə çıxarmaqda çətinlik çəkir. | Şeirin mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün sosial-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə suallar və müəllimin köməyi ilə təhlil edir və nəticə çıxarır. | Şeirin mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün sosial-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə, əsasən, təhlil edir və nəticə çıxarır. | Şeirin mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün sosialsiyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə təhlil edir və nəticə çıxarır. |

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **Şah İsmayıl Xətayinin həyatı, yaradıcılıq yolu** – 1 saat

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **2.1.1.** Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla təqdimat və çıxışlarında obrazlı ifadələrdən istifadə edir. | • Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla mövzu, problemlə bağlı təqdimat və çıxışlarında obrazlı ifadələrdən istifadə edir. |
| **2.2.1.** Müzakirələrdə mövzuya, problemə, yazıçı mövqeyinə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. | • Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. |

**Dərsin gedişi**

Ev tapşırığının (*Sinifdə öyrəndiklərinizi mənbələrdən topladığınız məlumat əsasında zənginləşdirin və tamamlayın. Araşdırma apararkən aşağıdakı sual və tapşırıqlara xüsusi diqqət yetirin: a)Şairin insanın böyüklüyünə, ucalığına əsər həsr etməsinə səbəb, sizcə, nədir? b) Əsər hansı mənəvi dəyərlər haqqında daha geniş danışmağa imkan verir? c) Məcazların obrazlılığın, bədiiliyin artmasındakı rolunu nümunələrlə əsaslandırın. Mövzulardan birini seçib işləyin: 1."Nəsiminin qəzəllərində kamil insan obrazı" mövzusunda yığcam inşa yazın. 2."Nəsiminin əsərlərində tənqid hədəfləri" mövzusunda məruzə mətni hazırlayın.)* yerinə yetirilməsi səviyyəsi müsahibənin tətbiqi, yaxud təqdimatların dinlənilməsi və müzakirəsi əsasında müəyyənləşdirilir. Hər sualla bağlı mənbələrdən hansı məzmunda məlumatın əldə edilməsi və onların nə dərəcədə əhəmiyyətli olması, eləcə də qəzəlin 3-6-cı beytlərinin ifadəli



LAYİHƏ

oxusu diqqət mərkəzində saxlanılır. Müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

**Motivasiya** yaratmaq məqsədilə şagirdlərin Xətayi ilə bağlı bilikləri aşkara çıxarılır. Onlara dərslikdəki tapşırıq (*"Xətayi ilə bağlı bildiklərinizi yada salıb yığcam müzakirə aparın")* üzərində düşünmək təklif edilir. Şagirdlər ədəbiyyat, tarix, coğrafiya fənlərindən, əlavə mənbələrdən Xətayi haqqında xeyli məlumat mənimsəmiş olurlar. Bu, müzakirənin səmərəli keçməsinə, Xətayi ilə bağlı şagirdləri maraqlandıran digər məsələlərin aşkara çıxmasına imkan verir. BİBÖ üzrə cədvəl çəkilir. Müsahibə əsasında "Bilirik" və "Bilmək istəyirik" bölmələrində qeydlər aparılır.

Motivasiyanın bir variantı da Ş.İ.Xətayinin şeirlərinin bədii oxu ustasının ifasında dinlənilməsi (https://www.youtube.com/watch?v=TTGfEyrUoRE) ola bilər.

Müzakirənin sonunda araşdırılacaq **problem** müəyyənləşdirilir: *Vətənimizin, ədəbiyyatımızın tarixində Xətayinin önəmli xidmətləri hansılardır?*

Dərsdə Azərbaycan Respublikası prezidentinin "Azərbaycan dilində latin qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqinda" sərəncamı əsasında Ş.İ,Xətayinin məktəb və rayon kitabxanalarına paylanmış kitabı nümayiş etdirilir. Şagirdlərə həmin kitabdan əlavə mənbə kimi necə istifadə edəcəkləri ilə bağlı tövsiyələr verilir.

**Araşdırmanın** bir variantı dərslikdə təklif edilmiş tapşırığın yerinə yetirilməsi ola bilər. Şagirdlərin mətn üzərində işi təşkil edilir. Onlar mətnkənarı suallarla bağlı cavabları oxumaq, məzmununu ümumiləşdirib bir neçə cümlə ilə yazmaq, digər qruplara vermək üçün mətnlə bağlı suallar müəyyənləşdirmək tapşıqırıqlarını yerinə yetirirlər. Kiçik qruplar yaradılır, hər qrupda tapşırıqların icrası ilə bağlı dəqiqləşdirmələr mübadiləsi aparılır. Kiçik qrupların təqdimatları əsasında fikir mübadiləsi və müzakirə aparılır. Müzakirə zamanı ədəbiyyatşünas alimlərin Şah İsmayıl Xətayi ilə bağlı fikirlərinə münasibət bildirilir. BİBÖ cədvəlinin "Öyrəndik" sütununda müvafiq qeydlər edilir.

Digər variant aşağıdakı şəkildə ola bilər.

**Araşdırmaya** dərslikdəki sualların *(Xətayinin dövrü hansı ictimai-siyasi durumu ilə fərqlənir? Şairin həyatı və yaradıcılığı üçün daha önəmli olanlar nədir? Xətayinin lirik şeirləri hansı xüsusiyyətləri ilə diqqəti daha çox cəlb edir? "Nəsihətnamə" məsnəvisində əksini tapmış başlıca ideyalar hansılardır?)* və onların aydınlaşdırılmasına istiqamət verən mətnin oxusu ilə başlanılır. Mətndə Xətayinin həyatı, hakimiyyət uğrunda mübarizəsi, dövlət başçısı kimi fəaliyyəti, bədii yaradıcılığı ilə bağlı ən mühüm olanlara yığcam münasibət bildirilmişdir. Bu mətndəki məlumatlar və şagirdlərin mövcud bilikləri müəyyənləşdirilmiş problemin aydınlaşdırılmasına müəyyən töhfə versə də, araşdırmanın davam etdirilməsinə, cavabların genişləndirilməsinə, tamamlanmasına ehtiyac duyulur. Bu, nəzərə alınaraq istər oxu (onu fərqli formalarda təşkil etmək olar), istərsə də müzakirədə mənbələrdən necə istifadə etməyin yolları şagirdlərə izah edilir.

Dərslikdəki mətnin oxusunda nələrə diqqət etməyin vacib olması barədə şagirdlərə əvvəlcədən istiqamət verilməsi məqsədəuyğundur. Xətayinin həm ata, həm də ana tərəfdən məşhur nəsillərlə bağlılığı, hakimiyyət uğrunda mübarizə və



LAYİHƏ

Xətayinin çox erkən yaşlarında bu mübarizəyə qoşulması, döyüş qələbələri, qüdrətli dövlət yaratması, ədəbiyyatın, incəsənətin hamisi olması, anadilli ədəbiyyatımızın inkişafında misilsiz xidməti, bədii yaradıcılığı ilə ədəbiyyatımızı zənginləşdirməsi və s. oxuda xüsusi diqqət yetirilməli olan məsələlərdir.

Müəllimin təklifi ilə kiçik qruplarda birləşən şagirdlər fikir mübadiləsi aparırlar. Bu, cavabların dəqiqləşdirilməsinə, zənginləşdirilməsinə əhəmiyyətli təsir edir. Məhz bundan sonra kiçik qrupların təqdimatları əsasında **məlumat mübadiləsi** və **müzakirə** aparılır. Şagirdlərin mövzu və problemlə bağlı çıxışlarında nitqin ifadəliliyi, obrazlı ifadələrdən məqsədyönlü istifadə, problemə tənqidi münasibətin əsaslandırılması, fərqli fikirlərə dözümlü münasibət bəsləməsinə diqqət yetirilir. Əsaslandırılmış **nəticələrin** çıxarılmasında müəllimin istiqamətləndirici sualları əhəmiyyətli rol oynayır.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə müəyyənləşdirilmiş meyarlar əsasında aparılır.

*Qiymətləndirmə meyarları:*

İstifadəetmə

Əsaslandırma, nümayişetdirmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla mövzu, problemlə bağlı təqdimat və çıxışlarında obrazlı ifadələrdən istifadə etməkdə çətinlik çəkir. | Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla mövzu, problemlə bağlı təqdimat və çıxışlarında suallar və müəllimin köməyi ilə obrazlı ifadələrdən istifadə edir. | Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla mövzu, problemlə bağlı təqdimat və çıxışlarında, əsasən, obrazlı ifadələrdən istifadə edir. | Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla mövzu, problemlə bağlı təqdimat və çıxışlarında obrazlı ifadələrdən istifadə edir. |
| Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırmaqda, fərqli fikirlərə dözümlülük nümayiş etdirməkdə çətinlik çəkir. | Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini suallar və müəllimin köməyi ilə əsaslandırır, fərqli fikirlərə qismən dözümlülük nümayiş etdirir. | Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə, əsasən, dözümlülük nümayiş etdirir. | Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. |

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

LAYİHƏ

*Mövzu:* **Şah İsmayıl Xətayi. Dəhnamə (ixtisarla)** – 4 saat
*Birinci saat:* **Məzmun üzrə iş**

| **Standartlar** | **Təlim nəticələri** |
|---|---|
| **1.1.1.** Müxtəlif vəznli şeirlərdə (heca, əruz, sərbəst) və süjetli əsərlərdə (dastan, poema, hekayə, povest, roman, dram, komediya, faciə) tanış olmayan sözlərin mənasını mənşəyinə və işlənmə məqamına görə izah edir. | ● Poemada tanış olmayan sözlərin mənasını mənşəyinə və işlənmə məqamına görə izah edir. |
| **1.1.5.** Müxtəlif vəznli (heca, əruz) şeirlərdə, mürəkkəb süjet və kompozisiyalı bədii nümunələrdə bədii təsvir və ifadə vasitələrini (epitet, bənzətmə, metafor, metonimiya, simvol, mübaliğə, litota, bədii sual, təkrir, bədii təzad, inversiya) müəyyənləşdirir. | ● Poemada məcazları müəyyənləşdirir. |
| **3.1.3.** 3-3,5 səhifə həcmində nəqli, təsvir, təhlil xarakterli mətnlər (ədəbi və sərbəst mövzuda inşa, esse, məruzə) yazır. | ● Təhlil xarakterli məruzə yazır. |

## Dərsin gedişi

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi müxtəlif metod və iş formalarının tətbiqi ilə müəyyənləşdirilə bilər. Bütün hallarda dərslikdəki mətndən öyrənilənlərin mənbələr əsasında necə, hansı səviyyədə zənginləşdirildiyi və tamamlandığı diqqət mərkəzində saxlanılır. Bir neçə məruzə seçmə yolla dinlənilir, müzakirə edilir.Müvafiq qiymətləndirmə meyarlarına müraciət edilir.

**Motivasiya, problemin qoyuluşu.** Motivasiyanın yaradılması üçün müxtəlif yollardan istifadə etmək mümkündür. Suallardan istifadə etməyi planlaşdıran müəllim əvvəlki siniflərdə öyrənilən və birinci dərsdə adı çəkilən “Bahariyyə”ni bir daha xatırladır. Bu parçanın “Dəhnamə”dən olduğunu bilən şagirdlər poemanın məhəbbət mövzusunda yazıldığını qeyd edirlər. Klassik poeziyada məhəbbət mövzusunda yazılmış lirik şeirlərin ideya-məzmunu ilə bağlı xeyli məlumatlı olan şagirdlər irihəcmli əsərlərin adını çəkir, təəssüratlarını bölüşürlər.

Motivasiyanın digər yolu internet şəbəkəsindən istifadə ilə Xətayinin poeziyasından nümunələrin bədii oxusunun dinlənilməsi və yığcam müzakirəsi ola bilər *(youtube.com/watch?v=BZGgi7n97tM)*. Sonda tədqiqat sualı formalaşdırılır.

**Tədqiqat sualı:** Məhəbbət mövzusunda yazılmış klassik poemaların baş qəhrəmanları üçün səciyyəvi olan cəhətlər, sizcə, hansılardır?

Fərziyyələr dinlənilir və təkrara yol verilmədən qeyd edilir.

**Araşdırmanın** bir variantı dərslikdə təklif edilmiş tapşırığın yerinə yetirilməsi ola bilər. Qarşılaşdığı çətinliklərə, əzab-əziyyətlərə baxmayaraq, öz sevgisinə sadiq qalan ədəbi qəhrəmanlarla bağlı tapşırıq yerinə yetirilir, fikir mübadiləsi və müzakirə aparılır. Şagirdlər poemadan verilmiş hissəni fərdi olaraq oxuyur, tanış



LAYİHƏ

olmayan sözlər, məcazlar, oxunmuş hissədə diqqəti daha çox cəlb edən məsələlər, əsərin məzmunu üzrə suallara cavab hazırlanması ilə bağlı tapşırıqları yerinə yetirirlər. Kiçik qruplarda tapşırıqların icrası ilə bağlı dəqiqləşdirmələr və ümumiləşdirmələr aparılır. Kiçik qrupların təqdimatları əsasında fikir mübadiləsi və müzakirə təşkil olunur.

Digər variant aşağıdakı şəkildə ola bilər.

**Tədqiqatın aparılması.** Poemadan dərslikdə verilən parça həcm baxımından kiçik olsa da, məzmununun başa düşülməsi xeyli vaxt və əmək tələb edir. Sinifdəki oxunun uğurlu olması dərsə qədər həyata keçirilmiş oxunun səmərəliliyindən çox asılıdır. Sinfin səviyyəsindən asılı olaraq, dərsdə oxunu fərqli formalarda aparmaq olar. Məsələn, səsli oxunun izlənilməsi, başa düşülməsində çətinlik yaranan misraların şagirdlərin fəal iştirakı ilə izah olunması məzmunun dərindən qavranılmasında əhəmiyyətli rol oynayır. Oxu zamanı, həmçinin tanış olmayan sözlərin mənasının aydınlaşdırılması, məcazların müəyyənləşdirilməsi diqqət mərkəzində saxlanılır.

Dərslikdə "Bahariyyə"dən verilmiş kiçik parçanın məzmunu şagirdlərə əvvəlki siniflərdən məlum olduğundan onda ifadə olunmuş fikirləri çətinlik çəkmədən izah edirlər. Sonrakı parçalarda ("Aşiqin əhvalı", "Birinci məktub" və s.) arxaik sözlərin çoxluğu və bəzi alınmalar oxuda izahın aparılmasını tələb edir. Qeyd edildiyi kimi, müəllim bunu bütövlükdə öz üzərinə götürmür, şagirdlərin fəal iştirakı ilə həyata keçirilən bu işə ehtiyac yaranan məqamlarda qoşulur. Təcrübədən bu da məlumdur ki, diqqətli şagirdlər izah olmadan belə həmin parçaların məzmunu barədə təsəvvür qazana bilirlər. Lakin unudulmamalıdır ki, bu təsəvvür çox ümumi şəkildə olur və onun konkretləşdirilməsi vacibdir.

Oxu prosesində bir məsələyə xüsusi diqqət yetirilir. Adətən, şagirdlər misrada, yaxud beytdə ifadə olunmuş fikri ümumi şəkildə qavramaqla məhdudlaşır, bunu kifayət hesab edir, alt qata varmırlar. Bunu nəzərə alan müəllim izahına ehtiyac duyulan misra və beytlərin sadəcə oxunub keçilməsinə imkan vermir, başlıcası isə şagirdlərin diqqətini aşağıdakı qəbildən suallarla onlara cəlb edir: Bu misrada (beytdə) ifadə olunmuş fikir sizə aydındırmı? Bu misrada (beytdə) başlıca fikir hansıdır? Bu misrada (beytdə) hansı söz və ifadələrin izah edilməsini istərdiniz?

Bu şəkildə təşkil edilən oxu tanış olmayan sözlərin mənasının aydınlaşdırılmasına və məcazların müəyyənləşdirilməsinə əlverişli imkan yaradır. Bu məqamda müəllim şagirdlərin fərdi fəaliyyətinə xüsusi diqqət yetirir.

Müəllimin təklifi ilə kiçik qruplarda birləşən şagirdlər öyrəndikləri ilə bağlı fikir mübadiləsi aparırlar. Oxunmuş parçaların məzmunu ilə bağlı dərslikdə verilmiş sualların üzərində düşünən şagirdlər cavabları təqdimatlarında əhatə edirlər.

1 Kiçik qrupların təqdimatları əsasında **məlumat mübadiləsi** və **müzakirə** aparılır. Təqdimatların fəal dinlənilməsini təmin edən müəllim, müzakirədə oxunmuş parçaların məzmununun necə qavranıldığına, Aşiq obrazı ilə bağlı qazanılmış təsəvvürün hansı səviyyədə olmasına diqqət yetirir.

Aparılmış iş yekunlaşdırıldıqdan (nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması məzmunun öyrənilməsinə həsr edilmiş sonuncu – ikinci dərsdə həyata keçirilir) sonra qiymətləndirmə mərhələsinə keçilir.



LAYİHƏ

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə müəyyənləşdirilmiş meyarlar əsasında aparılır.

*Qiymətləndirmə meyarları:*
İzahetmə
Müəyyənləşdirmə
Məruzəyazma

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Tanış olmayan sözlərin mənşəyinə və işlənmə məqamına görə mənasını izah etməkdə çətinlik çəkir. | Tanış olmayan sözlərin mənşəyinə və işlənmə məqamına görə mənasını suallar verməklə və kömək əsasında izah edir. | Tanış olmayan sözlərin mənşəyinə və işlənmə məqamına görə mənasını əsasən izah edir. | Tanış olmayan sözlərin mənşəyinə və işlənmə məqamına görə mənasını izah edir. |
| Poemada məcazları müəyyənləşdirməkdə çətinlik çəkir. | Poemada məcazları suallar verməklə və kömək əsasında müəyyənləşdirir. | Poemada məcazları əsasən müəyyənləşdirir. | Poemada məcazları müəyyənləşdirir. |
| Təhlil xarakterli məruzə yazmada çətinlik çəkir. | Təhlil xarakterli məruzəni mövzunu qismən əhatə etməklə, fikrin ifadəsində məntiqilik və ardıcıllığı gözləməklə yazır. | Təhlil xarakterli məruzəni mövzunu, əsasən, əhatə etməklə, fikrin ifadəsində məntiqilik və ardıcıllığı gözlə məklə yazır. | Təhlil xarakterli məruzəni mövzunu əhatə etməklə, fikrin ifadəsində məntiqilik və ardıcıllığı gözləməklə yazır. |

Müəllim dərslikdəki “Evdə iş” başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **Şah İsmayıl Xətayi. Dəhnamə (ixtisarla) –** 4 saat
*İkinci saat:* **Məzmun üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.1.1.** Müxtəlif vəznli şeirlərdə (heca, əruz, sərbəst) və süjetli əsərlərdə (dastan, poema, hekayə, povest, roman, dram, komediya, faciə) tanış olmayan sözlərin mənasını mənşəyinə və işlənmə məqamına görə izah edir. | • Poemada tanış olmayan sözlərin mənasını mənşəyinə və işlənmə məqamına görə izah edir. |
| **1.1.5.** Müxtəlif vəznli (heca, əruz) şeirlərdə, mürəkkəb süjet və kompozisiyalı bədii nümunələrdə bədii təsvir və ifadə vasitələrini (epitet, bənzətmə, metafor, metonimiya, simvol, mübaliğə, litota, bədii sual, təkrir, bədii təzad, inversiya) müəyyənləşdirir. | • Poemada məcazları müəyyənləşdirir. |

LAYİHƏ

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi müsahibənin tətbiqi və təqdimatların dinlənilməsi, müzakirəsi əsasında müəyyənləşdirilə bilər. Artıq qeyd olunduğu kimi, bir sıra obyektiv səbəblərə görə poemanın məzmununun müstəqil oxu ilə əhatəli qavranılması şagirdlərə müyəssər olmur. Buna görə də evdə oxunmuş parçaların məzmununun öyrənilməsi üzrə iş sinifdə davam etdirilməli və dərinləşdirilməlidir. Bu məqsədlə kiçik qruplar yaradılır. Şagirdlər, ilk növbədə, hər parçada ifadə olunmuş fikirləri şərh edir, onlardan daha mühüm saydıqlarını ayrıca qeyd edirlər. Müəllim şagirdlərin diqqətini daha mühüm fikirlərin ifadə olunduğu misra və beytlərə cəlb edir, onların izahına xüsusi önəm verilir. Kiçik qruplar dərslikdə təklif edilmiş sualların *(Aşiq Səbaya minnətdarlığını necə bildirir? O, Səbadan yeni nə xahiş edir?* və s.) üzərində işləyir, cavablarla bağlı təqdimatlarda qeydlər edilir.

Tanış olmayan sözlərlə bağlı aparılmış iş lüğətlərdən (o cümlədən izahlı lüğətdən) istifadə etməklə tamamlanır. Mənası yeni öyrənilmiş sözlərin bir qisminin hansı dilə aid olduğu müəyyənləşdirilir. Bu məqamda, eləcə də məcazların müəyyənləşdirilməsində şagirdlərin fərdi fəaliyyətləri diqqət mərkəzində saxlanılır. Qruplararası **məlumat mübadiləsi** təqdimatlar əsasında aparılır. Məzmunun öyrənilməsi üzrə həyata keçirilmiş zəngin işin təqdimatlarda geniş əhatə edilməsinə şərait yaradılır. Bunun üçün müəllim istiqamətləndirici suallardan istifadə edir. Eləcə də təqdimat edənlərə digər qrup üzvlərinin sual vermələrini üçün zəmin yaradır. **Müzakirənin** diskussiya xarakterli olması da müəllimin bələdçilik fəaliyyətini necə həyata keçirməsindən asılıdır. Şagirdlərində buna meyil yaradan müəllim, maraqlı mübahisələrin aparılmasına, mülahizələrin faktlarla, nümunələrlə əsaslandırılmasına üstünlük verir. Bu, şagirdlərin təlimi fəaliyyətində daxili tələbata çevrilməlidir.

Müzakirə zamanı əsərin ikinci hissəsindən aşağıdakı epizodların məzmununa münasibət bildirilir:

- Aşiq Səbaya minnətdarlığını necə bildirir?
- O, Səbadan yeni nə xahiş edir?
- Üçüncü məktubla gələn Səbanı Bağban hansı sözlərlə qarşılayır?
- Məşuqənin yanına tək getməli olan Səbanın taleyi necə olur?
- Bağban altıncı məktubu necə qarşılayır?
- Məşuqə bağbanla birlikdə gələn məktuba narazılığını necə bildirir?

Oxunmuş hissədən seçilmiş parçanın məzmununun hazırlanmış plan əsasında iki formada – geniş və yaradıcı nağıl edilməsi, ilkin təəssürata əsasən poemadakı obrazlardan birinin xarakter və əməllərindəki başlıca cəhətlərin müəyyənləşdirilməsi, əsərlə bağlı hiss və düşüncələrin ikihissəli gündəlikdə yazılması ilə bağlı tapşırıqların icrası müzakirə edilir.

Müzakirə zamanı əsərin məzmunu mənimsənilir, qəhrəmanlarının xarakter və əməlləri barədə şagirdlərdə ilkin təsəvvür yaradılır. Əsərin məzmunu tam mənimsənildikdən sonra növbəti dərsdə təhlilin aparılması üçün zəmin yaranır.

Müəllimin əvvəlcədən istiqamətləndirici suallar hazırlaması dolğun **nəticənin** çıxarılmasına, **ümumiləşdirmənin** aparılmasına səbəb olur. Nəticələrin fərziyyələrlə müqayisə edilməsinə vaxt ayrılır.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə müəyyənləşdirilmiş meyarlar əsasında aparılır.



LAYİHƏ

*Qiymətləndirmə meyarları:*
İzahetmə
Müəyyənləşdirmə

| **I səviyyə** | **II səviyyə** | **III səviyyə** | **IV səviyyə** |
|---|---|---|---|
| Tanış olmayan sözlərin mənşəyinə və işlənmə məqamına görə mənasını izah etməkdə çətinlik çəkir. | Tanış olmayan sözlərin mənşəyinə və işlənmə məqamına görə mənasını suallar verməklə və kömək əsasında izah edir. | Tanış olmayan sözlərin mənşəyinə və işlənmə məqamına görə mənasını əsasən izah edir. | Tanış olmayan sözlərin mənşəyinə və işlənmə məqamına görə mənasını izah edir. |
| Poemada məcazları müəyyənləşdirməkdə çətinlik çəkir. | Poemada məcazları suallar verməklə və kömək əsasında müəyyənləşdirir. | Poemada məcazları əsasən müəyyənləşdirir. | Poemada məcazları müəyyənləşdirir. |

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **Şah İsmayıl Xətayi. Dəhnamə (ixtisarla)** – 4 saat
*Üçüncü saat:* **Təhlil üzrə iş**

| **Standartlar** | **Təlim nəticələri** |
|---|---|
| **1.2.2.** Davranış və əməllərinə, başqaları ilə qarşılıqlı münasibətlərinə, yazıçının mövqeyinə, digər surətlərin mühakimələrinə əsaslanmaqla obrazları təhlil edir. | • Davranış və əməllərindən, başqaları ilə qarşılıqlı münasibətlərindən, yazıçının mövqeyindən, digər surətlərin mühakimələrindən çıxış etməklə poemadakı qəhrəmanları təhlil edir. |
| **1.2.3.** Müxtəlif vəznli (heca, əruz, sərbəst) şeirlərdə, süjetli ədəbi nümunələrdə bədii təsvir və ifadə vasitələrinin obrazlılığın yaradılmasındakı rolunu aydınlaşdırır və münasibət bildirir. | • Poemadakı məcazların obrazlılığın yaradılmasındakı rolunu aydınlaşdırır və münasibət bildirir. |
| **1.2.4.** Bədii nümunələrin mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün sosial-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə təhlil edir və nəticə çıxarır. | • Poemanın mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün sosialsiyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə təhlil edir və nəticə çıxarır. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsinin müəyyənləşdirilməsi və onunla bağlı sonrakı iş müəllimdən böyük zəhmət tələb edir. Poemadan müstəqil oxunmuş parçaların məzmununun necə qavranıldığının aşkara çıxarılması, ehtiyac duyulan məqamlarda izah və şərhlərin həyata keçirilməsi, tanış olmayan sözlər və məcazlar, ayrı-ayrı parçalarda mühüm fikirlərin müəyyənləşdirilməsi ilə bağlı tamamlama işlərinin apa-

LAYİHƏ

rılması müəllimin gərgin işinin nəticəsində mümkün olur. Müəllimin həmin parçaların məzmunu ilə bağlı əvvəlcədən suallar hazırlaması məqsədəuyğundur. Göründüyü kimi, əsərin məzmununun öyrənilməsinə həsr edilmiş ikinci dərs saatının ev tapşırığının üzərində ciddi iş aparılır və müvafiq qiymətləndirmə meyarlarına müraciət edilir.

**Motivasiya, problemin qoyuluşu.** Motivasiya müxtəlif yollarla yaradıla bilər. Bunlardan biri rəmzi (simvolik) yoldan istifadə ola bilər. Şagirdlərə səbirli, təmkinli olmağın üstünlüklərini təlqin edən “Səbir acıdır, meyvəsi şirin”, “Səbir edən muradına yetişər”, “Səbrin axırı xeyir olar” tipli atalar sözləri, aforizmləri xatırlatmaq təklif edilir. Onlarda ifadə olunmuş fikirlərlə bağlı yığcam müsahibədən sonra tədqiqat sualı formalaşdırılır.

**Tədqiqat sualı:** Poemanın əsas ideyası “Səbir etsən, halva bişər, ey qora, səndən, bəsləsən, atlaz olar tut yarpağından” atalar sözündəki fikirlə səsləşirmi? Fərziyyələr dinlənilir və qeyd edilir.

**Araşdırmanın** bir variantı dərslikdə təklif edilmiş tapşırığın yerinə yetirilməsi ola bilər. Kiçik qruplar yaradılır, mətnkənarı suallarlar arasında bölünür.Qrupların sayının çox olduğu təqdirdə bir sualın üzərində iki qrup işləyə bilər. Mətnkənarı suallara cavablar yazılır. İşin icrasına ayrılmış vaxt başa çatdıqdan sonra kiçik qruplar öz cavablarını dərslikdəki cavablarla müqayisə edirlər. Əldə edilmiş nəticələr üzrə təqdimatlar əsasında fikir mübadiləsi və müzakirə aparılır, nəticələr bəndlər şəklində yazılır.

Araşdırmanın digər variantı aşağıdakı şəkildə ola bilər.

**Tədqiqatın aparılması.** Dərslikdəki sualların *(Poema hansı mövzuda yazılıb?Şairin bu mövzuya müraciət etməsinin səbəbi nədir? Əsərdə təsvir edilən eşq hansı əlamətləri ilə seçilir? Poemadakı obrazlar hansı fərdi xüsusiyyətləri ilə diqqəti çəkir? Onları bir-birindən fərqləndirən başlıca cəhətlər hansılardır?)* və onların aydınlaşdırılmasına istiqamət verən mətnin oxusu ilə araşdırmaya başlanılır. Mətndə sualların cavabı əhatə edilməmişdir. Artıq xeyli təcrübə qazanmış şagirdlər bunu oxu prosesində müşahidə edirlər. Mətndəki fikirləri poemanın oxusundan əldə etdikləri məlumat əsasında zənginləşdirməyin lazım olduğunu da bilən şagirdlər bununla bağlı müəyyən təcrübəyə malik olurlar. Bütün bunlar oxunun – ilkin araşdırmanın sinifdə səmərəli aparılmasına az təsir etmir.

Oxunu cütlük şəklində iş formasının tətbiqi ilə aparmaq məqsədəuyğundur. Bu, şagirdlərin əməkdaşlığına, sərbəst fikir mübadiləsi aparmalarına geniş imkan yaradır.

Sinifdə üzərində iş aparılmış “Aşiqin əhvalı” parçasını şagirdlər bir daha gözdən keçirməklə poemanın mövzusu barədə əsaslandırılmış fikir söyləyə bilirlər. Mülahizələrin təsdiqi məqsədi ilə bu parçadan səciyyəvi misra və beytlərin nümunə qismində seçilməsi məqsədəuyğundur.

Şagirdlərin diqqətini dərslikdəki cümləyə *(Yəni səbir və iradə sayəsində məqsədə çatmağın mümkünlüyü əsərdə qabarıq ifadə edilsə də, ideyanın izahında yalnız bu fikirlə məhdudlaşmaq mümkün deyildir)* yönəldən müəllim bu istiqamətdə geniş araşdırmaya ehtiyac olduğunu onlara xatırladır. Doğrudur, sinifdə üzərində iş aparılmış parçalar poemanın ideyası barədə də fikir söyləməyə imkan verir, lakin bununla məhdudlaşmaq mümkün deyildir. Poemanın digər parçalarına yenidən müraciət etməyə, mənbələrdəki məlumatları öyrənməyə ciddi ehtiyac duyulur.

LAYİHƏ

Dərslikdəki mətn, poemanın məzmunu ilə bağlı qazanılmış məlumatlar *“Əsərdə təsvir edilən eşq hansı əlamətləri ilə seçilir?”* sualına cavab verməyə imkan yaratsa da, onun tamamlanması, zənginləşdirilməsi üçün mənbələrə müraciət edilməsi vacibdir. Mənbələrin araşdırılması nəticəsində əldə olunan biliklər poemadan şairin sufi görüşlərini əks etdirən nümunələrin seçilməsi işini xeyli asanlaşdırır.

Sonuncu sualla *(Poemadakı obrazlar hansı fərdi xüsusiyyətləri ilə diqqəti çəkir? Onları bir-birindən fərqləndirən başlıca cəhətlər hansılardır?)* bağlı mətndə əks olunanlar araşdırmaya səmərəli istiqamət verir. Mətndəki mülahizələr, poemanın məzmunu üzrə öyrənilənlər obrazların davranış və əməlləri, fərdi xüsusiyyətləri barədə müəyyən fikir söyləməyə imkan yaratsa da, mənbələr üzrə araşdırmanın aparılması vacibdir.

Oxuya ayrılan vaxt başa çatdıqdan sonra cütlər, müəllimin təklifi ilə kiçik qruplarda birləşib fikir mübadiləsi aparırlar. Bu, kiçik qrupların əsaslı təqdimat hazırlamalarına şərait yaradır. Bu təqdimatların əsasında isə **məlumat mübadiləsi** və **müzakirə** aparılır. Həm təqdimatlarda, həm də müzakirədə poemadan nümunələrin gətirilməsinə, mülahizələrin misallarla əsaslandırılmasına, bədii təsvir və ifadə vasitələrinin obrazlılığın yaradılmasında rolunun aydınlaşdırılmasına, münasibət bildirilməsinə diqqət yetirilməlidir. Bu mərhələdə şagirdlər mənbələrdən hansı məzmunda məlumat əldə edəcəkləri barədə də təsəvvür qazanmalıdırlar.

İşin bu məzmunda təşkili dolğun **nəticələrin** çıxarılmasına, **ümumiləşdirmənin** aparılmasına səbəb olur. Nəticənin fərziyyələrlə müqayisəsinə vaxt ayrılır.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə müəyyənləşdirilmiş meyarlar əsasında aparılır.

*Qiymətləndirmə meyarları:*

Təhliletmə

Aydınlaşdırma, münasibətbildirmə

Təhliletmə, nəticəçıxarma

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Poemadakı ədəbi qəhrəmanları davranış və əməllərinə, başqaları ilə qarşılıqlı münasibətlərinə, digər surətlərin mühakimələrinə əsaslanmaqla təhlil etməkdə çətinlik çəkir. | Poemadakı ədəbi qəhrəmanları davranış və əməllərinə, başqaları ilə qarşılıqlı münasibətlərinə, digər surətlərin mühakimələrinə əsaslanmaqla qismən təhlil edir. | Poemadakı ədəbi qəhrəmanları davranış və əməllərinə, başqaları ilə qarşılıqlı münasibətlərinə, digər surətlərin mühakimələrinə əsaslanmaqla, əsasən, təhlil edir. | Poemadakı ədəbi qəhrəmanları davranış və əməllərinə, başqaları ilə qarşılıqlı münasibətlərinə, digər surətlərin mühakimələrinə əsaslanmaqla təhlil edir. |
| Poemadakı məcazların obrazlılığın yaradılmasındakı rolunu aydınlaşdırmaqda və münasibət bildirməkdə çətinlik çəkir. | Poemadakı məcazların obrazlılığın yaradılmasındakı rolunu aydınlaşdırmaqda və münasibət bildirməkdə çətinlik çəkir. | Poemadakı məcazların obrazlılığın yaradılmasındakı rolunu, əsasən, aydınlaşdırır və münasibət bildirir. | Poemadakı məcazların obrazlılığın yaradılmasındakı rolunu aydınlaşdırır və münasibət bildirir. |



LAYİHƏ

| | | | |
|---|---|---|---|
| Poemanın mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün sosial-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə təhlil etməkdə və nəticə çıxarmaqda çətinlik çəkir. | Poemanın mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün sosial-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə suallar və müəllimin köməyi ilə təhlil edir və nəticə çıxarır. | Poemanın mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün sosial-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə, əsasən, təhlil edir və nəticə çıxarır. | Poemanın mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün sosial-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə təhlil edir və nəticə çıxarır. |

Müəllim dərslikdəki “Evdə iş” başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **Şah İsmayıl Xətayi. Dəhnamə (ixtisarla) –** 4 saat
*Dördüncü saat:* **Təhlil üzrə iş**

| **Standartlar** | **Təlim nəticələri** |
|---|---|
| **1.2.3.** Müxtəlif vəznli (heca, əruz, sərbəst) şeirlərdə, süjetli ədəbi nümunələrdə bədii təsvir və ifadə vasitələrinin obrazlılığın yaradılmasındakı rolunu aydınlaşdırır və münasibət bildirir. | • Poemadakı məcazların obrazlılığın yaradılmasındakı rolunu aydınlaşdırır və münasibət bildirir. |
| **3.1.1.** Yaradıcı yazıların məzmununa uyğun üslub müəyyənləşdirir, müxtəlif mənbələrdən seçdiyi inandırıcı faktlardan istifadə edir. | • İnşanın, essenin məzmununa uyğun üslub müəyyənləşdirir, müxtəlif mənbələrdən seçdiyi inandırıcı faktlardan istifadə edir. |
| **3.1.2.** Müşahidələrinə, əlavə məlumatlara əsaslanmaqla əsərin ideyasına, probleminə münasibət bildirir, ümumiləşdirmələr aparır, nəticə çıxarır. | • Müşahidələrinə, əlavə məlumatlara əsaslanmaqla boyun ideyasına, probleminə münasibət bildirir, ümumiləşdirmələr aparır, nəticə çıxarır. |
| **3.1.3.** 3-3,5 səhifə həcmində nəqli, təsvir, təhlil xarakterli mətnlər (ədəbi və sərbəst mövzuda inşa, esse, məruzə) yazır. | • Təhlil xarakterli inşa, esse yazır. |

**Dərsin gedişi**

a) Ev tapşırığının *(Poema hansı xüsusiyyətlərinə görə ədəbiyyatımızda dəyərli sənət nümunəsi sayılır? Əsərdə sənətkar nikbin sevgi ilə bağlı hansı fikirlərini çatdırmışdır?)* yerinə yetirilməsi səviyyəsi müsahibə və təqdimatların dinlənilməsi, müzakirəsi əsasında müəyyənləşdirilə bilər. Araşdırılan sualların hər birinin cavabı üzərində ayrıca dayanılır, mənbələrdən istifadə yolu ilə hansı səviyyədə zənginləşdirildikləri müəyyənləşdirilir. Müvafiq qiymətləndirmə meyarlarına müraciət edilməklə qiymətləndirmə aparılır.

Yeni dərs həm məzmununa, həm də quruluşuna görə mürəkkəb olub müəllimdən böyük zəhmət tələb edir. Dərsdə vaxtın az qismi poemanın bədii xüsusiyyətlərinin



LAYİHƏ

araşdırılmasına, çox qismi isə yazı işlərinin icrasına ayrılır. İlk tədqiqat sualı əsərin bədii xüsusiyyətlərinin aydınlaşdırılması ilə bağlı müəyyənləşdirilir.

**Motivasiya, problemin qoyuluşu.** Motivasiyanın yaradılması üçün suallardan istifadə yolu seçilir. Şagirdlərin müəyyənləşdirdikləri məcazlardan nümunələr xatırladılır, müəllim obrazlılığa şairin hansı vasitələrlə nail olduğunu nümayiş etdirən nümunələr üzərində dayanır. Bütün bunlar tədqiqat sualının formalaşdırılmasına imkan yaradır.

**Tədqiqat sualı:** "Poemanın bədii keyfiyyətinin artırılması üçün zəngin vasitələrdən istifadə edilmişdir" fikrini doğru saymaq olarmı?" Fərziyyələr dinlənilir və qeyd olunur.

**Araşdırmanın** bir variantı dərslikdə təklif edilmiş tapşırığın yerinə yetirilməsi ola bilər. Şagirdlərə qaydalara əməl etməklə mətni oxumaq tapşırılır. Belə ki, bir şagird ilk mətnkənarı sualın dərslikdəki cavabını ucadan oxuyur, mətndəki fikirləri ümumiləşdirərək bir neçə cümlə ilə ifadə edir. Sonra şagirdlərə mətnlə bağlı suallar verir, müzakirə aparılaraq izahına ehtiyac duyulan məsələlərə aydınlıq gətirilir.Mətnə hansı zəruri əlavələrin edilməsi ilə bağlı nəticə çıxarılır, bəndlərlə yazılır. Digər mətnkənarı sualla bağlı cavabın- mətnin oxusu da bu qayda ilə həyata keçirilir. Təqdimatların mübadiləsi və müzakirəsi nəticəsində ümumiləşdirmə aparılır, nəticə çıxarılır.

Digər variant aşağıdakı şəkildə ola bilər.rr

**Tədqiqatın aparılması.** Araşdırmaya dərslikdəki sualların *(Poemanın bədii dəyərini artıran vasitələr hansılardır? Poemanın ideyasının əsasında hansı fikirlər dayanır?)* və onların araşdırılmasına istiqamət verən mətnin oxusu ilə başlanılır. Əvvəlki dərslərdən fərqli olaraq, mətnin oxusu, müzakirəsi az vaxt içərisində həyata keçirilir. Oxudan dərhal sonra mənimsənilənlər müsahibə, yaxud bir neçə təqdimatın dinlənilib müzakirə edilməsi yolu ilə aşkara çıxarılır və yekunlaşdırılır. Şagirdlərə öyrənilənlərin mənbələrdən əldə ediləcək məlumat əsasında dərinləşdiriləcəyi və tamamlanacağı barədə xəbərdarlıq edilir.

Dərsin qalan vaxtı dərslikdə təklif edilmiş yazı işlərinin icrasına sərf edilir. Şagirdlər hələ bu dərsə qədər yazı işlərinin mövzusu ilə tanış edilməli, müəyyən hazırlıq işləri aparılmalıdır. Dərsdə isə təhlil xarakterli inşa, essenin başlıca xüsusiyyətləri müsahibə ilə yada salındıqdan sonra işin icrasına başlanılır. İşin yerinə yetirilməsi prosesində, ehtiyac yaranan məqamlarda şagirdlərə fərdi olaraq istiqamət verilir. Müəllim hələ işin gedişində şagirdlərin hər birinin yazısının məzmunu, uğurlu cəhətləri, çatışmazlıqları barədə təsəvvür qazanır. Bu təsəvvür sonda – yazılardan nümunələrin müzakirəsində daha dolğun məzmun qazanır. Bütün bunların nəticəsində formativ qiymətləndirməni həyata keçirmək mümkün olur.

Sinfin səviyyəsindən, müəllimin məqsədindən asılı olaraq, bu dərsi fərqli formada da təşkil etmək mümkündür. Dərsi bütövlükdə bu işlərdən birinə həsr etmək olar. Yəni dərsdə yalnız poemanın bədii xüsusiyyətlərinin araşdırılması həyata keçirilir, sonda yazının aparılması ilə bağlı tövsiyələr verilir və evdə icrası təklif edilir. Yaxud, əksinə, dərsdə yalnız yazı işləri icra olunur, sonda poemanın bədii xüsusiyyətlərinin mənbələr əsasında araşdırılması üzrə tövsiyələr verilir və evdə icrası təklif edilir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə müəyyənləşdirilmiş meyarlar əsasında aparılır.

*Qiymətləndirmə meyarları:*



LAYİHƏ

Aydınlaşdırma, münasibətbildirmə
Müəyyənləşdirmə, istifadəetmə
Münasibətbildirmə, ümumiləşdirməaparma, nəticəçıxarma
İnşayazma, esseyazma

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Poemadakı məcazların obrazlılığın yaradılmasındakı rolunu aydınlaşdırmaqda və münasibət bildirməkdə çətinlik çəkir. | Poemadakı məcazların obrazlılığın yaradılmasındakı rolunu müəllimin köməyi ilə aydınlaşdırır, münasibət bildirməkdə çətinlik çəkir. | Poemadakı məcazların obrazlılığın yaradılmasındakı rolunu, əsasən, aydınlaşdırır və münasibət bildirir. | Poemadakı məcazların obrazlılığın yaradılmasındakı rolunu aydınlaşdırır və münasibət bildirir. |
| İnşanın, essenin məzmununa uyğun üslub müəyyənləşdirməkdə, müxtəlif mənbələrdən inandırıcı faktlar seçməkdə və istifadə etməkdə çətinlik çəkir. | İnşanın, essenin məzmununa uyğun üslub müəyyənləşdirməyi, müxtəlif mənbələrdən inandırıcı faktlar seçməyi və istifadəni suallar və müəllimin köməyi ilə reallaşdırır. | İnşanın, essenin məzmununa uyğun üslub müəyyənləşdirməyi, müxtəlif mənbələrdən inandırıcı faktlar seçməyi və istifadəni, əsasən, reallaşdırır. | İnşanın, essenin məzmununa uyğun üslub müəyyənləşdirməyi, müxtəlif mənbələrdən inandırıcı faktlar seçməyi və istifadəni reallaşdırır. |
| Müşahidələrinə, əlavə məlumatlara əsaslanmaqla boyun ideyasına, probleminə münasibət bildirməkdə, ümumiləşdirmə aparmaqda, nəticə çıxarmaqda çətinlik çəkir. | Müşahidələrinə, əlavə məlumatlara əsaslanmaqla boyun ideyasına, probleminə münasibət bildirməyi, ümumiləşdirmə aparmağı, nəticə çıxarmağı suallar və müəllimin köməyi ilə reallaşdırır. | Müşahidələrinə, əlavə məlumatlara əsaslanmaqla boyun ideyasına, probleminə münasibət bildirməyi, ümumiləşdirmə aparmağı, nəticə çıxarmağı, əsasən, reallaşdırır. | Müşahidələrinə, əlavə məlumatlara əsaslanmaqla boyun ideyasına, probleminə münasibət bildirməyi, ümumiləşdirmə aparmağı, nəticə çıxarmağı reallaşdırır. |
| Təhlil xarakterli inşa, esse yazmada çətinlik çəkir. | Təhlil xarakterli inşanı, esseni mövzunu qismən əhatə etməklə, fikrin ifadəsində məntiqilik və ardıcıllığı gözləməklə yazır. | Təhlil xarakterli inşanı, esseni mövzunu əsasən əhatə etməklə, fikrin ifadəsində məntiqilik və ardıcıllığı gözləməklə yazır. | Təhlil xarakterli inşanı, esseni mövzunu əhatə etməklə, fikrin ifadəsində məntiqilik və ardıcıllığı gözləməklə yazır. |

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

LAYİHƏ

## İKİNCİ BÖLMƏ ÜZRƏ BİRİNCİ KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ

*Qiymətləndirmə Həbibinin "Mənim" əsəri üzrə aparıla bilər.*

**Həbibi**
**Mənim...**

Müstədam olğıl həmişə, ey gözəl xanım mənim,
Gözləri nərgiz, yüzü gül, zülfi reyhanım mənim.

Gün yüzün gördükcə, vallahi, bu könlüm şad olur,
Həq səni var eyləsün, dövlətli sultanım mənim.

Sən fərağət, şadü xürrəm, mən qılıram nalələr,
Xoşmidir, dilbər, sana bu ahü əfğanım mənim?

Həsrətindən xəstə oldum, dərdimi bilməz təbib,
Dilbəra, vəslindədir, var istə dərmanım mənim.

Ey Həbibim, iştə qori mədhini təkrar edəm,
Bülbüli-şuridənəm, sənsən gülistanım mənim.



LAYİHƏ

## QİYMƏTLƏNDİRMƏ ÜÇÜN TÖVSİYƏ OLUNAN SUAL VƏ TAPŞIRIQLAR

1. Şeir hansı mövzuda yazılmışdır? Fikrinizi əsaslandırın.

2. Şeirdə tanış olmayan sözlərin mənasını aydınlaşdırın.

3. Həmin sözlərin alınma, yaxud dilimizə aid olduğunu əsaslandırın.

4. Əsərdə lirik qəhrəmanın hansı hiss və düşüncələri əks olunub? Fikrinizi əsərdən nümunələr gətirməklə əsaslandırın.

5. Şeirdəki məcazların bədiiliyin, obrazlılığın artmasındakı rolunu nümunələrlə əsaslandırın.

6. Şeir hansı vəzndə və janrda yazılmışdır? Fikrinizi nümunələrlə əsaslandırın.

7. Gün yüzün gördükcə, vallahi, bu könlüm şad olur,
   Həq səni var eyləsün, dövlətli sultanım mənim.
   b) Beytin üzərində ifadəli oxu ilə bağlı şərti işarələr qoyun.
   c) Bəndin oxusunda səsdə hansı çalarlar yaranır, nə üçün? Fikrinizi əsaslandırın.

8. Şeiri məhəbbət mövzusunda öyrəndiyiniz bir əsərlə müqayisə edin, gəldiyiniz nəticəni yığcam yazın.

9. Əsərdəki başlıca fikir – ideya, sizcə, nədir?

10. Şeirin sizdə doğurduğu təəssüratı qısaca yazın.



LAYİHƏ

*Mövzu:* **Məhəmməd Füzulinin həyatı, yaradıcılıq yolu** – 1 saat

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **2.1.1.** Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla təqdimat və çıxışlarında obrazlı ifadələrdən istifadə edir. | • Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla mövzu, problemlə bağlı təqdimat və çıxışlarında obrazlı ifadələrdən istifadə edir. |
| **2.2.1.** Müzakirələrdə mövzuya, problemə, yazıçı mövqeyinə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. | • Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi ya müsahibə, ya da təqdimatların dinlənilməsi, müzakirə olunması əsasında müəyyənləşdirilir. Bu mərhələdə müəllim daha diqqətli olur. "Dəhnamə"nin bədii xüsusiyyətləri ilə bağlı keçən dərsdə əhatəli iş aparılmadığından dərslikdəki mətnin, onun əsasında mənbələrin necə öyrənildiyi xüsusi dəqiqliklə aşkara çıxarılır və müvafiq meyarlar üzrə qiymətləndirilir.

Müzakirəyə dərslikdəki tapşırığın (*Məhəmməd Füzuli haqqında bildiklərinizi yada salıb yığcam müzakirə aparın)* icrası ilə başlanılır. Araşdırılacaq problem yığcam müzakirə əsasında müəyyənləşdirilir: *Füzulinin şəxsiyyətinə, yaradıcılığına böyük maraq və rəğbət göstərilməsinə səbəb nədir?*

Araşdırmanın ilk mərhələsində dərslikdəki mətnin oxusu həyata keçirilir. Mətndə *"Füzulinin həyatı və yaradıcılığında nələr daha önəmli hesab edilə bilər?"* sualının aydınlaşdırılmasına istiqamət verilmişdir. Şairin həyatı ilə bağlı elm aləminə məlum olan ən mühüm mətləblərə yığcam toxunulmuş, geniş araşdırma aparılmasının lüzumluluğu barədə şagirdlərdə təsəvvür yaradılmışdır.

Həcmi kiçik olan mətnin fərdi olaraq, oxunması məqsədəuyğundur. Şairin sadə, təvazökar həyat yaşaması, dini idarədə xidmət etməsi, müasirlərinin onu bir insan, alim, sənətkar kimi yüksək dəyərləndirməsi, zəmanəsinin eyiblərinə obyektiv, ədalətli münasibət bildirməsi və s. barədə deyilənlər şagirdlərdə güclü maraq yaradır, onları araşdırmaya sövq edir.

Şairin yaradıcılığı barədə mətndə əks olunanlar yığcam olsa da, onun lirikası, poemaları, nəsri, tərcümələri barədə müəyyən təsəvvür yaradır. Başlıcası isə şagirdlərdə bu zəngin irsə maraq və heyranlıq hissi baş qaldırır.

Dərslikdə təklif edilmiş tapşırıq mətnin əhatəli öyrənilməsinə, ondakı mühüm fakt və məlumatlara münasibət bildirilməsinə geniş imkan yaradır. Tapşırığın tələblərinə əsasən şagirdlər mətnkənarı sualların cavablarında daha mühüm hesab etdiklərini müəyyənləşdirib, qısaca yazmalıdırlar. Təbiidir ki, bu, şagirdləri əhəmiyyətli təlim fəaliyyətinə – ümumiləşdirmə aparmağa istiqamətləndirir.

Füzulinin həyatı, yaradıcılığı ilə əvvəlki siniflərdə tanışlıq, tarix dərslərində öyrənilənlər, digər mənbələr əsasında yaranan şəxsi təəssürat da şagirdlərə dərslikdəki sual, araşdırılan problemlə bağlı fikir söyləməyə imkan yaradır. Lakin onlara aydın olur ki, problemin aydınlaşdırılması üçün mənbələrə əsaslanmaqla araşdırmanın davam etdirilməsi vacibdir.

Müəllimin təklifi ilə kiçik qruplarda birləşən şagirdlər fikir mübadiləsi aparırlar. Bu, cavabların dəqiqləşdirilməsinə, zənginləşdirilməsinə, əhatəli təqdimatların hazırlanmasına səbəb olur. **Məlumat mübadiləsi** və **müzakirə** kiçik qrupların təqdimatları əsasında aparılır. Təqdimatlarda və müzakirədə şagirdlərin dərslikdəki

LAYİHƏ

mətndən öyrəndiklərindən əlavə, daha hansı məlumatlara malik olduqlarının aşkara çıxarılmasına nitqlərində obrazlı ifadələrdən istifadə etmələrinə xüsusi diqqət yetirilir. Əsaslandırılmış **nəticənin** çıxarılmasında, **ümumiləşdirmənin** aparılmasında müəllimin istiqamətləndirici sualları əhəmiyyətli rol oynayır.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə müəyyənləşdirilmiş meyarlar əsasında aparılır.

*Qiymətləndirmə meyarları:*

İstifadəetmə

Əsaslandırma, nümayişetdirmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla mövzu, problemlə bağlı təqdimat və çıxışlarında obrazlı ifadələrdən istifadə etməkdə çətinlik çəkir. | Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla mövzu, problemlə bağlı təqdimat və çıxışlarında suallar və müəllimin köməyi ilə obrazlı ifadələrdən istifadə edir. | Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla mövzu, problemlə bağlı təqdimat və çıxışlarında, əsasən, obrazlı ifadələrdən istifadə edir. | Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla mövzu, problemlə bağlı təqdimat və çıxışlarında obrazlı ifadələrdən istifadə edir. |
| Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırmaqda, fərqli fikirlərə dözümlülük nümayiş etdirməkdə çətinlik çəkir. | Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini suallar və müəllimin köməyi ilə əsaslandırır, fərqli fikirlərə qismən dözümlülük nümayiş etdirir. | Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə, əsasən, dözümlülük nümayiş etdirir. | Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. |

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

## *Mövzu:* Məhəmməd Füzuli. Məni candan usandırdı... – 2 saat

### *Birinci saat:* Məzmun üzrə iş

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.1.1.** Müxtəlif vəznli şeirlərdə (heca, əruz, sərbəst) və süjetli əsərlərdə (dastan, poema, hekayə, povest, roman, dram, komediya, faciə) tanış olmayan sözlərin mənasını mənşəyinə və işlənmə məqamına görə izah edir. | • Şeirdə tanış olmayan sözlərin mənasını mənşəyinə və işlənmə məqamına görə izah edir. |
| **1.1.4.** Müxtəlif ədəbi növ və janrda olan bədii nümunələrdə əksini tapan mühüm mənəvi, əxlaqi-etik dəyərləri müəyyənləşdirir. | • Şeirdə əksini tapmış mühüm mənəvi, əxlaqi-etik dəyərləri müəyyənləşdirir. |
| **1.1.5.** Müxtəlif vəznli (heca, əruz) şeirlərdə, mürəkkəb süjet və kompozisiyalı bədii nümunələrdə bədii təsvir və ifadə vasitələrini (epitet, bənzətmə, metafor, metonimiya, simvol, mübaliğə, litota, bədii sual, təkrir, bədii təzad, inversiya) müəyyənləşdirir. | • Şeirdə məcazları müəyyənləşdirir. |



LAYİHƏ

## Dərsin gedişi

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi müxtəlif metod və iş formalarının tətbiqi ilə müəyyənləşdirilə bilər. Mənbələrdən necə istifadə olunduğunun, dərslikdəki məlumatın hansı səviyyədə zənginləşdirildiyinin aydınlaşdırılması diqqət mərkəzində saxlanılır. Müvafiq qiymətləndirmə meyarlarından istifadə edilir.

**Motivasiya, problemin qoyuluşu.** Bu mərhələdə işi fərqli məzmunda və formada təşkil etmək mümkündür. Vaxta qənaət baxımından suallardan istifadə yolunu seçmək faydalıdır. Şagirdlərə tanış olduqları klassik şeirləri xatırlamaq, lirik qəhrəmanla bağlı təəssüratlarını bölüşmək təklif edilir. Yığcam müsahibənin sonunda tədqiqat sualı formalaşdırılmış olur.

**Tədqiqat sualı:** Məhəbbət mövzusunda yazılmış klassik lirik şeirlərin qəhrəmanı – aşiq obrazı üçün daha səciyyəvi olan xüsusiyyətlər hansılardır?

Fərziyyələrin dinlənilməsinə və qeyd edilməsinə vaxt ayrılır.

**Tədqiqatın aparılması.** Şeirin məzmununun öyrənilməsini fərqli variantlarda təşkil etmək olar. Məsələn, əsəri fərdi olaraq nəzərdən keçirən şagirdlər hiss və düşüncələrini ikihissəli gündəlikdə qeyd edir, sonra kiçik qruplarda birləşərək qənaətlərini bölüşürlər. Ardınca təqdimatlar əsasında məlumat mübadiləsi və müzakirə aparılır.

Yaxud məktəb təcrübəsində uzun illər tətbiq edilən izahlı oxudan istifadə etmək faydalıdır. Səsli oxunu izləyən şagirdlər misra və beytlərin izahında fəal iştirak edirlər. Ən zəruri hallarda işə qoşulan müəllim yaranan çətinliyi istiqamətləndirici suallar vasitəsi ilə aradan qaldırır. Tanış olmayan sözlərin mənasının aydınlaşdırılması oxu prosesində həyata keçirilir. Bu məqamda şagirdlərin fərdi fəaliyyətlərinə diqqət yetirilir. İzahlı oxu başa çatdıqdan sonra şagirdlərə əsərdəki *məcazları* fərdi olaraq müəyyənləşdirmək təklif edilə bilər.

Kiçik qruplarda birləşən şagirdlər fikir mübadiləsi aparır, öyrəndiklərini dəqiqləşdirir və zənginləşdirirlər. Ayrı-ayrı beytlərdə ifadə olunmuş fikirlərin, lirik qəhrəmana məxsus səciyyəvi xüsusiyyətlərin aydınlaşdırılması üzrə iş davam və inkişaf etdirilir. Bu məqamda məcazların növünün müəyyənləşdirilməsinə ayrıca diqqət yetirilir.

Dərslikdə təklif edilmiş tapşırıq şagirdlərdə tədqiqatçılıq bacarığının, müstəqilliyin inkişafı baxından daha faydalıdır. İlk növbədə şeirin fərdi oxusu təklif edilir. İlkin təəssürat və qavrama üçün bu, faydalıdır. Təbiidir ki, qəzəldə şagirdlər üçün aydın olmayan misra və beytlər də var. Tapşırıqda şagirdlərə bu qəbildən olan misra və beytləri cədvəldə qeyd etmək təklif olunur.

Oxu prosesində tsnış olmayan sözlərin mənasını aydınlaşdıran, maraqlı saydıqları məcazları qeyd edən şagirdlər kiçik qruplarda birləşərək qənaətlərini bölüşürlər. Bu mərhələdə başlıca diqqət izahına ehtiyac duyulan misra və beytlərin aydınıaşdırılmasına yönəlir. Bu prosesdə müəllimin izahı, istiqamətləndirici sualları vacibdir.

Bütün bunlar qrupların əhatəli təqdimat hazırlamalarına imkan yaradır.

Kiçik qrupların təqdimatları əsasında **məlumat mübadiləsi** və **müzakirə** aparılır. Təqdimatların fəal dinlənilməsinə, müzakirədə daha çox şagirdin iştirak etməsinə səy göstərilir.

LAYİHƏ

**Nəticənin** çıxarılması, **ümumiləşdirmənin** aparılması şagirdlərin fəal iştirakı ilə həyata keçirilir. Bu mərhələnin uğurlu olmasında müəllimin istiqamətləndirici sualları mühüm əhəmiyyət kəsb edir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə müəyyənləşdirilmiş meyarlar əsasında aparılır.

*Qiymətləndirmə meyarları:*
İzahetmə
Müəyyənləşdirmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Tanış olmayan sözlərin mənşəyinə və işlənmə məqamına görə mənasını izah etməkdə çətinlik çəkir. | Tanış olmayan sözlərin mənşəyinə və işlənmə məqamına görə mənasını suallar verməklə və kömək əsasında izah edir. | Tanış olmayan sözlərin mənşəyinə və işlənmə məqamına görə mənasını, əsasən, izah edir. | Tanış olmayan sözlərin mənşəyinə və işlənmə məqamına görə mənasını izah edir. |
| Şeirdə əksini tapmış mühüm mənəvi, əxlaqi-etik dəyərləri müəyyənləşdirməkdə çətinlik çəkir. | Şeirdə əksini tapmış mühüm mənəvi, əxlaqi-etik dəyərləri müəllimin köməyi ilə müəyyənləşdirir. | Şeirdə əksini tapmış mühüm mənəvi, əxlaqi-etik dəyərləri, əsasən, müəyyənləşdirir. | Şeirdə əksini tapmış mühüm mənəvi, əxlaqi-etik dəyərləri müəyyənləşdirir. |
| Şeirdə məcazları müəyyənləşdirməkdə çətinlik çəkir. | Şeirdə məcazları suallar verməklə və kömək əsasında müəyyənləşdirir. | Şeirdə məcazları, əsasən, müəyyənləşdirir. | Şeirdə məcazları müəyyənləşdirir. |

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

## *Mövzu:* **Məhəmməd Füzuli. Məni candan usandırdı...** – 2 saat
## *İkinci saat:* **Təhlil üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.1.2.** İfadəli oxudan müxtəlif ədəbi növdə olan əsərlərin emosional-obrazlı qavranılması, təhlili məqsədi ilə istifadə edir. | • İfadəli oxunu şeirin emosional-obrazlı qavranılması və təhlili vastəsi kimi tətbiq edir. |
| **1.2.2.** Davranış və əməllərinə, başqaları ilə qarşılıqlı münasibətlərinə, yazıçının mövqeyinə, digər surətlərin mühakimələrinə əsaslanmaqla obrazları təhlil edir. | • Davranış və əməllərindən çıxış etməklə lirik qəhrəmanı təhlil edir. |
| **1.2.3.** Müxtəlif vəznli (heca, əruz, sərbəst) şeirlərdə, süjetli ədəbi nümunələrdə bədii təsvir və ifadə vasitələrinin obrazlılığın yaradılmasındakı rolunu aydınlaşdırır və münasibət bildirir. | • Şeirdəki məcazların obrazlılığın yaradılmasındakı rolunu aydınlaşdırır və münasibət bildirir. |
| **1.2.4.** Bədii nümunələrin mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün sosial-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə təhlil edir və nəticə çıxarır. | • Şeirin mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün mənəvi dəyərləri kontekstindən çıxış etməklə təhlil edir və nəticə çıxarır. |

LAYİHƏ

## Dərsin gedişi

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilməsi və müzakirəsi əsasında müəyyənləşdirilə bilər. Mənşəyi müstəqil aydınlaşdırılmış sözlər yenidən nəzərdən keçirilir, zəruri düzəlişlər edilir. Şagirdlərin hazırladıqları ikihissəli gündəliyin müzakirəsi isə əsərin məzmununun hansı səviyyədə mənimsənildiyi barədə müəllimin aydın təsəvvür qazanmasına imkan yaradır. Sonda müvafiq qiymətləndirmə meyarlarından istifadə olunur.

**Motivasiya, problemin qoyuluşu.** Motivasiyanın yaradılmasına fərqli yollarla nail olmaq mümkündür. Suallardan istifadə etməklə motivasiya yaratmağı qarşısına məqsəd qoyan müəllim məzmunla bağlı qazanılmış biliklərə əsaslanmaqla yığcam müzakirə təşkil edir. Müzakirəyə müəllimin: *Şeirdə diqqətinizi daha çox cəlb edən nə oldu?* sualı ilə başlanılır və şagirdlərin fəal iştirakı ilə davam etdirilir. Müzakirə tədqiqat sualının formalaşdırılması ilə yekunlaşdırılır.

**Tədqiqat sualı:** Şeirdə şairi daha çox düşündürən və oxucuya çatdırmaq istədiyi başlıca fikir, sizcə, nədir?

Fərziyyələr dinlənilir və qeyd edilir.

**Tədqiqatın aparılması.** İlkin araşdırmanın əsasında dərslikdəki sualların *(Qəzəl hansı mövzuda yazılıb? Əsərdə təsvir edilən məhəbbəti necə izah etmək doğru olar? Lirik qəhrəman – aşiq hansı cəhətləri ilə diqqəti cəlb edir? Onun öz eşqində sadiq, dönməz olmasının əsl səbəbi nədir? Qəzəlin bədii keyfiyyətini artıran vasitələr hansılardır?)* və onların aydınlaşdırılmasına istiqamət verən mətnin oxusu, öyrənilənlərə müstəqil münasibətin yaradılması dayanır. Bu işi fərqli variantlarda təşkil etmək olar. Dərslikə təklif edilmiş variant əməkdaşlığın təmin edilməsi, müstəqilliyin inkişafı üçün daha faydalıdır. Belə ki mətnkənarı suallarla tanış olan qruplar əsərin məzmunu ilə bağlı öyrəndiklərinə əsaslanmaqla onlara yığcam cavab hazırlayırlar. Bu tapşırığın yetirilməsində şagirdlərin artıq mənimsəmiş olduqları bacarıqlar əhəmiyyətli rol oynayır.

Şagirdlərin növbəti işi mətnkənarı sualların dərslikdəki cavablarının oxusu və öz yazıları ilə müqayisə etmələri olur.

Tapşırığın tələbinə uyğun olaraq, şagirdlər gəldikləri nəticələri, eləcə də mənbələrdən daha nələri öyrənməyin vacib olduğunu təqdimatlar əsasında müzakirə edirlər.

Tapşırığa, həmçinin şeirin ilk üç beytinin ifadəli oxusuna hazırlıq tələbi də daxil edilmişdir.

Unudulmamalıdır ki, "Məni candan usandırdı..." qəzəlinin tədrisi müəllimdən xüsusi yanaşma, böyük diqqət tələb edir. Qəzəldə ilahi məhəbbətin əlamətləri açıq-aşkar hiss olunur və bu, dərslikdəki mətndə də əksini tapmışdır. Əsərin tədrisində bunun həddindən artıq qabardılması məqsədəuyğun deyildir. Mənbələr üzərində işləyərkən şagirdlərə aydın olur ki, Füzulinin məhəbbət lirikasında gerçək insani duyğuların tərənnümü heç də az yer tutmur. Başqa sözlə, Füzulinin lirik şeirlərində sufiyanə məhəbbət real insani məhəbbəti inkar etmir. Deməli, "Məni candan usandırdı..." şagirdlərə ilk növbədə dərin məhəbbətlə sevən və sevdiyi qızın yolunda hər cəfaya dözməyə hazır olan aşiqin qəlb çırpıntılarını ifadə edən əsər kimi (əvvəlki illərin dərsliklərində və məktəb təcrübəsində də məhz bu yol tutulmuşdur) təqdim edilməlidir.

İlk iki sual (dərslikdə birləşdirilmişdir) üzərində işləyən qrup dərslikdəki mətndə bu barədə əksini tapmış yığcam izahla tanış olur, məlumat mübadiləsi və müzakirədə digər

LAYİHƏ

şagirdləri də məlumatlandırırlar. Bu izah müstəqil araşdırma zamanı mənbələrdəki məlumatları şagirdlərin başa düşməsinə və doğru nəticə çıxarmalarına əhəmiyyətli təsir edir.

Növbəti sualla bağlı (*Lirik qəhrəman – aşiq hansı cəhətləri ilə diqqəti cəlb edir? Onun öz eşqində sadiq, dönməz olmasının əsl səbəbi nədir?*) dərslikdəki mətndə yığcam təhlil səciyyəli məlumat var. Bu məlumat şagirdlərə mənbələrdə nələrə diqqət yetirməyin lazım olduğuna istiqamət verir. Aşiq yüksək mənəvi-əxlaqi dəyərlərə malik obraz kimi diqqəti cəlb edir və müxtəlif mənbələrdə də beləcə səciyyələndirilir. Təqdimat və müzakirədə bu cəhət ön plana çəkilir və mənbələrdən istifadə zamanı buna diqqət yetirməyin vacib olması barədə təsəvvür yaradılır.

Sonuncu sualın (*Qəzəlin bədii keyfiyyətini artıran vasitələr hansılardır?*) aydınlaşdırılmasına istiqamət verən məlumat dərslikdə yığcam olsa da, mənbələrdən hansı məzmunda bilik əldə etməyin lazım olması barədə şagirdlərdə təsəvvür yaradır. Şagirdlərə aydın olur ki, orijinal məcazlar, ustalıqla seçilən və misralarda əlaqələndirilən sözlər, mükəmməl qafiyə sistemi və s. qəzəldə bədiiliyi təmin edən vasitələrdən yalnız bir qismidir.

Əsərin məzmunu ilə bağlı qazanılmış biliklərdən də istifadə edən qruplar hazırladıqları təqdimat əsasında **məlumat mübadiləsi** və **müzakirə** aparırlar. Bu mərhələdə bədii əsərdən nümunələrin göstərilməsinə xüsusi önəm verilir.

**Nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması** mərhələsində müəllimin istiqamətləndirici sualları şagirdlərin daha fəal olmasına imkan yaradır.

Bütün bunlar şeirin ifadəli oxusuna imkan yaradır. Əruz vəznli şeirlərin oxu xüsusiyyətləri müsahibə ilə xatırladıldıqdan sonra ifalar dinlənilir, onlara münasibət bildirilir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə müəyyənləşdirilmiş meyarlar əsasında aparılır.

*Qiymətləndirmə meyarları:*

İfadəlioxuma

Təhliletmə

Aydınlaşdırma, münasibətbildirmə

Təhliletmə, nəticəçıxarma

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| İfadəli oxunu şeirin emosional-obrazlı qavranılması və təhlili vastəsi kimi tətbiq etməkdə çətinlik çəkir. | İfadəli oxunu şeirin emosional-obrazlı qavranılması və təhlili vastəsi kimi müəllimin köməyi ilə tətbiq edir. | İfadəli oxunu şeirin emosional-obrazlı qavranılması və təhlili vastəsi kimi əsasən tətbiq edir. | İfadəli oxunu şeirin emosional-obrazlı qavranılması və təhlili vastəsi kimi tətbiq edir. |
| Davranış və əməllərindən çıxış etməklə lirik qəhrəmanı təhlil etməkdə çətinlik çəkir. | Davranış və əməllərindən çıxış etməklə lirik qəhrəmanı qismən təhlil edir. | Davranış və əməllərindən çıxış etməklə lirik qəhrəmanı, əsasən, təhlil edir. | Davranış və əməllərindən çıxış etməklə lirik qəhrəmanı təhlil edir. |
| Şeirdəki məcazların obrazlılığın yaradılmasındakı rolunu aydınlaşdırmaqda və münasibət bildirməkdə çətinlik çəkir. | Şeirdəki məcazların obrazlılığın yaradılmasındakı rolunu müəllimin köməyi ilə aydınlaşdırır və münasibət bildirməkdə çətinlik çəkir. | Şeirdəki məcazların obrazlılığın yaradılmasındakı rolunu, əsasən, aydınlaşdırır və münasibət bildirir. | Şeirdəki məcazların obrazlılığın yaradılmasındakı rolunu aydınlaşdırır və münasibət bildirir. |



LAYİHƏ

| | | | |
|---|---|---|---|
| Şeirin mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün mənəvi dəyərləri kontekstindən çıxış etməklə təhlil etməkdə və nəticə çıxarmaqda çətinlik çəkir. | Şeirin mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün mənəvi dəyərləri kontekstindən çıxış etməklə suallar və müəllimin köməyi ilə təhlil edir və nəticə çıxarır. | Şeirin mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün mənəvi dəyərləri kontekstindən çıxış etməklə, əsasən, təhlil edir və nəticə çıxarır. | Şeirin mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün mənəvi dəyərləri kontekstindən çıxış etməklə təhlil edir və nəticə çıxarır. |

Müəllim dərslikdəki “Evdə iş” başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

## *Mövzu:* **Məhəmməd Füzuli. Leyli və Məcnun (ixtisarla)** *– 4 saat*

### *Birinci saat:* **Məzmun üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.1.1.** Müxtəlif vəznli şeirlərdə (heca, əruz, sərbəst) və süjetli əsərlərdə (dastan, poema, hekayə, povest, roman, dram, komediya, faciə) tanış olmayan sözlərin mənasını mənşəyinə və işlənmə məqamına görə izah edir. | • Poemada tanış olmayan sözlərin mənasını mənşəyinə və işlənmə məqamına görə izah edir. |
| **1.1.4.** Müxtəlif ədəbi növ və janrda olan bədii nümunələrdə əksini tapan mühüm mənəvi, əxlaqi-etik dəyərləri müəyyənləşdirir. | • Poemada əksini tapmış mühüm mənəvi, əxlaqi-etik dəyərləri müəyyənləşdirir. |
| **1.1.5.** Müxtəlif vəznli (heca, əruz) şeirlərdə, mürəkkəb süjet və kompozisiyalı bədii nümunələrdə bədii təsvir və ifadə vasitələrini (epitet, bənzətmə, metafor, metonimiya, simvol, mübaliğə, litota, bədii sual, təkrir, bədii təzad, inversiya) müəyyənləşdirir. | • Poemada məcazları müəyyənləşdirir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilməsi və müzakirəsi yolu ilə müəyyənləşdirilə bilər. Araşdırılan sualların hər biri ilə əlaqədar mənbələrdən əldə edilmiş məlumatın məzmunu və həcmi ilə əlaqədar təsəvvür qazanılır. Yeni məlumatların dərslikdən əldə olunanlarla necə əlaqələndirildiyi, cavabların hansı səviyyədə tamamlandığı və zənginləşdirildiyi aşkara çıxarılır. Müvafiq qiymətləndirmə meyarlarına müraciət edilir.

**Motivasiya, problemin qoyuluşu.** Bu mərhələ fərqli məzmunda və formada təşkil oluna bilər. Eyniadlı operadan fraqmentin nümayiş etdirilməsi, yaxud səsləndirilməsi, poema haqqında elmi əsərdən parçanın oxunması, illüstrasiyadan istifadə və s. bu qəbildəndir. Şagirdlərin poema haqqında müəyyən təsəvvürləri olduğu üçün suallardan istifadə yolu da seçilə bilər. Göstərilənlərdən birinin tətbiqi tədqiqat sualının formalaşdırılmasına imkan yaradır.

LAYİHƏ

**Tədqiqat sualı:** Mənəvi azadlığa, müstəqil düşüncəyə düşmən kəsilən adətlərlə, qaydalarla yaşamaq istəməyənlər hansı yolu tuta bilərlər?

Fərziyyələr dinlənilir və təkrara yol verilmədən qeyd edilir.

**Müəllim üçün məlumat**

*Füzulinin "Leyli və Məcnun" poemasının məktəbdə tədrisi ilə bağlı elmi-metodik ədəbiyyatda, pedaqoji mətbuatda ciddi mübahisələr olmuşdur. Fərqli, bir-birinə zidd fikirlər söylənilmiş, hətta bu poemanın məktəb proqramından çıxarılması da təklif edilmişdir. Bütün bunlar səbəbsiz deyildir. Yazıldığı dövrdə müəyyən təhsil almış insanların asan başa düşdüyü bu möhtəşəm abidəni çağdaş oxucu bütövlükdə, tam şəkildə anlamaqda çətinlik çəkir. Bunun səbəbini əsərdə alınma sözlərin olması ilə izah etmək birtərəfli yanaşma olardı. Füzuli sənətinə məxsus dərin mətnaltı mənalar, ümumiyyətlə, şairin bədii düşüncə, bədii təfəkkür özəlliyi, təriqət anlayışları, rəmzləri və s. bura əlavə olunmalıdır.*

*Elmi-metodik ədəbiyyatımızda poemanın məktəbdə öyrədilməsi barədə az danışılmamışdır. Müəllimə kömək məqsədi ilə metodik vəsaitlərdə, məqalələrdə, eləcə də filoloji araşdırmalarda qiymətli fikirlər söylənilmişdir. Bunlardan biri – dərslikdə mənbələrin sırasında verilmiş kitab (M. Füzuli. "Leyli və Məcnun", Bakı, 1991; tərtibçi S.Əliyev), xüsusilə dəyərlidir. Tərtibçi poemanın mətnini uğurla nəsrə çevirmişdir. Hələ Füzulinin yaradıcılığının tədrisinə qədər poemadan dərsliyə daxil edilmiş parçaların nəsr variantı ilə paralel oxusuna nail olmaq vacibdir. Poemanın nəsr variantının sinifdə olması, dərsdə ona ardıcıl müraciət olunması da təmin edilir.*

**Tədqiqatın aparılması.** Araşdırmaya dərslikdə verilmiş parçaların *("Kitabın yazılmasının səbəbi", "Məcnunun anadan olması və uşaqlığı", "Məcnunun Leylini məktəbdə görməsi", "Anasının Leyliyə nəsihəti")* oxusu ilə başlanılır. Bu parçaların və onların nəsr variantlarının dərsə bir neçə gün qalmış mütaliə edilməsi məzmunun öyrənilməsi üzrə işin səmərəli təşkilinə əhəmiyyətli dərəcədə təsir edir. Lakin təcrübə göstərir ki, sinifdə həmin parçaların yenidən nəsr variantları ilə paralel oxunması, tanış olmayan sözlərin mənasının aydınlaşdırılması, məcazların müəyyənləşdirilməsi səmərəli nəticənin əldə edilməsi üçün vacibdir.

Oxunu fərqli formalarda təşkil etmək mümkündür. Bunlardan biri səsli oxunun izlənilməsi və izaha şagirdlərin cəlb edilməsi ola bilər. Oxunu iki şagird (müəyyən məqamlarda əvəzlənməklə) yerinə yetirir. Bir nəfər poemadan beyt-beyt oxuyur, İkinci şagird oxunmuş beytlərin nəsr qarşılığını səsləndirir. Digər şagirdlər ehtiyac yaranan hallarda misranın, beytin, yaxud nəsr variantının təkrar oxunmasını xahiş edir, əlavə izaha ehtiyac duyulduğunu yerindəcə bildirirlər. Belə oxuda tanış olmayan sözlərin mənasının, mənşəyinin aydınlaşdırılmasına və məcazların müəyyənləşdirilməsinə (bu məqamda şagirdlərin fərdi fəaliyyətinə diqqət yetirilir) əlverişli imkan yaranır.

Oxuya ayrılan vaxt başa çatdıqdan sonra şagirdlər kiçik qruplarda birləşib dərslikdəki suallara *(Əsəri yazmağı Füzulidən kimlər və necə xahiş edirlər? Şair mövzu ilə bağlı düşüncələrini necə ifadə edir? və s.)* cavab hazırlayırlar. Bu, məzmunla bağlı qazanılmış məlumatın sistemə salınmasında əhəmiyyətli rol oynayır. Müəllim dərslikdəki *"Leylini şair necə təqdim edir? Anası Leyliyə nələri nəsihət edir? Ana zəmanənin hansı mənəvi-əxlaqi dəyərlərinə önəm verir?"* suallarına cavab hazırlayan şagirdlərin diqqətini poemanın *"Məcnunun Leylini məktəbdə görməsi", "Anasının Leyliyə nəsihəti"* parçalarında əksini tapmış mənəvi, əxlaqi-



LAYİHƏ

etik dəyərlərin müəyyənləşdirilməsinə cəlb edir. Eləcə də digər suallarla bağlı poemaya müraciət olunur.

Kiçik qrupların təqdimatlarında tanış olmayan sözlərin mənşəyi, məcazların növü ilə bağlı məlumatlar da əhatə olunur və **məlumat mübadiləsi** və **müzakirədə** diqqət mərkəzində saxlanılır.

Aparılmış işə yekun vurulduqdan sonra (nəticənin çıxarılması məzmunun öyrənilməsi üzrə iş başa çatdırıldıqdan sonra – ikinci dərsdə həyata keçirilir) qiymətləndirmə mərhələsinə keçilir.

Dərslikdə təklif edilmiş tapşırıq variantı müəllimin müdaxiləsini, istiqamətləndirməsini daha çox tələb edir. Lakin tətbiqi ciddi çətinlik törətmir. Belə ki kiçik bitkin hissələr şagirdlər əvəzlənməklə fasilələrlə ucadan oxunur. Hər hissənin oxusu başa çatdıqdan sonra fasilə edilir, poema ilə bağlı şərhlərdən, izahlı lüğətlərdən və s. istifadə etməklə tanış olmayan söz, misra və beytlərin mənası aydınlaşdırılır. İşin bu mərhələsində, xüsusən misra və beytlərin mənalarının aydınlaşdırılmasında müəllimin istiqamətləndirici yardımı vacib olur.

Şagirdlər daha maraqlı hesab etdikləri məcazları, onların növlərini müəyyənləşdirir, kiçik qruplarda birləşərək dərslikdə təklif edilmiş suallar da əhatə olunmaqla icra etdikləri bütün işlər üzrə təqdimatlar hazırlayırlar.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə müəyyənləşdirilmiş meyarlar əsasında aparılır.

*Qiymətləndirmə meyarları:*

İzahetmə

Müəyyənləşdirmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Tanış olmayan sözlərin mənşəyinə və işlənmə məqamına görə mənasını izah etməkdə çətinlik çəkir. | Tanış olmayan sözlərin mənşəyinə və işlənmə məqamına görə mənasını suallar verməklə və kömək əsasında izah edir. | Tanış olmayan sözlərin mənşəyinə və işlənmə məqamına görə mənasını, əsasən, izah edir. | Tanış olmayan sözlərin mənşəyinə və işlənmə məqamına görə mənasını izah edir. |
| Poemada əksini tapmış mühüm mənəvi, əxlaqi-etik dəyərləri müəyyənləşdirməkdə çətinlik çəkir. | Poemada əksini tapmış mühüm mənəvi, əxlaqi-etik dəyərləri müəllimin köməyi ilə müəyyənləşdirir. | Poemada əksini tapmış mühüm mənəvi, əxlaqi-etik dəyərləri, əsasən, müəyyənləşdirir. | Poemada əksini tapmış mühüm mənəvi, əxlaqi-etik dəyərləri müəyyənləşdirir. |
| Poemada məcazları müəyyənləşdirməkdə çətinlik çəir. | Poemada məcazları suallar verməklə və kömək əsasında müəyyənləşdirir. | Poemada məcazları, əsasən, müəyyənləşdirir. | Poemada məcazları müəyyənləşdirir. |

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

## *Mövzu:* **Məhəmməd Füzuli. Leyli və Məcnun (ixtisarla)** *– 4 saat*
### *İkinci saat:* **Məzmun üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.1.1.** Müxtəlif vəznli şeirlərdə (heca, əruz, sərbəst) və süjetli əsərlərdə (dastan, poema, hekayə, povest, roman, dram, komediya, | • Poemada tanış olmayan sözlərin mənasını mənşəyinə və işlənmə məqamına görə izah edir. |

LAYİHƏ

| | |
|---|---|
| faciə) tanış olmayan sözlərin mənasını mənşəyinə və işlənmə məqamına görə izah edir. | |
| **1.1.4.** Müxtəlif ədəbi növ və janrda olan bədii nümunələrdə əksini tapan mühüm mənəvi, əxlaqi-etik dəyərləri müəyyənləşdirir. | • Poemada əksini tapmış mühüm mənəvi, əxlaqi-etik dəyərləri müəyyənləşdirir. |
| **1.1.5.** Müxtəlif vəznli (heca, əruz) şeirlərdə, mürəkkəb süjet və kompozisiyalı bədii nümunələrdə bədii təsvir və ifadə vasitələrini (epitet, bənzətmə, metafor, metonimiya, simvol, mübaliğə, litota, bədii sual, təkrir, bədii təzad, inversiya) müəyyənləşdirir. | • Poemada məcazları müəyyənləşdirir. |

### Dərsin gedişi

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi müsahibə və təqdimatların dinlənilməsi, müzakirəsi əsasında müəyyənləşdirilə bilər. Oxunmuş parçalardakı (*"Leylinin anasına cavabı", "Məcnunun Leyliyə səhrada rast gəlməsi" və s.)* başlıca fikirlərin, tanış olmayan sözlərin və onların mənasının, mənşəyinin, eləcə də məcazların hansı səviyyədə aydınlaşdırıldığı aşkara çıxarılır. Bütün bunlar sonrakı mərhələlərdə işi necə təşkil etməyin daha səmərəli olduğunu müəyyənləşdirməyə imkan verir. Təcrübədən məlumdur ki, şagirdlər müstəqil oxuduqları parçalardakı fikirləri ümumi şəkildə qavramaqla məhdudlaşırlar. Məhz buna görə sinifdə davam etdirilən iş zamanı həmin parçaların nəsr variantları ilə paralel oxusunun həyata keçirilməsi, ehtiyac yaranan məqamlarda izahlara yer verilməsi məqsədəuyğundur.

Seçilmiş parçalar poemanın ideya-məzmunu ilə bağlı bir çox mühüm mətləblərin başa düşülməsinə imkan yaradır. İstər oxu prosesində, istərsə də sonra reallaşdırılan işlərdə (kiçik qruplarda suallara cavab hazırlanarkən, təqdimatlarda, müzakirədə və s.) həmin mətləblər diqqət mərkəzində saxlanılır. Məsələn, *"Leylinin anasına cavabı", "Məcnunun atasının Leyli üçün elçiliyə getməsi və rədd cavabı alması", "Nöfəlin ikinci dəfə vuruşub qalib gəlməsi və əhdinə yalan olması", "Atasının Məcnunu səhrada tapması və nəsihətlə yola gətirməkdə aciz qalması"* parçaları nəinki obrazların xarakteri, həyata baxışı barədə aydın təsəvvür qazanmağa imkan verir, həm də o dövrdə mövcud olan cəmiyyətin ictimai görüşü, mənəvi-əxlaqi dəyərlərə, əxlaqi-etik normalara münasibəti barədə tutarlı nəticə çıxarmağa səbəb olur.

Qeyd edildiyi kimi, dərslikdəki suallar *(Leyli günahsız olduğuna anasını necə inandırır? Gəzintidə təsadüfən qarşılaşan Leyli və Məcnun üçün bu görüş nə ilə nəticələnir? və s.)* üzrə iş bir neçə cəhətdən faydalıdır. Kiçik qruplarda birləşən şagirdlər onlara cavab hazırlayarkən izahlı oxuda qazandıqları məlumatla kifayətlənmir, əsərin özünə dönə-dönə müraciət etməli olurlar.

Şagirdlər təqdimatlarda, həmçinin tanış olmayan sözlər, onların mənşəyi, məcazların növü barədəki son qənaətlərini də qeyd edirlər.

**Məlumat mübadiləsi** və **müzakirə** mərhələsinin səmərəli aparılması oxunmuş parçalarda qaranlıq mətləblərin qalmasına imkan vermir. Bu mərhələnin uğurlu olması əsaslandırılmış **nəticənin** çıxarılmasına, **ümumiləşdirmənin** aparılmasına da şərait yaradır.



LAYİHƏ

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə müəyyənləşdirilmiş meyarlar əsasında aparılır.

*Qiymətləndirmə meyarları:*

İzahetmə

Müəyyənləşdirmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Tanış olmayan sözlərin mənşəyinə və işlənmə məqamına görə mənasını izah etməkdə çətinlik çəkir. | Tanış olmayan sözlərin mənşəyinə və işlənmə məqamına görə mənasını suallar verməklə və kömək əsasında izah edir. | Tanış olmayan sözlərin mənşəyinə və işlənmə məqamına görə mənasını, əsasən, izah edir. | Tanış olmayan sözlərin mənşəyinə və işlənmə məqamına görə mənasını izah edir. |
| Poemada əksini tapmış mühüm mənəvi, əxlaqi-etik dəyərləri müəyyənləşdirməkdə çətinlik çəkir. | Poemada əksini tapmış mühüm mənəvi, əxlaqi-etik dəyərləri müəllimin köməyi ilə müəyyənləşdirir. | Poemada əksini tapmış mühüm mənəvi, əxlaqi-etik dəyərləri, əsasən, müəyyənləşdirir. | Poemada əksini tapmış mühüm mənəvi, əxlaqi-etik dəyərləri müəyyənləşdirir. |
| Poemadakı məcazları müəyyənləşdirməkdə çətinlik çəkir. | Poemadakı məcazları suallar verməklə və kömək əsasında müəyyənləşdirir. | Poemadakı məcazları, əsasən, müəyyənləşdirir. | Poemadakı məcazları müəyyənləşdirir. |

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

## *Mövzu:* **Məhəmməd Füzuli. Leyli və Məcnun (ixtisarla***) – 4 saat*
## *Üçüncü saat:* **Təhlil üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.2.2.** Davranış və əməllərinə, başqaları ilə qarşılıqlı münasibətlərinə, yazıçının mövqeyinə, digər surətlərin mühakimələrinə əsaslanmaqla obrazları təhlil edir. | • Davranış və əməllərindən, başqaları ilə qarşılıqlı münasibətlərindən, yazıçının mövqeyindən, digər surətlərin mühakimələrindən çıxış etməklə poemadakı qəhrəmanları təhlil edir. |
| **1.2.4.** Bədii nümunələrin mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün sosial-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə təhlil edir və nəticə çıxarır. | • Poemanın mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün sosial-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə təhlil edir və nəticə çıxarır. |

### Dərsin gedişi

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsinin müəyyənləşdirilməsi onun mənimsənilməsinin dərinləşdirilməsi ilə paralel həyata keçirilir. Bu mərhələ müəllimdən ciddi hazırlıq, gərgin iş tələb edir. Evdə oxunmuş parçalarda qabarıq ifadə olunmuş fikirləri ümumi şəkildə öyrənən şagirdlərlə dərsdə az vaxt içərisində səmərəli iş aparılmalı, məzmunun qavranılması dərinləşdirilməlidir. Bu mərhələdə,

LAYİHƏ

həmçinin azı beş sözün mənşəyi barədə fikir mübadiləsi aparılmalı, müəyyənləşdirilmiş məcazlara münasibət bildirilməlidir.

Təcrübə göstərir ki, bu mərhələdə müsahibədən istifadə vaxta qənaət baxımından daha məqsədəuyğundur.

Poemanın nəsr variantından istifadə edilməklə aparılan işin səmərəliliyinə müəllimin məzmunla bağlı əvvəlcədən hazırladığı suallar da əhəmiyyətli dərəcədə təsir edir.

Müvafiq qiymətləndirmə meyarlarına müraciət olunur.

**Motivasiya, problemin qoyuluşu.** Motivasiyanın yaradılmasına fərqli yollarla nail olmaq mümkündür. Başqa sözlə, bu mərhələni rəmzi materiallardan (poemadan, yaxud operadan parça, rəssamlıq əsəri, hikmətli söz, məsəl və s.), suallardan istifadə etməklə təşkil etmək olar. Variantlardan biri aşağıdakı məzmunda ola bilər. Baş qəhrəmanların faciəsinin əsl səbəbini şairin *"Sözün (əhvalatın) tamamlanması"* parçasında necə izah etdiyi müsahibədən istifadə ilə bir daha xatırladılır. Müsahibə tədqiqat sualının formalaşdırılması ilə yekunlaşır.

**Tədqiqat sualı:** "Poemada yalnız nakam məhəbbət deyil, ciddi ictimai problemlər də əksini tapmışdır" fikrini doğru saymaq olarmı?

Fərziyyələr dinlənilir və qeyd edilir.

**Tədqiqatın aparılması.** Bu, fərqli variantlarda təşkil edilə bilər. Variantların birinin əsasında dərlikdə təklif edilmiş tapşırıq dayanır. Belə ki mətnkənarı suallar qrupların arasında bölünür. Bir sualın üzərində bir neçə qrup işləyir. Poemanın məzmunu ilə bağlı öyrəndiklərindən bəhrələnən şagirdlər suallara cavab yazırlar. Dərslikdə göstərilmiş mənbələrdən bu məqamda istifadə edilməsi təmin olunur.

İcra olunmuş işlərin nəticələri qrupların təqdimatları əsasında müzakirə olunur.

Digər variantı aşağıdakı şəkildə təşkil etmək mümkündür.

Araşdırmaya dərslikdəki sualların *(Poema hansı mövzuda yazılmışdır? Bu mövzu şairin yaradıcılıq meylinə, həyata baxışına nə dərəcədə uyğundur?)* aydınlaşdırılmasına istiqamət verən mətnin oxusu ilə (bunu fərdi, yaxud cütlük şəklində iş formasını tətbiq etməklə həyata keçirmək daha faydalıdır) başlanılır. İlk iki sualla (onlar dərslikdə birləşdirilmişdir) bağlı mətndə maraqlı, lakin tamamlanması və zənginləşdirilməsi vacib olan məlumat verilmişdir. Mətndə birbaşa tədqiqat sualı ilə bağlı əks olunmuş fikirlərin mənbələrdən istifadə ilə zənginləşdirilməsinə ehtiyac duyulduğunu şagirdlərin özləri anlamış olurlar. Füzulinin dövründə cəmiyyətdə hökm sürən ictimai münasibətlər, mövcud mənəvi dəyərlərə, əxlaqi-etik normalara baxış poemada bədii həlli verilən problemlər kimi mənbələrdə əhatəli təhlil edilmişdir. Dərslikdəki mətn bütün bunların mənbələr əsasında araşdırılmasına istiqamət verir.

Dərslikdəki mətn və poemanın məzmunu ilə bağlı qazanılmış bilik şagirdlərə növbəti sualın *(Məcnun və Leyli obrazlarının xarakter, davranış və əməlləri üçün səciyyəvi olanlar hansılardır? Onları müasirlərindən – həmyaşıdlarından fərqləndirən nədir?)* cavabı ilə bağlı fikir söyləməyə imkan yaratsa da, mənbələrə müraciət olunmasına ehtiyac vardır. Bu qəhrəmanların xarakteri, davranış və əməlləri, müəllifin və digər obrazların onlara münasibəti və s. barədə qazanılmış bilik həm poemadan, həm də mənbələrdən əldə edilmiş məlumat əsasında dərinləşdirilməli və zənginləşdirilməlidir.

LAYİHƏ

Əsərin mövzusu, şairin bu mövzuya münasibəti, baş qəhrəmanlarla dövrün mənəvi dəyərləri arasındakı bağlılıq diqqət mərkəzində saxlanılır.

Müəllimin təklifi ilə kiçik qruplarda birləşən şagirdlər fikir mübadiləsi aparır, cavabları əsərdən seçdikləri nümunələrlə zənginləşdirirlər. İstər **məlumat mübadiləsində**, istərsə də **müzakirədə** cavablara nələrin əlavə edilməsinin vacib olması barədəki təsəvvürün zənginləşdirilməsinə diqqət yetirilir. Bu məzmunda aparılan iş yekunlaşdırıldıqdan sonra (nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması isə təhlil üzrə iş tamamlandıqdan sonra – ikinci dərsdə həyata keçirilir) qiymətləndirmə mərhələsinə keçilir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə müəyyənləşdirilmiş meyarlar əsasında aparılır.

*Qiymətləndirmə meyarları:*

Təhliletmə

Təhliletmə, nəticəçıxarma

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Davranış və əməllərindən çıxış etməklə baş qəhrəmanları təhlil etməkdə çətinlik çəkir. | Davranış və əməllərindən çıxış etməklə baş qəhrəmanları qismən təhlil edir. | Davranış və əməllərindən çıxış etməklə baş qəhrəmanları, əsasən, təhlil edir. | Davranış və əməllərindən çıxış etməklə baş qəhrəmanları təhlil edir. |
| Poemanın mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün mənəvi dəyərləri kontekstindən çıxış etməklə təhlil etməkdə və nəticə çıxarmaqda çətinlik çəkir. | Poemanın mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün mənəvi dəyərləri kontekstindən çıxış etməklə suallar və müəllimin köməyi ilə təhlil edir və nəticə çıxarır. | Poemanın mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün mənəvi dəyərləri kontekstindən çıxış etməklə, əsasən, təhlil edir və nəticə çıxarır. | Poemanın mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün mənəvi dəyərləri kontekstindən çıxış etməklə təhlil edir və nəticə çıxarır. |

Müəllim dərslikdəki “Evdə iş” başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

## *Mövzu:* **Məhəmməd Füzuli. Leyli və Məcnun (ixtisarla)** *– 4 saat*
## *Dördüncü saat:* **Təhlil üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.2.2.** Davranış və əməllərinə, başqaları ilə qarşılıqlı münasibətlərinə, yazıçının mövqeyinə, digər surətlərin mühakimələrinə əsaslanmaqla obrazları təhlil edir. | • Davranış və əməllərindən çıxış etməklə obrazları təhlil edir. |
| **1.2.3.** Müxtəlif vəznli (heca, əruz, sərbəst) şeirlərdə, süjetli ədəbi nümunələrdə bədii təsvir və ifadə vasitələrinin obrazlılığın yaradılmasındakı rolunu aydınlaşdırır və münasibət bildirir. | • Poemadakı məcazların obrazlılığın yaradılmasındakı rolunu aydınlaşdırır və münasibət bildirir. |



LAYİHƏ

| | |
|---|---|
| **1.2.4.** Bədii nümunələrin mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün sosial-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə təhlil edir və nəticə çıxarır. | • Poemanın mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün mənəvi dəyərləri kontekstindən çıxış etməklə təhlil edir və nəticə çıxarır. |
| **2.1.2**. Obrazların nitqinə istinad edərək yazıçı mövqeyi ilə bağlı fikirlərini əsaslandırır. | • Poemadakı obrazların nitqindən çıxış etməklə müəllifin mövqeyinə münasibətini əsaslandırır. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi müsahibə və təqdimatların dinlənilməsi, müzakirəsi əsasında müəyyənləşdirilə bilər. Araşdırılan sualların hər biri ilə əlaqədar əldə edilmiş məlumatın nə dərəcədə faydalı olduğunun aydınlaşdırılmasına xüsusi diqqət yetirilir. Əsərin zəngin ideyasının necə qavranıldığı, müəllifin qaldırdığı problemlərin və onların bədii həlli ilə bağlı mənbələrdəki fikirlərin necə mənimsənildiyi bu mərhələdə xüsusi diqqət yetirilən mühüm məsələlərdən olur. Baş qəhrəmanların təhlili ilə bağlı yeni öyrənilənlərin aşkara çıxarılması və dəyərləndirilməsinə vaxt ayrılır.

Bu mərhələdə müvafiq qiymətləndirmə meyarlarına müraciət edilir.

Araşdırmanın bir variantı dərslikdə təklif edilmiş tapşırığın yerinə yetirilməsi ola bilər. Bu tapşıqıq sinfin fəal və diqqətli olması baxımından faydalıdır. Belə ki bir şagird mətnkənarı sualın cavabını – dərslikdəki mətni ucadan oxuyur. Mətndəki fikirləri ümumiləşdirərək bir neçə cümlə ilə ifadə edir. Sonra sinfə mətnlə bağlı suallar verir. Suallar əsasında aparılan müzakirədə izahına ehtiyac duyulan məsələlərə aydınlıq gətirilir.

Digər mətnkənarı suallarla bağlı cavabların – mətnin oxusu da şagirdlər əvəzlənməklə bu qayda ilə həyata keçirilir.

İşin yekunlaşdırılması və nəticənin çıxarılması üzrə təqdimatlar dinlənilir, müzakirə edilir.

Digər bir variant aşağıdakı şəkildə ola bilər.

Araşdırmaya dərslikdəki sualların *(Poemadakı digər obrazların səciyyəvi xüsusiyyətləri hansılardır? "Poemanın uzunömürlü olmasının bir mühüm səbəbi misilsiz bədii gözəlliyidir" fikrini necə əsaslandırardınız?)* aydınlaşdırılmasına istiqamət verən cavabların oxusu ilə (bunun üçün cütlük şəklində iş formasının tətbiqi məqsədəuyğundur) başlanılır. Dərsliyin tələblərinə uyğun olaraq, poemadakı obrazların ətraflı təhlili verilməmişdir. Bu, mənbələrin öyrənilməsi əsasında şagirdlərin apardıqları müstəqil araşdırmanın nəticəsi kimi meydana çıxır.

Dərslikdəki mətndə ata, ana obrazları, eləcə də İbn Səlam barədə deyilənlər təhlil baxımından şagirdlərə aydın istiqamət verir. Məzmunun öyrənilməsi prosesində əldə edilən məlumatlardan da bəhrələnən şagirdlər istər bu obrazlar, istərsə də digərləri – Nofəl, Zeyd barədə fikir söyləyə bilirlər. Bu məqamda onlara bir daha aydın olur ki, bədii mətndən səciyyəvi nümunələrin seçilməsi fikirlərinin təsdiqi, əsaslandırılması üçün çox əhəmiyyətlidir.

Növbəti sualların (*"Poemanın uzunömürlü olmasının bir mühüm səbəbi misilsiz bədii gözəlliyidir" fikrini necə əsaslandırardınız? Poemanın ideyaca zəngin olduğunu necə əsaslandırmaq olar?)* cavabı ilə bağlı dərslikdəki yığcam məlumatlar şagirdlərin məzmun üzrə iş prosesində qazandıqları biliklərin sayəsində genişləndirilir. Oxunmuş parçalardan seçilmiş məcazların və digər bədii vasitələrin poemaya gətirdiyi gözəlliyi, əsərin ideya zənginliyini aydınlaşdırmağa çalışan şagirdlər dərslikdəki



LAYİHƏ

mətndə verilmiş nümunələrdən, izahdan çıxış edirlər. Öyrəndiklərinin mənbələr əsasında zənginləşdirilməsinin zəruriliyini də anlayan şagirdlər müstəqil tədqiqat apararkən nələrə diqqət etməyin vacib olduğu barədə də təsəvvür qazanmış olurlar.

Müəllimin təklifi ilə kiçik qruplarda birləşən şagirdlər qənaətlərini bölüşür, cavablarını dəqiqləşdirirlər. Ümumi fikri əks etdirən təqdimatlar tədricən ərsəyə gəlir.

Təqdimatlar əsasında həyata keçirilən **məlumat mübadiləsi** və **müzakirədə** fəal dinləmə təmin edilir, müzakirənin diskussiya səciyyəli olmasına səy göstərilir.

**Nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması** mərhələsinin səmərəli keçməsində müəllimin istiqamətləndirici sualları əhəmiyyətli rol oynayır.

Nəticələrin fərziyyələrlə müqayisəsinə vaxt ayrılır.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə müəyyənləşdirilmiş meyarlar əsasında aparılır.

*Qiymətləndirmə meyarları:*

Təhliletmə

Aydınlaşdırma, münasibətbildirmə

Təhliletmə, nəticəçıxarma

Əsaslandırma

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Davranış və əməllərindən çıxış etməklə poemadakı obrazları təhlil etməkdə çətinlik çəkir. | Davranış və əməllərindən çıxış etməklə poemadakı obrazları qismən təhlil edir. | Davranış və əməllərindən çıxış etməklə poemadakı obrazları, əsasən, təhlil edir. | Davranış və əməllərindən çıxış etməklə poemadakı obrazları təhlil edir. |
| Poemadakı məcazların obrazlılığın yaradılmasındakı rolunu aydınlaşdırmaqda və münasibət bildirməkdə çətinlik çəkir. | Poemadakı məcazların obrazlılığın yaradılmasındakı rolunu müəllimin köməyi ilə aydınlaşdırır, münasibət bildirməkdə çətinlik çəkir. | Poemadakı məcazların obrazlılığın yaradılmasındakı rolunu əsasən aydınlaşdırır və münasibət bildirir. | Poemadakı məcazların obrazlılığın yaradılmasındakı rolunu aydınlaşdırır və münasibət bildirir. |
| Poemanın mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün mənəvi dəyərləri kontekstindən çıxış etməklə təhlil etməkdə və nəticə çıxarmaqda çətinlik çəkir. | Poemanın mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün mənəvi dəyərləri kontekstindən çıxış etməklə suallar və müəllimin köməyi ilə təhlil edir və nəticə çıxarır. | Poemanın mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün mənəvi dəyərləri kontekstindən çıxış etməklə, əsasən, təhlil edir və nəticə çıxarır. | Poemanın mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün mənəvi dəyərləri kontekstindən çıxış etməklə təhlil edir və nəticə çıxarır. |
| Poemadakı obrazların nitqindən çıxış etməklə müəllifin mövqeyinə münasibətini əsaslandırmaqda çətinlik çəkir. | Poemadakı obrazların nitqindən çıxış etməklə müəllifin mövqeyinə münasibətini suallar və müəllimin köməyi ilə əsaslandırır. | Poemadakı obrazların nitqindən çıxış etməklə müəllifin mövqeyinə münasibətini əksər hallarda əsaslandırır. | Poemadakı obrazların nitqindən çıxış etməklə müəllifin mövqeyinə münasibətini əsaslandırır. |

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.



LAYİHƏ

## İKİNCİ BÖLMƏ ÜZRƏ İKİNCİ KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ

*Qiymətləndirmə M.Əmaninin "Seyr elə..." əsəri üzrə aparıla bilər.*

**Məhəmməd Əmani**
**Seyr elə...**

Bahar oldu, tazə güllər açıldı,
Sərvinazım, sallanubən seyr elə.
Şükufə ovrağı hər yan saçıldı,
Sərvinazım, sallanubən seyr elə.

Can bəslənir etidali-həvadin,
Dərdli olan çəkməz minət dəvadin,
Hər məqamda qulaq dolar nəvadin,
Sərvinazım, sallanubən seyr elə.

Müəssərdür əndəlibdin nalələr,
Saçmış incü səbzə üzrə jalələr,
Eşq odundin dağlar qoymuş lalələr,
Sərvinazım, sallanubən seyr elə.

Hər səhfəsin tərtib etmiş gülün ğeyb,
Öylə kim, heç tapmaq olmaz anda eyb,
Ğənimətdir yetişməgəy vəqti-peyb,
Sərvinazım, sallanubən seyr elə.

Yaz fəslində səhər quşlar əlhani
Mədhuş edər idrak edən insani,
Bitəkəllüf xürrəm olsun Əmani,
Sərvinazım, sallanubən seyr elə.

Ağzın sirrin gönçə guya eyləmiş,
Ğəmzən sehrin nərgis peyda eyləmiş,
Laləni rüxsarın rüsva eyləmiş,
Sərvinazım, sallanubən seyr elə.

Xürrəm olmuş səbzələrdin hər vadi,
Əndəlibi nadan etmiş gül yadi,
Xəcil etgil ənər ilə şümşadi,
Sərvinazım, sallanubən seyr elə.



LAYİHƏ

## QİYMƏTLƏNDİRMƏ ÜÇÜN TÖVSİYƏ OLUNAN SUAL VƏ TAPŞIRIQLAR

1. Şeir hansı mövzuda yazılmışdır? Fikrinizi əsaslandırın.

2. Şeirdə tanış olmayan sözlərin mənasını aydınlaşdırın.

3. Müəyyənləşdirdiyiniz sözlərin alınma, yaxud dilimizə aid olduğunu əsaslandırın.

4. Şeir hansı vəzndə və janrda yazılmışdır? Fikrinizi nümunələrlə əsaslandırın.

5. Lirik qəhrəman təbiətə və sevgilisinə necə münasibət bəsləyir? Fikrinizi əsərdən nümunələr gətirməklə əsaslandırın.

6. Şeirdəki məcazların bədiiliyin, obrazlılığın artmasındakı rolunu müəyyənləşdirin. Fikrinizi nümunələrlə əsaslandırın.

7. Bahar oldu, tazə güllər açıldı,
Sərvinazım, sallanubən seyr elə.
Şükufə övrağı hər yan saçıldı,
Sərvinazım, sallanubən seyr elə.
   a) Bəndin üzərində ifadəli oxu ilə bağlı şərti işarələr qoyun.
   b) Bəndin oxusunda səsdə hansı çalarlar yaranır, nə üçün? Fikrinizi əsaslandırın.

8. Şeiri Ş.İ.Xətayinin “Dəhnamə” poemasından “Bahariyyə” parçası ilə müqayisə edib gəldiyiniz nəticəni qısaca yazın.

9. Əsərdəki başlıca fikir – ideya, sizcə, nədir?

10. Şeirin sizdə doğurduğu təəssüratı yığcam yazın.

LAYİHƏ

## Erkən yeni dövr Azərbaycan ədəbiyyatı

Erkən realizm dövründə ədəbiyyat – 1 saat

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **2.1.1.** Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla təqdimat və çıxışlarında obrazlı ifadələrdən istifadə edir. | • Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla mövzu, problemlə bağlı təqdimat və çıxışlarında obrazlı ifadələrdən istifadə edir. |
| **2.2.1.** Müzakirələrdə mövzuya, problemə, yazıçı mövqeyinə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. | • Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi Füzulinin "Leyli və Məcnun" poemasındakı obrazların təhlili və əsərin bədii xüsusiyyətləri ilə bağlı mənbələrdən əldə edilmiş məlumat əsasında hazırlanmış təqdimatlardan nümunələrin dinlənilməsi, müzakirə edilməsi əsasında müəyyənləşdirilir. Müvafiq qiymətləndirmə meyarlarına müraciət edilir.

Mövzu üzrə işə şagirdlərin ədəbiyyat tarixinin bu dövrü barədəki biliklərin aşkara çıxarılması ilə başlanılır. Bu məqsədlə dərslikdəki sual (*XVII-XVIII əsrlərdə Azərbaycan ədəbiyyatı və onun görkəmli nümayəndələrinin yaradıcılığı haqqında ədəbiyyat dərslərində öyrəndiklərinizi yada salıb yığcam müzakirə aparın)* əsasında müzakirə təşkil edilir. Müəllim istiqamətləndirici suallardan istifadə etməklə müzakirənin səmərəli keçməsinə nail olur. Şagirdlər XVII–XVIII əsrlərin ədəbiyyatı ilə bağlı əvvəlki siniflərdə, eləcə də əlavə mənbələrdən öyrəndiklərini xatırlatmaqla müzakirədə fəallıq göstərirlər. Səkkizinci sinifdə öyrənilmiş "Koroğlu" dastanı, Saib Təbrizi və M.P.Vaqifin əsərləri barədə fikirlər səsləndirilir. Tarix dərslərindən qazanılmış biliklər də yada salınmaqla dövrün sosial-siyasi, ədəbi-mədəni vəziyyətinə münasibət bildirilir. Müzakirədə ədəbiyyat tariximizin bu dövrü ilə bağlı şagirdləri maraqlandıran məsələlər ortaya çıxır. Sonda araşdırılacaq problemin müəyyənləşdirilməsinə imkan yaranır. Şagirdlərin fəal iştirakı ilə formalaşdırılan **problem** sual şəklində ifadə edilir: *XVII–XVIII yüzilliklər ədəbiyyatımızın əsas inkişaf istiqamətləri hansılardır?*

Dərsi fərqli variantlarda təşkil etmək olar. Variantlardan biri dərslikdəki tapşırığın yerinə yetirilməsi ola bilər. Belə ki kiçik qruplar onlara təklif edilmiş mətnkənarı sualların caavabını dərslikdən oxuyur, məzmununu ümumiləşdirərək yığcam yazırlar. Hər sualla bağlı ümumiləşdirmələrə müzakirə yolu ilə münasibət bildirilir.

Mətnin bütövlükdə oxusu başa çatdıqdan sonra çıxarılmış nəticələr təqdimatlar əsasında müzakirə edilir.

Digər bir variant *akvarium* metodunun tətbiqi ilə reallaşdırıla bilər. Bunun üçün, ilk növbədə, dərslikdəki sualların *(XVII–XVIII əsrlərdə yaranan ədəbiyyatımız üçün daha dəyərli hesab olunanlar hansılardır? Xalq yaradıcılığında hansı mövzu və problemlərə daha çox diqqət yetirilmişdir? Aşıq yaradıcılığında hansı mövzulara önəm verilmişdir? Buna səbəb, sizcə, nədir? Yazılı ədəbiyyatımızda yenilik hansı məzmunda və istiqamətdə olmuşdur?)* aydınlaşdırılmasına istiqamət



LAYİHƏ

verən cavabların fərdi oxusu həyata keçirilir. Digər müzakirə metodları kimi akvarium da hazırlıq prosesinə əlavə mənbələrin cəlb edilməsini mühüm vəzifə kimi qarşıya qoyur. Dərslikdə tövsiyə edilmiş mənbələrdən bəziləri, müəllimin uyğun hesab etdikləri şagirdlərin istifadəsinə verilir. Oxuya – ilkin araşdırmaya ayrılan vaxt başa çatdıqdan sonra müzakirəyə başlanılır. Müəllimin təklifi ilə sinif iki qrupa bölünür. Qruplardan biri daxili dairə şəklində, digər qrup isə xarici dairə formasında əyləşir. Daxilə dairə şəklində oturan qrup problemlə (sual formasında ifadə edilib) bağlı müzakirəyə başlayır. Xarici dairədə əyləşənlər müzakirəni müşahidə edir, məzmununa, qaydalara necə əməl edildiyinə diqqət yetirir.

Müzakirədə, təbiidir ki, dərslikdəki suallardan kənaraçıxma halları da olur. Əlavə mənbələrdən sitatların, bədii əsərlərdən nümunələrin göstərilməsi, nitqin ifadəliliyi, obrazlı ifadələrdən məqsədyönlü istifadə cavabların müsbət keyfiyyət göstəricisi kimi dəyərləndirilir.

Müəllimin müəyyənləşdirdiyi vaxt başa çatdıqdan sonra xarici dairədə əyləşən qrup diskussiyanın gedişini qiymətləndirir. Sonra qruplar yerlərini dəyişirlər, müzakirəni indi daxili dairədə yer tutan "xaricilər" davam etdirirlər. Onlara ayrılan vaxt başa çatdıqdan sonra ikinci qrup diskussiyanın necə keçdiyini dəyərləndirir.

Dərsin təşkilinin digər variantı oxunu İNSERT metodunun tətbiqi reallaşdırmaq ola bilər. Bu metoddan istifadə etməklə də müzakirənin *diskussiya* səciyyəli olmasını təmin etmək mümkündür. Oxuya ayrılan vaxt başa çatdıqdan sonra şagirdlərə cütlük şəklində fikir mübadiləsi aparmaq təklif edilir. Sonra araşdırılan problemlə bağlı müzakirə aparılır. Bu prosesdə şagirdlərin hamısının iştirak etməsi, fikirlərin sərbəst söylənilməsi, sualların cavabsız buraxılmaması və s. diqqət mərkəzində saxlanılır.

Diskussiya zamanı problemlə bağlı müxtəlif fikirlərin söylənilməsi təbiidir. Müəllim şagirdlərin bu istiqamətdə fəaliyyətini təqdir etməklə yanaşı, söylənilən mülahizələrin əsaslandırılması qayğısına qalır. Müzakirədə fərqli fikirlərin ortaq məxrəcə gətirilməsi, **nəticənin** çıxarılması, **ümumiləşdirmənin** aparılması diqqət mərkəzində saxlanılır. Çıxarılmış nəticə problemə müəyyən aydınlıq gətirsə də, qeyd edilir ki, mənbələr üzrə müstəqil iş cavabların daha mükəmməl məzmun almasına, nəticələrin əsaslandırılmasına imkan yaradacaqdır. Müəllim növbəti dərsdə – ev tapşırığı ilə bağlı aparılan işdə məsələnin üzərinə qayıdılacağını şagirdlərə bir daha xatırladır.

Dərsin hansı variantda təşkilindən asılı olmayaraq, sinifdə aparılan iş prosesində şagirdlərə aydın olur ki, hər bir sualla əlaqədar olaraq mənbələrdən hansı məzmunda məlumat əldə edilməlidir. Məsələn, birinci sualla (*XVII–XVIII əsrlərdə yaranan ədəbiyyatımız üçün daha dəyərli hesab olunanlar hansılardır?)* bağlı mənbələrdən daha çox aşağıdakı məlumatların mənimsənilməsi və dəyərləndirilməsi məqsədəuyğundur:

- XVII əsrə aid yazılı ədəbiyyatda ənənənin güclü olmasına baxmayaraq, xalq yaradıcılığının mövzu, məzmun, forma baxımından özündən əvvəlki ədəbiyyatımızdan xeyli fərqlənməsi;
- XVIII əsrdə yazılı ədəbiyyatda əvvəlki dövrlərdən fərqli xüsusiyyətlərin, yeniliyin özünü göstərməsi;



LAYİHƏ

– dastan yaradıcılığının, aşıq sənətinin vüsətli inkişafı, şifahi ədəbiyyatla yazılı ədəbiyyatın qarşılıqlı əlaqəsinin güclənməsi;
– söz sənətində realizm meyillərinin artması.

Digər sualla əlaqədar (X*alq yaradıcılığında hansı mövzu və problemlərə daha çox diqqət yetirilmişdir?*) mənbələrdən daha çox aşağıdakı məlumatlar mənimsənilməli və dəyərləndirilməlidir:

– həyati problemləri, haqqın qələbəsinə inamı əks etdirən qəhrəmanlıq və məhəbbət dastanlarının dəyərli örnəklərinin yaranması;
– lirik folklorumuzda janr, mövzu əlvanlığı, mənəvi dəyərlərin yüksək sənətkarlıqla əks etdirilməsi;
– aşıq yaradıcılığında həyat həqiqətlərinin, ictimai problemlərin ifadəsi.

Diskussiyanın sonunda şagirdlər belə bir nəticəyə gəlirlər ki, bu dövrdə ədəbiyyatımızda klassik poeziya ənənələrinin davamı ilə yanaşı, xalq şeiri janrlarından geniş istifadə olunmuş, poeziyada ictimai problem fəal şəkildə əks etdirilmişdir. Şifahi ədəbiyyatın yazılı ədəbiyyata təsiri güclənmiş, realist ədəbiyyatın dəyərli nümunələri yaranmışdır.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə müəyyənləşdirilmiş meyarlar əsasında aparılır.

*Qiymətləndirmə meyarları:*

İstifadəetmə

Əsaslandırma, nümayişetdirmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla mövzu, problemlə bağlı təqdimat və çıxışlarında obrazlı ifadələrdən istifadə etməkdə çətinlik çəkir. | Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla mövzu, problemlə bağlı təqdimat və çıxışlarında suallar və müəllimin köməyi ilə obrazlı ifadələrdən istifadə edir. | Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla mövzu, problemlə bağlı təqdimat və çıxışlarında, əsasən, obrazlı ifadələrdən istifadə edir. | Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla mövzu, problemlə bağlı təqdimat və çıxışlarında obrazlı ifadələrdən istifadə edir. |
| Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırmaqda, fərqli fikirlərə dözümlülük nümayiş etdirməkdə çətinlik çəkir. | Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini suallar və müəllimin köməyi ilə əsaslandırır, fərqli fikirlərə qismən dözümlülük nümayiş etdirir. | Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə, əsasən, dözümlülük nümayiş etdirir. | Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. |

Müəllim dərslikdəki “Evdə iş” başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

LAYİHƏ

*Mövzu:* **"Koroğlu" eposu** – 1 saat

| Standartlar | Təlim nəticələri |
|---|---|
| 2.1.1. Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla təqdimat və çıxışlarında obrazlı ifadələrdən istifadə edir. | • Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla mövzu, problem və bədii əsərlə bağlı təqdimat və çıxışlarında obrazlı ifadələrdən istifadə edir. |
| 2.2.1. Müzakirələrdə mövzuya, problemə, yazıçı mövqeyinə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. | • Dastanla bağlı müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi XVII–XVIII əsrlər ədəbiyyatı ilə bağlı mənbələrdən əldə edilmiş məlumat əsasında hazırlanmış təqdimatlardan nümunələrin dinlənilməsi, müzakirə edilməsi əsasında müəyyənləşdirilir. Müvafiq qiymətləndirmə meyarlarına müraciət edilir.

Müzakirəyə şagirdlərin "Koroğlu" ilə bağlı məlumatlarının aşkara çıxarılması ilə başlanılır. Dərslikdəki *"Koroğlu" dastanı haqqında ədəbiyyat dərslərində öyrəndiklərinizi yada salıb yığcam müzakirə aparın"* tapşırığı müəllimin istiqamətləndirici sualları əsasında yerinə yetirilir. Müzakirədə eposla bağlı şagirdləri düşündürən suallar, maraqlandıran problemlər də aşkara çıxır. Bütün bunlar araşdırılacaq problemin müəyyənləşdirilməsinə imkan verir: *Dastanın xalqımızın yaddaşında yüzillər boyu yaşamasına səbəb nədir?*

İşin təşkili fərqli variantlar da ola bilər. onlardan birini dərslikdə təklif edilmiş tapşırıq əsasında həyata keçirmək olar. Belə ki mətnkənarı sualların sayı qədər kiçik qruplar yaradılır. Qruplar onlara təklif edilmiş sualın dərslikdəki cavabı ilə tanış olduqdan sonra aşağıdakı işləri yerinə yetirirlər.

– ilk mətnkənarı sualın cavabını əhatə edən mətni qruplardan birinin üzvü ucadan və aydın səslə oxuyur;

– mətndəki əsas fikirləri ümumiləşdirərək bir neçə cümlə ilə ifadə edir;

– mətnə aid bir neçə sual verir. Cavablandırmada daxil olduğu qrupun üzvləri ilə yanaşı, bütün sinif iştirak edir;

– səthi qavranılmış çətin məqamlara aydınlıq gətirməyə çalışır;

– mətnə daha nələri əlavə etməyin lazım olduğu barədə fikrini bildirir.

Sonrakı mətnkənarı sualların cavablarını digər qrupların üzvləri bu qayda ilə oxuduqdan sonra kiçik qrupların təqdimatları əsasında fikir mübadiləsi və müzakirə aparılır.

Araşdırmaya dərslikdəki sualların *("Koroğlu" nə üçün tarixi-qəhrəmanlıq dastanı hesab edilir? Dastandakı obrazlar hansı səciyyəvi xüsusiyyətləri ilə diqqəti cəlb edir? Onlar üçün ortaq olan cəhətlər hansılardır? Dastanda bədiilik hansı vasitələrlə artırılmışdır? Dastanda əksini tapmış başlıca ideyalar hansılardır?)* və onların aydınlaşdırılmasına istiqamət verən cavabların oxusu ilə başlanılır. Oxunu fərqli formalarda təşkil etmək olar. Kiçik qruplar yaradaraq hər qrupa bir sualın üzərində işləmək təklif oluna bilər. Sualların cavabı dərslikdəki mətndə əhatə edilməmiş, mənbələr əsasında araşdırma aparmaq üçün istiqamət verilmişdir. Lakin

LAYİHƏ

əvvəlki siniflərdə qazanılmış biliklər, digər fənlərdən, mənbələrdən mənimsənilənlər şagirdlərə suallara müəyyən həcmdə cavab vermək üçün imkan yaradır.

Birinci sualla *("Koroğlu" nə üçün tarixi-qəhrəmanlıq dastanı hesab edilir?)* əlaqədar dərslikdə Cəlalilər hərəkatı xatırladılsa da, ətraflı məlumat yalnız mənbələrdən əldə edilə bilər. Dərslikdəki mətndə ikinci sualın (*Dastandakı obrazlar hansı səciyyəvi xüsusiyyətləri ilə diqqəti cəlb edir?)* cavabı yığcam şərh edilmiş, şagirdlərin bu istiqamətdə tədqiqat aparmalarına imkan yaradılmışdır. Unudulmamalıdır ki, şagirdlərin əksəriyyəti onuncu sinfə qədər dastanı bütövlükdə oxumuş olurlar. Qolların məzmunu haqqında məlumatlı olan şagirdlərin obrazlar haqqında da müəyyən təsəvvürü olur. Üstəlik, əvvəlki siniflərdə bir neçə qolun tədris olunması da şagirdlərin bu suala nisbətən əhatəli cavab vermələrinə imkan yaradır. Lakin bu, mənbələr əsasında tədqiqatın aparılmasına duyulan ehtiyacı aradan qaldırmır.

Şagirdlərin mövcud bilikləri, dərslikdəki mətndən öyrəndikləri üçüncü suala (*Dastanda bədiiliyi artıran vasitələr hansılardır?)* əhatəli cavab vermək üçün kifayət deyildir. Bunun üçün dastanın mətninə, mənbələrə müraciət etmək, ciddi araşdırma aparmaq məqsədəuyğundur.

Dərslikdəki dördüncü sualın (*Dastanda əksini tapmış başlıca ideyalar hansılardır?*) cavabı ilə bağlı araşdırmanın aparılmasına ehtiyac duyulur. Eposda əksini tapmış ideyaların bir qisminə dərslikdə işarə edilmiş, mənbələr əsasında araşdırma aparılmasına istiqamət verilmişdir.

Oxudan sonra gələn mərhələni fərqli formalarda təşkil etmək mümkündür. Hər sualla bağlı diskussiya aparmaqla fərqli fikirlərin dinlənilməsinə və onlara münasibət bildirilməsinə şərait yaratmaq olar. Yaxud kiçik qrupların təqdimatları əsasında məlumat mübadiləsi və müzakirə aparmaq məqsədəuyğundur.

Bütün hallarda nəticənin çıxarılmasına vaxt ayrılır.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə müəyyənləşdirilmiş meyarlar əsasında aparılır.

*Qiymətləndirmə meyarları:*

İstifadəetmə

Əsaslandırma, nümayişetdirmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla mövzu, problem və bədii əsərlə bağlı təqdimat və çıxışlarında obrazlı ifadələrdən istifadə etməkdə çətinlik çəkir. | Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla mövzu, problem və bədii əsərlə bağlı təqdimat və çıxışlarında suallar və müəllimin köməyi ilə obrazlı ifadələrdən istifadə edir. | Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla mövzu, problem və bədii əsərlə bağlı təqdimat və çıxışlarında, əsasən, obrazlı ifadələrdən istifadə edir. | Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla mövzu, problem və bədii əsərlə bağlı təqdimat və çıxışlarında obrazlı ifadələrdən istifadə edir. |
| Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırmaqda, | Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini suallar və | Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli | Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini |



LAYİHƏ

| | | | |
|---|---|---|---|
| fərqli fikirlərə dözümlülük nümayiş etdirməkdə çətinlik çəkir. | müəllimin köməyi ilə əsaslandırır, fərqli fikirlərə qismən dözümlülük nümayiş etdirir. | fikirlərə, əsasən, dözümlülük nümayiş etdirir. | əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. |

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

### *Mövzu:* **Həmzənin Qıratı qaçırması (ixtisarla)** – 3 saat

### *Birinci saat:* **Məzmun üzrə iş**

| **Standartlar** | **Təlim nəticələri** |
|---|---|
| **1.1.1.** Müxtəlif vəznli şeirlərdə (heca, əruz, sərbəst) və süjetli əsərlərdə (dastan, poema, hekayə, povest, roman, dram, komediya, faciə) tanış olmayan sözlərin mənasını mənşəyinə və işlənmə məqamına görə izah edir. | • Qolda tanış olmayan sözlərin mənasını mənşəyinə və işlənmə məqamına görə izah edir. |
| **1.1.5.** Müxtəlif vəznli (heca, əruz) şeirlərdə, mürəkkəb süjet və kompozisiyalı bədii nümunələrdə bədii təsvir və ifadə vasitələrini (epitet, bənzətmə, metafor, metonimiya, simvol, mübaliğə, litota, bədii sual, təkrir, bədii təzad, inversiya) müəyyənləşdirir. | • Qolda məcazları müəyyənləşdirir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi müsahibə və təqdimatların dinlənilməsi, müzakirəsi əsasında müəyyənləşdirilir. Hər sualla bağlı mənbələrdən əldə edilmiş məlumatın həcmi, onların necə dəyərləndirilməsi, əvvəlki biliklərlə əlaqələndirilməsində nümayiş etdirilmiş bacarıqların səviyyəsi bu prosesdə aşkara çıxarılır.

Müəllim müvafiq qiymətləndirmə meyarlarına müraciət edir.

**Motivasiya, problemin qoyuluşu.** Motivasiyanın yaradılması üçün rəmzi materiallardan, suallardan və s. istifadə etmək mümkündür. Variantlardan biri aşağıdakı şəkildə ola bilər. Müəllim şagirdlərə xalq qəhrəmanları ilə bağlı bildikləri atalar sözləri və məsəlləri xatırlatmağı təklif edir. Cavablardan *("Dayağı el olanın başı göylərə çatar", "El gözündən düşən boy atmaz" və s.)* biri üzərində *(Xalqa arxalanan igidin arxası yerə gəlməz)* dayanılır və yığcam müzakirə aparılır. Bu, **tədqiqat sualı** kimi qəbul edilir. Fərziyyələr dinlənilir və qeyd edilir.

Müəllim atalar sözündə ifadə edilmiş fikrə əsaslandırılmış münasibətin bildirilməsi üçün araşdırma aparmağın əhəmiyyətli olduğunu qeyd edir və bunun üçün "Həmzənin Qıratı qaçırması " qolunun tutarlı vasitə olduğunu diqqətə çatdırır.

Araşdırmaya qoldan dərslikdə verilmiş parçanın oxusu ilə başlanılır. Oxunu müxtəlif formalarda (səssiz oxu, səsli oxunun izlənilməsi və s.) aparmaq olar, lakin



LAYİHƏ

bütün hallarda tanış olmayan sözlərin mənasının aydınlaşdırılması, məcazların müəyyənləşdirilməsi həyata keçirilir.

Təcrübədən məlumdur ki, şagirdlərin əksəriyyətini dastandakı əhvalat və hadisələri izləməyə üstünlük verir, yığcam, amma əhəmiyyətli təsvirlərə, ştrixlərə, obrazlarla bağlı deyilmiş fikirlərə diqqət yetirmirlər. Qoldan sinifdə oxunan parçada bu qəbildən qeydlər çoxdur. Məsələn, qolda iştirak edən obrazlar, xüsusən Hasan paşa, Bolu bəy, Həmzə haqqında deyilmiş bir neçə söz onların səciyyəvi xüsusiyyətlərinin aydınlaşdırılmasında ciddi əhəmiyyət kəsb edir. Oxuda diqqətin bu cür incəliklərə yönəldilməsi vacibdir.

Şagirdlərin kiçik qruplarda birləşərək fikir mübadiləsi aparmaları məqsədəuyğundur. Bu, yalnız məzmunla bağlı qazanılanları yox, tanış olmayan sözlər və məcazlarla bağlı mənimsənilənləri də əhatə edir. Dərslikdəki suallara *(Xotkarın narahatlığına səbəb nə idi? və s.)* bu məqamda hazırlanan cavablar, kiçik qeyd şəklində də olsa, təqdimatlarda əksini tapır.

**Məlumat mübadiləsi** və **müzakirədə** təqdimatların fəal dinlənilməsinə, diskussiya şəraitinin yaradılmasına nail olunur.

Aparılmış işlər yekunlaşdırıldıqdan sonra (nəticənin çıxarılması ikinci dərsdə – məzmunun öyrənilməsi başa çatdıqda həyata keçirilir) qiymətləndirmə mərhələsinə keçilir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə müəyyənləşdirilmiş meyarlar əsasında aparılır.

*Qiymətləndirmə meyarları:*

İzahetmə

Müəyyənləşdirmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Tanış olmayan sözlərin mənşəyinə və işlənmə məqamına görə mənasını izah etməkdə çətinlik çəkir. | Tanış olmayan sözlərin mənşəyinə və işlənmə məqamına görə mənasını suallar verməklə və kömək əsasında izah edir. | Tanış olmayan sözlərin mənşəyinə və işlənmə məqamına görə mənasını, əsasən, izah edir. | Tanış olmayan sözlərin mənşəyinə və işlənmə məqamına görə mənasını izah edir. |
| Qolda məcazları müəyyənləşdirməkdə çətinlik çəkir. | Qolda məcazları suallar verməklə və kömək əsasında müəyyənləşdirir. | Qolda məcazları, əsasən, müəyyənləşdirir. | Qolda məcazları müəyyənləşdirir. |

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

## *Mövzu:* Həmzənin Qıratı qaçırması (ixtisarla) – 3 saat

### *İkinci saat:* Məzmun üzrə iş

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.1.1.** Müxtəlif vəznli şeirlərdə (heca, əruz, sərbəst) və süjetli əsərlərdə (dastan, poema, hekayə, povest, | • Qolda tanış olmayan sözlərin mənasını mənşəyinə və işlənmə məqamına görə izah edir. |

LAYİHƏ

| | |
|---|---|
| roman, dram, komediya, faciə) tanış olmayan sözlərin mənasını mənşəyinə və işlənmə məqamına görə izah edir. | |
| **1.1.3.** Mürəkkəb süjetli və kompozisiyalı bədii nümunələri hissələrə ayırır, plan tərtib edir, məzmununu müxtəlif formalarda (geniş, yığcam, yaradıcı) nağıl edir. | • Qolu hissələrə ayırır, seçdiyi hissənin məzmununu hazırladığı plan əsasında geniş və yaradıcı nağıl edir. |
| **1.1.4.** Müxtəlif ədəbi növ və janrda olan bədii nümunələrdə əksini tapan mühüm mənəvi, əxlaqi-etik dəyərləri müəyyənləşdirir. | • Qolda əksini tapmış mühüm mənəvi, əxlaqi-etik dəyərləri müəyyənləşdirir. |
| **1.1.5.** Müxtəlif vəznli (heca, əruz) şeirlərdə, mürəkkəb süjet və kompozisiyalı bədii nümunələrdə bədii təsvir və ifadə vasitələrini (epitet, bənzətmə, metafor, metonimiya, simvol, mübaliğə, litota, bədii sual, təkrir, bədii təzad, inversiya) müəyyənləşdirir. | • Qolda məcazları müəyyənləşdirir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi müsahibə və təqdimatların dinlənilməsi, müzakirəsi əsasında müəyyənləşdirilir. Qazanılmış təsəvvür sonrakı işin təşkilinə istiqamət verir.

Şagirdlər müəllimin təklifi ilə kiçik qruplarda birləşib evdə oxuduqları parçanın məzmunu ilə bağlı fikir mübadiləsi aparırlar. Bu məqamda məzmuna aid sualların (onların sayını müəllim müəyyənləşdirir) tərtib edilməsi məqsədəuyğundur. Bu, mətnin məzmununa daha dərindən nüfuz etməyə və bununla da mətndaxili mənanın və məntiqin başa düşülməsinə səbəb olur.

Qolda həm alınma, həm də arxaik və dialektlərə məxsus sözlər (süysün, niqab, iltimas, xanə, sarp, muy, şahad, sovmaq, yanşaq, anrı, nuzla, və s.) vardır. Onların hər birini təhlil edən şagirdlər müəyyənləşdirdikləri bənzətmə və mübaliğələrlə bağlı fikir yürüdür, nəticə çıxarırlar.

Sonrakı mərhələdə geniş və yaradıcı nağıletmə üzrə təqdimatların dinlənilməsi həyata keçirilir. Təqdimat edənlərə sualların verilməsinə imkan yaradılır. Bu iki nağıletmə formasının tələblərinə necə əməl edildiyinə xüsusi diqqət yetirilir.

Kiçik qruplar yerinə yetirdikləri bütün işləri (məzmunun mənimsənilməsi, sualların tərtib edilməsi, mənası tanış olmayan sözlər və məcazlarla bağlı qənaətləri, nağıletmələrə münasibəti) əhatə edən təqdimatlar əsasında **məlumat mübadiləsi** və **müzakirə aparırlar.**

Müəllimin əvvəlcədən hazırladığı suallar əsaslandırılmış **nəticənin** çıxarılmasına əhəmiyyətli təsir edir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə müəyyənləşdirilmiş meyarlar əsasında aparılır.

*Qiymətləndirmə meyarları:*

İzahetmə, hissələrəayırma, plan tərtibetmə, nağıletmə

Müəyyənləşdirmə

LAYİHƏ

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Tanış olmayan sözlərin mənşəyinə və işlənmə məqamına görə mənasını izah etməkdə çətinlik çəkir. | Tanış olmayan sözlərin mənşəyinə və işlənmə məqamına görə mənasını suallar verməklə və kömək əsasında izah edir. | Tanış olmayan sözlərin mənşəyinə və işlənmə məqamına görə mənasını, əsasən, izah edir. | Tanış olmayan sözlərin mənşəyinə və işlənmə məqamına görə mənasını izah edir. |
| Qolu hissələrə ayırır, seçdiyi hissənin planını tərtib etməkdə, məzmununu geniş, yaradıcı nağıl etməkdə çətinlik çəkir. | Qolu hissələrə ayırır, seçdiyi hissənin planını suallar verməklə və kömək əsasında tərtib edir, məzmununu qismən geniş yaradıcı nağıl edir. | Qolu hissələrə ayırır, seçdiyi hissənin planını tərtib edir, məzmununu, əsasən, geniş yaradıcı nağıl edir. | Qolu hissələrə ayırır, seçdiyi hissənin planını tərtib edir, məzmununu geniş, yaradıcı nağıl edir. |
| Qolda əksini tapmış mühüm mənəvi, əxlaqi-etik dəyərləri müəyyənləşdirməkdə çətinlik çəkir. | Qolda əksini tapmış mühüm mənəvi, əxlaqi-etik dəyərləri müəllimin köməyi ilə müəyyənləşdirir. | Qolda əksini tapmış mühüm mənəvi, əxlaqi-etik dəyərləri, əsasən, müəyyənləşdirir. | Qolda əksini tapmış mühüm mənəvi, əxlaqi-etik dəyərləri müəyyənləşdirir. |
| Qolda məcazları müəyyənləşdirməkdə çətinlik çəkir. | Qolda məcazları suallar verməklə və kömək əsasında müəyyənləşdirir. | Qolda məcazları, əsasən, müəyyənləşdirir. | Qolda məcazları müəyyənləşdirir. |

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **Həmzənin Qıratı qaçırması (ixtisarla)** – 3 saat

*Üçüncü saat:* **Təhlil üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.1.3.** Mürəkkəb süjetli və kompozisiyalı bədii nümunələri hissələrə ayırır, plan tərtib edir, məzmununu müxtəlif formalarda (geniş, yığcam, yaradıcı) nağıl edir. | • Qolu hissələrə ayırır, seçdiyi hissənin məzmununu hazırladığı plan əsasında yığcam və yaradıcı nağıl edir. |
| **1.2.2.** Davranış və əməllərinə, başqaları ilə qarşılıqlı münasibətlərinə, yazıçının mövqeyinə, digər surətlərin mühakimələrinə əsaslanmaqla obrazları təhlil edir. | • Davranış və əməllərindən, başqaları ilə qarşılıqlı münasibətlərindən, digər surətlərin mühakimələrindən çıxış etməklə qoldakı qəhrəmanları təhlil edir. |
| **1.2.3.** Müxtəlif vəznli (heca, əruz, sərbəst) şeirlərdə, süjetli ədəbi nümunələrdə bədii təsvir və ifadə vasitələrinin obrazlılığın yaradılmasındakı rolunu aydınlaşdırır və münasibət bildirir. | • Qoldakı məcazların obrazlılığın yaradılmasındakı rolunu aydınlaşdırır və münasibət bildirir. |
| **1.2.4.** Bədii nümunələrin mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün sosial-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə təhlil edir və nəticə çıxarır. | • Qolun mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün sosial-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə təhlil edir və nəticə çıxarır. |



LAYİHƏ

## Dərsin gedişi

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi müsahibə və təqdimatların dinlənilməsi, müzakirəsi əsasında müəyyənləşdirilir. Məzmunun – seçilmiş hissənin yığcam və yaradıcı nağıledilməsinə ayrıca diqqət yetirilir və müvafiq meyarlardan istifadə etməklə qiymətləndirmə aparılır.

**Motivasiya, problemin qoyuluşu.** Motivasiyanın yaradılması üzrə işi fərqli variantlarda təşkil etmək mümkündür. Onlardan biri aşağıdakı məzmunda ola bilər. Qolda əksini tapmış mühüm fikirlərdən bir qismini müsahibə ilə xatırladan müəllim şagirdlərin fəal iştirakı ilə tədqiqat sualını formalaşdırır.

**Tədqiqat sualı:** *Qolda əksini tapmış hansı fikirlər bu gün üçün də əhəmiyyətli sayıla bilər?*

Şagirdlərin fərziyyələri dinlənilir və qeyd edilir.

**Tədqiqatın aparılması.** Bunun reallaşdırılması üçün fərqli variantlardan istifadə etmək olar. Dərslikdəki variant şagirdlərin fikri fəallığının gücləndiriməsi baxımından faydalıdır:

- Birinci mətnkənarı sualı və onun cavabı ilə bağlı hissənin ilk cümlələrini oxuyun. Düşünün: Mətn sizin üçün çətin deyil ki?
- Mətndəki başlıca fikirləri oxuda anlamağa çalışın. Bunun üçün mətnkənarı sualların məqsədini, onlardan irəli gələn fərziyyələri müəyyənləşdirin.
- Hər bir sualla bağlı parçanın oxusu başa çatdıqdan sonra onu necə anladığınız barədə düşünün.
- Oxu başa çatdıqdan sonra bütövlükdə mətndə əks olunmuş başlıca fikirləri necə anladığınızı yoxlayın. Öyrəndiklərinizi fərziyyələrlə müqayisə etməklə bunu aydınlaşdıra bilərsiniz. Lazım gələrsə, mətni yenidən nəzərdən keçirin.
- Vacib saydığınız fikirləri silinə bilən işarə ilə oxu zamanı mətndə qeyd edin və gəldiyinz nəticələri qısaca yazın.
- Kiçik qruplarda birləşərək qənaətlərinizi bölüşün, təqdimatlar etməklə müzakirə aparın.

Digər bir variantın tətbiqində isə dərslikdəki sualların və onların aydınlaşdırılmasına istiqamət verən mətnin oxusu ilə tədqiqata başlanılır. Oxunu fərqli formalarda aparmaq mümkündür. Hər sualla bağlı mətnin (cavabın) oxusunu bir qrupa həvalə etmək olar. Dərslikdəki suallar (onların sayı dörddür) təhlillə bağlı mühüm məsələləri əhatə edir. Birinci sualın *(Qol hansı mövzudadır?Onun ideya-məzmunu üçün önəmli olanlar nədir?)* cavabının aydınlaşdırılması üçün dərslikdə istiqamət verilmişdir. Şagirdlərə aydın olur ki, bu sualın cavabının ətraflı aydınlaşdırılması üçün mənbələr əsasında araşdırmanın aparılması vacibdir. Müəllim izah edir ki, qol ideya-məzmun baxımından zəngindir və onların açıqlanması, həm bədii mətnin özünə, həm də mənbələrə müraciət olunmasını zəruri edir.

İkinci sualın *(Qolda Koroğlu obrazının hansı yeni səciyyəvi xüsusiyyətləri üzə çıxır?)* cavabı da dərslikdə geniş əhatə edilməmişdir. Lakin unutmaq olmaz ki, şagirdlər əvvəlki siniflərdə bu obrazla bağlı xeyli məlumat əldə etmişlər. Onlar bu məlumatlardan və qolun məzmunundan bəhrələnməklə Koroğlu obrazı barədə xeyli



LAYİHƏ

dərəcədə əsaslandırılmış fikir söyləyə bilirlər. Lakin bu, mənbələrə müraciət etməməyə əsas vermir.

Üçüncü sualın *(Qoldakı digər obrazlar üşün səciyyəvi olan başlıca cəhətlər hansılardır?)* cavabında Nigar xanım, xotkar, Hasan paşa, Həmzə obrazları barədə ən qabarıq cəhətlərin qeyd edilməsi ilə kifayətlənilmişdir. Deməli, bu obrazların əhatəli təhlili qolun məzmunundan və mənbələrdən mənimsənilmiş məlumat əsasında həyata keçirilə bilər.

Dördüncü sualla *(Qol hansı bədii keyfiyyətləri ilə diqqəti cəlb edir?)* bağlı dərslikdəki mətn hazırlanmalı olan cavaba müəyyən istiqamət verir. Şagirdlərin eposun tədrisinə həsr edilmiş birinci dərsdən mənimsədiyi bilik və bacarıqlar suala müəyyən həcmdə cavab verməyə imkan yaradır. Lakin qolun zəngin bədii xüsusiyyətlərinin əhatəli açıqlanması mənbələrin əsasında araşdırmanın aparılmasını zəruri edir.

Oxunu başa çatdıran kiçik qrupların təqdimatı əsasında **məlumat mübadiləsi** və **müzakirə** aparılır. Bu mərhələlərdə şagirdlərin dərslikdəki cavaba (mətnə) hansı məzmunda əlavələr etdiyi aşkara çıxarılır və dəyərləndirilir.

Dolğun **nəticənin** çıxarılmasına, şagirdlərin fəallığına müəllimin istiqamətləndirici sualları əhəmiyyətli təsir edir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə müəyyənləşdirilmiş meyarlar əsasında aparılır.

*Qiymətləndirmə meyarları:*

Hissələrəayırma, plan tərtibetmə, nağıletmə

Təhliletmə, aydınlaşdırma, münasibətbildirmə

Təhliletmə, nəticəçıxarma

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Qolu hissələrə ayırır, seçdiyi hissənin planını tərtib etməkdə, məzmununu yığcam, yaradıcı nağıl etməkdə çətinlik çəkir. | Qolu hissələrə ayırır, seçdiyi hissənin planını suallar verməklə və kömək əsasında tərtib edir, məzmununu qismən yığcam, yaradıcı nağıl edir. | Qolu hissələrə ayırır, seçildiyi hissənin planını tərtib edir, məzmununu, əsasən, yığcam, yaradıcı nağıl edir. | Qolu hissələrə ayırır, seçdiyi hissənin planını tərtib edir, məzmununu yığcam, yaradıcı nağıl edir. |
| Qoldakı ədəbi qəhrəmanları davranış və əməllərinə, başqaları ilə qarşılıqlı münasibətlərinə, digər surətlərin mühakimələrinə əsaslanmaqla təhlil etməkdə çətinlik çəkir. | Qoldakı ədəbi qəhrəmanları davranış və əməllərinə, başqaları ilə qarşılıqlı münasibətlərinə, digər surətlərin mühakimələrinə əsaslanmaqla qismən təhlil edir. | Qoldakı ədəbi qəhrəmanları davranış və əməllərinə, başqaları ilə qarşılıqlı münasibətlərinə, digər surətlərin mühakimələrinə əsaslanmaqla, əsasən, təhlil edir. | Qoldakı ədəbi qəhrəmanları davranış və əməllərinə, başqaları ilə qarşılıqlı münasibətlərinə, digər surətlərin mühakimələrinə əsaslanmaqla təhlil edir. |
| Qoldakı məcazların obrazlılığın yaradılmasındakı rolunu aydınlaşdırmaqda və münasibət bildirməkdə çətinlik çəkir. | Qoldakı məcazların obrazlılığın yaradılmasındakı rolunu müəllimin köməyi ilə aydınlaşdırır, münasibət bildirməkdə çətinlik çəkir. | Qoldakı məcazların obrazlılığın yaradılmasındakı rolunu, əsasən, aydınlaşdırır və münasibət bildirir. | Qoldakı məcazların obrazlılığın yaradılmasındakı rolunu aydınlaşdırır və münasibət bildirir. |



LAYİHƏ

| | | | |
|---|---|---|---|
| Qolun mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün sosial-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə təhlilində və nəticə çıxarmaqda çətinlik çəkir. | Qolun mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün sosial-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə suallar və müəllimin köməyi ilə təhlil edir və nəticə çıxarır. | Qolun mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün sosial-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə, əsasən, təhlil edir və nəticə çıxarır. | Qolun mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün sosial-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə təhlil edir və nəticə çıxarır. |

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **Molla Pənah Vaqifin həyatı, yaradıcılıq yolu** – 1 saat

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **2.1.1.** Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla təqdimat və çıxışlarında obrazlı ifadələrdən istifadə edir. | • Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla mövzu, problemlə bağlı təqdimat və çıxışlarında obrazlı ifadələrdən istifadə edir. |
| **2.2.1.** Müzakirələrdə mövzuya, problemə, yazıçı mövqeyinə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. | • Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. |
| **3.1.1.** Yaradıcı yazıların məzmununa uyğun üslub müəyyənləşdirir, müxtəlif mənbələrdən seçdiyi inandırıcı faktlardan istifadə edir. | • İnşanın, essenin məzmununa uyğun üslub müəyyənləşdirir, müxtəlif mənbələrdən seçdiyi inandırıcı faktlardan istifadə edir. |
| **3.1.2.** Müşahidələrinə, əlavə məlumatlara əsaslanmaqla əsərin ideyasına, probleminə münasibət bildirir, ümumiləşdirmələr aparır, nəticə çıxarır. | • Müşahidələrinə, əlavə məlumatlara əsaslanmaqla qolun ideyasına, probleminə münasibət bildirir, ümumiləşdirmələr aparır, nəticə çıxarır. |
| **3.1.3.** 3-3,5 səhifə həcmində nəqli, təsvir, təhlil xarakterli mətnlər (ədəbi və sərbəst mövzuda inşa, esse, məruzə) yazır. | • Təhlil xarakterli inşa, esse yazır. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi müsahibə və ya təqdimatların dinlənilməsi, müzakirə olunması əsasında müəyyənləşdirilə bilər. "Həmzənin Qıratı qaçırması" qolunun təhlili ilə bağlı biliklərin mənbələr əsasında hansı səviyyədə dərinləşdirildiyi aşkara çıxarılır və müvafiq meyarlar əsasında qiymətləndirilir.

**Motivasiya** mərhələsində dərslikdəki tapşırıq üzrə (*Vaqif barədə bildiklərinizi yada salıb yığcam müzakirə aparın)* müzakirə aparılır. Şagirdlərin ədəbiyyat, tarix,

LAYİHƏ

coğrafiya dərslərində Molla Pənah Vaqif, Qarabağ xanlığı, Şuşa haqqında qazandığı biliklər yeni mövzunun mənimsənilməsi üçün zəmin yaradır.

Şagirdlərin fəal iştirakı ilə müəyyənləşdirilən **problem** sual şəklində ifadə edilir: *Vaqifin yaradıcılığı ədəbiyyatımız üçün hansı xüsusiyyətlərinə görə dəyərlidir?*

**Araşdırmanın** bir variantı dərslikdə təklif edilmiş tapşırığın yerinə yetirilməsi ola bilər. Şagirdlər mətni fərdi olaraq oxuyur, işarələrlə nişanlayıb qruplaşdırırlar. Əldə edilmiş nəticələr cədvəlin müvafiq qrafalarında yığcam şəkildə yazılır. Kiçik qruplar yaradılır, fikir mübadiləsi və müzakirə aparılır. Cədvəlin "Bu barədə daha çox bilmək istəyirik" qrafasındakı qeydlərə əsasən əlavə öyrənilməsinə ehtiyac duyulan məsələlər bəndlər şəklində yazılır.

Digər variant aşağıdakı şəkildə ola bilər.

Araşdırmaya dərslikdəki sualların və mətndə onların aydınlaşdırılmasına istiqamət verən cavabların oxusu ilə başlanılır. Oxunun təşkili ilə bağlı dərslikdə təklif edilmiş tapşırıq şagirdlərin fərdi işləmələrinə və diqqətli olmalarına imkan yaradır. Oxuya başlamazdan əvvəl müəllim *nişanlama ilə oxu* barədə şagirdlərin bildiklərini bir neçə sualla yada salır. Çıxarılan nəticələrin cədvəldə çox yığcam şəkildə qeyd edilməsinin vacib olduğu nümunə əsasında izah olunur. Oxu prosesi diqqətlə izlənilir, ehtiyac yaranan hallarda şagirdlərə istiqamətləndirici suallarla kömək göstərilir.

Mətndə (*Vaqifin həyatı, yaradıcılığı üçün daha önəmli olanlar nədir? Şairin qoşma janrına daha çox müraciət etməsininsəbəbini necə izah edərsiniz? Həyatının son günlərində yazdığı əsərlər əvvəlkilərdən nə ilə fərqlənir? Vaqif əsərlərində bədiiliyə hansı vasitələrlə nail olmuşdur?)* suallarının aydınlaşdırılmasına istiqamət verilmiş, şairin həyatı, poeziyası ilə bağlı ən mühüm mətləblərə qısaca toxunulmuş, şagirdlərdə araşdırmaya maraq oyadılmışdır. Vaqifin doğma yurdundan ayrılması, saraya cəlb edilməsi, ictimai-siyasi fəaliyyəti, yaradıcılığının özəlliyi, faciəli ölümü şagirdləri düşündürür və onlarda tədqiqata meyil güclənir. Bu da unudulmamalıdır ki, tədqiqatın aparılması, yeni mənbələrə müraciət edilməsi üçün şagirdlərdə daxili tələbatın yaranması müəllimin öz işini səmərəli qurmasından, bələdçilik bacarığını ustalıqla reallaşdırmasından çox asılıdır.

Oxuya ayrılan vaxt başa çatdıqdan sonra şagirdlər müəllimin təklifi ilə kiçik qruplarda birləşərək öyrəndikləri ilə bağlı fikir mübadiləsi aparır, təqdimata hazırlaşırlar. Sonrakı iş fərqli formalarda təşkil edilə bilər. Diskussiya səciyyəli müzakirənin aparılması daha faydalıdır. Məktəb təcrübəsində təqdimatlar əsasında **məlumat mübadiləsi** və **müzakirə** aparılmasına daha geniş yer verilir. Təqdimatların nə dərəcədə zəngin, əhatəli olduğuna, şagirdlərin nitqində obrazlı ifadəliliyə hansı səviyyədə yer verildiyinə diqqət yetirilir. Şairin bədiiliyə, obrazlılığa hansı vasitələrlə nail olduğu barədə ilkin məlumatlar səsləndirilir.

**Nəticənin** çıxarılması, **ümumiləşdirmənin** aparılması mərhələsinin səmərəliliyi müəllimin istiqamətləndirici suallardan istifadə etməsindən xeyli dərəcədə asılıdır. Şagirdlər bu nəticəyə gəlir ki, M.P.Vaqif ədəbiyyat tariximizdə xüsusi yer tutan görkəmli sənətkar, nüfuzlu dövlət xadimi olmuşdur. Oədəbiyyatımızın yeni istiqamətdə inkişafında onun böpyük rolu olmuş,



LAYİHƏ

əsərlərində xalq yaradıcılığına bağlılıq, real, gerçək məhəbbətin, insan gözəlliyinin yüksək sənətkarlıqla tərənnümü mühüm yer tutmuşdur.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə müəyyənləşdirilmiş meyarlar əsasında aparılır.

*Qiymətləndirmə meyarları:*
İstifadəetmə
Əsaslandırma, nümayişetdirmə
İnşayazma, esseyazma

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla mövzu, problemlə bağlı təqdimat və çıxışlarında obrazlı ifadələrdən istifadə etməkdə çətinlik çəkir. | Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla mövzu, problemlə bağlı təqdimat və çıxışlarında suallar və müəllimin köməyi ilə obrazlı ifadələrdən istifadə edir. | Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla mövzu, problemlə bağlı təqdimat və çıxışlarında, əsasən, obrazlı ifadələrdən istifadə edir. | Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla mövzu, problemlə bağlı təqdimat və çıxışlarında obrazlı ifadələrdən istifadə edir. |
| Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırmaqda, fərqli fikirlərə dözümlülük nümayiş etdirməkdə çətinlik çəkir. | Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini suallar və müəllimin köməyi ilə əsaslandırır, fərqli fikirlərə qismən dözümlülük nümayiş etdirir. | Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə, əsasən, dözümlülük nümayiş etdirir. | Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. |
| İnşanın, essenin məzmununa uyğun üslub müəyyənləşdirməkdə, müxtəlif mənbələrdən inandırıcı faktlar seçməkdə və istifadə etməkdə çətinlik çəkir. | İnşanın, essenin məzmununa uyğun üslub müəyyənləşdirməyi, müxtəlif mənbələrdən inandırıcı faktlar seçməyi və istifadəni suallar və müəllimin köməyi ilə reallaşdırır. | İnşanın, essenin məzmununa uyğun üslub müəyyənləşdirməyi, müxtəlif mənbələrdən inandırıcı faktlar seçməyi və istifadəni, əsasən, reallaşdırır. | İnşanın, essenin məzmununa uyğun üslub müəyyənləşdirməyi, müxtəlif mənbələrdən inandırıcı faktlar seçməyi və istifadəni reallaşdırır. |

LAYİHƏ

| | | | |
|---|---|---|---|
| Müşahidələrinə, əlavə məlumatlara əsaslanmaqla boyun ideyasına, probleminə münasibət bildirməkdə, ümumiləşdirmə aparmaqda, nəticə çıxarmaqda çətinlik çəkir. | Müşahidələrinə, əlavə məlumatlara əsaslanmaqla boyun ideyasına, probleminə münasibət bildirməyi, ümumiləşdirmə aparmağı, nəticə çıxarmağı suallar və müəllimin köməyi ilə reallaşdırır. | Müşahidələrinə, əlavə məlumatlara əsaslanmaqla boyun ideyasına, probleminə münasibət bildirməyi, ümumiləşdirmə aparmağı, nəticə çıxarmağı, əsasən, reallaşdırır. | Müşahidələrinə, əlavə məlumatlara əsaslanmaqla boyun ideyasına, probleminə münasibət bildirməyi, ümumiləşdirmə aparmağı, nəticə çıxarmağı reallaşdırır. |
| Təhlil xarakterli inşa, esse yazmaqda çətinlik çəkir. | Təhlil xarakterli inşanı, esseni mövzunu qismən əhatə etməklə, fikrin ifadəsində məntiqilik və ardıcıllığı gözləməklə yazır. | Təhlil xarakterli inşanı, esseni mövzunu əsasən əhatə etməklə, fikrin ifadəsində məntiqilik və ardıcıllığı gözləməklə yazır. | Təhlil xarakterli inşanı, esseni mövzunu əhatə etməklə, fikrin ifadəsində məntiqilik və ardıcıllığı gözləməklə yazır. |

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **Molla Pənah Vaqif. Pəri** – 2 saat
*Birinci saat:* **Məzmun üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.1.1.** Müxtəlif vəznli şeirlərdə (heca, əruz, sərbəst) və süjetli əsərlərdə (dastan, poema, hekayə, povest, roman, dram, komediya, faciə) tanış olmayan sözlərin mənasını mənşəyinə və işlənmə məqamına görə izah edir. | • Şeirdə tanış olmayan sözlərin mənasını mənşəyinə və işlənmə məqamına görə izah edir. |
| **1.1.4.** Müxtəlif ədəbi növ və janrda olan bədii nümunələrdə əksini tapan mühüm mənəvi, əxlaqi-etik dəyərləri müəyyənləşdirir. | • Şeirdə əksini tapmış mühüm mənəvi, əxlaqi-etik dəyərləri müəyyənləşdirir. |
| **1.1.5.** Müxtəlif vəznli (heca, əruz) şeirlərdə, mürəkkəb süjet və kompozisiyalı bədii nümunələrdə bədii təsvir və ifadə vasitələrini (epitet, bənzətmə, metafor, metonimiya, simvol, mübaliğə, litota, bədii sual, təkrir, bədii təzad, inversiya) müəyyənləşdirir. | • Şeirdə məcazları müəyyənləşdirir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi müxtəlif metod və iş formalarının tətbiqi ilə müəyyənləşdirilə bilər. Şagirdlərin mənbələrdən necə bəhrələndiklərinə, dərslikdəki



LAYİHƏ

məlumatın hansı səviyyədə zənginləşdirildiyinə müəllim xüsusi diqqət yetirir. Şagirdlərdən daha çox fəallıq və müstəqillik tələb edən a), b) suallarının necə əhatə edildiyi aşkara çıxarılır və ümumiləşdirmə aparılır. Müəllim müvafiq meyarlara müraciət edir.

**Motivasiya, problemin qoyuluşu.** Motivasiyanı müxtəlif yollardan istifadə ilə yaratmaq olar. Təcrübədən məlumdur ki, "Pəri"nin bədii oxu ustasının ifasında dinlənilməsi sinifdə məzmuna uyğun xoş ovqatın yaranmasına səbəb olur. Müəllimin bu imkandan yararlanması faydalı olar.

Xalq artisti Əbülfət Əliyevin ifasında "Pəri" mahnısının səs yazısının dinlənilməsi şagirdlərin diqqətini mövzuya yönəltmək baxımından faydalıdır (https://www.youtube.com/watch?v=h9BIAaYasv8). Daha sonra klassik ədəbiyyatda insan gözəlliyinin tərənnümə xüsusi diqqət yetirilməsi barədə aparılan yığcam müsahibə tədqiqat sualının formalaşdırılması ilə yekunlaşır.

**Tədqiqat sualı:** Vaqifin qoşmalarında insan gözəlliyinə geniş yer verilməsinə səbəb, sizcə, nədir?

Fərziyyələrin dinlənilməsinə və qeyd edilməsinə vaxt ayrılır.

**Tədqiqatın aparılması.** Şagirdlər aşağı siniflərdə sinifdənxaric oxu materialı kimi tanış olduqları "Pəri" qoşmasını dərsə qədər nəzərdən keçirmiş olurlar. Buna baxmayaraq, tədqiqat öncəsi onun sinifdə bir daha oxunması, əsərdə tanış olmayan sözlərin mənasının aydınlaşdırılması, məcazların müəyyənləşdirilməsi vacibdir. Əsərin oxusu müxtəlif şəkillərdə həyata keçirilə bilər. Onlar şeiri fərdi şəkildə səssiz olaraq nəzərdən keçirə bilərlər. Oxu zamanı şagirdlərin izahına ehtiyac duyduğu misra və bəndləri cədvəldə qeyd etmələrinə diqqət yetirilir. Bu, ayrı-ayrı şagirdlərin şeirin məzmununu dərindən qavraması baxımından faydalıdır. Şagirdlərin ikihissəli gündəlikdə daha maraqlı hesab etdikləri məcazları qeyd etmələri, əsərdə hansı mənəvi-əxlaqi dəyərlərə önəm verilməsinin müəyyənləşdirilməsi ilə bağlı tövsiyələr verilir.

Kiçik qruplarda birləşib fikir mübadiləsi aparan şagirdlərə sonra fərdi olaraq ikihissəli gündəlik üzərində işləmək imkanı yaradılır. Ardınca təqdimatlar əsasında **məlumat mübadiləsi** və **müzakirə** aparılır.

Müəllim ayrı-ayrı bəndlərdə ifadə olunmuş fikirlərin dəqiqliklə şərh edilməsinə, məcaz növlərinin müəyyənləşdirilməsinə diqqət yetirir. O, müzakirədə fikirlərin sərbəst çatdırılmasına imkan yaradır, yeni öyrənilən sözlərdən və məcazlardan istifadə olunmasına istiqamət verir.

**Nəticənin** çıxarılması, **ümumiləşdirmənin** aparılması şagirdlərin fəal iştirakı ilə həyata keçirilir. Onlarda belə bir qənaət möhkəmlənir ki, xalq yaradıcılığı ilə nəfəs alan, klassik poeziyanı gözəl bilən Vaqif insanın mənəvi və zahiri gözəlliyinin tərənnümünə laqeyd qala bilməzdi. Bu, bir tərəfdən insana, onun ucalığına hörmətdən, digər tərəfdən şairin humanist baxışlarından irəli gəlirdi.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə müəyyənləşdirilmiş meyarlar əsasında aparılır.

*Qiymətləndirmə meyarları:*
İzahetmə
Müəyyənləşdirmə

LAYİHƏ

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Tanış olmayan sözlərin mənşəyinə və işlənmə məqamına görə mənasını izah etməkdə çətinlik çəkir. | Tanış olmayan sözlərin mənşəyinə və işlənmə məqamına görə mənasını suallar verməklə və kömək əsasında izah edir. | Tanış olmayan sözlərin mənşəyinə və işlənmə məqamına görə mənasını, əsasən, izah edir. | Tanış olmayan sözlərin mənşəyinə və işlənmə məqamına görə mənasını izah edir. |
| Şeirdə əksini tapmış mühüm mənəvi, əxlaqi-etik dəyərləri müəyyənləşdirməkdə çətinlik çəkir. | Şeirdə əksini tapmış mühüm mənəvi, əxlaqi-etik dəyərləri müəllimin köməyi ilə müəyyənləşdirir. | Şeirdə əksini tapmış mühüm mənəvi, əxlaqi-etik dəyərləri, əsasən, müəyyənləşdirir. | Şeirdə əksini tapmış mühüm mənəvi, əxlaqi-etik dəyərləri müəyyənləşdirir. |
| Şeirdə məcazları müəyyənləşdirməkdə çətinlik çəkir. | Şeirdə məcazları suallar verməklə və kömək əsasında müəyyənləşdirir. | Şeirdə məcazları, əsasən, müəyyənləşdirir. | Şeirdə məcazları müəyyənləşdirir. |

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **Molla Pənah Vaqif. Pəri** – 2 saat
*İkinci saat:* **Təhlil üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.1.2.** İfadəli oxudan müxtəlif ədəbi növdə olan əsərlərin emosionalobrazlı qavranılması, təhlili məqsədi ilə istifadə edir. | • İfadəli oxunu şeirin emosional-obrazlı qavranılması və təhlili vastəsi kimi tətbiq edir. |
| **1.2.1.** Müxtəlif vəznli şeirləri (heca, əruz, sərbəst) və süjetli bədii nümunələri (dastan, poema, hekayə, povest, roman, dram, komediya, faciə) janr, dil baxımından müqayisə edir. | • Qoşmanı janr və dil baxımından qəzəllə müqayisə edir. |
| **1.2.2.** Davranış və əməllərinə, başqaları ilə qarşılıqlı münasibətlərinə, yazıçının mövqeyinə, digər surətlərin mühakimələrinə əsaslanmaqla obrazları təhlil edir. | • Davranış və əməllərindən çıxış etməklə lirik qəhrəmanı təhlil edir. |
| **1.2.3.** Müxtəlif vəznli (heca, əruz, sərbəst) şeirlərdə, süjetli ədəbi nümunələrdə bədii təsvir və ifadə vasitələrinin obrazlılığın yaradılmasındakı rolunu aydınlaşdırır və münasibət bildirir. | • Şeirdəki məcazların obrazlılığın yaradılmasındakı rolunu aydınlaşdırır və münasibət bildirir. |



LAYİHƏ

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilməsi və müzakirəsi əsasında müəyyənləşdirilə bilər. Müvafiq qiymətləndirmə meyarlarından istifadə olunur.

**Motivasiya, problemin qoyuluşu.** Motivasiyanı fərqli yollarla yaratmaq mümkündür. Gözəllik haqqında aforizmlərdən *(Zahiri parıltı göz qamaşdırır, daxili parıltı gözləri açır; Daxili gözəlliklə canlandırılmayan xarici gözəllik tam ola bilməz; Gözəlliyi görə bilənlərin yaratdıqları da gözəl olur)* istifadə etməklə aparılan müzakirə tədricən tədqiqat sualının formalaşdırılması ilə yekunlaşır.

**Tədqiqat sualı:** *"Pəri" qoşmasında insanın həqiqi gözəlliyi ifadə edilmişdir" fikrini doğru saymaq olarmı?*

Fərziyyələr dinlənilir və qeyd edilir.

Araşdırmanın bir variantı dərslikdə təklif edilmiş tapşırığın yerinə yetirilməsi ola bilər.Kiçik qruplar yaradılır, mətnkənarı suallar qruplar arasında bölünür. Qrupların sayı çox olarsa, bir sualın üzərində iki qrup işləyə bilər. Şagirdlər qoşma ilə bağlı öyrəndiklərindən bəhrələnərək mətnkənarı suallara hazırladıqları cavabları qeyd edirlər. İşin icrasına ayrılan vaxt başa çatdıqdan sonra, sualların dərslikdəki cavablarını oxuyur, yazdıqları ilə müqayisə edirlər. Kiçik qrupların gəldiyi nəticələr təqdimatlar əsasında müzakirə edilir. Şeirin ilk iki bəndinin ifadəli oxusu üzrə iş təşkil edilir.İfaçılıq vəzifəsi müzakirə əsasında müəyyənləşdirilir.

Dərsin digər variantı aşağıdakı kimi ola bilər.

**Tədqiqatın aparılması.** Müəllimin tövsiyəsi ilə şagirdlər dərslikdəki sualların *(Qoşma hansı mövzuda yazılmışdır? Şeirin ideya-məzmunu üçün önəmli olanlar nədir? Şeir hansı bədii keyfiyyətləri ilə diqqəti cəlb edir?)* və onların araşdırılmasına istiqamət verən mətni fərdi şəkildə oxuyurlar. Tədqiqatın qrup formasında aparılması nəzərdə tutulubsa, hər qrupa bir sual üzərində işləmək təklif edilə bilər. Müəllim "Əsərin lirik qəhrəmanını necə səciyyələndirərdiniz?", "Qoşmada zahiri gözəlliklə mənəvi gözəllik vəhdətdə götürülür" fikri doğrudurmu?" kimi suallarla qrup tapşırıqlarının sayını artıra bilər.

Şairin həyat və yaradıcılığını araşdırarkən öyrəndiklərindən və əsərin məzmunu ilə bağlı qazandıqları biliklərdən də istifadə edən qruplar əhatəli təqdimat hazırlayır, **məlumat mübadiləsi** və **müzakirə** aparırlar. Onuncular həcmcə kiçik, üslubca aydın olan bu lirik şeirin üzərində işləməkdə ciddi çətinlik çəkmirlər. Nəticədə şairin Azərbaycan dilinin zəngin imkanlarından ustalıqla bəhrələndiyini, sözlə gözəl bədii lövhələr yaratdığını nümunələrlə əsaslandırmağı bacarırlar.

**Nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması** mərhələsində müəllimin istiqamətləndirici sualları şagirdlərin daha fəal olmasına imkan yaradır. Nəticənin əsasında belə bir fikir dayanır ki, Vaqif insanın həqiqi gözəlliyini onun mənəvi, əqli və zahiri keyfiyyətlərinin vəhdətində görür. "Pəri" qoşmasında insan gözəlliyi və bu gözəlliyin doğurduğu heyranlıq, fərəh hissi heyrətamiz sənətkarlıqla ifadə edilmişdir. Bütün bunlar şeirdən iki bəndin ifadəli oxusuna imkan yaradır. Heca vəznli şeirlərin oxu xüsusiyyətləri müsahibə ilə xatırladıldıqdan sonra ifalar dinlənilir və onlara münasibət bildirilir.

LAYİHƏ

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə müəyyənləşdirilmiş meyarlar əsasında aparılır.

*Qiymətləndirmə meyarları:*

İfadəlioxuma
Müqayisəetmə
Təhliletmə
Aydınlaşdırma, münasibətbildirmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| İfadəli oxunu şeirin emosional-obrazlı qavranılması və təhlili vastəsi kimi tətbiq etməkdə çətinlik çəkir. | İfadəli oxunu şeirin emosional-obrazlı qavranılması və təhlili vastəsi kimi müəllimin köməyi ilə tətbiq edir. | İfadəli oxunu şeirin emosional-obrazlı qavranılması və təhlili vastəsi kimi əsasən tətbiq edir. | İfadəli oxunu şeirin emosional-obrazlı qavranılması və təhlili vastəsi kimi tətbiq edir. |
| Qoşmanı janr və dil baxımından qəzəllə müqayisə etməkdə çətinlik çəkir. | Qoşmanı janr və dil baxımından qəzəllə müəllimin köməyi ilə müqayisə edir. | Qoşmanı janr və dil baxımından qəzəllə, əsasən, müqayisə edir. | Qoşmanı janr və dil baxımından qəzəllə müqayisə edir. |
| Davranış və əməllərindən çıxış etməklə lirik qəhrəmanı təhlil etməkdə çətinlik çəkir. | Davranış və əməllərindən çıxış etməklə lirik qəhrəmanı qismən təhlil edir. | Davranış və əməllərindən çıxış etməklə lirik qəhrəmanı, əsasən, təhlil edir. | Davranış və əməllərindən çıxış etməklə lirik qəhrəmanı təhlil edir. |
| Şeirdəki məcazların obrazlılığın yaradılmasındakı rolunu aydınlaşdırmaqda və münasibət bildirməkdə çətinlik çəkir. | Şeirdəki məcazların obrazlılığın yaradılmasındakı rolunu müəllimin köməyi ilə aydınlaşdırır, münasibət bildirməkdə çətinlik çəkir. | Şeirdəki məcazların obrazlılığın yaradılmasındakı rolunu, əsasən, aydınlaşdırır və münasibət bildirir. | Şeirdəki məcazların obrazlılığın yaradılmasındakı rolunu aydınlaşdırır və münasibət bildirir. |

Müəllim dərslikdəki “Evdə iş” başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.



LAYİHƏ

## ÜÇÜNCÜ BÖLMƏ ÜZRƏ
## KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ

*Qiymətləndirmə M.V.Vidadinin "Könlümü..." əsəri üzrə aparıla bilər.*

### Molla Vəli Vidadi
### Könlümü...

Ey həmdəmim, səni qanə qərq eylər,
Gəl tərpətmə yaralanmış könlümü.
Ayrı düşmüş vətənindən, elindən,
Həmdərdindən aralanmış könlümü.

Könül verdik hər bivəfa yadlara,
Hayıf oldu, ömür getdi badlara,
Fələk saldı dürlü-dürlü odlara
Şan-şan olmuş, paralanmış könlümü.

Qanlı yaşım gündən-günə bollandı,
Axdı-axdı, sinəm üstə gölləndi,
Yenə qəm səməndin mindi, yollandı,
Heç bilmədim bərələnmiş könlümü.

Gözüm yaşı gündən-günə fərq etsə,
Eyb etməyin, məni qanə qərq etsə,
Rövşən etməz yüz min günəş bərq etsə,
Bu möhnətdə qaralanmış könlümü.

Vidadi xəstəyəm, çeşmi mərdümü,
Tərk elədim vətənimi, yurdumu,
Çox təbibə şərh elədim dərdimi,
Heç görmədim çaralanmış könlümü.



LAYİHƏ

## QİYMƏTLƏNDİRMƏ ÜÇÜN TÖVSİYƏ OLUNAN SUAL VƏ TAPŞIRIQLAR

1. Şeir hansı mövzuda yazılmışdır? Fikrinizi əsaslandırın.

2. Şeirdə tanış olmayan sözlərin mənasını aydınlaşdırın, alınma, yaxud dilimizə aid olduğunu əsaslandırın.

3. Şeirdə işlənmiş məcazları və onların növünü müəyyənləşdirib qısaca yazın.

4. Şeirdə bədiiliyin, obrazlılığın artmasına məcazların təsirini aydınlaşdırıb yığcam yazın.

5. Lirik qəhrəmanın şikayətlənməsinə səbəb nədir? Fikrinizi təsdiq edən nümunələr göstərin.



LAYİHƏ

6. Lirik qəhrəmanın hiss və düşüncələri şeirdə uğurla ifadə edilmişdirmi? Bunun üçün hansı vasitələrdən istifadə olunmuşdur?

7. Şeir hansı vəzndə yazılmışdır? Fikrinizi təsdiq edən nümunələr göstərin.

8. Şeirin janrını müəyyənləşdirin. Fikrinizi nümunələrlə əsaslandırın.

9. Şeiri digər vəzndə yazılmış bir əsərlə janr və dil baxımından müqayisə edin. Müqayisəni hər iki əsərdən nümunələr göstərməklə aparın.

10. M.V. Vidadinin "Könlümü" şeirində başlıca fikir, sizcə, nədir? Fikrinizi təsdiq edən nümunələr göstərin.

LAYİHƏ

# Azərbaycan ədəbiyyatında maarifçi realizm dövrü

## **Maarifçi-realist ədəbiyyatı** – 1 saat

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **2.1.1.** Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla təqdimat və çıxışlarında obrazlı ifadələrdən istifadə edir. | • Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla mövzu, problemlə bağlı təqdimat və çıxışlarında obrazlı ifadələrdən istifadə edir. |
| **2.2.1.** Müzakirələrdə mövzuya, problemə, yazıçı mövqeyinə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. | • Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. |

### Dərsin gedişi

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi Vaqifin "Pəri" qoşması ilə bağlı mənbələrdən əldə edilmiş məlumat əsasında hazırlanmış təqdimatların, şagirdlərin ifadəli oxusunun seçmə yolla dinlənilməsi, müzakirə edilməsi əsasında müəyyənləşdirilir. Müvafiq qiymətləndirmə meyarlarına müraciət edilir.

Mövzu üzrə işə şagirdlərin ədəbiyyat tarixinin bu dövrü barədəki məlumatlarının aşkara çıxarılması ilə başlanılır. Dərslikdəki sual: *"XIX yüzillikdə Azərbaycan ədəbiyyatı, onun tanınmış nümayəndələrinin yaradıcılığı haqqında ədəbiyyat dərslərində öyrəndiklərinizi yada salıb yığcam müzakirə aparın"* xatırladılır. Müzakirədə müəllim istiqamətləndirici suallardan istifadə edir. Şagirdlər VIII sinifdə XIX əsr ədəbiyyatı ilə bağlı öyrəndiklərini, tarix dərslərindən mənimsədiklərini xatırlamaqla müzakirədə fəallıq göstərirlər. Dövrün, sosial-siyasi, ədəbi-mədəni vəziyyəti, Q. Zakir, Aşıq Ələsgər və S.Ə. Şirvaninin səkkizinci sinifdə öyrənilmiş əsərləri barədə fikirlər səsləndirilir. Azərbaycan ədəbiyyatı tarixinin bu dövrü ilə bağlı şagirdləri maraqlandıran məsələlər ortaya çıxır. Bütün bunlar araşdırılacaq problemin müəyyənləşdirilməsi ilə yekunlaşdırılır: *Azərbaycan ədəbiyyatı tarixində XIX əsrin rolu necə dəyərləndirilməlidir?*

Problemin araşdırılmasını fərqli variantlarda təşkil etmək olar. Dərslikdə təklif edilmiş tapşırıq əsas götürülərsə, mətnkənarı sualların sayı qədər kiçik qruplar (qrupların sayı çox olarsa, bir sualın üzərində iki qrup işləyə bilər) yaradılır. Sualların cavabı – dərslikdəki mətn oxunur. Cavablarda daha mühüm olunanlar, onlara nələri əlavə etməyin vacib olduğu qısaca qeyd edilir. Təddqiqatçıların (F.Qasımzadə, İ.Həbibbəyli) fikirləri ilə tanış olan şagirdlər icra etdikləri işlərin nəticələri ilə bağlı hazırladıqları təqdimat əsasında məlumat mübadiləsi və müzakirə aparırlar.

Problemin araşdırılmasının digər bir variantı dərslikdəki sualların *(XIX əsr ədəbiyyatımızın inkişafına hansı ictimai-siyasi və ədəbi-mədəni amillər təsir göstərmişdir? XIX əsr ədəbiyyatında ilk maarifçilik ideyaları hansı xüsusiyyətləri ilə diqqəti cəlb edir? XIX əsr poeziyasının mövzu, ideya-məzmun özəlliyi*

LAYİHƏ

*hansılardır? Realist ədəbiyyat hansı bədii formalarda yaradılırdı?*) cavablarının oxusu ilə başlanır. Mətnin oxusunu fərqli formalarda həyata keçirmək mümkündür. Vaxta qənaət baxımından sualların hərəsini bir qrupa təklif etmək olar. Oxu prosesində şagirdlərin əlavə ədəbiyyatdan istifadə etmələrinə şərait yaradılır. Dərslikdəki mətn, təbiidir ki, sualların cavabını bütünlüklə əhatə etmir, məhz buna görə də müstəqil tədqiqat zamanı sinifdə öyrəndiklərinə nələri əlavə edəcəklərini şagirdlər tam aydınlığı ilə təsəvvür etməlidirlər. Məsələn, müəllimin istiqamətləndirməsi sayəsində şagirdlərə məlum olur ki, ikinci sualla *(XIX əsr ədəbiyyatında ilk maarifçilik ideyaları hansı xüsusiyyətləri ilə diqqəti cəlb edir?)* bağlı mənbələrdən daha çox aşağıdakı məlumatlar mənimsənilməli və dəyərləndirilməlidir:

– maarifçiliyin ilk əlirtilərinin bədii ədəbiyyatda özünü göstərməsi;
– ilk maarifçilərin yeni realist ədəbiyyatın yaranması üçün cığır açması.

Yaxud üçüncü sualla *(XIX əsr poeziyasının mövzu, ideya-məzmun özəlliyi hansılardır?)* bağlı mənbələrdən aşağıdakı məzmunda məlumatın əldə edilməsi və qiymətləndirilməsi məqsədəuyğundur:

– şifahi xalq ədəbiyyatının janrlarının zənginləşməsi;
– aşıq şeiri tərzində yazan istedadlı sənətkarların yetişməsi;
– ilahi eşqi tərənnüm edən şeirlərin bu dövrdə də yaranması;
– təriqətçiliyi təbliğ edən şeirlərin yazılması;
– satiranın güclənməsi, ictimai məzmun qazanması;

Sualların kiçik qruplara həvalə edilməsi təqdimatlar əsasında fikir mübadiləsi və müzakirənin aparılmasını zəruri edir; bu, qrupların bir-birinin işi ilə tanış olmalarını təmin edir. Lakin oxunu fərqli şəkildə təşkil etməklə müzakirənin *diskussiya* səciyyəli olmasına nail olmaq mümkündür. Məsələn, İNSERT metodunu tətbiq edən müəllim mətnin fərdi olaraq oxunmasını təşkil edir. Oxuya ayrılan vaxt başa çatdıqdan sonra şagirdlərə cütlük şəklində fikir mübadiləsi aparmaq təklif edilir. Yalnız bundan sonra araşdırılan problemlə bağlı diskussiya aparılır. Bu prosesdə şagirdlərin hamısının iştirak etməsi, obrazlı ifadələrdən necə istifadə etmələri, fərqli fikirlərə münasibətdə nümayiş etdirdikləri mövqe və s. diqqət mərkəzində saxlanılır.

Oxunun hansı formada aparılmasından asılı olmayaraq, **nəticənin** çıxarılması, **ümumiləşdirmənin** aparılması vacibdir. Çıxarılmış nəticənin problemə hansı dərəcədə aydınlıq gətirdiyi ön plana çəkilməlidir. Lakin unudulmamalıdır ki, şagirdlər mənbələr üzərində işləyərkən cavabları daha mükəmməl məzmun alacaq, gəldikləri nəticələr daha dolğun olacaqdır. Müəllim növbəti dərsdə – ev tapşırığı ilə bağlı aparılan işdə məsələnin üzərinə qayıdılacağını şagirdlərə bir daha xatırladır.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə müəyyənləşdirilmiş meyarlar əsasında aparılır.

*Qiymətləndirmə meyarları:*

İstifadəetmə

Əsaslandırma, nümayişetdirmə



LAYİHƏ

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla mövzu, problemlə bağlı təqdimat və çıxışlarında obrazlı ifadələrdən istifadə etməkdə çətinlik çəkir. | Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla mövzu, problemlə bağlı təqdimat və çıxışlarında suallar və müəllimin köməyi ilə obrazlı ifadələrdən istifadə edir. | Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla mövzu, problemlə bağlı təqdimat və çıxışlarında, əsasən, obrazlı ifadələrdən istifadə edir. | Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla mövzu, problemlə bağlı təqdimat və çıxışlarında obrazlı ifadələrdən istifadə edir. |
| Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırmaqda, fərqli fikirlərə dözümlülük nümayiş etdirməkdə çətinlik çəkir. | Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini suallar və müəllimin köməyi ilə əsaslandırır, fərqli fikirlərə qismən dözümlülük nümayiş etdirir. | Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə, əsasən, dözümlülük nümayiş etdirir | Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. |

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **Qasım bəy Zakirin həyatı, yaradıcılıq yolu** – 1 saat

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **2.1.1.** Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla təqdimat və çıxışlarında obrazlı ifadələrdən istifadə edir. | • Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla mövzu, problemlə bağlı təqdimat və çıxışlarında obrazlı ifadələrdən istifadə edir. |
| **2.2.1.** Müzakirələrdə mövzuya, problemə, yazıçı mövqeyinə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. | • Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi müəyyənləşdirilərkən mənbələrdən əldə edilmiş məlumat əsasında hazırlanmış təqdimatların, eləcə də "Rəşid bəy və Səadət xanım" hekayəsinin mövzusu, onda qoyulmuş problemlə bağlı çıxarılmış nəticələrin müzakirə edilməsi məqsədəuyğundur. Müvafiq qiymətləndirmə meyarlarına müraciət edilir.

**Motivasiya, problemin qoyuluşu** mərhələsində Şuşa erməni işğalçılarından azad edildikdən sonra şairin məzarının tapılması ilə bağlı video-süjetin nümayiş etdirilməsi məqsədəuyğundur.
(https://nocomment.az/herbcilerimiz-susada-daha-iki-edibimizin-mezarini-tapdilar-video/?fbclid=IwAR08Au-FW8ABTsfmRhvddBvlps28p1Dxqs9FpSR91hB2IDmkIlnJPV_r5v8)

LAYİHƏ

Müzakirəyə Q.Zakir barədə məlumatların aşkara çıxarılması ilə başlanılır. Şagirdlərin diqqəti dərslikdəki *"Q. Zakir barədə bildiklərinizi yada salıb yığcam müzakirə edin"* tapşırığına cəlb edilir. Müəllim şagirdləri şairlə bağlı biliklərini, onun aşağı sinifdə öyrənilən əsərlərini ("Durnalar", "Vilayətin məğşuşluğu haqqında") xatırlamağa istiqamətləndirir. Bu, müzakirənin təşkilinə imkan verir. Bu prosesdə Q. Zakirin şəxsiyyəti, yaradıcılığı ilə bağlı yeni suallar, şagirdləri düşündürən məsələlər ortaya çıxır. Beləliklə, araşdırılacaq **problem, tədqiqat sualı** şəklində müəyyənləşir: *Q.Zakirin ədəbiyyatımızın parlaq simalarından birinə çevrilməsinə səbəb nədir?*

**Araşdırmanın** bir variantı dərslikdə verilmiş tapşırığın yerinə yetirilməsi ola bilər. Şagirdlər Q.Zakirin həyatı, yaradıcılıq yolu haqqında mətni fərdi olaraq nəzərdən keçirir, mətnkənarı sualların cavablarında daha mühüm hesab etdiklərini qısaca qeyd edir. Şagirdlər mətnin məzmunu ilə bağlı onları düşündürən sualları dəftərlərində və ya iş vərəqlərində qeyd edir. Həmin sualların cavabları yığcam şəkildə cədvəldə yazılır. Hər şagird öz cavablarını parta yoldaşına danışır. Kiçik qruplarda birləşən şagirdlər qənətlərini bölüşür. Kiçik qrupların gəldiyi nəticələr, təkliflər təqdimatlar əsasında müzakirə edilib bəndlər şəklində yazılır. Digər variant aşağıdakı şəkildə ola bilər. Araşdırmaya dərslikdəki sualların *(Zakirin həyatı, yaradıcılığı üçün səciyyəvi olanlar nədir? Zakirin mənzum hekayə və təmsillərini səciyyələndirən başlıca cəhətlər hansılardır? Şair əsərlərində bədiiliyə necə nail olmuşdur?)* aydınlaşdırılmasına istiqamət verən mətnin oxusu ilə başlanılır. Mətnin oxusunu fərqli şəkillərdə təşkil etmək olar.

Mətn Q. Zakirin həyatı ilə bağlı əsas faktları əks etdirməklə yanaşı, buradakı məlumatların dərinləşdirilməsinə də maraq oyadır. Bəy nəslindən olan Zakirin hakim təbəqəyə mənfi münasibətinin və sürgün olunmasının səbəbləri, dostluq etdiyi məşhur müasirləri, şairlə bağlı xatirələr və s. barədə geniş təsəvvür qazanmaq istəyi şagirdləri mənbələri diqqətlə öyrənməyə, araşdırma aparmağa sövq edir.

Dərslikdəki mətnin fərdi oxusu prosesində şairin əsərlərindən nümunələrə baxılması təmin edilir. Bu, xüsusən ikinci və üçüncü suallara (*Zakirin mənzum hekayə və təmsillərini səciyyələndirən başlıca cəhətlər hansılardır? Şair əsərlərində bədiiliyə necə nail olmuşdur?)* verilən ilkin cavabın tutumlu olması baxımından əhəmiyyətlidir.

Şairin yaradıcılığı ilə bağlı verilmiş yığcam məlumat şagirdləri əlavə təhlilə və şairin yaradıcılığı ilə əhatəli tanış olmağa həvəsləndirir. Müəllim münasib hesab etdiyi şeirləri müstəqil oxumağı, həmin nümunələrin əsasında şairin yaradıcılıq xüsusiyyətlərini sərbəst şərh etməyə hazırlaşmağı şagirdlərə tövsiyə edə bilər.

Oxuya ayrılan vaxt başa çatdıqdan sonra şagirdlər müəllimin təklifi ilə kiçik qruplarda birləşərək qənaətlərini bölüşürlər. Sonrakı mərhələ təqdimatlar əsasında **məlumat mübadiləsi** və **müzakirənin** aparılması olur. Bu mərhələdə şagirdlərin nitqinin formasına, problemə və fərqli fikirlərə münasibətlərinə xüsusi diqqət yetirilir.

**Nəticə** və **ümumiləşdirmə** müəllimin istiqamətləndirici suallarının tətbiqi ilə həyata keçirilir. Şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, Zakirin həm klassik, həm də xalq yaradıcılığı üslubunda yazdığı əsərlər ideya-məzmununa, bədii



LAYİHƏ

keyfiyyətlərinə görə ədəbiyyatımızın dəyərli nümunələridir. Onun yaradıcılığı bir də onunla əhəmiyyətlidir ki, ədəbiyyatımızın sonrakı inkişafında əhəmiyyətli rol oynamışdır.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə müəyyənləşdirilmiş meyarlar əsasında aparılır.

*Qiymətləndirmə meyarları:*

İstifadəetmə

Əsaslandırma, nümayişetdirmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla mövzu, problemlə bağlı təqdimat və çıxışlarında obrazlı ifadələrdən istifadə etməkdə çətinlik çəkir. | Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla mövzu, problemlə bağlı təqdimat və çıxışlarında suallar və müəllimin köməyi ilə obrazlı ifadələrdən istifadə edir. | Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla mövzu, problemlə bağlı təqdimat və çıxışlarında, əsasən, obrazlı ifadələrdən istifadə edir. | Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla mövzu, problemlə bağlı təqdimat və çıxışlarında obrazlı ifadələrdən istifadə edir. |
| Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırmaqda, fərqli fikirlərə dözümlülük nümayiş etdirməkdə çətinlik çəkir. | Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini suallar və müəllimin köməyi ilə əsaslandırır, fərqli fikirlərə qismən dözümlülük nümayiş etdirir. | Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə, əsasən, dözümlülük nümayiş etdirir. | Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. |

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

### *Mövzu:* Qasım bəy Zakir. Badi-səba, mənim dərdi-dilimi... – 2 saat
### *Birinci saat:* Məzmun üzrə iş

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.1.1.** Müxtəlif vəznli şeirlərdə (heca, əruz, sərbəst) və süjetli əsərlərdə (dastan, poema, hekayə, povest, roman, dram, komediya, faciə) tanış olmayan sözlərin mənasını mənşəyinə və işlənmə məqamına görə izah edir. | • Şeirdə tanış olmayan sözlərin mənasını mənşəyinə və işlənmə məqamına görə izah edir. |
| **1.1.5.** Müxtəlif vəznli (heca, əruz) şeirlərdə, mürəkkəb süjet və kompozisiyalı bədii nümunələrdə bədii təsvir və ifadə vasitələrini (epitet, bənzətmə, metafor, metonimiya, simvol, mübaliğə, litota, bədii sual, təkrir, bədii təzad, inversiya) müəyyənləşdirir. | • Şeirdə məcazları müəyyənləşdirir. |



LAYİHƏ

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi müxtəlif metodların (müsahibə, müzakirə, təqdimatların dinlənilməsi və s.) tətbiqi ilə müəyyənləşdirilə bilər. Şagirdlərin hansı mənbələrdən və necə bəhrələndikləri aydınlaşdırılır, müvafiq qiymətləndirmə meyarlarına müraciət olunur.

– **Motivasiya, problemin qoyuluşu.** Bu mərhələdə işi fərqli məzmunda təşkil etmək olar. Dərslikdəki sualdan (*Q.Zakirin saf məhəbbətə həsr olunmuş lirik şeirlər yazmasına səbəb, sizcə, nədir?)* istifadə edən müəllim şagirdlərin diqqətini məhəbbət mövzusunda öyrəndikləri, oxuduqları lirik şeirlərə cəlb edir. Onların ideya-məzmunu ilə bağlı aparılan yığcam müsahibənin sonunda tədqiqat sualı müəyyənləşdirilir.

**Tədqiqat sualı:** *Aşiqanə-lirik şeirlərdə ideya-məzmun baxımından hansı ortaq cəhətlər ola bilər?*

Fərziyyələr dinlənilir və qeyd edilir.

Tədqiqata əsərin fərdi oxusu ilə başlanılır. Oxuya başlamazdan əvvəl əsərdə tanış olmayan sözlərin mənasını, izahına ehtiyac duyduqları misra və bəndlərin qeyd etmələri, məcazları, hansı mənəvi-əxlaqi dəyərlərə önəm verildiyini müəyyənləşdirməli olduqları şagirdlərə xatırladılır. Oxuya ayrılan vaxt başa çatdıqdan sonra şagirdlərin kiçik qruplarda birləşərək fikir mübadiləsi aparmalarına, izahına ehtiyac duyduqları misra və bəndlərlə bağlı yaranan çətinlikləri müzakirə etmələrinə imkan yaradılır.

Bu, şagirdlərə əsərlə bağlı təəssürat və düşüncələrini sərbəst əks etdirmək imkanı verir. İşin icrası üçün ayrılan vaxt bitdikdən sonra qrup təqdimatları əsasında **məlumat mübadiləsi** və **müzakirə** aparılır. Müəllim tanış olmayan sözlərin necə aydınlaşdırıldığına, məcazların hansı səviyyədə müəyyənləşdirildiyinə, onlardan nə cür istifadə olunduğuna, əsərdə önəm verilən mənəvi-əxlaqi dəyərlər barədə mülahizələrə diqqət yetirir, qüsurların, səhvlərin yerindəcə düzəldilməsinə şərait yaradır.

Müəllimin istiqamətləndirici sualları əsaslandırılmış **nəticənin** çıxarılmasına, **ümumiləşdirmənin** aparılmasına səbəb olur. Şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, məhəbbət mövzusunda yazılmış şeirlərdə oxşar cəhətlər çox olur. Bu şeirlərdə aşiq – lirik qəhrəman məhəbbəti yolunda hər əzaba dözür, sədaqətli və səmimi olması ilə oxucunun rəğbətini qazanır. O, nikbindir, bəxtinin nə vaxtsa, üzünə güləcəyinə inanır. Məşuq obrazının soyuq, hətta laqeyd münasibəti şeirin məzmunundan – aşiqin dediklərindən aydınca duyulur.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə müəyyənləşdirilmiş meyarlar əsasında aparılır.

*Qiymətləndirmə meyarları:*

İzahetmə

Müəyyənləşdirmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|



LAYİHƏ

| | | | |
|---|---|---|---|
| Tanış olmayan sözlərin mənşəyinə və işlənmə məqamına görə mənasını izah etməkdə çətinlik çəkir. | Tanış olmayan sözlərin mənşəyinə və işlənmə məqamına görə mənasını suallar verməklə, kömək əsasında izah edir. | Tanış olmayan sözlərin mənşəyinə və işlənmə məqamına görə mənasını, əsasən, izah edir. | Tanış olmayan sözlərin mənşəyinə və işlənmə məqamına görə mənasını izah edir. |
| Şeirdə məcazları müəyyənləşdirməkdə çətinlik çəkir. | Şeirdə məcazları suallar verməklə və kömək əsasında müəyyənləşdirir. | Şeirdə məcazları, əsasən, müəyyənləşdirir. | Şeirdə məcazları müəyyənləşdirir. |

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **Qasım bəy Zakir. Badi-səba, mənim dərdi-dilimi...** – 2 saat
*İkinci saat:* **Təhlil üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.1.2.** İfadəli oxudan müxtəlif ədəbi növdə olan əsərlərin emosionalobrazlı qavranılması, təhlili məqsədi ilə istifadə edir. | • İfadəli oxudan şeiri emosional-obrazlı qavramaq və təhlil məqsədi ilə istifadə edir. |
| **1.2.1.** Müxtəlif vəznli şeirləri (heca, əruz, sərbəst) və süjetli bədii nümunələri (dastan, poema, hekayə, povest, roman, dram, komediya, faciə) janr, dil baxımından müqayisə edir. | • Qoşmanı janr və dil baxımından sərbəst şeirlə müqayisə edir. |
| **1.2.2.** Davranış və əməllərinə, başqaları ilə qarşılıqlı münasibətlərinə, yazıçının mövqeyinə, digər surətlərin mühakimələrinə əsaslanmaqla obrazları təhlil edir. | • Davranış və əməllərindən çıxış etməklə lirik qəhrəmanı təhlil edir. |
| **1.2.3.** Müxtəlif vəznli (heca, əruz, sərbəst) şeirlərdə, süjetli ədəbi nümunələrdə bədii təsvir və ifadə vasitələrinin obrazlılığın yaradılmasındakı rolunu aydınlaşdırır və münasibət bildirir. | • Şeirdəki məcazların obrazlılığın yaradılmasındakı rolunu aydınlaşdırır və münasibət bildirir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilməsi və ya müsahibə yolu ilə müəyyənləşdirilə bilər. Müəllim bu prosesdə müvafiq qiymətləndirmə meyarlarına müraciət edir.

**Motivasiya, problemin qoyuluşu.** Motivasiyanın yaradılmasına fərqli yollarla nail olmaq mümkündür. Suallardan istifadə yolu ilə motivasiya yaratmağı qarşısına məqsəd qoyan müəllim yığcam müsahibə *(Qoşma ilə bağlı bütün məsələlər bizə aydındırmı? Şeirlə bağlı daha nəyi bilmək istərdiniz?* kimi sualların əsasında) apara bilər. Müsahibə tədqiqat sualının müəyyənləşdirilməsi ilə başa çatır.



LAYİHƏ

**Tədqiqat sualı:** *"Badi-səba, mənim dərdi-dilimi..." qoşmasında başlıca fikir nədən ibarətdir?*

Fərziyyələr dinlənilir və qeyd edilir.

Problemin araşdırılmasına dərslikdəki mətnin oxusu ilə başlanılır. Mətn yığcam şəkildə *"Qoşmanın mövzu və ideyası nədir?", "Aşiq hansı səciyyəvi xüsusiyyətləri ilə diqqəti cəlb edir?", "Qoşmanın bədii keyfiyyətini artıran vasitələr hansılardır?"* suallarının aydınlaşdırılmasına istiqamət verir. Oxu fərqli şəkillərdə reallaşdırıla bilər. Hər mətnkənarı sualı bir qrupa təqdim etməklə oxunu təşkil etmək olar. Qrupların sayının çox olduğu təqdirdə bir sualın üzərində iki qrup işləəyə bilər. Bu, vaxta qənaət baxımından faydalıdır. Qoşmanın məzmununun ətraflı öyrənilməsi, irəlicədən qazanılmış bilik və bacarıqlar suallara ilkin cavabların hazırlanmasına imkan verir. Lakin şagirdlərə aydın olur ki, araşdırmanın mənbələr əsasında davam etdirilməsi vacibdir.

Oxu prosesində qoşmaya yenidən müraciət olunur, onun bədiiliyini təmin edən vasitələrin konkret nümunələr əsasında aydınlaşdırılmasına diqqət yetirilir. Aşiq obrazının nitqi üçün səciyyəvi olanları müəyyənləşdirən şagirdlər mətndən nümunələr seçirlər.

Araşdırma aparan şagirdlər üzərində işlədikləri suallarla tədqiqat sualının əlaqəsini aydın təsəvvür etməlidirlər. Bu da unudulmamalıdır ki, dərslikdəki hər üç sualın arasında qarşılıqlı əlaqə vardır. Məsələn, şeirin mövzu və ideyasının aydınlaşdırılması lirik qəhrəman obrazının başa düşülməsi üçün zəmin olur və əksinə, aşiq obrazının əhatəli təhlili ideyanın dərk edilməsini asanlaşdırır. Eləcə də aşiq obrazının səciyyələndirilməsi, nitqi üçün mühüm olanların aşkara çıxarılması şeirin bədii xüsusiyyətlərinin başa düşülməsinə və izahına əhəmiyyətli dərəcədə təsir edir.

İşin icrasına ayrılan vaxt başa çatdıqdan şeirin ifadəli oxusu üçün hazırlıq aparılır. Dərslikdəki tövsiyədə ilk iki bəndin üzərində işin aparılması məqsədəuyğun sayılmışdır. Lakin vaxt imkanı nəzərə alınaraq bəndlərin sayı çoxaldıla da bilər. Hazırlıq işləri aparılarkən heca vəznli şeirlərin oxu xüsusiyyətləri diqqət mərkəzində saxlanılır. Oxunacaq mətni dəftərlərinə köçürən şagirdlər ifaçılıq vəzifəsini, ayrı-ayrı misraların oxusunda səsin aldığı çalarları, məntiqi vurğulu sözləri, səs tonunun dəyişdiyi məqamları qeyd edirlər.

Qoşmanı janr və dil baxımından sərbəst şeirlə müqayisə etmək şagirdlər üçün ciddi çətinlik törətmir. Onların qafiyə sisteminə, sözlərin seçiminə xalq dilinə yaxınlığına və s. diqqət yetirməyin vacib olduğu xatırladılır.

Dərsdə icra olunmuş bütün işlərin nəticələri barədə qrup təqdimatları əsasında fikir mübadiləsi və müzakirə aparılır. Bu mərhələdə şagirdlərin ifadəli oxusunun dinlənilməsi və müzakirə edilməsinə vaxt ayrılır.

Müəllimin istiqamətləndirici sualları əsaslandırılmış **nəticələrin** çıxarılmasına, **ümumiləşdirmənin** aparılmasına səbəb olur. Şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, şairin başlıca niyyəti həqiqi aşiq obrazı yaratmaq olmuş, onu sədaqətli, vəfalı, nəcib, saf hiss və düşüncə sahibi kimi səciyyələndirmək istəmişdir. Bu, şeirdə inandırıcı, həm də yüksək bədiiliyə nail olunmaqla ifadə edilmişdir.

Nəticələrin fərziyyələrlə müqayisə edilməsinə diqqət yetirilir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə müəyyənləşdirilmiş meyarlar əsasında aparılır.



LAYİHƏ

*Qiymətləndirmə meyarları:*
Təhliletmə
Müqayisəetmə
Aydınlaşdırma, münasibətbildirmə
Təhliletmə, nəticəçıxarma
İstifadəetmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Lirik qəhrəmanı davranış və əməllərinə əsaslanmaqla təhlil etməkdə çətinlik çəkir. | Lirik qəhrəmanı davranış və əməllərinə əsaslanmaqla qismən təhlil edir. | Lirik qəhrəmanı davranış və əməllərinə əsaslanmaqla, əsasən, təhlil edir. | Lirik qəhrəmanı davranış və əməllərinə əsaslanmaqla təhlil edir. |
| Qoşmanı janr və dil baxımından sərbəst şeirlə müqayisə etməkdə çətinlik çəkir. | Qoşmanı janr və dil baxımından sərbəst şeirlə müəllimin köməyi ilə müqayisə edir. | Qoşmanı janr və dil baxımından sərbəst şeirlə, əsasən, müqayisə edir. | Qoşmanı janr və dil baxımından sərbəst şeirlə müqayisə edir. |
| Şeirdəki məcazların obrazlılığın yaradılmasındakı rolunu aydınlaşdırmaqda və münasibət bildirməkdə çətinlik çəkir. | Şeirdəki məcazların obrazlılığın yaradılmasındakı rolunu müəllimin köməyi ilə aydınlaşdırmaqda və münasibət bildirməkdə çətinlik çəkir. | Şeirdəki məcazların obrazlılığın yaradılmasındakı rolunu, əsasən, aydınlaşdırır və münasibət bildirir. | Şeirdəki məcazların obrazlılığın yaradılmasındakı rolunu aydınlaşdırır və münasibət bildirir. |
| İfadəli oxudan şeiri emosional-obrazlı qavramaq və təhlil məqsədi ilə istifadə etməkdə çətinlik çəkir. | İfadəli oxudan suallar verməklə və müəllimin kö.məyi ilə şeiri emosional-obrazlı qavramaq və təhlil məqsədi ilə istifadə edir. | İfadəli oxudan şeiri əsasən emosional-obrazlı qavramaq və təhlil məqsədi ilə istifadə edir. | İfadəli oxudan şeiri emosional-obrazlı qavramaq və təhlil məqsədi ilə istifadə edir. |

Müəllim dərslikdəki “Evdə iş” başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **Mirzə Fətəli Axundzadənin həyatı, yaradıcılıq yolu** – 1 saat

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **2.1.1.** Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla təqdimat və çıxışlarında obrazlı ifadələrdən istifadə edir. | • Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla mövzu, problemlə bağlı təqdimat və çıxışlarında obrazlı ifadələrdən istifadə edir. |
| **2.2.1.** Müzakirələrdə mövzuya, problemə, yazıçı mövqeyinə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. | • Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. |



LAYİHƏ

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilməsi və müzakirəsi əsasında müəyyənləşdirilə bilər. Mənbələrdən əldə edilmiş məlumatın məzmunu və nə dərəcədə məqsədəuyğun olması diqqət mərkəzində saxlanılır, müvafiq qiymətləndirmə meyarlarına müraciət edilir.

Müzakirəyə şagirdlərin mövzu ilə bağlı mövcud biliklərinin aşkara çıxarılması ilə başlanılır. Bu məqsədlə dərslikdəki tapşırığa (*M.F.Axundzadə ilə bağlı bildiklərinizi yada salıb yığcam müzakirə aparın*) müraciət edilir. İnternet vasitəsi ilə *(https://www.youtube.com/watch? v=a XHnIawJ6Rs)* *"Mirzə Fətəli Axundov"* və ya *"Sübhün səfiri"* filmlərindən ədibin həyat və yaradıcılığı ilə bağlı səciyyəvi səhnənin nümayiş etdirilməsi müzakirənin maraqlı keçməsinə əhəmiyyətli təsir edir.

Müzakirə M.F.Axundzadə ilə bağlı şagirdləri maraqlandıran məqamların meydana çıxmasına səbəb olur. Araşdırılacaq **problem** şagirdlərin fəal iştirakı ilə sual şəklində ifadə edilir: *Mirzə Fətəli Axundzadənin ədəbi-bədii fəaliyyəti hansı cəhətləri ilə önəmlidir?*

Dərslikdəki mətnkənarı sualların (*M.F.Axundzadənin həyatı və yaradıcılığı üçün daha səciyyəvi olanlar nədir? M.F.Axundzadənin şeirləri və poeması hansı xüsusiyyətləri ilə diqqəti cəlb edir? Ədibin komediyalarında diqqət daha çox hansı problemlərə cəlb edilmişdir?)* sayı qədər kiçik qruplar yaradılır. Qruplar onlara təklif edilmiş sualların dərslikdəki cavabı ilə tanış olduqdan sonra aşağıdakı işləri yerinə yetirirlər:

– İlk mətnkənarı sualın cavabını əhatə edən parçanı qrupun üzvü ucadan və aydın şəkildə oxuyur.
– Mətndəki əsas fikirləri ümumiləşdirərək bir neçə cümlə ilə ifadə edir.
– Mətnə aid bir neçə sual verir. Cavablandırmada qrup üzvləri ilə yanaşı, bütün sinif itirak edir.
– Səthi qavranılmış məqamlara aydınlıq gətirməyə çalışır.
– Mətnə daha nələri əlavə etməyin lazım olduğu barədə fikrini bildirir.

Sonrakı mətnkənarı sualların cavablarını da digər qrupların şagirdləribu qayda ilə oxuduqdan sonra kiçik qrupların təqdimatları əsasında **məlumat mübadiləsi** və **müzakirə** aparılır. Bu mərhələdə müəllimin üzərinə ciddi vəzifə düşür; o, sualla bağlı mənbələrdən hansı məlumatların əldə edilməsinin əhəmiyyətli olması barədə şagirdlərdə aydın təsəvvür yaratmağa çalışır. Məsələn, mətndə qoyulmuş sualla bağlı mənbələrdə maraqlı məlumatlar var. Kiçik Fətəlinin təhsil və tərbiyəsində Axund Hacı Ələsgərin rolu, eləcə də müəllimi M.Ş.Vazehin təsiri ilə həyatının tamam başqa axara düşməsi, Tiflis mühitinin sənətkar kimi formalaşmasında əhəmiyyəti barədə mənbələrdən məlumat almağın mümkünlüyü şagirdlərin diqqətinə çatdırılır.

Eləcə də ədibin yaradıcılığının başlıca xüsusiyyətləri, ilk əsərlərindən ictimai motivlərə daha çox diqqət yetirməsinin səbəbləri və s. barədə mənbələrdən əlavə məlumat əldə etməyin əhəmiyyəti vurğulanır.

M.F.Axundzadənin komediyalarının mövzu, ideya, problem, bədiilik baxımından təhlilinə həsr olunmuş mənbələrdən məlumat toplamaqla dərslikdəki cavabı zənginləşdirmək və tamamlamaq mümkündür. Şagirdlərə xatırladılır ki, mənbələrdən istifadə zamanı diqqətli olmalı, dərslikdə istiqamət verilmiş ən zəruri məlumatların üzərində dayanılmalıdır.

LAYİHƏ

Diqqət mərkəzində saxlanılmalı olan məsələlərdən biri də ədibin *"Aldanmış kəvakib"* povesti ilə Azərbaycan ədəbiyyatı tarixində yeni realist *bədii nəsrin* dəyərli nümunəsini yaratması, bununla da milli ədəbiyyatımızın inkişafına istiqamət verməsi barədəki məlumatın mənbələrdən istifadə ilə zənginləşdirilməsidir.

Müəllimin istiqamətləndirici sualları əsasında ilkin **nəticənin** çıxarılması, **ümumiləşdirmənin** aparılması üzrə iş aparılır.

Bu mövzunun tədrisində də dərs bütövlükdə *müzakirə* metodunun bu və ya digər formasının – *müzakirə xəritəsi, debat, akvarium* və s. tətbiqinə əsaslanmaqla təşkil edilə bilər. Bu, müəllimin məqsədindən, sinfin həmin metodlarla hansı səviyyədə tanış olmalarından asılıdır. Bütün hallarda şagirdlərin nitqinin ifadəliliyinə, araşdırılan problemə, fərqli fikirlərə münasibətlərinin aydınlaşdırılmasına diqqət yetirilir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə müəyyənləşdirilmiş meyarlar əsasında aparılır.

*Qiymətləndirmə meyarları:*
İstifadəetmə
Əsaslandırma, nümayişetdirmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla mövzu, problemlə bağlı təqdimat və çıxışlarında obrazlı ifadələrdən istifadə etməkdə çətinlik çəkir. | Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla mövzu, problemlə bağlı təqdimat və çıxışlarında suallar və müəllimin köməyi ilə obrazlı ifadələrdən istifadə edir. | Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla mövzu, problemlə bağlı təqdimat və çıxışlarında, əsasən, obrazlı ifadələrdən istifadə edir. | Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla mövzu, problemlə bağlı təqdimat və çıxışlarında obrazlı ifadələrdən istifadə edir. |
| Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırmaqda, fərqli fikirlərə dözümlülük nümayiş etdirməkdə çətinlik çəkir. | Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini suallar və müəllimin köməyi ilə əsaslandırır, fərqli fikirlərə qismən dözümlülük nümayiş etdirir. | Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə, əsasən, dözümlülük nümayiş etdirir. | Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. |

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

LAYİHƏ

*Mövzu:* **Mirzə Fətəli Axundzadə. Hekayəti-müsyö Jordan həkimi nəbatat və dərviş Məstəli şah caduküni-məşhur (ixtisarla)** – 4 saat

*Birinci saat:* **Məzmun üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.1.1.** Müxtəlif vəznli şeirlərdə (heca, əruz, sərbəst) və süjetli əsərlərdə (dastan, hekayə, povest, roman, dram, komediya, faciə) tanış olmayan sözlərin mənasını mənşəyinə və işlənmə məqamına görə izah edir. | • Komediyada tanış olmayan sözlərin mənasını mənşəyinə və işlənmə məqamına görə izah edir. |
| **1.1.5.** Müxtəlif vəznli (heca, əruz) şeirlərdə, mürəkkəb süjet və kompozisiyalı bədii nümunələrdə bədii təsvir və ifadə vasitələrini (epitet, bənzətmə, metafor, metonimiya, simvol, mübaliğə, litota, bədii sual, təkrir, bədii təzad, inversiya) müəyyənləşdirir. | • Komediyada məcazları müəyyənləşdirir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi müxtəlif yollarla aşkara çıxarıla bilər. Vaxta qənaət baxımından müsahibə və ya təqdimatların dinlənilməsi müzakirə ilə həyata keçirilə bilər. Bütün hallarda şagirdlərin mənbələrdən necə bəhrələndiyi, dərslikdəki məlumatlarla necə əlaqələndirdikləri diqqət mərkəzində saxlanılır. Bu prosesdə müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu** mərhələsini fərqli məzmunda təşkil etmək olar. Məsələn, "Sübhün səfiri" filmindən (https://www.youtube. com/ watch?v= aXHnIawJ6Rs) və ya "Dərviş Parisi partladır" filmindən komediya ilə bağlı bir səhnəni *(https://www.youtube.com/watch?v=2u_Iyi3r2yw)* nümayiş etdirməklə müzakirə aparmaq və tədqiqat sualını formalaşdırmaq mümkündür.

Suallardan istifadə yolu ilə motivasiya yaratmağı qarşısına məqsəd qoyan müəllim şagirdlərə S.Ə.Şirvaninin VIII sinifdə öyrəndikləri *"Qafqaz müsəlmanlarına xitab"* əsərini xatırlamağı təklif edir. Yığcam müsahibə ilə şairin ictimai bəlaların, mədəni geriliyin başlıca səbəbini elmsizlikdə gördüyü, yalançı dərvişlərin, "hoqqabazi-naqabillər"in yaramaz əməllərini ifşa etdiyi yada salınır. Müsahibə tədqiqat sualının müəyyənləşdirilməsi ilə başa çatır.

**Tədqiqat sualı:** *Komediya janrında yazılmış əsərdə maarifçi ideyalar necə əks etdirilə bilər?*

Fərziyyələr dinlənilir və qeyd edilir.

Müəllimin tapşırığı ilə şagirdlərin komediyadan dərslikdə verilmiş parçaların (birinci və ikinci məclisin) nəzərdən keçirilməsi ilə **tədqiqata** başlanılır. Şagirdlər dərslikdə cədvəl şəklində verilmiş tapşırıqları fərdi yerinə yetirir, tanış olmayan sözlərin mənasını, mənşəyini və məcazları fərdi olaraq müəyyənləşdirir. Oxunmuş parçalarda diqqəti daha çox cəlb edən məsələlər və bunun səbəbi ikihissəli gündəlikdə qeyd edilir, eləcə də əsərdə hansı mənəvi dəyərlərin öz əksini tapdığı ilə bağlı suala cavab hazırlanır.

Şagirdlər kiçik qruplarda hər məclisin məzmunu, sual və tapşırıqlarla bağlı bağlı qənaətlərini bölüşür, aşağıdakı sualları da əhatə etməklə təqdimata hazırlaşırlar:

LAYİHƏ

– Şərəfnisə xanımın ağlamasına səbəb nə idi?
– Şahbaz bəyin Parisə getmək niyyətinə Şəhrəbanu xanımın münasibəti necə oldu?
– Şahbaz bəy nə məqsədlə Parisə getmək istəyirdi?
– Müsyö Jordan Şahbaz bəyi Parisə aparmaq niyyətini necə izah etdi?
– Hatəmxan ağa Şahbaz bəyin səfərinə nə üçün razılıq verdi?
– Şəhrəbanu xanım Hatəmxan ağanın qərarını necə qarşıladı?

Kiçik qrupların təqdimatları əsasında **məlumat mübadiləsi və müzakirə** aparılır. Müəllim istiqamətləndirici suallardan istifadə etməklə təqdimatların fəal dinlənilməsinə, müzakirənin səmərəli keçməsinə nail olur.

Oxu ilə bağlı aparılmış işə yekun (əsərin məzmunu bütövlükdə öyrənildikdən sonra – ikinci dərs saatında nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması həyata keçirilir) vurulur.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə müəyyənləşdirilmiş meyarlar əsasında aparılır.

*Qiymətləndirmə meyarları:*
İzahetmə
Müəyyənləşdirmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Tanış olmayan sözlərin mənşəyinə və işlənmə məqamına görə mənasını izah etməkdə çətinlik çəkir. | Tanış olmayan sözlərin mənşəyinə və işlənmə məqamına görə mənasını suallar verməklə və kömək əsasında izah edir. | Tanış olmayan sözlərin mənşəyinə və işlənmə məqamına görə mənasını, əsasən, izah edir. | Tanış olmayan sözlərin mənşəyinə və işlənmə məqamına görə mənasını izah edir. |
| Komediyada məcazları müəyyənləşdirməkdə çətinlik çəkir. | Komediyada məcazları suallar verməklə və kömək əsasında müəyyənləşdirir. | Komediyada məcazları, əsasən, müəyyənləşdirir. | Komediyada məcazları müəyyənləşdirir. |

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **Mirzə Fətəli Axundzadə. Hekayəti-müsyö Jordan həkimi-nəbatat və dərviş Məstəli şah cadukünі-məşhur (ixtisarla)** – 4 saat

*İkinci saat:* **Məzmun üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.1.1.** Müxtəlif vəznli şeirlərdə (heca, əruz, sərbəst) və süjetli əsərlərdə (dastan, hekayə, povest, roman, dram, komediya, faciə) tanış olmayan sözlərin mənasını mənşəyinə və işlənmə məqamına görə izah edir. | • Komediyada tanış olmayan sözlərin mənasını mənşəyinə və işlənmə məqamına görə izah edir. |



LAYİHƏ

| | |
|---|---|
| **1.1.4.** Müxtəlif ədəbi növ və janrda olan bədii nümunələrdə əksini tapan mühüm mənəvi, əxlaqi-etik dəyərləri müəyyənləşdirir. | • Komediyada əksini tapmış mühüm mənəvi, əxlaqi-etik dəyərləri müəyyənləşdirir. |
| **1.1.5.** Müxtəlif vəznli (heca, əruz) şeirlərdə, mürəkkəb süjet və kompozisiyalı bədii nümunələrdə bədii təsvir və ifadə vasitələrini (epitet, bənzətmə, metafor, metonimiya, simvol, mübaliğə, litota, bədii sual, təkrir, bədii təzad, inversiya) müəyyənləşdirir. | • Komediyada məcazları müəyyənləşdirir. |

## Dərsin gedişi

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi yığcam müsahibə ilə aşkara çıxarılır. Komediyanın üçüncü və dördüncü məclislərin məzmununun müstəqil oxu zamanı hansı səviyyədə qavranıldığı aydınlaşdırılır. Əsərin məzmunu üzrə iş davam etdirilir. Belə ki, dərslikdə təklif edilmiş birinci tapşırıq komediyanın üçüncü və dördüncü məclislərinin məzmununun dərindən mənimsənilməsi məqsədini güdür. Şagirdlər fərdi olaraq həmin məclisləri bir daha nəzərdən keçirir, tanış olmayan sözlərin mənasını, mənşəyini, məcazları və onların növünü müəyyənləşdirirlər.. Oxunmuş parçalarda diqqəti daha çox cəlb edən məsələlər və bunun səbəbi ikihissəli gündəlikdə qeyd edilir.

Kiçik qruplarda birləşərən şagirdlər evdə oxuduqları məclislərin məzmunu, tanış olmayan sözlər və məcazlar, əsərdə diqqəti cəlb edən məsələlərlə bağlı qənaətlərini bölüşürlər. Fikir mübadiləsi qazanılmış biliklərin dəqiqləşdirilməsinə, zənginləşdirilməsinə imkan yaradır. Qruplar dərslikdə təklif edilmiş aşağıdakı sualları da əhatə etməklə təqdimata hazırlaşır:

– Şəhrəbanu xanım Şahbazı səfərdən saxlamaq üçün hansı tədbiri düşündü?
– Dərviş Məstəli şah xanımları öz cadugərlik məharətinə necə inandırdı?
– O, Parisi dağıtmağının əvəzində Şəhrəbanu xanımdan nə istədi?
– Müsyö Jordanın Parisin dağıdılması haqqında dedikləri ətrafdakılara necə təsir etdi?
– Müsyö Jordan Şahbaz bəyi Parisə aparmaq fikrindən nə üçün daşındı?
– Əsərdə hansı mənəvi-əxlaqi dəyərlərə önəm verilmişdir?

Bu, şagirdlərin dərviş Məstəli şah, Şahbaz bəy, müsyö Jordan, Şəhrəbanu xanım və digər obrazlar barədəki təsəvvürlərini daha da zənginləşdirir.

Qrupların təqdimatları əsasında **məlumat mübadiləsi** və **müzakirə** aparılır. Təqdimatların fəal dinlənilməsi təmin edilir. Müzakirədə daha çox şagirdin iştirakına və onun diskussiya səciyyəli olmasına diqqət yetirilir.

**Nəticənin** çıxarılması, **ümumiləşdirmənin** aparılmasında müəllim istiqamətləndirici suallardan istifadə edir. Nəticələrin fərziyyələrlə müqayisə edilməsinə vaxt ayrılır.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə müəyyənləşdirilmiş meyarlar əsasında aparılır.

*Qiymətləndirmə meyarları:*

İzahetmə

Müəyyənləşdirmə



LAYİHƏ

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Tanış olmayan sözlərin mənşəyinə və işlənmə məqamına görə mənasını izah etməkdə çətinlik çəkir. | Tanış olmayan sözlərin mənşəyinə və işlənmə məqamına görə mənasını suallar verməklə və kömək əsasında izah edir. | Tanış olmayan sözlərin mənşəyinə və işlənmə məqamına görə mənasını, əsasən, izah edir. | Tanış olmayan sözlərin mənşəyinə və işlənmə məqamına görə mənasını izah edir. |
| Komediyada əksini tapmış mühüm mənəvi, əxlaqi-etik dəyərləri müəyyənləşdirməkdə çətinlik çəkir. | Komediyada əksini tapmış mühüm mənəvi, əxlaqi-etik dəyərləri müəllimin köməyi ilə müəyyənləşdirir. | Komediyada əksini tapmış mühüm mənəvi, əxlaqi-etik dəyərləri, əsasən, müəyyənləşdirir. | Komediyada əksini tapmış mühüm mənəvi, əxlaqi-etik dəyərləri müəyyənləşdirir. |
| Komediyada məcazları müəyyənləşdirməkdə çətinlik çəkir. | Komediyada məcazları suallar verməklə və kömək əsasında müəyyənləşdirir. | Komediyada məcazları, əsasən, müəyyənləşdirir. | Komediyada məcazları müəyyənləşdirir. |

Müəllim dərslikdəki “Evdə iş” başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **Mirzə Fətəli Axundzadə. Hekayəti-müsyö Jordan həkiminəbatat və dərviş Məstəli şah caduküni-məşhur (ixtisarla)** – 4 saat

*Üçüncü saat:* **Təhlil üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.2.2.** Davranış və əməllərinə, başqaları ilə qarşılıqlı münasibətlərinə, yazıçının mövqeyinə, digər surətlərin mühakimələrinə əsaslanmaqla obrazları təhlil edir. | • Davranış və əməllərindən, başqaları ilə qarşılıqlı münasibətlərindən, digər surətlərin mühakimələrindən çıxış etməklə komediyadakı qəhrəmanları təhlil edir. |
| **1.2.4.** Bədii nümunələrin mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün sosial-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə təhlil edir və nəticə çıxarır. | • Komediyanın mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün social-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə təhlil edir və nəticə çıxarır. |
| **2.2.1.** Müzakirələrdə mövzuya, problemə, yazıçı mövqeyinə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. | • Komediya ilə bağlı müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi fərqli yollarla müəyyənləşdirilə bilər. Dördüncü məclisin məzmununun yığcam və geniş nağıledilməsi üzrə təqdi-



LAYİHƏ

matların dinlənilib müzakirə edilməsi vaxta qənaət baxımından daha məqsədəuyğundur. Yığcam nağıletmədə məzmundakı əsas məqamların, geniş nağıletmədə hadisələrin, dialoqların nə dərəcədə əhatə edildiyinə diqqət yetirilir. Bir neçə təqdimatın dinlənilib müzakirə edilməsi tapşırığın icrası ilə bağlı real vəziyyəti aydın təsəvvür etməyə imkan yaradır.

Müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu** mərhələsini fərqli variantlarda təşkil etmək olar. Suallardan istifadə edilməsi vaxta qənaət baxımından daha səmərəlidir. Şagirdlər müəllimin təklifi ilə M.F.Axundzadənin maarifçilik görüşləri haqqındakı məlumatlarını xatırladır, komediyadan nümunələr gətirirlər. Müsahibənin sonunda tədqiqat sualı formalaşdırılır.

**Tədqiqat sualı:** *Dərviş Məstəli şahla Müsyö Jordanı qarşılaşdırmaqda müəllifin başlıca məqsədi nədir?*

Fərziyyələr dinlənilir, təkrara yol verilmədən qeyd edilir.

**Araşdırmanın** bir variantı dərslikdə təklif edilmiş tapşırığın yerinə yetirilməsi ola bilər. Şagirdlər fərdi şəkildə mətni oxuyur, mətnkənarı sualların cavablarını ümumiləşdirib bir neçə cümlə ilə yazırlar.Ardıcıllığa əməl etməklə tapşırıqların yerinə yertirilməsi və cədvəllərdə qeydlər aparılması təmin edilir:

– Xarakterlər xəritəsi vasitəsilə əsərdəki əsas obrazların səciyyələndirilməsi;
– Bədii təsvir və ifadə vasitələrinin rolunun izah edilməsi;
– Faciə və dramla müqayisə etməklə əsərin komediya janrında olduğunun əsaslandırılması;
– Əsərin ideyasının müəyyənləşdirilməsi.

Şagirdlər ədəbiyyatşünas alimlərin əsərin qəhrəmanları barədə fikirləri ilə tanış olması və onlara münasibət bildirməsi diqqətdə saxlanılır. Kiçik qruplar yerinə yetirilmiş tapşırıqlarla bağlı qənaətlərini bölüşür, ümumiləşdirmələr aparırlar. Təqdimatlar əsasında fikir mübadiləsi və müzakirə təşkil edilir.

Dərsin digər variantı aşağıdakı şəkildə ola bilər.

**Tədqiqat işinə** dərslikdəki sual və tapşırıqların və onların araşdırılmasına istiqamət verən cavabların oxusu ilə başlanılır. Həcmi böyük olmayan mətnin fərdi oxusunu təşkil etmək məqsədəuyğundur. Oxudan əvvəl şagirdlərə məzmunla bağlı mənimsədikləri məlumatlardan necə bəhrələnməyin lazım olması barədə istiqamət verilir.

İlk sualla *(Komediya hansı mövzuda yazılmışdır?)* əlaqədar nəzərə alınmalıdır ki, əsərdən oxunmuş məclislər onun mövzusu barədə fikir yürütməyə imkan verir. Dramaturq bu mövzuya, başlıca olaraq mədəni geriliyi və bunun nəticəsi olan avamlığı tənqid etmək, gənc nəsli elmə, maarifə, mədəniyyətə səsləmək üçün müraciət etmişdir. Bu niyyət komediyada xarakteri, dünyagörüşü etibarilə birbirindən fərqlənən obrazların əməllərində, davranışlarında üzə çıxır. Cəhalətin hökm sürdüyü feodal dünyasının saysız-hesabsız tüfeyli təbəqələrindən birini təmsil edən dərviş Məstəli şaha qarşı Avropanın mədəni yüksəlişini təmsil edən Müsyö Jordan obrazı qoyulmuşdur.

İkinci sual *(Əsərin qəhrəmanlarının xarakter, davranış və əməllərində daha önəmli olanlar nədir?)* əsərdəki obrazların xarakter və əməllərini, başqaları ilə qarşılıqlı münasibətlərini daha ətraflı müəyyənləşdirmək və onlara münasibət



LAYİHƏ

bildirmək üçün nəzərdə tutulmuşdur. Obrazları səciyyələndirərkən şagirdlər müəllifin mövqeyini, eləcə də digər surətlərin mühakimələrini nəzərə alırlar.

Obrazların təhlili zamanı aşağıdakı məqamlara xüsusi diqqət yetirilir:

– Şahbaz bəyin Paris səfəri niyyətindən Şəhrəbanu xanım və Şərəfnisə xanımın qorxuya düşməsinin əsl səbəbi;
– Şahbaz bəyin Parisə getmək istəməsinin səbəbləri;
– Müsyö Jordanın Şahbaz bəyi Parisə aparmaq niyyətinə Hatəmxan ağanın münasibəti;
– Müsyö Jordanın Şahbaz bəyə münasibəti və onunla bağlı niyyəti; – Dərviş Məstəli şahın fırıldaqlarını həyata keçirə bilməsinin səbəbləri;
– Müsyö Jordanın vətəninə təcili qayıtmasının əsl səbəbi.

Dərviş Məstəli şahın hiyləgərliyini, tüfeyli həyat sürən fırıldaqçı olduğunu təsvir edən müəllif, həmçinin yeniliyin qələbə çalacağına inamını da ifadə edir. Lakin dərviş Məstəli şahın tədbirli bir fırıldaqçı olması, cəmiyyətdə köhnə həyatı, qaydaqanunları hər vəchlə qorumağa çalışan avam, sadəlövh insanların mövcudluğu bu mübarizədə qələbənin asan olmayacağını göstərir. Dərviş Məstəli şaha qarşı qoyulan Müsyö Jordan istər nəbatat alimi, istərsə də vətənpərvər bir şəxs kimi rəğbət doğurur. O, komediyada Məstəli şahla üz-üzə gəlməsə də, dünyagörüşü, həyat tərzi, əməlləri, gənc nəsli elmə, maarifə, inkişafa yönləndirməklə nadanlığa, cəhalətə qarşı durur. Əsərdə mühüm yer tutan Şahbaz bəy surətinin əhatəli təhlili cəmiyyətdəki müsbət meyillərin dərk olunmasına kömək edir. Onun simasında müəllif yeni həyat tərzinə, inkişafa can atan gəncliyə inamını əks etdirmişdir. Mülkədar Hatəmxan ağanın köhnə qaydalarla yaşaması, dünyagörüşünün, düşüncə tərzinin məhdudluğu, eləcə də inkişafa, təhsilə meyilli olması diqqətdən yayınmamalıdır.

Əsərdə komik planda təsvir edilən Şəhrəbanu xanım, Şərəfnisə xanım, Xanpəri obrazlarının təhlili də müəllif niyyətinin aşkara çıxarılması baxımından əhəmiyyətlidir. Avam, sadəlövh, caduya inanan bu qadınların xarakterindəki müsbət cəhətlər təhlildə diqqətdən yayınmamalıdır. Şəhrəbanu xanım və Şərəfnisə xanımın sadə, səmimi, təmizürəkli olması, qonaqpərvərliyi əsərdən nümunələr gətirməklə şərh edilməlidir.

Dərslikdəki növbəti sual *(Komediyanın hansı bədii xüsusiyyətləri diqqəti daha çox cəlb edir?)* şagirdləri əsərə bədii sənətkarlıq baxımından qiymət verməyə istiqamətləndirir. Komediyanın dili üzərində iş, süjet və kompozisiyasının aydınlaşdırılması onun bədii keyfiyyətlərinin başa düşülməsində əhəmiyyətli rol oynayır. Süjet və kompozisiya ilə bağlı fikirlərini əsaslandırmaq üçün şagirdlərin əsərdəki hadisələrin inkişafını mərhələlərə bölmələri, sxemini çəkmələri məqsədəuyğundur. Komediyada ekspozisiya (bədii müqəddimə), zavyazka (düyün nöqtəsi), hadisələrin inkişafı, kulminasiya (ziddiyyətlərin ən yüksək nöqtəsi), razvyazka (düyünün açılması), final mərhələlərinin müəyyənləşdirilməsi, həmin mərhələlərin bir-biri ilə sıx əlaqədar olduğu əsərdən nümunə gətirilməklə izah edilməlidir. Əsərin ideyasının, sənətkarın mövqeyinin düzgün dərk edilməsində bədii dilin rolu böyükdür. Əsərin dili üzrə iş yalnız tanış olmayan söz və ifadələrin müəyyənləşdirilməsi və mənasının mənşəyinə və işlənmə məqamına görə izah edilməsi ilə məhdudlaşmamalıdır. Obrazların nitqinin səciyyəvi cəhətlərinin

LAYİHƏ

müəyyənləşdirilməsi zamanı nəzərə alınmalıdır ki, ədib qəhrəmanların hər birini özünəməxsus tərzdə danışdırmış, onların nitqində xarakterlərinə, hiss və düşüncələrinə uyğun söz və ifadələrin yer almasına xüsusi diqqət yetirmişdir. Məsələn, müsyö Jordanın fransalı nəbatat alimi, vətənpərvər insan olması onun nitqindən söz və ifadələrin seçilməsi, izah edilməsi ilə əsaslandırılmalıdır. Dərviş Məstəli şahın yalançı, fırıldaqçı olması istər qadınlara öz cadugərlik məharəti haqqında yağlı dillə danışmasında, istərsə də təklikdə etirafı zamanı dediyi sözlərdə üzə çıxır. Hatəmxan ağanın, Şəhrəbanu xanımın və digər obrazların özünəməxsus danışıq tərzi, nitqlərindəki fərdi xüsusiyyətlər əsərdən seçilmiş nümunələrlə əsaslandırılmalıdır. Dramaturqun dialoq və remarkalarda da canlı xalq dilindən ustalıqla istifadə etməsi, dialoqların yığcamlığına xüsusi diqqət yetirməsi əsərin bədii məziyyətini xeyli artırmışdır. Bütün bu cəhətlər mənbələrlə iş zamanı zənginləşdirilir və dəyərləndirilir.

Dərslikdəki sonuncu sualı (*Əsərin ideyasının əsasında hansı fikirlər dayanır?*) müəyyənləşdirmək üçün ədibin maarifçi ideyalarının əsərdə necə əks olunduğunu, hadisələrin baş verdiyi dövrün xarakterik cəhətlərini, bir-birinə əks qütblərdə dayanan qəhrəmanların həyata baxışları arasındakı fərqi aydınlaşdırmaq lazım gəlir. Müəllif köhnəliyin, cəhalətin mahiyyətini açmış, yeni düşüncə yeni həyat tərzinin qələbəsinə inam hissini ifadə etmişdir.

Müəllimin təklifi ilə kiçik qruplarda birləşən şagirdlər fikir mübadiləsi aparır, öyrəndiklərini dəqiqləşdirirlər. Kiçik qrup sözçülərinin təqdimatları əsasında **məlumat mübadiləsi** və **müzakirə** aparılır. Müəllim təqdimatların fəal dinlənilməsinə, diqqəti əsərdəki dramatik və komik məqamlara, şagirdlərin mübahisəli mülahizələrinə yönəltməklə müzakirənin diskussiya səciyyəli olmasına çalışır.

Həm məlumat mübadiləsində, həm də müzakirədə hansı məsələləri mənbələr əsasında zənginləşdirməyin, tamamlamağın lazım olduğu aşkara çıxarılır.

Müəllimin istiqamətləndirici sualları əsaslandırılmış **nəticənin** çıxarılmasına, **ümumiləşdirmənin** aparılmasına imkan verir.

Nəticənin irəli sürülmüş fərziyyələrlə müqayisəsinə diqqət yetirilir.

*Qiymətləndirmə meyarları:* Təhliletmə, nəticəçıxarma, əsaslandırma, nümayişetdirmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Komediyadakı ədəbi qəhrəmanları davranış və əməllərinə, başqaları ilə qarşılıqlı münasibətlərinə, digər surətlərin mühakimələrinə əsaslanmaqla təhlil etməkdə çətinlik çəkir. | Komediyadakı ədəbi qəhrəmanları davranış və əməllərinə, başqaları ilə qarşılıqlı münasibətlərinə, digər surətlərin mühakimələrinə əsaslanmaqla qismən təhlil edir. | Komediyadakı ədəbi qəhrəmanları davranış və əməllərinə, başqaları ilə qarşılıqlı münasibətlərinə, digər surətlərin mühakimələrinə əsaslanmaqla, əsasən, təhlil edir. | Komediyadakı ədəbi qəhrəmanları davranış və əməllərinə, başqaları ilə qarşılıqlı münasibətlərinə, digər surətlərin mühakimələrinə əsaslanmaqla təhlil edir. |

LAYİHƏ

| | | | |
|---|---|---|---|
| Komediyanın mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün sosial-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə təhlil etməkdə və nəticə çıxarmaqda çətinlik çəkir. | Komediyanın mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün sosial-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə suallar və müəllimin köməyi ilə təhlil edir və nəticə çıxarır. | Komediyanın mövzusunu, ideyabədii xüsusiyyətlərini bağlı olduğu dövrün sosial-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə, əsasən, təhlil edir və nəticə çıxarır. | Komediyanın mövzusunu, ideyabədii xüsusiyyətlərini bağlı olduğu dövrün sosial-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə təhlil edir və nəticə çıxarır. |
| Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırmaqda, fərqli fikirlərə dözümlülük nümayiş etdirməkdə çətinlik çəkir. | Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini suallar və müəllimin köməyi ilə əsaslandırır, fərqli fikirlərə qismən dözümlülük nümayiş etdirir. | Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə, əsasən, dözümlülük nümayiş etdirir. | Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. |

Müəllim dərslikdəki “Evdə iş” başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

### *Mövzu:* **Mirzə Fətəli Axundzadə. Hekayəti-müsyö Jordan həkimi nəbatat və dərviş Məstəli şah caduküni-məşhur (ixtisarla)** – 4 saat
### *Dördüncü saat:* **Tətbiq. Müzakirə. Yaradıcı iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **2.1.2**. Obrazların nitqinə istinad edərək yazıçı mövqeyi ilə bağlı fikirlərini əsaslandırır. | • Komediyadakı obrazların nitqindən çıxış etməklə müəllifin mövqeyinə münasibətini əsaslandırır. |
| **3.1.1.** Yaradıcı yazıların məzmununa uyğun üslub müəyyənləşdirir, müxtəlif mənbələrdən seçdiyi inandırıcı faktlardan istifadə edir. | • İnşanın, essenin məzmununa uyğun üslub müəyyənləşdirir, müxtəlif mənbələrdən seçdiyi inandırıcı faktlardan istifadə edir. |
| **3.1.2.** Müşahidələrinə, əlavə məlumatlara əsaslanmaqla əsərin ideyasına, probleminə münasibət bildirir, ümumiləşdirmələr aparır, nəticə çıxarır. | • Müşahidələrinə, əlavə məlumatlara əsaslanmaqla komediyanın ideyasına, probleminə münasibət bildirir, ümumiləşdirmələr aparır, nəticə çıxarır. |
| **3.1.3.** 3–3,5 səhifə həcmində nəqli, təsvir, təhlil xarakterli mətnlər (ədəbi və sərbəst mövzuda inşa, esse, məruzə) yazır. | • Müqayisə, təsvir xarakterli inşa, esse yazır. |

### Dərsin gedişi

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi müsahibə, təqdimatların dinlənilməsi və müzakirəsi əsasında müəyyənləşdirilə bilər. Mənbələrdən toplanmış məlumatların məzmunu, hansı səviyyədə mənimsənilməsi, dərslikdən öyrənilənlərlə necə əlaqələndirilməsi diqqət mərkəzində saxlanılır. Bu prosesdə müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.



LAYİHƏ

**Motivasiya, problemin qoyuluşu.** Şagirdlərin diqqəti dərslikdə təklif olunmuş inşa, esse mövzularına yönəldilir *("Komediyadakı obrazların müqayisəli təhlili", "Əsər haqqındakı təəssüratım")*, müxtəlif səciyyəli inşa və esse ilə bağlı bilik və bacarıqların yada salınması məqsədi ilə yığcam müsahibə aparılır. Müsahibə tədqiqat sualının formalaşdırılması ilə yekunlaşdırılır.

**Tədqiqat sualı:** *Müqayisə xarakterli inşa ilə təsvir xarakterli essenin quruluşca hansı oxşar və fərqli cəhətləri vardır?*

Fərziyyələr dinlənilir və qeyd edilir.

Yazı işlərinin yerinə yetirilməsi **tədqiqatın aparılması** mərhələsi kimi qəbul edilir. Əvvəlki siniflərin ədəbiyyat dərsliklərində inşa və esse haqqında verilmiş məlumatları mənimsəyən, onuncu sinfədək müxtəlif səciyyəli inşa, esse yazan şagirdlərin bu iki yazı növünün oxşar və fərqli cəhətləri barədə müəyyən təsəvvürləri vardır. Dərs bu təsəvvürün *müqayisə* xarakterli inşa və *təsvir* səciyyəli esse zəminində dərinləşdirilməsi məqsədini güdür. Buna nail olmaq üçün istər yazıya hazırlıqda, istərsə də icrasında şagirdlərə tövsiyələrin verilməsi faydalıdır. Bu tövsiyə izah və istiqamətləndirici suallar şəklində həyata keçirilə bilər.

Tövsiyədə, əsasən, aşağıdakı fikirlərin əhatə olunması məqsədəuyğundur.

Obrazların müqayisəsinə həsr olunmuş inşa əvvəlcədən hazırlanmış plan əsasında yazılır. *Girişdə* mövzu barədə ümumi məlumat, onun işlənməsinin əhəmiyyəti yığcam qeyd olunur. Yazıda başlıca diqqət obrazların xarakter və əməllərindəki oxşar və fərqli cəhətlərin aşkara çıxarılmasına verilir. Bunun uğurla reallaşdırılması üçün müqayisənin hansı *əsaslar* üzrə aparılacağı əvvəlcədən müəyyənləşdirilir və planda bəndlərlə əks etdirilir. Bu, inşanın *əsas hissəsi* sayılır. Yazının sonunda *nəticənin* çıxarılması və *ümumiləşdirmənin* aparılması vacibdir. Göründüyü kimi, digər inşa formaları kimi, müqayisə xarakterli inşa da ciddi struktura malik olub, quruluşca sabitdir.

Təsvir xarakterli esse məzmununa və quruluşuna görə bu tip inşadan fərqlənir. Essenin məzmunu üçün mühüm olan cəhət şəxsi düşüncə və hislərin ifadə olunmasıdır. Bu baxımdan o, inşa ilə oxşardır, yəni inşada da müstəqil düşüncə öz əksini tapır. Lakin inşada bu müstəqillik daha çox mövzu ilə əlaqədar axtarış aparmaq, mənbələri öyrənib məlumat toplamaq, sistemə salıb münasibət bildirmək, yazıda onlardan məqsədəuyğun şəkildə istifadə etmək anlamında başa düşülür.

Təsvir xarakterli esse quruluşuna görə müqayisə xarakterli inşadan fərqlənir; belə yazıların quruluşu dəqiq meyarlara əsasən müəyyənləşdirilmir, kompozisiyasında olduğu kimi, fikirlərin ifadəsində də sərbəstlik olur. Esse təlimində ilk vaxtlar – aşağı siniflərdə müəyyən ardıcıllığın (yazıda giriş, əsas hissə, nəticə) gözlənilməsi tələb olunsa da, yuxarı siniflərə qalxdıqca bu tələb aradan qalxır, müəllifin – esseni yazanın fikirlərinin sərbəst ifadəsinə meydan verilir. Əsərlə bağlı təsvir xarakterli essedə əvvəlcə ümumi təəssürat, sonra isə bu və ya digər mühüm hadisədə diqqəti cəlb edən başlıca cəhətlər, onlar barədə düşüncələr əksini tapa bilər. Bu cəhətlərin əks etdirilmə ardıcıllığı esse müəllifinin fakta, materiala, hadisəyə, qəhrəmana münasibəti ilə müəyyənləşir. Şagird essedə hansı obrazların davranış və əməllərinin, hansı hadisənin doğurduğu təəssüratı yazısında əks etdirəcəyini irəlicədən dəqiqləşdirməlidir. Yazıda bədii təsvir və ifadə vasitələrinin düzgün seçilməsi və yerində işlədilməsi xüsusi



LAYİHƏ

əhəmiyyət kəsb edir. Bu baxımdan komediya esse müəllifinə geniş imkanlar açır; məsələn, Məstəli şahın qadınları öz cadusuna inandırmaq üçün ustalıqla söylədiyi yalanlar, ətrafdakıların başa düşməməsi və daha təsirli olması üçün əcnəbi dildə danışması, dəsgah qurub Parisi dağıtmaq üçün divlərə, ifritələrə əmrlər verməsi və s. əsərdə geniş təsvir olunub. Yaxud hadisələrin Qarabağda baş verməsi, nəbatat alimi müsyö Jordanın məhz bu yerin təbiətini tədqiq etməsi, buradakı nadir bitkilərin dünya elmi üçün yenilik olacağı barədə söylədikləri və s. essedə diqqət mərkəzində saxlanıla bilər.

İşin icrasına ayrılan vaxt başa çatdıqdan sonra yazılardan nümunələr təqdimatlar əsasında müzakirə edilir. Bu, **nəticənin** çıxarılmasına, **ümumiləşdirmənin** aparılmasına imkan verir.

Yazı işinin hansı formada təşkilindən asılı olmayaraq, fərdi qiymətləndirmə həyata keçirilir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə müəyyənləşdirilmiş meyarlar əsasında aparılır.

*Qiymətləndirmə meyarları:*

Əsaslandırma Müəyyənləşdirmə,
istifadəetmə
Münasibətbildirmə, ümumiləşdirməaparma, nəticəçıxarma
İnşayazma, esseyazma

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Komediyadakı obrazların nitqindən çıxış etməklə müəllifin mövqeyinə münasibətini əsaslandırmaqda çətinlik çəkir. | Komediyadakı obrazların nitqindən çıxış etməklə müəllifin mövqeyinə münasibətini suallar və müəllimin köməyi ilə əsaslandırır. | Komediyadakı obrazların nitqindən çıxış etməklə müəllifin mövqeyinə münasibətini əksər hallarda əsaslandırır. | Komediyadakı obrazların nitqindən çıxış etməklə müəllifin mövqeyinə münasibətini əsaslandırır. |
| İnşanın, essenin məzmununa uyğun üslub müəyyənləşdirməkdə, müxtəlif mənbələrdən inandırıcı faktlar seçməkdə və istifadə etməkdə çətinlik çəkir. | İnşanın, essenin məzmununa uyğun üslub müəyyənləşdirməyi, müxtəlif mənbələrdən inandırıcı faktlar seçməyi və istifadəni suallar və müəllimin köməyi ilə reallaşdırır. | İnşanın, essenin məzmununa uyğun üslub müəyyənləşdirməyi, müxtəlif mənbələrdən inandırıcı faktlar seçməyi və istifadəni, əsasən, reallaşdırır. | İnşanın, essenin məzmununa uyğun üslub müəyyənləşdirməyi, müxtəlif mənbələrdən inandırıcı faktlar seçməyi və istifadəni reallaşdırır. |
| Müşahidələrinə, əlavə məlumatlara əsaslanmaqla komediyanın ideyasına, probleminə münasibət bildirməkdə, ümumiləşdirmə aparmaqda, nəticə çıxarmaqda çətinlik çəkir. | Müşahidələrinə, əlavə məlumatlara əsaslanmaqla komediyanın ideyasına, probleminə münasibət bildirməyi, ümumiləşdirmə aparmağı, nəticə çıxarmağı suallar və müəllimin köməyi ilə reallaşdırır. | Müşahidələrinə, əlavə məlumatlara əsaslanmaqla komediyanın ideyasına, probleminə münasibət bildirməyi, ümumiləşdirmə aparmağı, nəticə çıxarmağı, əsasən, reallaşdırır. | Müşahidələrinə, əlavə məlumatlara əsaslanmaqla komediyanın ideyasına, probleminə münasibət bildirməyi, ümumiləşdirmə aparmağı, nəticə çıxarmağı reallaşdırır. |

LAYİHƏ

| | | | |
|---|---|---|---|
| Müqayisə, təsvir xarakterli inşa, esse yazmada çətinlik çəkir. | Müqayisə, təsvir xarakterli inşanı, esseni mövzunu qismən əhatə etməklə, fikrin ifadəsində məntiqilik və ardıcıllığı gözləməklə yazır. | Müqayisə, təsvir xarakterli inşanı, esseni mövzunu, əsasən, əhatə etməklə, fikrin ifadəsində məntiqilik və ardıcıllığı gözləməklə yazır. | Müqayisə, təsvir xarakterli inşanı, esseni mövzunu əhatə etməklə, fikrin ifadəsində məntiqilik və ardıcıllığı gözləməklə yazır. |

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **Mirzə Fətəli Axundzadə. Aldanmış kəvakib (ixtisarla)** – 2 saat

*Birinci saat:* **Məzmun üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.1.1.** Müxtəlif vəznli şeirlərdə (heca, əruz, sərbəst) və süjetli əsərlərdə (dastan, poema, hekayə, povest, roman, dram, komediya, faciə) tanış olmayan sözlərin mənasını mənşəyinə və işlənmə məqamına görə izah edir. | • Povestdə tanış olmayan sözlərin mənasını mənşəyinə və işlənmə məqamına görə izah edir. |
| **1.1.5.** Müxtəlif vəznli (heca, əruz) şeirlərdə, mürəkkəb süjet və kompozisiyalı bədii nümunələrdə bədii təsvir və ifadə vasitələrini (epitet, bənzətmə, metafor, metonimiya, simvol, mübaliğə, litota, bədii sual, təkrir, bədii təzad, inversiya) müəyyənləşdirir. | • Povestdə məcazları müəyyənləşdirir. |

**Dərsin gedişi**

a) Ev tapşırığının (a."Komediyadakı obrazların müqayisəli təhlili" mövzusunda inşa yazın. b."Əsər haqqındakı təəssüratım" mövzusunda esse yazın.) yerinə yetirilməsi səviyyəsi müəyyənləşdirilərkən şagirdlərin əsərlə bağlı çıxardıqları nəticələrin aydınlaşdırlıması və müzakirəsi diqqət mərkəzində saxlanılır. Müvafiq qiymətləndirmə meyarlarına müraciət olunur.

**Motivasiya, problemin qoyuluşu.** Bu mərhələdə təşkil olunan iş fərqli məzmunda ola bilər. İnternetdən istifadə ilə "Sübhün səfiri" filmindən *(https://www.youtube.com/watch?v=aXHnIawJ6Rs)* bir səhnəni – Şah Abbasın hüzurunda vəzirlərin çıxışını əks etdirən hissəni nümayiş etdirməklə müsahibə aparmaq və tədqiqat sualını formalaşdırmaq mümkündür. Yaxud əsərin mövzusunun baş vermiş tarixi hadisədən (I Şah Abbasın tarixçisi İskəndər bəy Münşinin "Tarixialəm-arayi-Abbasi" – "Aləmi bəzəyən Abbasın tarixi" kitabında məlumat verilmişdir) götürüldüyünü təsdiq edən aşağıdakı parça ilə şagirdləri tanış etməklə müsahibə aparmaq və tədqiqat sualını müəyyənləşdirmək olar: *"Mövlana Cəlaləddin Məhəmməd Münəccim Yəzdi bir gün şaha xəbər verdi ki, göydə Mərrix ilə Əqrəb birbirinə yaxınlaşacaq və bundan da İrana və onun şahına böyük bir bədbəxtlik üz verəcəkdir; gözləniləcək bəladan salamət çıxmaq üçün üç günlük hakimiyyətdən əl çəkmək və cəzaya müstəhəqq olan bir adamı səltənət başında oturtmaq lazımdır. Bu xüsusda çöp atdılar, çöp Yusifə düşdü. Zati-aliləri özünü*



LAYİHƏ

*təxti-səltənətdən xəl etdi və öz yerinə həmin adamın şah keçdiyini elan etdi. Onun başına tac qoydular və şaha layiq paltar geydirdilər və dəvəyə mindirib əmirlərin və ordunun müşayiəti ilə, təntənə ilə onu şahlıq məhəllinə gətirdilər. Şah isə öz yaxın xidmətçiləri ilə xəlvət bir guşəyə çəkildi. Üç gün keçdikdən sonra Yusifin evində axtarış aparıb şərab tapdılar və onu bir dinsiz kimi edam edib cəzalandırdılar. Şah əvvəlki qərar ilə yenə şahlıq başına keçdi".*

Dərslikdəki "Vətənpərvər, ədalətli, yaşadığı cəmiyyətdə haqsızlığa, nadanlığa, cəhalətə qarşı çıxan, vətəninin, xalqının mənafeyini hər şeydən üstün tutan hansı ədəbi qəhrəmanları tanıyırsınız?" sualı üzrə yığcam müzakirə də tədqiqat sualının dəqiqləşdirilməsi baxımından məqsədəuyğundur.

**Tədqiqat sualı:** *Mütləqiyyət quruluşunda təsadüfən hakimiyyətə gəlmiş, vətənini, xalqını sevən insanın fəaliyyəti, taleyi, sizcə, necə olar?*

Fərziyyələr dinlənilir və qeyd edilir.

Povestdən dərslikdə verilmiş parçanın oxusu ilə **tədqiqatın aparılmasına** başlanılır. Oxunu fərqli formalara təşkil etmək olar. Şagirdlər povesti dərsə qədər mütaliə etdikləri üçün fərdi oxunun tətbiqi məqsədəuyğundur. Tanış olmayan sözlərin mənasının, mənşəyinin və məcazların müəyyənləşdirilməsinin, ikihissəli gündəlikdə qeydlər aparılmasının vacib olduğu şagirdlərə əvvəlcədən xatırladılır.

Oxu prosesində şagirdlərin qarşılaşdığı çətinliklər müəllimin istiqamətləndirici sualları ilə aradan qaldırılır.

Oxu başa çatdıqdan sonra kiçik qruplarda birləşən (əvvəlcə cütlük şəklində də işləyə bilərlər) şagirdlər parçanın məzmunu, tanış olmayan sözlər və müəyyənləşdirdikləri məcazlarla bağlı fikir mübadiləsi aparırlar. Kiçik qruplar, həmçinin dərslikdə təklif edilmiş sualların cavabı ilə bağlı qənaətlərini bölüşürlər.

- Münəccimbaşı Mirzə Sədrəddin Şah Abbasın yanına nə üçün gəlmişdi?
- Onun verdiyi xəbər Şah Abbasa necə təsir etdi?
- Vəzirlər şahın hüzurunda nə barədə danışdılar?
- Şah münəccimbaşının öldürülməsi barədəki hökmünü nə üçün dəyişdi?
- Şahın bəladan qurtulması üçün Mövlana Cəmaləddin hansı tədbiri məsləhət gördü?

Tədqiqata ayrılmış vaxt başa çatdıqdan sonra kiçik qrupların təqdimatı əsasında **məlumat mübadiləsi** və **müzakirə** aparılır. Müzakirədə məzmunun hansı səviyyədə mənimsənilməsi ilə yanaşı, tanış olmayan sözlərin mənasının və məcazların necə müəyyənləşdirildiyi, əsərin bədii keyfiyyətinin artırılması üçün istifadə olunmuş digər vasitələr də diqqət mərkəzində saxlanılır. Müəllimin istiqamətləndirici sualları əsasında aydınlaşdırırlar ki, müəllif obrazları yaradarkən özünüifşa üsulundan geniş istifadə etmiş, Şah Abbasın və onun vəzirlərinin bəsit dünyagörüşünü, çürük mənəviyyatını özlərinin dili, danışığı ilə açmışdır. Əsərdə işlənmiş məcazların – kinayə (*Vallah, qəribə Əhmədqədirlər bu ingilis tayfası ki, belə xətərli millət ilə az qalmışdı cəng başlayalar*), *bənzətmə* (*biçarə münəccimbaşının ruhu uçub başladı yarpaq kimi titrəməyə*) və s. üzərində xüsusi dayanılır, növləri dəqiqləşdirilir.

Növbəti mərhələnin – **nəticə və ümumiləşdirmənin** uğurlu olması müəllimin istiqamətləndirici suallarından xeyli dərəcədə asılıdır.



LAYİHƏ

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə müəyyənləşdirilmiş meyarlar əsasında aparılır.

*Qiymətləndirmə meyarları:*

İzahetmə

Müəyyənləşdirmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Tanış olmayan sözlərin mənşəyinə və işlənmə məqamına görə mənasını izah etməkdə çətinlik çəkir. | Tanış olmayan sözlərin mənşəyinə və işlənmə məqamına görə mənasını suallar verməklə və kömək əsasında izah edir. | Tanış olmayan sözlərin mənşəyinə və işlənmə məqamına görə mənasını, əsasən, izah edir. | Tanış olmayan sözlərin mənşəyinə və işlənmə məqamına görə mənasını izah edir. |
| Povestdə məcazları müəyyənləşdirməkdə çətinlik çəkir. | Povestdə məcazları suallar verməklə və kömək əsasında müəyyənləşdirir. | Povestdə məcazları, əsasən, müəyyənləşdirir. | Povestdə məcazları müəyyənləşdirir. |

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **Mirzə Fətəli Axundzadə. Aldanmış kəvakib (ixtisarla)** – 2 saat *İkinci saat:* **Təhlil üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.1.3.** Mürəkkəb süjetli və kompozisiyalı bədii nümunələri hissələrə ayırır, plan tərtib edir, məzmununu müxtəlif formalarda (geniş, yığcam, yaradıcı) nağıl edir. | • Povestdən seçdiyi hissənin məzmununu yığcam və yaradıcı nağıl edir. |
| **1.2.2.** Davranış və əməllərinə, başqaları ilə qarşılıqlı münasibətlərinə, yazıçının mövqeyinə, digər surətlərin mühakimələrinə əsaslanmaqla obrazları təhlil edir. | • Davranış və əməllərindən, başqaları ilə qarşılıqlı münasibətlərindən, digər surətlərin mühakimələrindən çıxış etməklə povestdəki qəhrəmanları təhlil edir. |
| **1.2.3.** Müxtəlif vəznli (heca, əruz, sərbəst) şeirlərdə, süjetli ədəbi nümunələrdə bədii təsvir və ifadə vasitələrinin obrazlılığın yaradılmasındakı rolunu aydınlaşdırır və münasibət bildirir. | • Povestdəki məcazların obrazlılığın yaradılmasındakı rolunu aydınlaşdırır və münasibət bildirir. |
| **1.2.4.** Bədii nümunələrin mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün sosial-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə təhlil edir və nəticə çıxarır. | • Povestin mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün sosial-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə təhlil edir və nəticə çıxarır. |

LAYİHƏ

## Dərsin gedişi

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilməsi və müzakirəsi əsasında müəyyənləşdirilir. Müəllim evdə oxunmuş parçanın məzmunu ilə bağlı hazırladığı suallardan istifadə edir, əsərdəki mühüm fikirlərin necə qavranıldığını aşkara çıxarır, dəqiqləşdirmənin aparılmasına nail olur. Eləcə də tanış olmayan sözlərlə, məcazlarla bağlı yerinə yetirilmiş işlərin hansı məzmunda olması aydınlaşdırılır və münasibət bildirilir. Müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu.** Motivasiyanı müxtəlif yollardan istifadə etməklə yaratmaq olar. Bunlardan biri sualların tətbiqidir. Diqqəti *"M.F.Axundzadənin yaradıcılığında hansı demokratik ideyalar öz əksini tapıb?"* sualına yönəldən müəllim yığcam müsahibə aparır, sonda tədqiqat sualı formalaşdırılmış olur.

Digər bir yol "Aldanmış kəvakib" filmindən bir fraqmentin nümayişi əsasında müzakirənin aparılması ola bilər. Müzakirə tədqiqat sualının müəyyənləşdirilməsi ilə başa çatır.

**Tədqiqat sualı:** *Yazıçının şahlıq üsul-idarəsi ilə bağlı əsər yazmasına səbəb, sizcə, nədir?*

Fərziyyələr dinlənilib, qeyd edilir.

**Tədqiqatın aparılmasına** dərslikdəki sualların və onların araşdırılmasına istiqamət verən cavabların oxusu ilə başlanılır. Oxunu fərqli formalarda aparmaq mümkündür. Səmərəli müzakirənin aparılması baxımından şagirdlərin fərdi oxusu və tapşırıqları yerinə yetirməsi, cədvəllərdə qeydlər aparması məqsədəuyğundur.

Dərslikdəki 6 sual, əslində, təhlillə bağlı bütün mühüm məsələləri əhatə edir. Onların cavabı ilə bağlı dərslikdə əks olunanların tamamlanması və zənginləşdirilməsinə ehtiyac duyulur. Buna ev tapşırığı qismində müstəqil araşdırma aparmaqla mənbələrdən əldə edilmiş məlumat əsasında nail olunur.

Oxudan əvvəl şagirdlərə izah olunur ki, əsərin məzmunu ilə bağlı qazanılmış məlumatlardan bəhrələnmək lazımdır.

*"Povest hansı mövzuda yazılıb?", "Əsərdə hansı sosial-siyasi, mənəvi dəyərlərə önəm verilmişdir?"* sualları ilə bağlı dərslikdəki fikirlər konkretləşdirilərək qeyd edilir ki, povestdə təsvir olunan hadisə haqqında I Şah Abbasın tarixçisi İsgəndər bəy Münşinin "Tarixi-aləm-arayi-Abbasi" (Aləmi bəzəyən Abbasın tarixi) kitabında məlumat vermişdir. M.F.Axundzadə tarixi məlumatdan istifadə edərək çar senzurasının nəzərindən yayınmış, mütləqiyyət üsul-idarəsini, cəhaləti, mövhumatı kəskin tənqid etməyə, demokratik ideyaları yaymağa nail olmuşdur.

Povestdə müəllifin mövhumata, nadanlığa, ölkənin idarəsində səriştəsizliyə mənfi münasibəti ilə yanaşı, milli, sosial, mənəvi tərəqqi idealları qabarıq şəkildə ifadə olunmuşdur. İstibdad üsul-idarəsinin ictimai eybəcərliklərinin təsviri, Yusif şahın həyata keçirdiyi mütərəqqi islahatlar fonunda yazıçı gələcək nəsillərə öz dünyagörüşünə uyğun milli qurtuluş yolunu göstərmişdir.

*"Əsərdəki obrazlar hansı səciyyəvi xüsusiyyətləri ilə fərqlənirlər?"* sualı ilə əlaqədar əsərdəki obrazlar ilk növbədə Şah Abbas surəti təhlil olunur. Povestdə onun avamlığı, nadanlığı ilə yanaşı, zalımlığı da xüsusi qeyd olunur: "Şah Abbasın zülmkarlığının alçaq əlaməti bu idi ki, bir oğlunu öldürdü, ikisinin dəxi gözünü çıxartdı. Dəxi oğlu yox idi, nəvəsi ona varis oldu". Günahsız insanları dar ağacından asdıran, şaqqaladan bu zülmkar şahın münəccimlərin sözü ilə taxt-tacdan əl çəkməsi onun nadanlığını təsdiq edir. Şah



LAYİHƏ

Abbasın xalqı əsarətdə, cəhalət içərisində saxlaması, ölkədə rüşvətxorluğun, oğurluğun baş alıb getməsi üçün şərait yaratması Şərq despotizminin nümunəsi kimi tənqid olunur.

Ədib məhəbbətlə yaratdığı Yusif Sərrac obrazı vasitəsilə öz demokratik, maarifçilik ideyalarını əks etdirmişdir. Təhlil zamanı ədalətli, maarifpərvər Yusif Sərrac xalq içindən çıxmış islahatçı hökmdar kimi səciyyələndirilir. Onun demokratik qanunlar qəbul etməklə ölkəni abadlaşdırması, məktəblər, xəstəxanalar açdırması, yollar çəkdirməsi, vergilərin azaldılması ilə bağlı fərmanları xalqın güzəranını yaxşılaşdırmağa xidmət edir. Yusif Sərracın rüşvətxorluğun, soyğunçuluğun, dini təfriqəçiliyin aradan qaldırılması ilə bağlı fərmanları onun ədalətli, xalq mənafeyini ali məqsədə çevirən hökmdar olduğunu göstərir.

Müəllifin təsvirləri bu iki obrazın müqayisəsinə geniş imkan açır. Müəllimin bundan yararlanması faydalıdır.

Əsərdəki digər obrazlar – vəzir Mirzə Möhsün, sərdar Zaman xan, maliyyə naziri Mirzə Yəhya, Mollabaşı Axund Səməd, münəccimbaşı Mirzə Sədrəddin, Mövlana Cəmaləddin barədə dərslikdəki məlumatla kifayətlənmək mümkün deyildir. Şagirdlərə dərsdə aydın olur ki, bu obrazlarla bağlı araşdırmanın aparılması, mənimsənilmiş biliklərin dərinləşdirilməsi vacibdir.

Obrazların səciyyələndirilməsi zamanı onların nitq özəlliyinə, davranış və əməllərinə, başqalarına münasibətinə, müəllifin ona münasibətinə diqqət yetirilməsi xarakterlərin, həyata baxışların daha ətraflı başa düşülməsinə imkan yaradır. Məzmun üzrə iş zamanı müəyyənləşdirilmiş məcazların obrazlılığın artmasındakı rolu nümunələr göstərilməklə şərh edilir.

Dərslikdəki sonuncu suallar (*Yusif Sərracın apardığı islahatları ətraflı təsvir etməkdə müəllifin niyyəti nədir? Povestin ideyasının əsasında hansı fikirlər dayanır? Povest hansı bədii xüsusiyyətləri ilə diqqəti cəlb edir?)* M.F.Axundzadənin dövlətin idarə olunması ilə bağlı mütərəqqi ideyalarının açıqlanması baxımından əhəmiyyətlidir. Müəllif əsərdə qaldırdığı ictimai-siyasi, mənəvi-əxlaqi problemlərin həllinə maarifçilik görüşləri əsasında yanaşmışdır. Əsər özünün bədii xüsusiyyətləri, orijinal obrazlar sistemi, süjet və kompozisiya baxımından yüksək sənət əsəridir. Mənbələrdən əldə olunmuş məlumat müəllif niyyətinin mahiyyətinin və bədii sənətkarlıq xüsusiyyətlərinin açıqlanmasına imkan verir. Bunun üçün isə müəllimin istiqamətləndirici suallardan istifadə etməsi faydalıdır.

Mətnkənarı suallarla bağlı araşdırmanın davamı olaraq şagirdlərin ədəbiyyatşünas alimləərin əsərlə bağlı fikirlərinə münasibət bildirməsi də diqqətdə saxlanılır. Kiçik qruplarda birləşən şagirdlər qənqətlərini bölüşür, ümumiləşdirmə aparırlar. Təqdimatlar əsasında fikir **mübadiləsi və müzakirə** aparılır.

**Nəticə, ümumiləşdirmə** mərhələsində müəllim istiqamətləndirici suallardan istifadə edir. Bu, deyilənlərin bir ideya şəklinə salınmasında əhəmiyyətli rol oynayır. Şagirdlərdə belə bir qənaət formalaşır ki, M.F.Axundzadə realist sənətkar kimi tarixi məlumat əsasında yazdığı əsərdə problemə müasir həyatın tələbləri baxımından yanaşmış, dövlətin ədalətlə idarə edilməsi, cəmiyyətin tərəqqisi ilə bağlı demokratik ideyalarını əks etdirmişdir. Başqa sözlə, əsərdə Şah Abbas hakimiyyətinin timsalında mütləqiyyət quruluşunun yaramazlıqları üzə çıxarılmış, maarifpərvər, ədalətli şahın – Yusif Sərracın hakimiyyətinin timsalında xalqın rifahına, vətənin tərəqqisinə nail olmağın mümkünlüyü ideyası irəli sürülmüşdür. Povestin yazıldığı dövrdə müəllif məhz bu fikirdə olmuşdur. M.F.Axundzadə dövlət quruluşu ilə bağlı mövqeyini sonra dəyişir.



LAYİHƏ

Əsərin klassik ədəbiyyatımızda müsbət rolu, yeni realist nəsrin ilk nümunəsi olması, sonrakı dövrlərdə yaranan nəsrimizə müsbət təsiri müstəqil araşdırmadan – mənbələr üzrə işdən sonra əhatə olunur.

Çıxarılmış nəticələrin irəli sürülən fərziyyələrlə müqayisə edilməsinə də vaxt ayrılır.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə müəyyənləşdirilmiş meyarlar əsasında aparılır.

*Qiymətləndirmə meyarları:*

Nağıletmə

Təhliletmə

Aydınlaşdırma, münasibətbildirmə

Təhliletmə, nəticəçıxarma

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Povestdən seçdiyi hissənin məzmununu yığcam, yaradıcı nağıl etməkdə çətinlik çəkir. | Povestdən seçdiyi hissənin məzmununu suallar verməklə, kömək əsasında yığcam, yaradıcı nağıl edir. | Povestdən seçdiyi hissənin məzmununu əsasən, yığcam, yaradıcı nağıl edir. | Povestdən seçdiyi hissənin məzmununu yığcam, yaradıcı nağıl edir. |
| Povestdəki ədəbi qəhrəmanları davranış və əməllərinə, başqaları ilə qarşılıqlı münasibətlərinə, digər surətlərin mühakimələrinə əsaslanmaqla təhlil etməkdə çətinlik çəkir. | Povestdəki ədəbi qəhrəmanları davranış və əməllərinə, başqaları ilə qarşılıqlı münasibətlərinə, digər surətlərin mühakimələrinə əsaslanmaqla qismən təhlil edir. | Povestdəki ədəbi qəhrəmanları davranış və əməllərinə, başqaları ilə qarşılıqlı münasibətlərinə, digər surətlərin mühakimələrinə əsaslanmaqla, əsasən, təhlil edir. | Povestdəki ədəbi qəhrəmanları davranış və əməllərinə, başqaları ilə qarşılıqlı münasibətlərinə, digər surətlərin mühakimələrinə əsaslanmaqla təhlil edir. |
| Povestdəki məcazların obrazlılığın yaradılmasındakı rolunu aydınlaşdırmaqda və münasibət bildirməkdə çətinlik çəkir. | Povestdəki məcazların obrazlılığın yaradılmasındakı rolunu müəllimin köməyi ilə aydınlaşdırır, münasibət bildirməkdə çətinlik çəkir. | Povestdəki məcazların obrazlılığın yaradılmasındakı rolunu, əsasən, aydınlaşdırır və münasibət bildirir. | Povestdəki məcazların obrazlılığın yaradılmasındakı rolunu aydınlaşdırır və münasibət bildirir. |
| Povestin mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün sosial-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə təhlil etməkdə və nəticə çıxarmaqda çətinlik çəkir. | Povestin mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün sosial-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə suallar və müəllimin köməyi ilə təhlil edir, nəticə çıxarır. | Povestin mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün sosial-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə, əsasən, təhlil edir və nəticə çıxarır. | Povestin mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün sosial-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə təhlil edir və nəticə çıxarır. |

Müəllim dərslikdəki “Evdə iş” başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

LAYİHƏ

## DÖRDÜNCÜ BÖLMƏ ÜZRƏ BİRİNCİ KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ

*Qiymətləndirmə B.Şakirin "Quberniya bina olandan bəri..." əsəri üzrə aparıla bilər.*

**Baba Bəy Şakir**
**"Quberniya bina olandan bəri..."**
*(ixtisarla)*

Quberniya bina olandan bəri,
Oğrunun hər biri bir xanə dönüb;
Yox yetişən ərzə, divan eyləyən,
Dağılıb vilayət, viranə dönüb.

Murovlar buyurur oğurlayın at,
Naçalnikdən eyləməyin ehtiyat,
Olmaz urusluqda eyləmək isbat,
Onunçün tülkülər aslanə dönüb.

Bu əsrdə olan sahib-ixtiyar,
Tamam oğurluqda olubdur pərgar,
Yatmayıb sübhədək dartar nə ki var,
Qarabağın malı bostanə dönüb.

Rəsuldan şərm yox, Allahdan da bim,
Allah rizasına danışmaz heç kim,
Qarabağ düzəlməz, mənim əzizim,
Çünki öz əhlimiz şeytanə dönüb.

Əmiraslan idi əvvəl talançı,
Gecə-gündüz qırqə gəzən dilənçi,
Uzun nəfəs, mütəqəllib, yalançı,
Şimdi aləm Əmiraslanə dönüb.

Bu dörd-beş dananın əlində zarıq,
Apardı hər nə var qüttaüttəriq,
Zülm ifrat, mənzil irağ, at arıq,
Qaradağlı bizə Tehranə dönüb.



LAYİHƏ

Bu nə qubernator, bu necə sərdar?!
Dağılıb vilayət, oldu tarımar;
Cəldlənibdir rüşivətə murovlar,
Xəlqin işi ahü əfqanə dönüb.

Bundan əqdəm ellər gedərdi dağa,
Məhəbbət eylərdi düşən qonağa,
Şimdi gedə bilməz evdən irağa,
Kişiyə dövləti zindanə dönüb.

Piriməli, Həsənli, Nayibalılar,
Qovzanlı mülkündə olan nə ki var,
Gəlir hər tərəfdən misali-bazar,
Mal alan, mal satan meydanə dönüb.

Şərm, həya qalmayıbdır bizlərdə,
Oğurluq, xudkeşlik olub bipərdə,
Onunçün düşmüşüz hərə bir dərdə,
Tapılmayır çörək, dərmanə dönüb.

Deyil burda olan işlərdən agah,
Belə məlum, ədalətli padişah,
Xalqın fəryadına yetişsin Allah.
Bu dövran bir özgə dövranə dönüb.



LAYİHƏ

## QİYMƏTLƏNDİRMƏ ÜÇÜN TÖVSİYƏ OLUNAN SUAL VƏ TAPŞIRIQLAR

1. Şeirin hansı mövzuda yazıldığını müəyyənləşdirin, fikrinizi əsaslandırın.

2. *"Quberniya bina olandan bəri..."nin* satirik əsər olduğunu nümunələr göstərməklə əsaslandırıb, qısaca yazın.

3. Şeirdə tanış olmayan sözlərin mənasını müəyyənləşdirin.

4. Həmin sözlərin alınma, yaxud dilimizə aid olduğunu əsaslandırın.

5. Şeirdə hansı mənəvi-əxlaqi dəyərlər xatırladılır? Fikrinizi əsərdən nümunələr göstərməklə əsaslandırın.



LAYİHƏ

6. Şeirin bədii keyfiyyətini artıran cəhətləri müəyyənləşdirib, qısaca yazın.

_______________________________________________
_______________________________________________
_______________________________________________
_______________________________________________

7. Şeirin hansı vəzndə yazıldığını nümunələr göstərməklə əsaslandırın.

_______________________________________________
_______________________________________________
_______________________________________________
_______________________________________________

8. Şeir hansı janrda yazılmışdır? Fikrinizi nümunələrlə əsaslandırın.

_______________________________________________
_______________________________________________
_______________________________________________
_______________________________________________

9. Bu nə qubernator, bu necə sərdar?!
Dağılıb vilayət, oldu tarımar;
Cəldlənibdir rüşivətə murovlar,
Xəlqin işi ahü əfqanə dönüb.

a) Bəndin üzərində ifadəli oxuda istifadə olunan şərti işarələr qoyun.
b) Bəndin oxusunda səsdə hansı çalarlar yaranır, nə üçün? Fikrinizi əsaslandırın.

_______________________________________________
_______________________________________________
_______________________________________________
_______________________________________________

10. Əsərin ideyasını müəyyənləşdirin. Fikrinizi şeirdən nümunələr göstərməklə əsaslandırın.

_______________________________________________
_______________________________________________
_______________________________________________
_______________________________________________



LAYİHƏ

*Mövzu:* **Aşıq Ələsgərin həyatı, yaradıcılıq yolu** – 1 saat

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **2.1.1**. Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla təqdimat və çıxışlarında obrazlı ifadələrdən istifadə edir. | • Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla mövzu, problemlə bağlı təqdimat və çıxışlarında obrazlı ifadələrdən istifadə edir. |
| **2.2.1**. Müzakirələrdə mövzuya, problemə, yazıçı mövqeyinə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. | • Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi müəyyənləşdirilərkən mənbələr əsasında hazırlanmış təqdimatların, eləcə də Z.Marağayinin “İbrahim bəyin səyahətnaməsi” romanı ilə “Aldanmış kəvakib” povestinin üçün ortaq olan cəhətlərin, bununla bağlı çıxarılmış nəticələrin müzakirə edilməsi məqsədəuyğundur. Müvafiq qiymətləndirmə meyarlarına müraciət edilir.

**Motivasiya mərhələsinə** şagirdlərin Aşıq Ələsgər ilə bağlı biliklərinin aşkara çıxarılması ilə başlanılır. Onlara dərslikdəki tapşırıq (*“Aşıq Ələsgərlə bağlı bildiklərinizi yada salıb yığcam müzakirə aparın”)* üzərində düşünmək təklif edilir. Şagirdlər VIII sinifdə Aşıq Ələsgərin doğma təbiətin gözəlliyİni, dağlarını tərənnüm edən “Dağlar” şeirini öyrənmiş, sənətkar haqqında müəyyən bilikləri mənimsəmişlər. Müzakirə zamanı şagirdlərdə Aşıq Ələsgərlə bağlı dərin biliklər əldə etməyin zəruriliyi qənaəti yaradılır.

Motivasiyanın bir variant da Aşıq Ələsgər haqqında *videonun nümayiş etdirilməsi (*https://www.youtube.com/watch?v=FSjuUT366yA*) ola bilər.*

Müzakirənin sonunda araşdırılacaq **problem** müəyyənləşdirilir: Aşıq Ələsgər aşıq sənətimizin inkişafına hansı töhfələri vermişdir?

Araşdırmaya dərslikdəki sualın *(Aşıq Ələsgərin həyatında və yaradıcılığında daha önəmli sayıla bilən məqamlar hansılardır?)* və onun aydınlaşdırılmasına istiqamət verən mətnin fərdi oxusu ilə başlanılır. Dərslikdəki mətnin oxusunda nələrə diqqət etməyin vacib olması, mətnkənarı sualların cavablarında daha mühüm hesab etdiklərinin qısaca qeyd edilməsi barədə şagirdlərə əvvəlcədən istiqamət verilməsi məqsədəuyğundur.

Şagirdlərin mətnin məzmunu ilə bağlı yaranan sualları və onların cavablarını dəftərdə, iş vərəqində qeyd etmələri və parta yoldaşlarına danışması ilə bağlı tövsiyələr verilir.

Mətndə Aşıq Ələsgərin uşaqlıq illərindən xüsusi təhsil almasa da, fəhmi, söz sənətinə həvəsi, ustad sənətkar Aşıq Alının şəyirdi olması, istedadının sorağının hər tərəfə yayılması ilə bağlı yığcam məlumat verilmişdir.

Mətndə ailəsində baş verən kədərli hadisələrin, erməni daşnaklarının hücumu nəticəsində el-obanın doğma yurd yerlərindən didərgin düşməsinin aşığın həyatında dərin iz buraxmasına yığcam münasibət bildirilmişdir. Eyni zamanda Aşıq Ələsgərin yaradıcı şəxsiyyəti el şənliklərində, toy məclislərində çıxışları, bədii yaradıcılığından nümunələr əsasında qısaca səciyyələndirilmişdir.

Mətnlə tanışlıq şagirdlərdə əldə etdikləri istiqamətləndirici bilikləri mənbələr hesabına zənginləşdirmək, Aşıq Ələsgərin şəxsiyyəti, yaradıcılığı, o dövrdə baş verən hadisələrə münasibəti haqqında daha dolğun, geniş bilik əldə etmək arzusu oyadır. Bu,

LAYİHƏ

nəzərə alınaraq istər oxu (onu fərqli formalarda təşkil etmək olar), istərsə də müzakirədə mənbələrdən necə istifadə etməyin yolları şagirdlərə izah edilir.

Mətndəki digər suallar *(Aşıq Ələsgərin məhəbbət mövzusunda və el gözəllərinə həsr olunmuş şeirlərində hansı duyğular tərənnüm olunub? Təbiət mövzusunda şeirləri və ustadnamələri üçün səciyyəvi cəhətlər hansılardır? İctimai motivli şeirlərində cəmiyyətdəki hansı nöqsanlar tənqid edilir?)* üzrə araşdırma zamanı şagirdlərin mətnlə yanaşı, əlavə mənbələrə – sənətkarın məhəbbət, təbiət, ictimai motivli əsərlərindən nümunələrə də müraciət etməsi məqsədəuyğundur.

*"Aşıq Ələsgərin şeirləri hansı bədii xüsusiyyətləri ilə seçilir?"* sualı ilə əlaqədar mətndəki yığcam məlumatın mənbələrlə iş prosesində zənginləşdirilməsi üçün aşağıdakı məsələlərə diqqət yetirilməsi tövsiyə olunur:

– Aşıq Ələsgər şeirinin xalq ruhuna yaxın olması, dünyəvilik, həyatilik, xəlqilik və təbiiliyin vəhdəti;
– Qoşma, gəraylı, təcnis, müxəmməslərinin oynaq və ahəngdar olmasını təmin edən bədii vasitələr;
– Aşığın bədii sözdən sənətkarlıqla istifadə etmək məharəti. Epitet, bənzətmə, metafor, mübaliğə, təkrir, təzad və s. bədii təsvir və ifadə vasitələrindən istifadə ustalığı.

Müəllimin təklifi ilə kiçik qruplarda birləşən şagirdlər fikir mübadiləsi aparırlar. Bu, cavabların dəqiqləşdirilməsinə, zənginləşdirilməsinə əhəmiyyətli təsir edir. Məhz bundan sonra kiçik qrupların təqdimatları əsasında **məlumat mübadiləsi** və **müzakirə** aparılır. Əsaslandırılmış **nəticələrin** çıxarılmasında müəllimin istiqamətləndirici sualları əhəmiyyətli rol oynayır.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə müəyyənləşdirilmiş meyarlar əsasında aparılır. *Qiymətləndirmə meyarları:* İstifadəetmə, əsaslandırma, nümayişetdirmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla mövzu, problemlə bağlı təqdimat və çıxışlarında obrazlı ifadələrdən istifadə etməkdə çətinlik çəkir. | Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla mövzu, problemlə bağlı təqdimat və çıxışlarında suallar və müəllimin köməyi ilə obrazlı ifadələrdən istifadə edir. | Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla mövzu, problemlə bağlı təqdimat və çıxışlarında, əsasən, obrazlı ifadələrdən istifadə edir. | Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla mövzu, problemlə bağlı təqdimat və çıxışlarında obrazlı ifadələrdən istifadə edir. |
| Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırmaqda, fərqli fikirlərə dözümlülük nümayiş etdirməkdə çətinlik çəkir. | Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini suallar və müəllimin köməyilə əsaslandırır, fərqli fikirlərə qismən dözümlülük nümayiş etdirir. | Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə, əsasən, dözümlülük nümayiş etdirir. | Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. |

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

LAYİHƏ

*Mövzu:* **Aşıq Ələsgər. Dağlar –** 2 saat

*Birinci saat:* **Məzmun üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.1.1.** Müxtəlif vəznli şeirlərdə (heca, əruz, sərbəst) və süjetli əsərlərdə (dastan, poema, hekayə, povest, roman, dram, komediya, faciə) tanış olmayan sözlərin mənasını mənşəyinə və işlənmə məqamına görə izah edir. | • Şeirdə tanış olmayan sözlərin mənasını mənşəyinə və işlənmə məqamına görə izah edir. |
| **1.1.5.** Müxtəlif vəznli (heca, əruz) şeirlərdə, mürəkkəb süjet və kompozisiyalı bədii nümunələrdə bədii təsvir və ifadə vasitələrini (epitet, bənzətmə, metafor, metonimiya, simvol, mübaliğə, litota, bədii sual, təkrir, bədii təzad, inversiya) müəyyənləşdirir. | • Şeirdə məcazları müəyyənləşdirir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi müxtəlif metod və iş formalarının tətbiqi ilə müəyyənləşdirilə bilər. Ev tapşırığı ilə əlaqədar *(Aşıq sənətinin və şeirinin zənginləşməsində Aşıq Ələsgərin hansı xidmətləri olmuşdur? Aşıq Ələsgərin və Molla Pənah Vaqifin qoşmaları hansı cəhətlərinə görə müqayisə oluna bilər?)* mənbələrdən necə istifadə olunduğunun, qazanılmış biliklərin necə tətbiq olunduğunun, zənginləşdirildiyinin aydınlaşdırılması diqqət mərkəzində saxlanılır. Müvafiq qiymətləndirmə meyarlarından istifadə edilir.

**Motivasiya, problemin qoyuluşu.** Bu mərhələdə işi fərqli məzmunda və formada təşkil etmək mümkündür. Şagirdlərin səkkizinci sinifdə öyrəndikləri "Dağlar" şeirinin ideya-məzmunu üzrə söhbət, və ya müsahibə aparılması faydalıdır. Şagirdlərə təbiətin gözəlliyinin tərənnümünə həsr olunmuş bu əsərlə bağlı təəssüratlarını bölüşmək və mövzu ilə bağlı suala cavab hazırlamaq təklif edilir: *Aşıq Ələsgərin təbiət mövzusunda lirik şeirlər yazmasına səbəb, sizcə, nədir?*

Motivasiyanın bir variantı da internetdən istifadə ilə "Dağlar şeirinin bədii oxusunun *(https://www.youtube.com/watch?v= fBhDKORWjK8)* dinlənilməsi ola bilər. Yığcam müsahibənin sonunda tədqiqat sualı formalaşdırılır.

**Tədqiqat sualı:** *Vətənin dar günündə dağların fərqli vəziyyəti qoşmada necə əks etdirilib?*

Fərziyyələrin dinlənilməsinə və qeyd edilməsinə vaxt ayrılır.

**Tədqiqatın aparılması.** Şeirin məzmununun öyrənilməsini fərqli variantlarda təşkil etmək olar. Məsələn, əsəri fərdi olaraq oxuyan keçirən şagirdlər hiss və düşüncələrini, izahına ehtiyac duyduqları misra və beytləri ikihissəli gündəlikdə qeyd edir, tanış olmayan sözlərin mənasını, daha maraqlı hesab etdikləri məcazları müəyyənləşdirir, şeirdə hansı mənəvi-əxlaqi dəyərlərə önəm verildiyini aydınlaşdırırlar.

Dərslikdəki sual və tapşırıqlarla əlaqədar işin bir variantı izahlı oxudan istifadə ola bilər. Səsli oxunu izləyən şagirdlər bənd və misraların izahında fəal iştirak edirlər. Ehtiyac duyulduqda müəllim yaranan çətinliyi istiqamətləndirici suallar vasitəsi ilə aradan qaldırır. Oxu prosesində tanış olmayan sözlər müəyyənləşdirilir

LAYİHƏ

və lüğətlərdən istifadə ilə mənası aydınlaşdırılır. İzahlı oxu başa çatdıqdan sonra şagirdlərə fərdi olaraq müəyyənləşdirmək təklif edilə bilər.

Kiçik qruplarda birləşən şagirdlər hər bəndin məzmunu, tanış olmayan sözlər və məcazlarla, əsərdə əks olunmuş mənəvi-əxlaqi dəyərlərlə bağlı qənaətlərini bölüşür, aşağıdakı sualları da əhatə etməklə təqdimata hazırlaşırlar:

1. Baharda dağların aldığı mənzərə qoşmada necə təsvir olunub?
2. Dağların pərişan halı şeirdə necə təsvir edilib?
3. El üçün, igid üçün arxa, dayaq rəmzi sayılan dağların xoş günlərdəki vəziyyəti necə xatırladılır?
4. Dağlardan – doğma yurdundan bir müddət ayrı düşən və onunla yenidən qovuşan aşığın kədəri hansı misralarda, bənddə daha qabarıq ifadə olunub?

Ayrı-ayrı bəndlərdə ifadə olunmuş fikirlərin, dağların kədərli ovqatını dərin həyəcanla seyr edən lirik qəhrəmana xas olan cəhətlərin aydınlaşdırılması üzrə iş davam və inkişaf etdirilir. Bu məqamda şeirdə işlədilmiş məcazların növünün müəyyənləşdirilməsinə ayrıca diqqət yetirilir.

Kiçik qrupların təqdimatları əsasında **məlumat mübadiləsi** və **müzakirə** aparılır. Təqdimatların fəal dinlənilməsi və müzakirədə daha çox şagirdin iştirak etməsinə səy göstərilir.

**Nəticənin** çıxarılması, **ümumiləşdirmənin** aparılması şagirdlərin fəal iştirakı ilə həyata keçirilir. Bu mərhələnin uğurlu olmasında müəllimin istiqamətləndirici sualları mühüm əhəmiyyət kəsb edir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə müəyyənləşdirilmiş meyarlar əsasında aparılır.

*Qiymətləndirmə meyarları:*

İzahetmə

Müəyyənləşdirmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Tanış olmayan sözlərin mənşəyinə və işlənmə məqamına görə mənasını izah etməkdə çətinlik çəkir. | Tanış olmayan sözlərin mənşəyinə və işlənmə məqamına görə mənasını suallar verməklə və kömək əsasında izah edir. | Tanış olmayan sözlərin mənşəyinə və işlənmə məqamına görə mənasını, əsasən, izah edir. | Tanış olmayan sözlərin mənşəyinə və işlənmə məqamına görə mənasını izah edir. |
| Şeirdə məcazları müəyyənləşdirməkdə çətinlik çəkir. | Şeirdə məcazları suallar verməklə və kömək əsasında müəyyənləşdirir. | Şeirdə məcazları, əsasən, müəyyənləşdirir. | Şeirdə məcazları müəyyənləşdirir. |

Müəllim dərslikdəki “Evdə iş” başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

LAYİHƏ

*Mövzu:* **Aşıq Ələsgər. Dağlar** – 2 saat
*İkinci saat:* **Təhlil üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.2.2.** Davranış və əməllərinə, başqaları ilə qarşılıqlı münasibətlərinə, yazıçının mövqeyinə, digər surətlərin mühakimələrinə əsaslanmaqla obrazları təhlil edir. | • Davranış və əməllərindən çıxış etməklə lirik qəhrəmanı təhlil edir. |
| **1.2.3.** Müxtəlif vəznli (heca, əruz, sərbəst) şeirlərdə, süjetli ədəbi nümunələrdə bədii təsvir və ifadə vasitələrinin obrazlılığın yaradılmasındakı rolunu aydınlaşdırır və münasibət bildirir. | • Şeirdəki məcazların obrazlılığın yaradılmasındakı rolunu aydınlaşdırır və münasibət bildirir. |
| **1.2.4.** Bədii nümunələrin mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün sosial-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə təhlil edir və nəticə çıxarır. | • Şeirin mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün mənəvi dəyərləri kontekstindən çıxış etməklə təhlil edir və nəticə çıxarır. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilməsi və müzakirəsi əsasında müəyyənləşdirilə bilər. Şagirdlərin yazdığı “Şeir məndə hansı hiss və düşüncələr yaratdı” mövzusunda essenin müzakirəsi isə əsərin məzmununun hansı səviyyədə mənimsənildiyi barədə müəllimin aydın təsəvvür qazanmasına imkan yaradır. Sonda müvafiq qiymətləndirmə meyarlarından istifadə olunur.

**Motivasiya, problemin qoyuluşu.** Motivasiyanın yaradılmasına fərqli yollarla nail olmaq mümkündür. Suallardan istifadə etməklə motivasiya yaratmağı qarşısına məqsəd qoyan müəllim məzmunla bağlı qazanılmış biliklərə əsaslanmaqla yığcam müzakirə təşkil edir. Müzakirəyə müəllimin: *Aşıq Ələsgərin təbiət mövzusunda lirik şeirlər yazmasına səbəb, sizcə, nədir? “Dağlar”şeirində diqqətinizi daha çox cəlb edən nə oldu?* sualları ilə başlanılır və şagirdlərin fəal iştirakı ilə davam etdirilir. Müzakirə tədqiqat sualının formalaşdırılması ilə yekunlaşdırılır.

Variantlardan biri də internetdən istifadə ilə “Aşıq Ələsgər” filmindən bir səhnənin nümayiş etdirilib (https://www.youtube.com/watch?v=EegNr_ITdTY) müsahibə aparılması ola bilər.

**Tədqiqat sualı:** *Aşıq Ələsgərin ikinci “Dağlar” şeirində başlıca fikir nədir?* Fərziyyələr dinlənilir və qeyd edilir.

**Tədqiqatın aparılması.** Kiçik qruplar yaradılır, mətnkənarı suallar *(Qoşma hansı mövzuda yazılıb? Aşığın dağlara ikinci əsər həsr etməsinə səbəb nə olmuşdur? Əsərdə aşığın oxucuya çatdırmaq istədiyi başlıca fikir nədir? Qoşmanın bədiiliyini təmin edən mühüm vasitələr hansılardır?)* qruplar arasında bölünür. Qrupların sayı çox olarsa, bir sualın üzərində iki qrup işləyə bilər.



LAYİHƏ

Araşdırma aparan kiçik qruplar dərslikdəki sualları və onların aydınlaşdırılmasına istiqamət verən mətni oxuyur, suallara yığcam cavab hazırlayaraq cədvəldə yazılı qeydlər aparır. İşin icrasına ayrılan vaxt başa çatdıqdan sonra qruplar Venn diaqramından istifadə etməklə sualların dərslikdəki cavablarını yazdıqları cavablarla müqayisə edirlər.

Kiçik qrupların təqdimatlarının mübadiləsi və müzakirəsi aparılır. Şeirin ilk iki bəndinin ifadəli oxusu təşkil edilir. İfaçılıq vəzifəsi, məntiqi vurğulu sözlər, səsin aldığı çalarlar, səsin tonundakı dəyişilmələr müəyyənləşdirilir.

"Dağlar" şeirinin öyrənilməsi sənətkarın şəxsiyyəti, vətənpərvərliyi, el-oba dərdi çəkən insan olması barədə təsəvvür yaradır. Aydın olur ki, aşıq yalnız elin şad günündə, şənliklərində, toylarında deyil, həm də onun dar günündə öz xalqı ilə birlikdədir. El üçün yanan aşıq dağlara xitabən dediyi sözlərdə xalqın dərdini, kədərini ifadə edir: Dağlarda əvvəlki şadyanalıq, büsatın yoxluğunu dərd çəkənlər bilsə, bağrı çatlayar. Bu yaylaqlarda ellərin daha yaylamadığını görəndə aşığın göz yaşları selə dönür. El-obanın doğma yurd yerlərindən pərən-pərən olub dağıldığını, hərənin bir yerə sığındığını görən aşıq sanki elsiz yaşadığı üçün xəcalət çəkir, özünü qınayır:

Arsız aşıq elsiz niyə yaşadı?!<br>
Ölsün Ələsgərtək qulların, dağlar!

Mənbələr üzrə iş şagirdlərdə belə qənaət yaratmalıdır ki, qoşmada şairin vətənpərvərliyi, xalqa bağlılığı qabarıq şəkildə ifadə edilib. Aşıq elsiz qalan dağların, dağsız qalan ellərin dərdini ürək yanğısı ilə dilə gətirir. Dağlara müraciətində o, dağlara canlı varlıq kimi müraciət edir, dərd içində ola-ola yenə bu doğma yurdun möcüzəli təbiətini – dağların gözəlliyini özünəməxsus bir dillə, oxşaya-oxşaya vəsf edir:

Bir ay yarım nobahardan keçəndə<br>
Car olur köysündən sellərin, dağlar!<br>
Çalxanır dəryalar, çığrışır qazlar,<br>
Zəmzəm zümzüməli göllərin, dağlar!<br>
... Kəpəz, Murov, Qonur – gör neçə dağ<br>
var… Üstünə nur yağsın, ay dəli Qoşqar!<br>
Yayın ortasında yağdırırsan qar,<br>
Səf çəkib üstündə salların, dağlar!

Bütün bunlar sübut edir ki, mənbələr üzrə iş zamanı şagirdlər "Dağlar"ı yalnız təbiət mövzusunda deyil, həm də ictimai motivli qoşma kimi qavramalıdır. Aşiq Ələsgər bütün yaradıcılığı boyu təbliğ etdiyi milli dəyərləri, yurdsevərliyi, soykökünə bağlılığı bu şeirdə bir daha qabarıq ifadə etmişdir.

Növbəti sualla bağlı (*Qoşmanın bədiiliyini təmin edən mühüm vasitələr hansılardır?*) dərslikdəki yığcam təhlil məzmunlu məlumat şagirdlərə mənbələrdə nələrə diqqət etməyin lazım olduğuna istiqamət verir. Aşıq Ələsgərin qoşmada yüksək sənətkarlığı ilə bağlı məsələlər təqdimat və müzakirədə ön plana çəkilir və mənbələrdən istifadə zamanı buna diqqət yetirməyin vacib olması barədə təsəvvür yaradılır. Şagirdlərə aydın olur ki, aşığın yaradıcılığı üçün xəlqilik, həyat həqiqətlərinə sadiqlik səciyyəvidir. O, dağların xoş gününü də, çətin məqamlarını da təsirli bir dillə, canlı, heyrətamiz təsvirlərlə əks etdirməyi bacarır. Aşıq



LAYİHƏ

şəxsləndirmədən, bədii təsvir və ifadə vasitələrindən istifadə edərək xalqın taleyindəki ağır dövrü, vətənin insanları kimi təbiətinin də soyqırıma məruz qaldığını inandırıcı bir şəkildə əks etdirməyə müvəffəq olmuşdur.

Əsərin məzmunu ilə bağlı qazanılmış biliklərdən də istifadə edən qruplar hazırladıqları təqdimat əsasında **məlumat mübadiləsi** və **müzakirə** aparırlar. Bu mərhələdə bədii əsərdən nümunələrin göstərilməsinə xüsusi önəm verilir.

**Nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması** mərhələsində müəllimin istiqamətləndirici sualları şagirdlərin daha fəal olmasına imkan yaradır. Şagirdlər bu qənaətə gəlirlər ki, bu əsər Aşıq Ələsgərin zəngin, çoxcəhətli yaradıcılığında xüsusi yer tutur. Namərd ermənilərin xalqımıza qarşı törətdiyi soyqırım Göyçə elini doğma yurddan didərgin salması, igidlər məskəni dağların indi kimsəsiz qalması ustad sənətkarın qəlbini qubarlanır. Dağların kədərini, pərişan halını əks etdirən bu əsərdə sənətkarın öz xalqına, vətəninə bağlılığı öz əksini tapıb.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə müəyyənləşdirilmiş meyarlar əsasında aparılır.

*Qiymətləndirmə meyarları:*

Təhliletmə

Aydınlaşdırma, münasibətbildirmə

Təhliletmə, nəticəçıxarma

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Davranış və əməllərindən çıxış etməklə lirik qəhrəmanı təhlil etməkdə çətinlik çəkir. | Davranış və əməllərindən çıxış etməklə lirik qəhrəmanı qismən təhlil edir. | Davranış və əməllərindən çıxış etməklə lirik qəhrəmanı əsasən təhlil edir. | Davranış və əməllərindən çıxış etməklə lirik qəhrəmanı təhlil edir. |
| Şeirdəki məcazların obrazlılığın yaradılmasındakı rolunu aydınlaşdırmaqda və münasibət bildirməkdə çətinlik çəkir. | Şeirdəki məcazların obrazlılığın yaradılmasındakı rolunu müəllimin köməyilə aydınlaşdırır, münasibət bildirməkdə çətinlik çəkir. | Şeirdəki məcazların obrazlılığın yaradılmasındakı rolunu, əsasən, aydınlaşdırır və münasibət bildirir. | Şeirdəki məcazların obrazlılığın yaradılmasındakı rolunu aydınlaşdırır və münasibət bildirir. |
| Şeirin mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün mənəvi dəyərləri kontekstindən çıxış etməklə təhlil etməkdə və nəticə çıxarmaqda çətinlik çəkir. | Şeirin mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün mənəvi dəyərləri kontekstindən çıxış etməklə suallar və müəllimin köməyi ilə təhlil edir və nəticə çıxarır. | Şeirin mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün mənəvi dəyərləri kontekstindən çıxış etməklə, əsasən, təhlil edir və nəticə çıxarır. | Şeirin mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün mənəvi dəyərləri kontekstindən çıxış etməklə təhlil edir və nəticə çıxarır. |

Müəllim dərslikdəki “Evdə iş” başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

LAYİHƏ

*Mövzu:* **Seyid Əzim Şirvaninin həyatı, yaradıcılıq yolu** – 1 saat

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **2.1.1.** Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla təqdimat və çıxışlarında obrazlı ifadələrdən istifadə edir. | • Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla mövzu, problemlə bağlı təqdimat və çıxışlarında obrazlı ifadələrdən istifadə edir. |
| **2.2.1.** Müzakirələrdə mövzuya, problemə, yazıçı mövqeyinə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. | • Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi müsahibənin tətbiqi, yaxud təqdimatların dinlənilməsi və müzakirəsi əsasında müəyyənləşdirilir. Hər sualla bağlı mənbələrdən hansı məzmunda məlumatın əldə edilməsi və onların nə dərəcədə əhəmiyyətli olması diqqət mərkəzində saxlanılır. Şeirin ilk dörd bəndi ifadənin oxunun tələblərinə uyğun əzbər söylənilməsi dəyərləndirilir. Müvafiq qiymətləndirmə meyarlarına müraciət edilir.

**Motivasiya, problemin qoyuluşu.** Bu məqsədlə şagirdlərin S.Ə.Şirvani ilə bağlı biliklərinin aşkara çıxarılması məqsədəuyğundur. Onlara dərslikdəki tapşırıq (*S.Ə.Şirvani ilə bağlı bildiklərinizi yada salıb yığcam müzakirə aparın)* üzərində düşünmək təklif edilir. S.Ə.Şirvaninin yaradıcılığı ilə əvvəlki siniflərdən tanış olan, müxtəlif mənbələrdən müəyyən məlumat qazanan şagirdlər müəllimin istiqamətləndirici sualları əsasında müzakirəyə qoşulurlar. Müzakirə zamanı şagirdlərdə şairin şəxsiyyətinə, yaradıcılığına maraq daha da artır, yeni məlumatların öyrənilməsinə həvəs yaranır. Müzakirənin sonunda araşdırılacaq **problem** müəyyənləşdirilir və sual şəklində ifadə edilir: *S.Ə.Şirvaninin bədii irsi ədəbiyyatımız üçün hansı dəyərlərinə görə seçilir?*

Fərziyyələr dinlənilir və qeyd edilir.

Araşdırmaya dərslikdəki sualın – *Seyid Əzim Şirvaninin həyatı, yaradıcılığı üçün daha səciyyəvi olanlar hansılardır?* və onun aydınlaşdırılmasına istiqamət verən mətnin fərdi oxusu ilə başlanılır. Oxunun təşkili ilə bağlı dərslikdə verilmiş tapşırıq və mətnin həcmi onun fərdi oxusunu həyata keçirməyə imkan verir. Mətndə S.Ə.Şirvaninin uşaqlıq illərindən təhsilə böyük həvəs göstərməsi, ərəb və fars dillərini öyrənməsi, Yaxın Şərqin dini mərkəzlərində təhsil alsa da, ruhani olmaq fikrindən əl çəkib müəllimlik etməsi barədə yığcam məlumat verilmişdir. Mətndə S.Ə.Şirvaninin müəllimlik fəaliyyəti qısaca səciyyələndirilmiş, ədalətsiz münasibətlə qarşılaşması barədə məlumat verilmişdir.

Müəllim şagirdlərə *nişanlama ilə oxu, çıxarılmış nəticələrin yığcam şəkildə qeyd edilməsi* ilə bağlı əvvəl verilmiş tövsiyələri xatırladır. Müəllim oxu prosesini diqqətdə saxlayır, yeri gəldikcə şagirdləri yönləndirir. Mətndə S.Ə.Şirvaninin ədəbi irsində mühüm yer tutan klassik üslubda yazılmış lirik əsərlərə toxunulmuş, Füzuli ədəbi məktəbinin istedadlı davamçısı kimi yazdığı qəzəllərin ideya-məzmununa qısaca münasibət bildirilmişdir. Dərslikdə, həmçinin şairin bədii irsində mühüm yer tutan, elmin, təhsilin faydasına dair əsərlər, gənc nəslə xitabən yazılmış öyüd və nəsihətlər, təmsillər, mənzum hekayələr barədə yığcam məlumat verilmiş, satira yaradıcılığının əhəmiyyəti vurğulanmışdır. Mətnlə tanışlıq prosesində şairin həyat yolu və zəngin yaradıcılığı ilə bağlı qazanılmış biliklərin dərinləşdirilməsinə, zənginləşdirilməsinə daxili tələbat yaranır. Müstəqil araşdırma zamanı



LAYİHƏ

mənbələrdən necə istifadə etməyin yolları, yeri gəldikcə, şagirdlərə izah edilir. Aşağıda göstərilənlərin mənbələr əsasında əhatə edilməsinin əhəmiyyəti diqqətə çatdırılır: şairin Şamaxıda "Üsuli-cədid" məktəbi açması və oradakı səmərəli fəaliyyəti, istedadlı şagirdi M.Ə.Sabiri bədii yaradıcılığa həvəsləndirməsi, dərslik yaradıcılığı, işdən haqsız çıxarılması ilə bağlı Tiflisə şikayətə gedərkən Gəncədə Nizaminin qəbrini ziyarət etməsi, "Beytüs-səfa" ədəbi məclisində, "Əkinçi" qəzetində iştirakı, təqiblərə məruz qalması barədə məlumatın toplanması və dəyərləndirilməsi maarifpərvər sənətkarın şəxsiyyəti və xidmətləri barədə dolğun təsəvvürün yaranması baxımından əhəmiyyətlidir.

Eləcə də şairin məhəbbət mövzusunda yazdığı qəzəllər, satiralar, maarifçi şeirlər, öyüd və nəsihətlər, mənzum hekayələri və s. bağlı sinifdə qazanılmış biliklərin mənbələr əsasında zənginləşdirilib tamamlanması vacibdir.

Sənətkarın yaradıcılığı ilə bağlı mülahizələrin bədii əsərlərindən seçilmiş nümunələrlə əsaslandırılmasının vacibliyi bir daha şagirdlərin diqqətinə çatdırılır.

Oxuya ayrılan vaxt başa çatdıqdan sonra müəllimin təklifi ilə kiçik qruplarda birləşən şagirdlər fikir mübadiləsi aparırlar. Məhz bundan sonra kiçik qrupların təqdimatları əsasında **məlumat mübadiləsi** və **müzakirə** həyata keçirilir. Ədibin Azərbaycan ədəbiyyatı tarixində mövqeyi, bədii irsinin söz sənətimizə qiymətli töhfə olması barədə qənaətləri üzrə əsaslandırılmış **nəticələrin** çıxarılmasında müəllimin istiqamətləndirici sualları əhəmiyyətli rol oynayır.

Dərsin müzakirənin bu və ya digər formasının (debat, müzakirə xəritəsi və s.) tətbiqi ilə keçilməsi də mümkündür. Bu halda sinfə əlavə mənbələrin gətirilməsi vacibdir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə müəyyənləşdirilmiş meyarlar əsasında aparılır.

*Qiymətləndirmə meyarları:* İstifadəetmə
Əsaslandırma, nümayişetdirmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla mövzu, problemlə bağlı təqdimat və çıxışlarında obrazlı ifadələrdən istifadə etməkdə çətinlik çəkir. | Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla mövzu, problemlə bağlı təqdimat və çıxışlarında suallar və müəllimin köməyilə obrazlı ifadələrdən istifadə edir. | Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla mövzu, problemlə bağlı təqdimat və çıxışlarında, əsasən, obrazlı ifadələrdən istifadə edir. | Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla mövzu, problemlə bağlı təqdimat və çıxışlarında obrazlı ifadələrdən istifadə edir. |
| Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırmaqda, fərqli fikirlərə dözümlülük nümayiş etdirməkdə çətinlik çəkir. | Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini suallar və müəllimin köməyi ilə əsaslandırır, fərqli fikirlərə qismən dözümlülük nümayiş etdirir. | Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə, əsasən, dözümlülük nümayiş etdirir. | Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. |

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.



LAYİHƏ

*Mövzu:* **Seyid Əzim Şirvani. Guş qıl... (ixtisarla) –** 2 saat
*Birinci saat:* **Məzmun üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.1.1.** Müxtəlif vəznli şeirlərdə (heca, əruz, sərbəst) və süjetli əsərlərdə (dastan, poema, hekayə, povest, roman, dram, komediya, faciə) tanış olmayan sözlərin mənasını mənşəyinə və işlənmə məqamına görə izah edir. | • Şeirdə tanış olmayan sözlərin mənasını mənşəyinə və işlənmə məqamına görə izah edir. |
| **1.1.5.** Müxtəlif vəznli (heca, əruz) şeirlərdə, mürəkkəb süjet və kompozisiyalı bədii nümunələrdə bədii təsvir və ifadə vasitələrini (epitet, bənzətmə, metafor, metonimiya, simvol, mübaliğə, litota, bədii sual, təkrir, bədii təzad, inversiya) müəyyənləşdirir. | • Şeirdə məcazları müəyyənləşdirir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi müxtəlif metod və iş formalarının tətbiqi ilə müəyyənləşdirilə bilər. Məruzə və çıxışlarda mənbələrdən necə istifadə olunduğunun, dərslikdəki məlumatın hansı səviyyədə zənginləşdirildiyinin aydınlaşdırılması diqqət mərkəzində saxlanılır. S.Ə.Şirvaninin "Əkinçi" qəzeti ilə əməkdaşlığı, ədəbiyyatımızın yeniləşməsi və zənginləşməsində bədii irsinin əhəmiyyəti ilə bağlı şagirdlərin mülahizələrinin əsaslandırılmasının zəruriliyi bir daha qeyd olunur.

Müvafiq qiymətləndirmə meyarlarından istifadə edilir.

**Motivasiya, problemin qoyuluşu.** Bu mərhələdə işi fərqli məzmunda və formada təşkil etmək mümkündür. Dərslikdəki "Oxuya hazırlaşın" başlıqlı sual və tapşırıqlar üzərində işin təşkili məqsədəuyğundur. Sənətkarın musiqiyə həsr olunmuş lirik şeir yazmasının səbəbi ilə bağlı fikir mübadiləsi, müzakirə tədqiqat sualının müəyyənləşdirilməsi üçün zəmin yaradır.

Bədii oxu ustasının ifasında "Guş qıl..." müxəmməsindən bir parçanın, yaxud internet şəbəkəsindən istifadə edərək xalq artisti Əlibaba Məmmədovun ifasında (https://www.youtube.com/watch?v=jPuyp-AK7IA) müxəmməsdən bir parçanın dinlənilməsini və müzakirə təşkil etməklə tədqiqat sualını formalaşdırmaq olar.

**Tədqiqat sualı:** *Musiqinin insana zövq verməsi, onun hiss və düşüncəsini zənginləşdirməsi barədə əsərin yazılmasına səbəb nə ola bilər?*

Fərziyyələrin dinlənilməsinə və qeyd edilməsinə vaxt ayrılır.

**Tədqiqatın aparılması.** Şeirin oxusu, məzmununun öyrənilməsini fərqli variantlarda təşkil etmək olar. Şeirin məzmununun öyrənilməsi ilə bağlı dərslikdəki tövsiyəni əsas götürən müəllim şagirdlərin məzmunla tanış olduqlarını nəzərə alır. Lakin müstəqil oxunun nəticəsi olan ilkin qavramanı qənaətbəxş saymaq olmaz. Odur ki, dərslikdəki *"Müstəqil oxuduğunuz şeirin aşağıdakı bəndlərini nəzərdən keçirin, məzmunu ilə bağlı bildiklərinizi dərinləşdirin"* tapşırığını izahlı oxudan istifadə etməklə həyata keçirmək məqsədəuyğundur. Oxu prosesində izahına ehtiyac duyulan misra və bəndlər, məcazlar müəyyənləşdirilir, tanış olmayan sözlərin lüğətlərdən istifadə ilə mənası aydınlaşdırılır. Təcrübə göstərir ki, bu qəbildən sözlərin bir qisminin mətndəki mənasının



LAYİHƏ

aydınlaşdırılmasında şagirdlər çətinlik çəkirlər. Bu, müəllimin istiqamətləndirici sualları ilə aradan qaldırılır, şagirdlər şeirin məzmunu üzərində işləyir, izahına ehtiyac duyduqları misra və bəndləri, tanış olmayan sözlərin mənasını, mənşəyini aydınlaşdırıb, daha maraqlı hesab etdikləri məcazları və seçimlərinin səbəbini cədvəldə qeyd edirlər. Kiçik qruplarda birləşən şagirdlər qənaətlərini bölüşür, əsərin məzmunu üzrə iş zamanı qarşılaşdıqları çətinlikləri müəllimlə müzakirə edirlər. Bu mərhələlərdə müəllimin istiqamətləndirici sualları məzmunun əhatəli və dərindən mənimsənilməsinə zəmin yaradır.

Kiçik qruplarda aşağıdakı sualları da əhatə etməklə təqdimata hazırlaşırlar:

– Şeir kimə müraciətlə yazılmışdır?
– Şair musiqidən alınan zövq, musiqi alətlərinin səsindəki hikmət, daxili məna barədə nə deyir?
– Şair musiqi məclisinin əhli barədə hansı fikirləri söyləyir?
– Şairin zahidə məsləhəti nə olur?
– Əsər hansı mənəvi dəyərlər barədə danışmağa imkan verir?
– Şeir hansı vəzndə yazılmışdır?

Ayrı-ayrı bəndlərdə ifadə olunmuş fikirlərin, lirik qəhrəmanın musiqi ilə bağlı düşüncələrinin aydınlaşdırılması üzrə iş davam və inkişaf etdirilir.

Kiçik qrupların təqdimatları əsasında **məlumat mübadiləsi** və **müzakirə** aparılır. Təqdimatların fəal dinlənilməsinə, müzakirədə daha çox şagirdin iştirak etməsinə səy göstərilir.

**Nəticənin** çıxarılması, **ümumiləşdirmənin** aparılması şagirdlərin fəal iştirakı ilə həyata keçirilir. Bu mərhələnin uğurlu olmasında müəllimin istiqamətləndirici sualları mühüm əhəmiyyət kəsb edir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə müəyyənləşdirilmiş meyarlar əsasında aparılır.

*Qiymətləndirmə meyarları:*
İzahetmə
Müəyyənləşdirmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Tanış olmayan sözlərin mənşəyinə və işlənmə məqamına görə mənasını izah etməkdə çətinlik çəkir. | Tanış olmayan sözlərin mənşəyinə və işlənmə məqamına görə mənasını suallar verməklə və kömək əsasında izah edir. | Tanış olmayan sözlərin mənşəyinə və işlənmə məqamına görə mənasını, əsasən, izah edir. | Tanış olmayan sözlərin mənşəyinə və işlənmə məqamına görə mənasını izah edir. |
| Şeirdə məcazları müəyyənləşdirməkdə çətinlik çəkir. | Şeirdə məcazları suallar verməklə və kömək əsasında müəyyənləşdirir. | Şeirdə məcazları, əsasən, müəyyənləşdirir. | Şeirdə məcazları müəyyənləşdirir. |

Müəllim dərslikdəki “Evdə iş” başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.



LAYİHƏ

*Mövzu:* **Seyid Əzim Şirvani. Guş qıl... (ixtisarla)** – 2 saat

*İkinci saat:* **Təhlil üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.1.2.** İfadəli oxudan müxtəlif ədəbi növdə olan əsərlərin emosional-obrazlı qavranılması, təhlili məqsədi ilə istifadə edir. | • İfadəli oxudan şeiri emosional-obrazlı qavramaq və təhlil məqsədi ilə istifadə edir. |
| **1.1.4.** Müxtəlif ədəbi növ və janrda olan bədii nümunələrdə əksini tapan mühüm mənəvi, əxlaqi-etik dəyərləri müəyyənləşdirir. | • Müxəmməsdə əksini tapmış mənəvi dəyərləri müəyyənləşdirir. |
| **1.2.2.** Davranış və əməllərinə, başqaları ilə qarşılıqlı münasibətlərinə, yazıçının mövqeyinə, digər surətlərin mühakimələrinə əsaslanmaqla obrazları təhlil edir. | • Davranış və əməllərindən çıxış etməklə lirik qəhrəmanı təhlil edir. |
| **1.2.3.** Müxtəlif vəznli (heca, əruz, sərbəst) şeirlərdə, süjetli ədəbi nümunələrdə bədii təsvir və ifadə vasitələrinin obrazlılığın yaradılmasındakı rolunu aydınlaşdırır və münasibət bildirir. | • Şeirdəki məcazların obrazlılığın yaradılmasındakı rolunu aydınlaşdırır və münasibət bildirir. |
| **1.2.4.** Bədii nümunələrin mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün sosial-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə təhlil edir və nəticə çıxarır. | • Şeirin mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün mənəvi dəyərləri kontekstindən çıxış etməklə təhlil edir və nəticə çıxarır. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə səviyyəsi təqdimatların dinlənilməsi və müzakirəsi əsasında müəyyənləşdirilə bilər. Şagirdlərin hazırladıqları ikihissəli gündəliyin müzakirəsi əsərin məzmununun hansı səviyyədə mənimsənildiyi barədə müəllimin aydın təsəvvür qazanmasına imkan yaradır. Müzakirədə şagirdlərin fəallığı, öz mülahizələrini əsaslandırmaları diqqətdə saxlanılır.Müvafiq qiymətləndirmə meyarlarından istifadə olunur.

**Motivasiya, problemin qoyuluşu** mərhələsi ev tapşırığının yerinə yetirilmə səviyyəsinin yoxlanılması ilə qovuşur: *Şeirdə diqqətinizi daha çox cəlb edən nə oldu?* sualı əsasında aparılan müzakirə tədqiqat sualının formalaşdırılması ilə yekunlaşdırılır. Müəllim bu mərhələni fərqli variantlarda təşkil edə bilər.

**Tədqiqat sualı:** *"Guş qıl" müxəmməsini yazmaqda şairin başlıca məqsədi nədir?*

Fərziyyələr dinlənilir və qeyd edilir.

**Tədqiqatın aparılması.** Dərslikdəki sualların *(Qədim dövrlərdən bəri musiiqi xalqın, insanın həyatında necə yer tutmuşdur? Şeir hansı mövzuda yazılıb? Onun ideya-məzmunu üçün səciyyəvi olan xüsusiyyətlər hansılardır? Əsər hansı bədii keyfiyyətləri ilə diqqəti cəlb edir?)* və onların araşdırılmasına istiqamət verən mətnin oxusu ilə araşdırmaya başlanılır. Oxunu fərqli formalarda təşkil etmək mümkündür. Dərslikdəki mətnkənarı suallar kiçik qruplar bölüşdürülür. Qrupların sayı çox olarsa, iki qrup bir sualın üzərində işləyə bilər. Qruplara əsərin məzmunu üzrə öyrəndilərindən bəhrələnərək suallara yığcam cavab yazmaq tapşırılır.



LAYİHƏ

Birinci sualla *(Şeir hansı mövzuda yazılıb? Onun ideya-məzmunu üçün səciyyəvi olan xüsusiyyətlər hansılardır*) bağlı əldə edilmiş biliklərin mənbələrlə iş zamanı dərinləşdirilməsinə ehtiyac duyulan məqamlar çoxdur; bunlardan biri də musiqiyə münasibətdə avamlığın, cəhalətin tənqid olunmasıdır. Musiqi dinləməyi, tar çalmağı, rəqs etməyi haram sayan dayaz, savadsız ruhanilərin mövqeyini kəskin tənqid edən şair bu əsərdə oxucunu həyatdakı gözəlliyi duymağa, dünya nemətlərindən, musiqidən zövq almağa səsləyir. Şairin fikrincə, hər musiqi alətinin sədasındakı dərin mənanı, hikməti duymaq, həzz almaq, dəyərləndirmək lazımdır. Musiqinin insan həyatında rolundan, onu mənən zənginləşdirdiyindən, mənəvi həzz, sevinc bəxş etdiyindən söz açan şair dini rəvayəti xatırladır. İsa peyğəmbərin öz nəfəsi ilə ölüləri diriltdiyi kimi, musiqinin də insana yeni ruh verdiyini, qəlbindəki qəmi, kədəri silib nikbinlik aşıladığını, həyat sevgisi bəxş etdiyini söyləyir. "Dünya qəminə hasar çəkən" musiqini duyan, başa düşən insan arifdir, gözüaçıqdır, bədii zövq sahibidir. Musiqinin sirli, mənalı sədalarına laqeyd olan insan zövq əhli deyil, onu daş adlandırmaq daha doğrudur...

Mənbələr üzrə iş şagirdlərdə yaranmış belə qənaəti möhkəmləndirməlidir ki, insanın yaşamaq, yaratmaq həvəsini, nikbin ovqatını əks etdirən bu şeirdə musiqi insanı mənəviyyatca zənginləşdirən qüdrətli bir vasitə kimi tərənnüm edilib.

"*Əsər hansı bədii keyfiyyətləri ilə diqqəti cəlb edir*?" sualı ilə bağlı dərslikdəki mətndən şagirdlərə aydın olur ki, müxəmməs təkcə ideya-məzmununa görə deyil, həm də bədii xüsusiyyətlərinə görə də XIX əsr poeziyamızın dəyərli nümunəsidir. Sözlərin ustalıqla seçilərək misralarda yerləşdirilməsi, uğurlu qafiyələr və danışıq səslərinin yaratdığı ahəng şeirə təkrarsız bədii gözəllik vermişdir. Əsərdə məcazlardan (inversiya – Çəkmə aqilsən əgər dəhri-müxalif qəmini; bənzətmə – Tut bərabər dəmi-İsayə müğənni dəmini və s.) sənətkarlıqla istifadə edilmiş, fikrin canlı, təsirli ifadəsinə nail olunmuşdur. Şeirdə güclü ahəng yaradan, onun şifahi səslənməsinə ayrı bir gözəllik bəxş edən cəhət isə müəllifin rəməl bəhrindən böyük ustalıqla istifadə etməsidir. Dərslikdəki cədvəldə verilmiş misraların daxil olduğu bənd sinifdə oxunur və ahəngin yaranmasında bəhrin oynadığı rol barədə təsəvvür yaradılır.

İşin icrasına ayrılmış vaxt başa çatdıqdan sonra qruplar sualların dərslikdəki cavabları oxuyur və Venn diaqramından istifadə ilə yazdıqları ilə müqayisə edirlər.

Əsərin məzmunu ilə bağlı qazanılmış biliklərdən də istifadə edən qruplar hazırladıqları təqdimat əsasında **məlumat mübadiləsi** və **müzakirə** aparırlar. Bu mərhələdə bədii əsərdən nümunələrin gətirilməsinə xüsusi önəm verilir. Şeirin ilk iki bəndinin ifadəli oxusu üzrə iş təşkil edilir.

**Nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması** mərhələsində müəllimin istiqamətləndirici sualları şagirdlərin daha fəal olmasına imkan yaradır.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə müəyyənləşdirilmiş meyarlar əsasında aparılır.

*Qiymətləndirmə meyarları:*
İfadəlioxuma
Müəyyənləşdirmə
Təhliletmə
Aydınlaşdırma, münasibətbildirmə
Təhliletmə, nəticəçıxarma

LAYİHƏ

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| İfadəli oxunu şeirin emosional-obrazlı qavranılması və təhlili vastəsi kimi tətbiq etməkdə çətinlik çəkir. | İfadəli oxunu şeirin emosional-obrazlı qavranılması və təhlili vastəsi kimi müəllimin köməyilə tətbiq edir. | İfadəli oxunu şeirin emosional-obrazlı qavranılması və təhlili vastəsi kimi əsasən tətbiq edir. | İfadəli oxunu şeirin emosional-obrazlı qavranılması və təhlili vastəsi kimi tətbiq edir. |
| Müxəmməsdə əksini tapmış mənəvi dəyərləri müəyyənləşdirməkdə çətinlik çəkir. | Müxəmməsdə əksini tapmış mənəvi dəyərləri müəllimin köməyi ilə müəyyənləşdirir. | Müxəmməsdə əksini tapmış mənəvi dəyərləri, əsasən, müəyyənləşdirir. | Müxəmməsdə əksini tapmış mənəvi dəyərləri müəyyənləşdirir. |
| Davranış və əməllərindən çıxış etməklə lirik qəhrəmanı təhlil etməkdə çətinlik çəkir. | Davranış və əməllərindən çıxış etməklə lirik qəhrəmanı qismən təhlil edir. | Davranış və əməllərindən çıxış etməklə lirik qəhrəmanı, əsasən, təhlil edir. | Davranış və əməllərindən çıxış etməklə lirik qəhrəmanı təhlil edir. |
| Şeirdəki məcazların obrazlılığın yaradılmasındakı rolunu aydınlaşdırmaqda və münasibət bildirməkdə çətinlik çəkir. | Şeirdəki məcazların obrazlılığın yaradılmasındakı rolunu müəllimin köməyilə aydınlaşdırır, münasibət bildirməkdə çətinlik çəkir. | Şeirdəki məcazların obrazlılığın yaradılmasındakı rolunu, əsasən, aydınlaşdırır və münasibət bildirir. | Şeirdəki məcazların obrazlılığın yaradılmasındakı rolunu aydınlaşdırır və münasibət bildirir. |
| Şeirin mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün mənəvi dəyərləri kontekstindən çıxış etməklə təhlil etməkdə və nəticə çıxarmaqda çətinlik çəkir. | Şeirin mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün mənəvi dəyərləri kontekstindən çıxış etməklə suallar və müəllimin köməyi ilə təhlil edir və nəticə çıxarır. | Şeirin mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün mənəvi dəyərləri kontekstindən çıxış etməklə, əsasən, təhlil edir və nəticə çıxarır. | Şeirin mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün mənəvi dəyərləri kontekstindən çıxış etməklə təhlil edir və nəticə çıxarır. |

Müəllim dərslikdəki “Evdə iş” başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **Nəcəf bəy Vəzirovun həyatı, yaradıcılıq yolu** – 1 saat

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.2.1.** Müxtəlif vəznli şeirləri (heca, əruz, sərbəst) və süjetli bədii nümunələri (dastan, poema, hekayə, povest, roman, dram, komediya, faciə) janr, dil baxımından müqayisə edir. | • Müxəmməsi janr və dil baxımından qəzəllə müqayisə edir. |

LAYİHƏ

| | |
|---|---|
| **2.1.1.** Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla təqdimat və çıxışlarında obrazlı ifadələrdən istifadə edir. | • Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla mövzu, problemlə bağlı təqdimat və çıxışlarında obrazlı ifadələrdən istifadə edir. |
| **2.2.1.** Müzakirələrdə mövzuya, problemə, yazıçı mövqeyinə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. | • Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. |

## Dərsin gedişi

Ev tapşırığının *(1.Sinifdə öyrəndiklərinizi göstərilən mənbələrdən topladığınız məlumat əsasında zənginləşdirin. 2.Yazılı qeydlər əsasında şifahi təqdimata hazırlaşın. 3. Müxəmməsi sizə tanış olan qəzəllə (elektron vəsaitdən də seçə bilərsiniz) janr və dil baxımından müqayisə edin. Fikirlərinizi nümunələrlə əsaslandırın)* yerinə yetirilməsi səviyyəsi müsahibə, yaxud təqdimatların dinlənilməsi və müzakirəsi əsasında müəyyənləşdirilir. Təqdimatlarda hər mövzu ilə bağlı mənbələrdən hansı məzmunda məlumatın əldə edilməsi və onların nə dərəcədə əhəmiyyətli olması, müxəmməsin qəzəllə müqayisəsi üzrə işin necə yerinə yetirilməsi diqqət mərkəzində saxlanılır. Müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

**Motivasiya mərhələsinə** şagirdlərin N.Vəzirovla bağlı biliklərinin aşkara çıxarılması ilə başlanılır. Onlara dərslikdəki tapşırıq (*N.Vəzirov barədə bildiklərinizi yada salıb yığcam müzakirə aparın)* üzərində düşünmək təklif edilir. Şagirdlər ədəbiyyat fənnindən, əlavə mənbələrdən N.Vəzirov haqqında müəyyən məlumat mənimsəmiş olurlar. Bu, müzakirə zamanı N.Vəzirovla bağlı şagirdləri maraqlandıran digər məsələlərin aşkara çıxmasına imkan verir. Müzakirənin sonunda araşdırılacaq **problem müəyyənləşdirilir və sual şəklində ifadə olunur**: *Ədəbiyyatımızın zənginləşməsinə və inkişafına N.Vəzirovun verdiyi töhfə nədən ibarətdir?*

Mətn üzrə iş zamanı mətnkənarı sualların sayı qədər kiçik qruplar yaradılır.

Dərslikdəki mətnkənarı sualların (*Ədibin həyatı üçün səciyyəvi məqamlar hansılardır? Ədib yaradıcılığının ilk mərhələsində hansı mövzulara xüsusi önəm vermişdir? Dramaturqun 90-cı illərdə yazdığı əsərlər hansı xüsusiyyətləri ilə diqqəti cəlb edir? Burjua-kapitalist mühitindən bəhs edən əsərlərində hansı yeniliklər diqqəti cəlb edir?*) və onların aydınlaşdırılmasına istiqamət verən cavabların oxusu ilə araşdırmaya başlanılır. Qruplar onlara təklif edilmiş sualın dərslikdəki cavabı ilə tanış olduqdan sonra aşağıdakı işləri yerinə yetirirlər:

a) *İlk mətnkənarı sualın cavabını əhatə edən mətni qrupun üzvü ucadan və aydın şəkildə oxuyur.*
b) *Mətndəki əsas fikirləri ümumiləşdirərək bir neçə cümlə ilə ifadə edir.*
c) *Mətnə aid bir neçə sual verir. Cavablandırmada qrup üzvləri ilə yanaşı, bütün sinif iştirak edir.*
d) *Səthi qavranılmış çətin məqamlara aydınlıq gətirməyə çalışır.*
e) *Mətnə daha nələri əlavə etməyin lazım olduğu barədə fikrini bildirir.*

Sonrakı mətnkənarı sualların cavablarını da digər qrupların şagirdləri bu qayda ilə oxuduqdan sonra kiçik qrupların təqdimatı əsasında **fikir mübadiləsi və müzakirə aparılır.**

LAYİHƏ

Mətndə N.Vəzirovun həyatı, bədii yaradıcılığı ilə bağlı mühüm məqamlara yığcam münasibət bildirilmişdir. Mətn müəyyənləşdirilmiş problemin aydınlaşdırılmasına geniş imkan vermədiyindən araşdırmanın davam etdirilməsinə, cavabların əlavə mənbələrdən əldə edilən məlumatların hesabına genişləndirilməsinə, tamamlanmasına ehtiyac duyulur. Bu, nəzərə alınaraq istər oxuda, istərsə də müzakirədə mənbələrdən necə istifadə etməyin yolları şagirdlərə izah edilir.

**Təqdimatların mübadiləsi və müzakirəsi** zamanı N.Vəzirovun uşaqlıq illərinin ağır, kədərli bir şəraitdə keçməsi, təhsil almaq üçün Bakıya gəlməsi, dünyagörüşünün formalaşmasında müəllimi H.Zərdabinin rolu, Rusiyanın nüfuzlu ali məktəblərində təhsil alması, Vətənə qayıtdıqdan sonra meşəbəyi kimi fəaliyyət göstərməsi, mütərəqqi baxışlarına görə çar hakimiyyət orqanları tərəfindən siyasi cəhətdən etibarsız sayılıb işdən azad edilməsi, Bakıda maarifçilik fəaliyyətini davam etdirməsi, səmərəli bədii yaradıcılığı ilə böyük nüfuz qazanması və s. xüsusi diqqət yetirilməli olan məsələlərdir.

Mətndəki məlumatın mənbələr əsasında zənginləşdirilməsi ilə bağlı müzakirədə aşağıdakı məsələlərə daha çox diqqət yetirmələri məqsədəuyğundur:

- N.Vəzirov Bakı realnı məktəbində;
- Peterburq və Moskva mühitinin ədibin demokratik baxışlarının formalaşmasına təsiri;
- N.Vəzirovun meşəbəyi kimi fəaliyyəti;
- dramaturq kimi fəaliyyətə başlamasının səbəbləri, ilk komediyaları;
- hakim dairələr tərəfindən “şübhəli adam” sayılmasının səbəbləri;
- Bakı mühitində vəkillik və maarifçilik fəaliyyəti;
- ədəbi fəaliyyətinin 40 illik yubileyinin təntənəli şəkildə keçirilməsi;
- yaradıcılığının müxtəlif mərhələlərində yazdığı dramatik əsərlərinin mövzu, ideya, janr xüsusiyyətləri;

Əsaslandırılmış **nəticələrin** çıxarılmasında müəllimin istiqamətləndirici sualları əhəmiyyətli rol oynayır. Şagirdlərdə bu qənaət yaradılır ki, ədibin dramatik əsərlərində qoyulmuş problemlər ictimai həyatın özündə mövcud olan real ziddiyyətlərdən doğur.Dramaturq sənətkarlıqla yaşadığı cəmiyyətdə milli həyatın dərin qatlarına enir, cəmiyyətin həyatının komik və faciəvi cəhətlərini əks etdirir. Onun başlıca tənqid hədəfləri milli məişətdə, ictimai həyatda kök salmış ictimai-əxlaqi kəsirlər, adətlər, mənəvi miskinlik, avamlıq, fanatizmdir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə müəyyənləşdirilmiş meyarlar əsasında aparılır.

*Qiymətləndirmə meyarları:* Müqayisəetmə

İstifadəetmə

Əsaslandırma, nümayişetdirmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Müxəmməsi janr və dil baxımından qəzəllə müqayisə etməkdə çətinlik çəkir. | Müxəmməsi janr və dil baxımından qəzəllə müəllimin köməyi ilə müqayisə edir. | Müxəmməsi janr və dil baxımından qəzəllə, əsasən, müqayisə edir. | Müxəmməsi janr və dil baxımından qəzəllə müqayisə edir. |



LAYİHƏ

| | | | |
|---|---|---|---|
| Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla mövzu, problemlə bağlı təqdimat və çıxışlarında obrazlı ifadələrdən istifadə etməkdə çətinlik çəkir. | Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla mövzu, problemlə bağlı təqdimat və çıxışlarında suallar və müəllimin köməyi ilə obrazlı ifadələrdən istifadə edir. | Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla mövzu, problemlə bağlı təqdimat və çıxışlarında, əsasən, obrazlı ifadələrdən istifadə edir. | Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla mövzu, problemlə bağlı təqdimat və çıxışlarında obrazlı ifadələrdən istifadə edir. |
| Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırmaqda, fərqli fikirlərə dözümlülük nümayiş etdirməkdə çətinlik çəkir. | Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini suallar və müəllimin köməyi ilə əsaslandırır, fərqli fikirlərə qismən dözümlülük nümayiş etdirir. | Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə, əsasən, dözümlülük nümayiş etdirir. | Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. |

Müəllim dərslikdəki “Evdə iş” başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **Nəcəf bəy Vəzirov. Müsibəti-Fəxrəddin (ixtisarla)** – 4 saat

*Birinci saat:* **Məzmun üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.1.1.** Müxtəlif vəznli şeirlərdə (heca, əruz, sərbəst) və süjetli əsərlərdə (dastan, poema, hekayə, povest, roman, dram, komediya, faciə) tanış olmayan sözlərin mənasını mənşəyinə və işlənmə məqamına görə izah edir. | • Faciədə tanış olmayan sözlərin mənasını mənşəyinə və işlənmə məqamına görə izah edir. |
| **1.1.5.** Müxtəlif vəznli (heca, əruz) şeirlərdə, mürəkkəb süjet və kompozisiyalı bədii nümunələrdə bədii təsvir və ifadə vasitələrini (epitet, bənzətmə, metafor, metonimiya, simvol, mübaliğə, litota, bədii sual, təkrir, bədii təzad, inversiya) müəyyənləşdirir. | • Faciədə məcazları müəyyənləşdirir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi müxtəlif yollarla aşkara çıxarıla bilər. Vaxta qənaət baxımından müsahibə və ya təqdimatların dinlənilməsi, müzakirəsi həyata keçirilə bilər. Bütün hallarda şagirdlərin mənbələrdən necə bəhrələndiyinin, dərslikdəki məlumatlarla necə əlaqələndirdiklərinin aşkara çıxarılmasına önəm verilir. Bu prosesdə müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.



LAYİHƏ

**Motivasiya, problemin qoyuluşu** mərhələsini fərqli məzmunda təşkil etmək mümkündür. Məsələn, internetdən istifadə ilə Azərbaycan televiziyasının N.Vəzirovun həyat və yaradıcılığına həsr olunmuş "Palıd ömrü" filmindən bir fraqmenti *(https://www.youtube.com/watch?v=ihEWWmUCiDQ)* nümayiş etdirməklə müzakirə aparmaq və tədqiqat sualını formalaşdırmaq olar.

Suallardan istifadə yolu ilə motivasiya yaratmağı qarşısına məqsəd qoyan müəllim şagirdlərin ədəbiyyat, tarix dərslərindən, müxtəlif mənbələrdən əldə etdikləri məlumatlara əsaslanmaqla XIX yüzillik Azərbaycan cəmiyyəti üçün səciyyəvi olan cəhətləri xatırlamalarına nail olur. Bu istiqamətdə aparılan yığcam müsahibə tədqiqat sualının müəyyənləşdirilməsi ilə tamamlanır.

**Tədqiqat sualı:** *Mədəni geriliyin güclü olduğu şəraitdə köhnəliklə yenilik arasında mübarizə hansı məzmunda ola bilər?*

Fərziyyələr dinlənilir və qeyd edilir.

Oxuya hazırlıq mərhələsində şagirdlərə aşağıdakı suallar üzərində düşünmək, cavablarını cədvəldə qeyd etmək tapşırığı verilir:

- "Tərəqqipərvər" sözünün mənasını necə başa düşürsünüz?
- Sizcə, tərəqqipərvər insan hansı qüvvələrə qarşı mübarizə aparmalı olur?
- Tərəqqipərvər insanda hansı müsbət cəhətlər olmalıdır?

Sualların cavabları üzrə fikir mübadiləsi, müzakirə aparılır. Əsərdən verilmiş parçanın oxusu aşağıdakı qaydada təşkil olunur:

1. Bir səhifə həcmində mətn rollar üzrə oxunur.
2. Müəyyənləşdirilmiş cütlər mətni oxuyanlara növbə ilə suallar verir. Cavablar cütləri qane etməsə, digər şagirdlərin cavabları dinlənilir.
3. Cütlər və mətni oxuyanlar əvəz edilir və sonrakı səhifələrin oxusu da bu qayda ilə davam etdirilir.
4. Nəzərdə tutulan parçanın oxusu başa çatdırıldıqdan sonra tanış olmayan sözlərin mənası və məcazlar müəyyənləşdirilir.

Oxu prosesini müşahidə edən müəllim ortaya çıxan çətinlikləri istiqamətləndirici suallarla aradan qaldırır. Şagirdlər kiçik qruplarda birləşərək hər məclisin məzmunu, tanış olmayan söz və məcazlarla bağlı qənaətlərini bölüşür, aşağıdakı sualları da əhatə etməklə təqdimata hazırlaşırlar:

– Rüstəm bəy monoloqunda özünü necə təqdim edir?
– Rüstəm bəyin nökərləri çağırmaqda məqsədi nə idi?
– Mahmud bəy atasının qisas almaq təklifinə necə münasibət bəsləyir?
– Səadət atasının niyyətini biləndə hansı tədbirə əl atır?
– Fəxrəddin bəy gələcək fəaliyyəti, planları barədə nə deyir?
– Mələk xanım və Şahmar bəy Fəxrəddinə nə təklif edirlər?
– Fəxrəddinin qan davasına münasibəti necə olur?
– Hürü nənənin gətirdiyi xəbər Fəxrəddinə necə təsir edir?
– Fəxrəddin onu əhatə edən mühit haqqında hansı fikirdədir, onun sözləri hansı mənəvi-əxlaqi dəyərləri xatırladır?

Bu işlər yekunlaşdırıldıqdan sonra təqdimatlar əsasında **məlumat mübadiləsi və müzakirə** aparılır. Müəllim istiqamətləndirici suallardan istifadə etməklə təqdimatların fəal dinlənilməsinə, müzakirənin səmərəli keçməsinə nail olur.

LAYİHƏ

Oxu ilə bağlı aparılmış işə yekun (əsərin məzmunu bütövlükdə öyrənildikdən sonra – ikinci dərs saatında nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması həyata keçirilir) vurulur.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə müəyyənləşdirilmiş meyarlar əsasında aparılır.

*Qiymətləndirmə meyarları:*

İzahetmə, əsaslandırma, nümayişetdirmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Tanış olmayan sözlərin mənşəyinə və işlənmə məqamına görə mənasını izah etməkdə çətinlik çəkir. | Tanış olmayan sözlərin mənşəyinə və işlənmə məqamına görə mənasını suallar verməklə və kömək əsasında izah edir. | Tanış olmayan sözlərin mənşəyinə və işlənmə məqamına görə mənasını, əsasən, izah edir. | Tanış olmayan sözlərin mənşəyinə və işlənmə məqamına görə mənasını izah edir. |
| Faciədə məcazları müəyyənləşdirməkdə çətinlik çəkir. | Faciədə məcazları suallar verməklə və kömək əsasında müəyyənləşdirir. | Faciədə məcazları, əsasən, müəyyənləşdirir. | Faciədə məcazları müəyyənləşdirir. |

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **Nəcəf bəy Vəzirov. Müsibəti-Fəxrəddin (ixtisarla) –** 4 saat

*İkinci saat:* **Məzmun üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.1.1.** Müxtəlif vəznli şeirlərdə (heca, əruz, sərbəst) və süjetli əsərlərdə (dastan, poema, hekayə, povest, roman, dram, komediya, faciə) tanış olmayan sözlərin mənasını mənşəyinə və işlənmə məqamına görə izah edir. | • Faciədə tanış olmayan sözlərin mənasını mənşəyinə və işlənmə məqamına görə izah edir. |
| **1.1.4.** Müxtəlif ədəbi növ və janrda olan bədii nümunələrdə əksini tapan mühüm mənəvi, əxlaqi-etik dəyərləri müəyyənləşdirir. | • Faciədə əksini tapmış mühüm mənəvi, əxlaqi-etik dəyərləri müəyyənləşdirir. |
| **1.1.5.** Müxtəlif vəznli (heca, əruz) şeirlərdə, mürəkkəb süjet və kompozisiyalı bədii nümunələrdə bədii təsvir və ifadə vasitələrini (epitet, bənzətmə, metafor, metonimiya, simvol, mübaliğə, litota, bədii sual, təkrir, bədii təzad, inversiya) müəyyənləşdirir. | • Faciədə məcazları müəyyənləşdirir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi yığcam müsahibə ilə aşkara çıxarılır. Faciənin məzmununun müstəqil oxu zamanı hansı səviyyədə qavranıldığı, tanış olmayan sözlərin, məcazların necə müəyyənləşdirildiyi aydınlaşdırılır.

Müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

LAYİHƏ

**Tədqiqatın aparılması** mərhələsində əsərin məzmunu üzrə iş davam etdirilir. Belə ki, dərslikdə təklif edilmiş birinci tapşırıqda faciənin III–VI məclislərinin məzmununun dərindən mənimsənilməsinin təmin edilməsi nəzərdə tutulur. Şagirdlər bu tapşırıqları fərdi olaraq yerinə yetirirlər:

1. Faciənin 3-6-cı məclislərində ifadə olunmuş mühüm fikirləri qeyd edin.
2. Seçdiyiniz məcazların növünü müəyyənləşdirin. Onları daha maraqlı hesab etməyinizə səbəb nədir?

Şagirdlər məclislərin məzmunu, orada ifadə olunmuş mühüm fikirlər və məcazlarla bağlı qənaətlərini bölüşürlər. Faciədən seçilmiş nümunələr müəllifin canlı danışıq dilindən necə faydalandığını, orijinal məcazlar işlətdiyini təsdiq edir: "İndi mən ağzından süd iyi gələn cavandan qorxacağam?", "Qabağımda dovşan tazı qabağından qaçan kimi vazıyırdı", "Bu papaq mənə övrət ləçəyi olsun", "Yaraların yadıma düşəndə dünyavüaləm başıma aylanır, bədənim od tutub yanır, başımdan tüstü çıxır", "Oğul, oğul! Sənin qanını yerdə qoymaram, oğul!", "Hazırsanmı Heydər bəyin evin tar-mar eləməyə, yurdunda bayquş ulatmağa, Rəşid bəyin qanın almağa?", "Fəxrəddinin başından bir tük əskik oluncan, mənim iki gözlərim kor olsun!", "Çünki oldun dəyirmançı, çağır gəlsin dən Koroğlu!", "Yazıqlar şir kimi əlləşdilər, olmadı", "Mahmud, Mahmud... Niyə danışmırsan, ay başına dönüm?"

Əsərin məzmunu üzrə aşağıdakı suallara cavabların hazırlanması ilə tədqiqat davam etdirilir:

a) Mahmud bəylə bağlı təəssüratınıza yeni nə əlavə olundu?
b) Məhərrəmin davranışı, Fəxrəddin bəyə münasibəti sizdə hansı təəssürat yaratdı?
c) Mahmud bəyin ölümünə Rüstəm bəyin münasibəti sizdə hansı hiss və düşüncə yaratdı?
ç) Fəxrəddin bəy öz faciəsinin səbəbini nədə görür? Onunla razısınızmı?
d) Səadət xanımın qərarı onunla bağlı təəssüratınıza yeni nə əlavə etdi?
e) Əsər mənəvi-əxlaqi dəyərlər barədə danışmağa əsas verir?

Kiçik qruplarda birləşən şagirdlər qənaətlərini dəqiqləşdirib ümunmiləşdirir, təqdimata hazırlaşırlar. Qrupların təqdimatları əsasında **məlumat mübadiləsi** və **müzakirə** aparılır. Təqdimatların fəal dinlənilməsi təmin edilir. Müzakirədə daha çox şagirdin iştirakına və onun diskussiya səciyyəli olmasına diqqət yetirilir.

**Nəticənin** çıxarılması, **ümumiləşdirmənin** aparılmasında müəllim istiqamətləndirici suallardan istifadə edir. Nəticələrin fərziyyələrlə müqayisə edilməsinə vaxt ayrılır.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə müəyyənləşdirilmiş meyarlar əsasında aparılır.

*Qiymətləndirmə meyarları:* İzahetmə, Müəyyənləşdirmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Tanış olmayan sözlərin mənşəyinə və işlənmə məqamına görə mənasını izah etməkdə çətinlik çəkir. | Tanış olmayan sözlərin mənşəyinə və işlənmə məqamına görə mənasını suallar verməklə və kömək əsasında izah edir. | Tanış olmayan sözlərin mənşəyinə və işlənmə məqamına görə mənasını, əsasən, izah edir. | Tanış olmayan sözlərin mənşəyinə və işlənmə məqamına görə mənasını izah edir. |



LAYİHƏ

| | | | |
|---|---|---|---|
| Faciədə əksini tapmış mühüm mənəvi, əxlaqi-etik dəyərləri müəyyənləşdirməkdə çətinlik çəkir. | Faciədə əksini tapmış mühüm mənəvi, əxlaqi-etik dəyərləri müəllimin köməyi ilə müəyyənləşdirir. | Faciədə əksini tapmış mühüm mənəvi, əxlaqi-etik dəyərləri, əsasən, müəyyənləşdirir. | Faciədə əksini tapmış mühüm mənəvi, əxlaqi-etik dəyərləri müəyyənləşdirir. |
| Faciədə məcazları müəyyənləşdirməkdə çətinlik çəkir. | Faciədə məcazları suallar verməklə və kömək əsasında müəyyənləşdirir. | Faciədə məcazları, əsasən, müəyyənləşdirir. | Faciədə məcazları müəyyənləşdirir. |

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **Nəcəf bəy Vəzirov. Müsibəti-Fəxrəddin (ixtisarla) –** 4 saat
*Üçüncü saat:* **Təhlil üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.2.1.** Müxtəlif vəznli şeirləri (heca, əruz, sərbəst) və süjetli bədii nümunələri (dastan, poema, hekayə, povest, roman, dram, komediya, faciə) janr, dil baxımından müqayisə edir. | • Faciəni janr və dil baxımından komediya ilə müqayisə edir. |
| **1.2.2.** Davranış və əməllərinə, başqaları ilə qarşılıqlı münasibətlərinə, yazıçının mövqeyinə, digər surətlərin mühakimələrinə əsaslanmaqla obrazları təhlil edir. | • Davranış və əməllərindən, başqaları ilə qarşılıqlı münasibətlərindən, digər surətlərin mühakimələrindən çıxış etməklə faciədəki qəhrəmanları təhlil edir. |
| **1.2.4.** Bədii nümunələrin mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün sosial-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə təhlil edir və nəticə çıxarır. | • Faciənin mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün social-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə təhlil edir və nəticə çıxarır. |
| **2.2.1.** Müzakirələrdə mövzuya, problemə, yazıçı mövqeyinə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. | • Faciə ilə bağlı müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi fərqli yollarla müəyyənləşdirilə bilər. Yığcam və yaradıcı nağıletmə nümunələri dinlənilib müzakirə edilir. Şagirdlərin bu qəbildən nağıletmələrə verilən tələblərə nə dərəcədə əməl etdiklərinə diqqət yetirilir. Bir neçə təqdimatın dinlənilib müzakirə edilməsi məzmunun hansı səviyyədə qavranıldığını, tapşırığın icra vəziyyətini aydın təsəvvür etməyə imkan yaradır. Bu mərhələdə müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu.** Bu mərhələdə işi fərqli variantlarda təşkil etmək olar. Variantlardan biri suallardan istifadə ola bilər. Şagirdlərə

LAYİHƏ

N.Vəzirovun  maarifçilik görüşlərini və fəaliyyətini xatırlamağı təklif edən müəllim yığcam müsahibənin sonunda tədqiqat sualını formalaşdırır.

Digər bir variant isə internetdən istifadə ilə "Palıd ömrü" filmindən (*https://www.youtube.com/watch?v=ihEWWmUCiDQ)*  "Müsibəti-Fəxrəddin" faciəsi ilə bağlı kadrların nümayiş etdirilməsi və müzakirəsi ola bilər.

**Tədqiqat sualı:** *Fəxrəddin bəyin faciəsinin əsl səbəbi, sizcə, nədir?*

Fərziyyələr dinlənilir, təkrara yol verilmədən qeyd edilir.

**Araşdırmanın** bir variantı dərslikdə faciənin məzmunu ilə bağlı təklif edilmiş tapşırığın yerinə yetirilməsi ola bilər. Şagirdlər dərslikdəki təhlillə bağlı mətni fərdi olaraq oxuyur, tapşırıqları ardıcıllıqla yerinə yetirirlər. Fəxrəddin, Rüstəm bəy, Səadət xanım obrazlarının "xarakterlər xəritəsi" əsasında səciyyələndirilməsi, əsərin mövzusunun, qaldırılmış mühüm problemlərin, konfliktin müəyyənləşdirilməsi bədii təsvir və ifadə vasitələrinin rolunun izah edilməsi, komediya ilə müqayisə etməklə əsərin faciə janrında olmasının əsaslandırılması, ədəbiyyatşünas alimlərin fikirlərinə münasibət bildirilməsiüzrə tapşırıqların icrası faciənin ideyasının müəyyənləşdirilməsi baxımından çox əhəmiyyətlidir.

Kiçik qruplarda birləşən şagirdlər öz qənaətlərini bölüşür, ümumiləşdirmə aparırlar.Təqdimatlar əsasında fikir mübadiləsi və müzakirə təşkil edilir.

Digər bir variant aşağıdakı şəkildə ola bilər.

Dərslikdəki sualların *(Faciə hansı mövzuda yazılmışdır? Əsərdə qaldırılmış problemlər və konflikt üçün özəl olan cəhətlər hansılardır? Faciədəki obrazları xarakter, davranış və əməllərinə görə fərqləndirən başlıca cəhətlər hansılardır? Əsərdə bədiiliyi, obrazlılığı təmin edən başlıca vasitələr hansılardır? Dramaturqun bu əsəri yazmaqda başlıca niyyəti nə olmuşdur?)* və onların araşdırılmasına istiqamət verən cavabların oxusu ilə tədqiqat işinə başlanılır. Həcmi böyük olmayan mətnin fərdi oxusunu təşkil etmək məqsədəuyğundur. Oxuya başlamazdan əvvəl şagirdlərə məzmunla bağlı mənimsədikləri məlumatdan necə bəhrələnməyin lazım olduğu barədə istiqamət verilir. Birinci sualla əlaqədar nəzərə alınmalıdır ki, 1896-cı ildə yazılmış "Müsibəti-Fəxrəddin" ədəbiyyatımızda ilk faciə hesab olunur. Şagirdlərin faciə janrında yazılmış əsərlə birinci dəfə tanış olduqları nəzərə alınaraq, dərslikdəki lüğətdən bu janr haqqında məlumatı oxumaq və ona münasibət bildirmək təklif olunur.

Əsərin mövzusu, başlıca konflikti, əsas ideyası ilə bağlı sual, ilk növbədə, mədəni geriliyin, nadanlığın, şərin doğurduğu ictimai bəlalara müəllifin münasibətini aydınlaşdırmağı nəzərdə tutur. Bu mövzuya ədib birdən-birə gəlməmişdir. O, nadanlığın doğurduğu gülünc vəziyyəti əks etdirən əsərlər yazmışdır. "Müsibəti-Fəxrəddin"də dramaturq nadanlığın, cəhalətin törətdiyi faciəni təsvir etməklə çıxış yolunun yeni həyat tərzində, maarifçilikdə olduğunu göstərmək istəmişdir. Əslində, dramaturqun məqsədi iki mülkədar ailəsi arasında qan düşmənçiliyini əks etdirmək deyil, cəhalətin tüğyan etdiyi elmsiz cəmiyyətə qarşı çıxmaqdır. Fəxrəddinin sözləri bu baxımdan müəllif qayəsini dolğun ifadə edir: "Rüstəm bəydə günah yoxdur: elmdə, sənətdə geri qalan millət, bizim günümüzə düşər".



LAYİHƏ

Müəllif yeni dövrün tələblərinə uyğunlaşmayıb köhnə əxlaq və davranış normaları ilə yaşayan, maarifə, elmə arxa çevirən cəmiyyətin faciəsinin qaçılmaz olduğunu təsdiq edir.

Bu məsələ ilə əlaqədar şagirdlərə Yaşar Qarayevin aşağıdakı fikrinə münasibət bildirmək təklif oluna bilər: "Əsərdə nadanlıqla cəmiyyət, köhnələn adət və bu adətlə yaşamaq istəməyən insanlar arasındakı ziddiyyət yüksək tragik sədlərə qaldırılır və ən kəskin çarpışmalar, sərt dramatik toqquşmalar üsulu ilə həll edilir".

Dərslikdəki növbəti sual – *Faciədəki obrazları xarakter, davranış və əməllərinə görə fərqləndirən başlıca cəhətlər hansılardır?* əsərin obrazlar üzrə təhlilinin aparılmasını nəzərdə tutur. Müzakirə zamanı obrazların daxili aləmi, düşüncələri, hərəkət motivləri, nitqi dərindən araşdırılır. Rüstəm bəyin xarakteri, dünyagörüşü, qan tökmək, yurd dağıtmaq hərisliyi əsərin ilk səhifəsindəcə üzə çıxır. Dramaturq tipin öz dili ilə özünüifşa üsulunu seçərək onun təbiətini açmaqla yanaşı, gələcək faciəli hadisələrə də işarə etmişdir.

Fəxrəddin bəyi qabaqcıl maarifçiləri təmsil edən obraz kimi təhlil etməyə istiqamətləndirən müəllim onun dünyagörüşünün, maarifçilik ideyalarının açıqlanmasına xüsusi diqqət yetirir. Dövrün ictimai bəlalarının aydınlaşdırılması isə Fəxrəddinin faciəsinin əsl səbəblərinin başa düşülməsinə əhəmiyyətli dərəcədə təsir edir.

Səadət xanım şər qüvvələrə qarşı çıxan mütərəqqi dünyagörüşlü, yeni həyat tərzinə sadiq gəncliyin təmsilçisidir. Bu obrazın təhlili zamanı onun qara qüvvələrə qarşı çıxması, Fəxrəddinin arzularının həyata keçirilməsini öz həyat amalına çevirməsi, xüsusən əsərin sonundakı monoloquna münasibət bildirilməsi məqsədəuyğundur.

Əsərdəki Mələk xanım, Mahmud bəy, Şahmar bəy və digər obrazların təhlili zamanı onların daxili aləmi, dünyagörüşü, nitqi, baş verən hadisələrə, digər surətlərə münasibətləri diqqət mərkəzində saxlanılır.

Növbəti – *Əsərdə bədiiliyi, obrazlılığı təmin edən başlıca vasitələr hansılardır?* sualı ilə əlaqədar faciənin mətnindən nümunələr gətirilərək belə bir qənaət yaradılır ki, N.Vəzirovun tənqidi realizmin tələblərinə uyğun olaraq, əsərdəki obrazları öz xarakterinə, tutduğu mövqeyə, dünyagörüşünə uyğun dildə danışdırmışdır. Faciədəki monoloq və dialoqlarda canlı danışıq dilinə uyğunluq, sadəlik, mənalılıq və yığcamlıq gözlənilmişdir. Obrazların nitqi hadisələrin gedişində vəziyyətə uyğun olaraq, fərqli, yeni çalarlar kəsb edir. Məsələn, əsərin əvvəlində öz "şücaətləri" ilə öyünən, kəskin, ötkəm danışığı ilə seçilən, özünü "Rüstəmi-zəmanə" adlandıran Rüstəm bəy ikinci oğlu öldürüldükdən sonra dərin sarsıntı içində acizliyini, bağışlanmaz günahını bu dillə etiraf edir: "Bircə səsini çıxart, ay oğul! Malımdövlətim sənə qurban, ay oğul! Evimə od düşəydi, Mahmud, dilim quruyaydı, Mahmud!... Ay gədə, o xəncəri sox mənim ürəyimin başına, atam sənə qurban!.. Məni öldürün, ay camaat, mən biimanı dünyada sağ qoymayın!.. Başınıza dönüm... Mahmud…Mahmud!.. Ev-eşiyimə bu saat od vuracağam, Mahmud! Səndən sonra mənə heç zad lazım deyil, Mahmud!.. Əhməd! Əhməd! Od gətir, küləş gətir, yurdumu gərək xaraba qoyam! *(Gedə-gedə)* Uy, Mahmud, uy Mahmud, belimi sındıran oğul!"

LAYİHƏ

Şagirdlərin diqqəti əsərin köhnəliyin təmsilçisi olan Rüstəm bəyin qan intiqamına susadığını əks etdirən monoloqu ilə başlaması (ekspozisiya) və finalının yeni, mütərəqqi gəncliyin nümayəndəsi olan Səadət xanımın ibrətamiz monoloqu ilə bitməsinin rəmzi mənasına yönəldilir, süjetin digər mərhələlərinin müəyyənləşdirilməsi üzrə iş təşkil edilir.

Sonuncu sual – *Dramaturqun bu əsəri yazmaqda başlıca niyyəti nə olmuşdur?* sualı ilə əlqədar belə nəticəyə gəlinir ki, XIX əsrin sonunda yetişən qabaqcıl fikirli, maarifçi gənc ziyalıların ictimai bəlalara qarşı mübarizəsi, faciələrə səbəb olan köhnəlmiş adət-ənələrin, cəhalətin tənqidi müəllifin başlıca niyyətini təşkil edir.

Müəllimin təklifi ilə kiçik qruplarda birləşən şagirdlər fikir mübadiləsi aparır, öyrəndiklərini dəqiqləşdirirlər. Tədqiqata ayrılmış vaxt başa çatdıqdan sonra kiçik qrup sözçülərinin təqdimatları əsasında **məlumat mübadiləsi** və **müzakirə** aparılır. Təqdimatların fəal dinlənilməsini təşkil edən müəllim, diqqəti əsərdəki faciəvi məqamlara, şagirdlərin mübahisəli mülahizələrinə yönəltməklə müzakirənin diskussiya səciyyəli olmasına istiqamət verir.

Həm məlumat mübadiləsində, həm də müzakirədə hansı məsələləri mənbələr əsasında zənginləşdirməyin, tamamlamağın lazım olduğu barədə şagirdlərdə təsəvvür yaradılır. Müəllimin istiqamətləndirici sualları dolğun **nəticənin** çıxarılmasına, **ümumiləşdirmənin** aparılmasına imkan yaradır. Nəticənin irəli sürülmüş fərziyyələrlə müqayisəsinə diqqət yetirilir.

*Ev tapşırığı qismində mənbələr üzrə həyata keçirilən müstəqil araşdırma aşağıdakı istiqamətlərdə dolğun təsəvvürün qazanılmasına səbəb olmalıdır:*

– *əsərin ədəbiyyat tariximizdə faciə janrında yazılmış ilk əsər kimi ədəbi-tarixi əhəmiyyəti;*
– *faciənin klassik nümunəsi olmaqla teatr sənətinin və dramaturgiyamızın sonrakı inkişafına müsbət təsiri;*
– *faciənin realist əsər kimi insanların şüurunda köhnəlik qalıqlarına, nadanlığa, cəhalətə qarşı kəsərli silah olması.*

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə müəyyənləşdirilmiş meyarlar əsasında aparılır.

*Qiymətləndirmə meyarları:* Müqayisetmə, təhliletmə, nəticəçıxarma, əsaslandırma, nümayişetdirmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Faciəni janr və dil baxımından komediya ilə müqayisə etməkdə çətinlik çəkir. | Faciəni janr və dil baxımından komediya ilə müəllimin köməyi ilə müqayisə edir. | Faciəni janr və dil baxımından komediya ilə, əsasən, müqayisə edir. | Faciəni janr və dil baxımından komediya ilə müqayisə edir. |
| Faciədəki ədəbi qəhrəmanları davranış və əməllərinə, başqaları ilə qarşılıqlı münasibətlərinə, digər surətlərin mühakimələrinə əsaslanmaqla təhlil etməkdə çətinlik çəkir. | Faciədəki ədəbi qəhrəmanları davranış və əməllərinə, başqaları ilə qarşılıqlı münasibətlərinə, digər surətlərin mühakimələrinə əsaslanmaqla qismən təhlil edir. | Faciədəki ədəbi qəhrəmanları davranış və əməllərinə, başqaları ilə qarşılıqlı münasibətlərinə, digər surətlərin mühakimələrinə əsaslanmaqla, əsasən, təhlil edir. | Faciədəki ədəbi qəhrəmanları davranış və əməllərinə, başqaları ilə qarşılıqlı münasibətlərinə, digər surətlərin mühakimələrinə əsaslanmaqla təhlil edir. |

LAYİHƏ

| | | | |
|---|---|---|---|
| Faciənin mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün sosial-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə təhlil etməkdə və nəticə çıxarmaqda çətinlik çəkir. | Faciənin mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün sosial-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə suallar və müəllimin köməyi ilə təhlil edir və nəticə çıxarır. | Faciənin mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün sosial-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə, əsasən, təhlil edir və nəticə çıxarır. | Faciənin mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün sosial-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə təhlil edir və nəticə çıxarır. |
| Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırmaqda, fərqli fikirlərə dözümlülük nümayiş etdirməkdə çətinlik çəkir. | Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini suallar və müəllimin köməyi ilə əsaslandırır, fərqli fikirlərə qismən dözümlülük nümayiş etdirir. | Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə, əsasən, dözümlülük nümayiş etdirir. | Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. |

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* **Nəcəf bəy Vəzirov. Müsibəti-Fəxrəddin (ixtisarla) –** 4 saat
*Dördüncü saat:* **Tətbiq. Müzakirə. Yaradıcı iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **2.1.2**. Obrazların nitqinə istinad edərək yazıçı mövqeyi ilə bağlı fikirlərini əsaslandırır. | • Faciədəki obrazların nitqindən çıxış etməklə müəllifin mövqeyinə münasibətini əsaslandırır. |
| **3.1.1.** Yaradıcı yazıların məzmununa uyğun üslub müəyyənləşdirir, müxtəlif mənbələrdən seçdiyi inandırıcı faktlardan istifadə edir. | • İnşanın, essenin məzmununa uyğun üslub müəyyənləşdirir, müxtəlif mənbələrdən seçdiyi inandırıcı faktlardan istifadə edir. |
| **3.1.2.** Müşahidələrinə, əlavə məlumatlara əsaslanmaqla əsərin ideyasına, probleminə münasibət bildirir, ümumiləşdirmələr aparır, nəticə çıxarır. | • Müşahidələrinə, əlavə məlumatlara əsaslanmaqla faciənin ideyasına, probleminə münasibət bildirir, ümumiləşdirmələr aparır, nəticə çıxarır. |
| **3.1.3.** 3-3,5 səhifə həcmində nəqli, təsvir, təhlil xarakterli mətnlər (ədəbi və sərbəst mövzuda inşa, esse, məruzə) yazır. | • Təhlil xarakterli inşa, nəqli xarakterli esse yazır. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi müsahibə, təqdimatların dinlənilməsi və müzakirəsi əsasında müəyyənləşdirilə bilər. Mənbələrdən toplanmış məlumatların hansı səviyyədə mənimsənilməsi, dərslikdən öyrənilənlərlə necə əlaqələndirilməsi diqqət mərkəzində saxlanılır. Bu prosesdə müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

LAYİHƏ

**Motivasiya, problemin qoyuluşu.** Şagirdlərin diqqəti dərslikdə inşa və esse üçün təklif olunmuş mövzulara yönəldilir: a*) Müasir həyatda yeniliklə köhnəliyin mübarizəsini nədə görürəm (təhlil xarakterli inşa); b) Fəxrəddinin arzuları, əməlləri, taleyi məndə hansı düşüncələr oyatdı (nəqli xarakterli esse).*

Şagirdlərin inşa və esse ilə bağlı bilik və bacarıqlarının yada salınması məqsədi ilə yığcam müsahibə aparılır. Bu, tədqiqat sualının formalaşdırılması ilə yekunlaşdırılır.

**Tədqiqat sualı:** *Təhlil xarakterli inşa və nəqli xarakterli essenin başlıca xüsusiyyətləri hansılardır?*

Fərziyyələr dinlənilir və qeyd edilir.

Yazı işlərinin yerinə yetirilməsi **tədqiqatın aparılması** mərhələsi kimi qəbul olunur.

Yazı işlərinin mövzusu, xarakteri ilə bağlı yığcam müsahibə aparılır. Təhlil xarakterli inşada müxtəlif mənbələrdən seçilmiş faktlardan necə istifadə ediləcəyinə aydınlıq gətirilir. Qeyd edilir ki, Fəxrəddin obrazı ilə bağlı yazı işi ədəbi mövzuda təhlil xarakterli inşa olduğu üçün qəhrəmanın xarakteri, dünyagörüşü, əməlləri, müəllifin, eləcə də digər surətlərin ona münasibəti araşdırılmalı və bütün bunlara əsaslandırılmış münasibət bildirilməlidir. Mövzu həm də Fəxrəddinin taleyinin, arzu və əməllərinin doğurduğu düşüncələri, hiss və duyğuları ifadə etməyi tələb edir. Eləcə də faciədə ifadə edilmiş ideyalara, problemlərə münasibət bildirərkən şəxsi təəssürat və əlavə məlumatlara əsaslanmağın yolları müəyyənləşdirilir.

Şagirdlərin nəzərinə çatdırılır ki, nəqli xarakterli essedə öz həyati təəssüratlarından, müşahidələrindən geniş istifadə edə bilərlər. Bu tipli essedə mövzu, problemlə əlaqədar diqqəti cəlb etmiş müəyyən ibrətamiz hadisənin nəqletmə yolu ilə əks etdirilməsi və ona münasibət bildirilməsi məqsədəuyğundur. Baş vermiş hadisənin doğurduğu təəssürat, düşüncə, hiss və duyğular yazı işində öz geniş əksini tapmalıdır. Yazının icrasında fikrin ifadə tərzinin, üslubun düzgün müəyyənləşdirilməsinə, obrazlılığa xüsusi diqqət yetirilməlidir.

İşin icrasına ayrılan vaxt başa çatdıqdan sonra yazılardan nümunələrin təqdimatlar əsasında dinlənilməsi və müzakirə edilməsi faydalıdır. Bu, dolğun **nəticənin** çıxarılmasına, **ümumiləşdirmənin** aparılmasına imkan verir.

Yazı işinin hansı formada təşkilindən asılı olmayaraq, şagirdlərin fərdi qiymətləndirilməsi həyata keçirilə bilər. Bu, dərsdə reallaşdırılmış məzmun standartlarına müvafiq olaraq müəyyənləşdirilən meyarlar əsasında həyata keçirilir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə müəyyənləşdirilmiş meyarlar əsasında aparılır.

*Qiymətləndirmə meyarları:* Əsaslandırma
Müəyyənləşdirmə, istifadəetmə
Münasibətbildirmə, ümumiləşdirməaparma, nəticəçıxarma
İnşayazma, esseyazma

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Faciədəki obrazların nitqindən çıxış etməklə müəllifin mövqeyinə münasibətini əsaslandırmaqda çətinlik çəkir. | Faciədəki obrazların nitqindən çıxış etməklə müəllifin mövqeyinə münasibətini suallar və müəllimin köməyi ilə əsaslandırır. | Faciədəki obrazların nitqindən çıxış etməklə müəllifin mövqeyinə münasibətini əksər hallarda əsaslandırır. | Faciədəki obrazların nitqindən çıxış etməklə müəllifin mövqeyinə münasibətini əsaslandırır. |

LAYİHƏ

| | | | |
|---|---|---|---|
| İnşanın, essenin məzmununa uyğun üslub müəyyənləşdirməkdə, müxtəlif mənbələrdən inandırıcı faktlar seçməkdə və istifadə etməkdə çətinlik çəkir. | İnşanın, essenin məzmununa uyğun üslub müəyyən-ləşdirməyi, müxtəlif mənbələrdən inandırıcı faktlar seçməyi və istifadəni suallar və müəllimin köməyi ilə reallaşdırır. | İnşanın, essenin məzmununa uyğun üslub müəyyənləşdirməyi müxtəlif mənbələrdən inandırıcı faktlar seçməyi və istifadəni, əsasən, reallaşdırır. | İnşanın, essenin məzmununa uyğun üslub müəyyənləşdirməyi, müxtəlif mənbələrdən inandırıcı faktlar seçməyi və istifadəni reallaşdırır. |
| Müşahidələrinə, əlavə məlumatlara əsaslanmaqla faciənin ideyasına, probleminə münasibət bildirməkdə, ümumiləşdirmə aparmaqda, nəticə çıxarmaqda çətinlik çəkir. | Müşahidələrinə, əlavə məlumatlara əsaslanmaqla boyun ideyasına, probleminə münasibət bildirməyi, ümumiləşdirmə aparmağı, nəticə çıxarmağı suallar və müəllimin köməyi ilə reallaşdırır. | Müşahidələrinə, əlavə məlumatlara əsaslanmaqla boyun ideyasına, probleminə münasibət bildirməyi, ümumiləşdirmə aparmağı, nəticə çıxarmağı, əsasən, reallaşdırır. | Müşahidələrinə, əlavə məlumatlara əsaslanmaqla boyun ideyasına, probleminə münasibət bildirməyi, ümumiləşdirmə aparmağı, nəticə çıxarmağı reallaşdırır. |
| Təhlil xarakterli inşa, nəqli xarakterli esse yazmada çətinlik çəkir. | Təhlil xarakterli inşanı, nəqli xarakterli esseni mövzunu qismən əhatə etməklə, fikrin ifadəsində məntiqilik və ardıcıllığı gözləməklə yazır. | Təhlil xarakterli inşanı, nəqli xarakterli esseni mövzunu əsasən əhatə etməklə, fikrin ifadəsində məntiqilik və ardıcıllığı gözləməklə yazır. | Təhlil xarakterli inşanı, nəqli xarakterli esseni mövzunu əhatə etməklə, fikrin ifadəsində məntiqilik və ardıcıllığı gözləməklə yazır. |

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

LAYİHƏ

## DÖRDÜNCÜ BÖLMƏ ÜZRƏ İKİNCİ KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ

*Qiymətləndirmə S.Ə.Nəbatinin "Səba, məndən söylə..." əsəri üzrə aparıla bilər.*

**Seyid Əbülqasim Nəbati**
**Səba, məndən söylə...**

Səba, məndən söylə o gülüzarə,
Bülbül gülüstanə gəlsin, gəlməsin?
Bu hicran düşkünü, illər xəstəsi
Qapına dərmana gəlsin, gəlməsin.

Mən qurbanı olum ənbər tellərin,
Qönçə dodaqların, püstə dillərin.
O lalə rüxsarın, mişkin xalların
Oduna pərvanə gəlsin, gəlməsin?

Gözüm çox həsrətdir xumar gözünə,
Günəş camalına, şəkər sözünə,
Utanıram, necə deyim üzünə,
Dərdin xəstə canə gəlsin, gəlməsin?

Nəbati istəməz sənsiz dünyanı,
İzzəti, hörməti, şövkəti, şanı,
Bir zada qalmayıb daha gümanı,
Bu baş o meydanə gəlsin, gəlməsin?



LAYİHƏ

## QİYMƏTLƏNDİRMƏ ÜÇÜN TÖVSİYƏ OLUNAN SUAL VƏ TAPŞIRIQLAR

1. Şeir hansı mövzuda yazılmışdır? Fikrinizi əsaslandırın.

2. Şeirdə tanış olmayan sözlərin mənasını aydınlaşdırın.

3. Müəyyənləşdirdiyiniz sözlərin alınma, yaxud dilimizə aid olduğunu əsaslandırın.

4. Lirik qəhrəman hansı səciyyəvi xüsusiyyətləri ilə diqqəti cəlb edir? Fikrinizi əsərdən nümunələr göstərməklə əsaslandırın.

5. Şeirdəki məcazların bədiiliyin, obrazlılığın artmasındakı rolunu nümunələrlə əsaslandırın.

6. Şeir hansı vəzndə və janrda yazılmışdır? Fikrinizi nümunələrlə əsaslandırın.

7. Şeiri fərqli vəzndə yazılmış bir əsərlə janr baxımından müqayisə edib, gəldiyiniz nəticəni qısaca yazın.

8. Səba, məndən söylə o gülüzarə,
   Bülbül gülüstanə gəlsin, gəlməsin?
   Bu hicran düşkünü, illər xəstəsi
   Qapına dərmana gəlsin, gəlməsin.

   a) Bəndin üzərində ifadəli oxu ilə bağlı şərti işarələr qoyun.
   b) Bəndin oxusunda səsdə hansı çalarlar yaranır, nə üçün? Fikrinizi əsaslandırın.

9. Əsərdəki başlıca fikir – ideya, sizcə, nədir? Fikrinizi əsaslandırın.

10. Əsər haqqındakı təəssüratınızı qısaca yazın.

LAYİHƏ

# GÜNDƏLİK PLANLAŞDIRMAYA AİD NÜMUNƏLƏR

*Mövzu:* **Məhəmməd Füzulinin həyatı, yaradıcılıq yolu** – 1 saat

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **2.1.1.** Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla təqdimat və çıxışlarında obrazlı ifadələrdən istifadə edir. | • Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla mövzu, problemlə bağlı təqdimat və çıxışlarında obrazlı ifadələrdən istifadə edir. |
| **2.2.1.** Müzakirələrdə mövzuya, problemə, yazıçı mövqeyinə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. | • Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. |

**Dərsin tipi**: induktiv
**İş forması**: fərdi iş, cütlük şəklində iş, kiçik qruplarda iş, bütün siniflə birgə iş.
**Metod və priyomlar:** müsahibə, müzakirə, diskussiya, problemin həlli, təqdimat.
**İnteqrasiya:** Az.d. 1.2.3., X.d. 2.1.2.
**Təchizat:** dərslik, iş vərəqləri, lüğətlər, M.Füzulinin portreti, C.Cahangirovun "Füzuli kantatası"nın səs yazısı, şairin həyat və yaradıcılığı ilə bağlı kitablar.

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi ya müsahibə, ya da təqdimatların dinlənilib, müzakirə olunması əsasında müəyyənləşdirilir. "Dəhnamə"nin bədii xüsusiyyətləri ilə bağlı keçən dərsdə mənimsənilmiş bilik və bacarıqların mənbələr əsasında hansı səviyyədə dərinləşdirildiyi aşkara çıxarılır və müvafiq qiymətləndirmə meyarlarına müraciət olunur.

Dərslikdəki tapşırıq (*Füzuli ilə bağlı bildiklərinizi yada salıb yığcam müzakirə aparın)* üzrə yığcam müzakirə aparılır. Müzakirə problemin müəyyənləşdirilməsi ilə yekunlaşdırılır: *Füzulinin şəxsiyyətinə, yaradıcılığına böyük maraq və rəğbət göstərilməsinə səbəb nədir?*

Araşdırma dərslikdəki mətnin oxusu ilə davam etdirilir. Mətndə *"Füzulinin həyatında, yaradıcılığında nələr daha önəmli hesab edilə bilər?"* sualının aydınlaşdırılmasına istiqamət verilmişdir. Şairin həyatı ilə bağlı elm aləminə məlum olan ən mühüm mətləblərə yığcam toxunulmuş, geniş araşdırma aparılmasının vacibliyi barədə şagirdlərdə təsəvvür yaradılmışdır. Həcmi kiçik olan mətnin fərdi olaraq oxunması məqsədəuyğundur. Füzulinin sadə, təvazökar həyat yaşaması, dini idarədə xidmət etməsi, müasirlərinin onu bir insan, alim, sənətkar kimi yüksək dəyərləndirməsi, zəmanəsinin eyiblərinə obyektiv, ədalətli münasibət bildirməsi və s. barədə deyilənlər şairin şəxsiyyətinə maraq oyadır, şagirdləri araşdırmaya həvəsləndirir. Onların dərsdə bir neçə əlavə mənbə ilə təmin olunması məqsədəuyğundur.

Sonra – ev tapşırığı qismində mənbələr üzrə araşdırmada aydınlaşır ki, "şairin atası Süleyman əsil-nəsəbcə Azərbaycan türklərindən – qədim Oğuzların Bayat qəbiləsindən olmuş və XV əsrin axırlarında el-elatının böyük bir qismi ilə birlikdə İraqi-ərəbə köç edərək Bağdad civarlarında sakin olmuşdur. Şairimizə bəzi hallarda "Bağdadi" deyilməsi elə bu səbəbdəndir." (Azərbaycan ədəbiyyatı tarixi. Altı cilddə. III cild, Bakı: Elm, 2009, səh. 387)



LAYİHƏ

Mənbələrdən o da aydın olur ki, Füzuli dövrünün parlaq zəka sahiblərindən olmuş, bir neçə dil bilmiş, Azərbaycan ədəbiyyatı ilə yanaşı, ərəb, fars, tacik, hind, özbək ədəbiyyatını da dərindən bilmişdir. O, fəlsəfə, astronomiya, astrologiya, tarix, tibb, məntiq, musiqi və s. elmləri mükəmməl mənimsəmişdir. İlk təhsilini Kərbəlada alan, sonra Bağdadın elm ocaqlarında müdavim olan şair yazırdı ki, mən bütün elm və fənləri özündə toplamış bir insan olmaq üçün çalışırdım.

Araşdırmada Füzulinin saraylardan kömək gözləməyərək sadə həyat yaşaması, Sultan Süleymanın təyin etdiyi 9 axça təqaüdü övqaf idarəsindən ala bilməməsi, bu hadisə ilə bağlı rüşvətxor məmurları tənqid edən "Şikayətnamə" əsərini yazması və s. məlumatlar aşkara çıxarılır.

Dərslikdəki mətn şairin lirikası, poemaları, nəsri, tərcümələri barədə müəyyən təsəvvür yaradır. Başlıcası isə şagirdlərdə bu zəngin irsə maraq və heyranlıq hissi baş qaldırır. Mütəfəkkir sənətkarın bütün əsərlərində yüksək bədii sənətkarlıqla yanaşı, dərin hikmət, fəlsəfi düşüncələrin mövcud olduğu diqqəti cəlb edir.

Şagirdlərdə şairin öz yaradıcılığına tələbkar münasibəti barədə təsəvvür yaratmaq məqsədilə aşağıdakı qəbildən fikirlər xatırladılır: "Elə vaxtlar olmuşdur ki, gecə səhərə qədər oyaqlıq zəhərini dadmış, və bağrımın qanı ilə bir məzmunu tapıb yazmışam. Səhər olanda başqa şairlərlə uyğun olduğunu görüb, yazdığımı pozmuşam, ona sahib çıxmamışam. Elə vaxtlar da olmuşdur ki, gündüz axşama qədər düşüncə dəryasına dalıb, söz almazı ilə məna gövhərini deşmişəm. Bunu görənlər " bu məzmun anlaşılmır, bu ləfz xalq arasında işlənilmir və xoşagəlməzdir, – deyərdeməz, o məzmun gözümdən düşmüş, hətta onun üzünü köçürməmişəm." (M.Füzuli. Əsərləri. III cild. Azərb. EA nəşriyyatı, Bakı, 1958, səh. 20)

Füzulinin böyük qəzəl ustadı olması, qəzəl janrını yüksək dəyərləndirməsi ilə bağlı dərsdə qazanılmış məlumat araşdırma prosesində zənginləşdirilir. Aydınlaşır ki, şair gözəllik və məhəbbət mövzusunda fikir və düşüncələrin ifadəsi üçün qəzəli daha uğurlu janr sayır. Qəzəl yazmaq, şairə görə, həm də asan deyil:

Qəzəldir səfabəxşi-əhli-nəzər,
Qəzəldir güli-büstani- hünər,
Qəzəl bildirir şairin qüdrətin,
Qəzəl artırır nazimin şöhrətin.

Şagirdlər Füzulinin yaradıcılığında dünyəvi gözəllik və sevgi ilə yanaşı, ilahi gözəllik və ilahi məhəbbətin tərənnümünün başlıca yer tutması ilə də bağlı məlumatlarını dərinləşdirmək, daha dolğun bilik əldə etmək məqsədilə araşdırma aparırlar. Mənbələr üzrə iş onlarda belə bir qənaətin möhkəmlənməsinə səbəb olur ki, şairin sufi baxışlarını əks etdirən əsərlərində aşiqin sevdiyi gözələ bəslədiyi hislər Allaha qovuşmaq arzusunun ifadəsi kimi başa düşülməlidir. Şairin yaradıcılığında dünyəvi, maddi gözəllik və məhəbbət ilahi gözəllik və eşq ilə vəhdət təşkil edir. Lakin bütün bu əsərlərində Füzuli insanı, onun taleyini düşünən böyük humanist kimi çıxış edir.

Şairin poeziyasının dil və üslub xüsusiyyətləri ilə bağlı aşağıdakı qəbildən məlumatın üzərində dayanılır: "Füzulinin dili öz xəlqilik və zərifliyi ilə ana dilimizin mükəmməlliyini, bədii ifadə imkanlarının zənginliyini nümayiş etdirdi. Ondan sonra gələnlər daha bildilər ki, türkdilli sənətin qibləsi kimi hara baxsınlar, öz sənətlərini örnək kimi nə ilə müqayisə etsinlər.



LAYİHƏ

Dərslikdəki mətnin oxusundan sonra kiçik qruplarda birləşən şagirdlər fikir mübadiləsi aparırlar. Bu, cavabların dəqiqləşdirilməsinə, zənginləşdirilməsinə, əhatəli təqdimatların hazırlanmasına səbəb olur. **Məlumat mübadiləsi** və **müzakirə** kiçik qrupların təqdimatları əsasında aparılır. Məlumat mübadiləsi və müzakirədə şagirdlərin dərslikdəki mətndən öyrəndiklərindən əlavə daha hansı məlumatlara malik olduqlarının aşkara çıxarılmasına xüsusi diqqət yetirilir. Şairin poeziyasının dil və üslub xüsusiyyətləri ilə bağlı aşağıdakı qəbildən məlumatın üzərində dayanılır: "Füzulinin dili öz xəlqilik və zərifliyi ilə ana dilimizin mükəmməlliyini, bədii ifadə imkanlarının zənginliyini nümayiş etdirdi. Ondan sonra gələnlər daha bildilər ki, türkdilli sənətin qibləsi kimi hara baxsınlar, öz sənətlərini örnək kimi nə ilə müqayisə etsinlər. Farsdilli ədəbiyyatda Nizami dili nədirsə, türkdilli ədəbiyyatda Füzuli dili odur. Füzuli özünə qədərki türkcənin zirvəsinə qalxdı və oradan türkcəni yeni zirvəyə qaldırdı." (Akademik T.Hacıyev)

Əsaslandırılmış **nəticənin** çıxarılmasında, **ümumiləşdirmənin** aparılmasında müəllimin istiqamətləndirici sualları əhəmiyyətli rol oynayır. Yekunlaşdırıcı müsahibə nəticəsində şagirdlər orta əsrlər türk dünyasının ən qüdrətli sənətkarı olan Füzulinin üç dildə yazdığı əsərlərinin Yaxın və Orta Şərqdə böyük şöhrət qazanması, zəngin irsinin ideya-bədii dəyəri barədə dolğun təsəvvür qazanmış olurlar.

Təqdimat və çıxışlarda şagirdlərin nitqinin ifadəliliyinə, araşdırılan problemə necə münasibət bəslədiklərinə diqqət yetirir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə müəyyənləşdirilmiş meyarlar əsasında aparılır (bax: səhifə 94).

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

### *Mövzu:* **Məhəmməd Füzuli. Məni candan usandırdı...** – 2 saat
### *Birinci saat:* **Məzmun üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.1.1.** Müxtəlif vəznli şeirlərdə (heca, əruz, sərbəst) və süjetli əsərlərdə (dastan, poema, hekayə, povest, roman, dram, komediya, faciə) tanış olmayan sözlərin mənasını mənşəyinə və işlənmə məqamına görə izah edir. | • Şeirdə tanış olmayan sözlərin mənasını mənşəyinə və işlənmə məqamına görə izah edir. |
| **1.1.4.** Müxtəlif ədəbi növ və janrda olan bədii nümunələrdə əksini tapan mühüm mənəvi, əxlaqi-etik dəyərləri müəyyənləşdirir. | • Şeirdə əksini tapmış mühüm mənəvi, əxlaqi-etik dəyərləri müəyyənləşdirir. |
| **1.1.5.** Müxtəlif vəznli (heca, əruz) şeirlərdə, mürəkkəb süjet və kompozisiyalı bədii nümunələrdə bədii təsvir və ifadə vasitələrini (epitet, bənzətmə, metafor, metonimiya, simvol, mübaliğə, litota, bədii sual, təkrir, bədii təzad, inversiya) müəyyənləşdirir. | • Şeirdə məcazları müəyyənləşdirir. |

**Dərsin tipi**: induktiv, bədii əsərin öyrənilməsi.
**İş forması**: fərdi iş, cütlük şəklində iş, kiçik qruplarda iş, bütün siniflə birgə iş.

LAYİHƏ

**Metod və priyomlar:** layihə, müsahibə, müzakirə, diskussiya, problemin həlli, təqdimat.
**İnteqrasiya:** Az.d. 2.1.1., X.d. 3.1.1.
**Təchizat:** dərslik, iş vərəqləri, lüğətlər, "Məni candan usandırdı..." şeirinin səs yazısı, şairin yaradıcılığı ilə bağlı kitablar.

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi müxtəlif metod və iş formalarının tətbiqi ilə müəyyənləşdirilə bilər. Mənbələrdən necə istifadə olunduğunun, dərslikdəki məlumatın hansı səviyyədə zənginləşdirildiyinin aydınlaşdırılması diqqət mərkəzində saxlanılır. Müvafiq qiymətləndirmə meyarlarından istifadə olunur.

**Motivasiya, problemin qoyuluşu.** Bu mərhələdə işi fərqli məzmunda və formada təşkil etmək mümkündür. Vaxta qənaət baxımından suallardan istifadə yolunu seçmək faydalıdır. Şagirdlərə tanış olduqları klassik şeirləri xatırlamaq, lirik qəhrəmanla bağlı təəssüratlarını bölüşmək təklif edilir. Yığcam müsahibənin sonunda tədqiqat sualı formalaşdırılır.

Yaxud bədii oxu ustasının ifasında qəzəldən bir neçə beyt dinlənilib müzakirə edilir. (https://www.youtube.com/watch?v=vBBKg5j5RGI) Şagirdlərin bədii oxudan aldığı təəssürat, əsər barədə söylənilən ilkin mülahizələr tədqiqat sualının müəyyənləşdirilməsinə imkan yaradır.

**Tədqiqat sualı:** Məhəbbət mövzusunda yazılmış klassik lirik şeirlərin qəhrəmanı – aşiq obrazı üçün daha səciyyəvi olan xüsusiyyətlər hansılardır?

Fərziyyələrin dinlənilməsinə və qeyd edilməsinə vaxt ayrılır.

**Tədqiqatın aparılması.** Şeirin məzmununun öyrənilməsini fərqli variantlarda təşkil etmək olar. Məsələn, əsəri fərdi olaraq nəzərdən keçirən şagirdlər hiss və düşüncələrini ikihissəli gündəlikdə qeyd edir, sonra kiçik qruplarda birləşərək qənaətlərini bölüşürlər. Ardınca təqdimatlar əsasında məlumat mübadiləsi və müzakirə aparılır. *Bütün bu işlər müəllimin ciddi müşahidəsi, istiqamətləndirici sualları, ehtiyac yaranan məqamlarda yığcam izahı ilə həyata keçirilir.*

Şeirin məzmununun öyrənilməsi ilə bağlı dərslikdəki tövsiyəni əsas götürən müəllim şagirdlərin məzmunla tanış olduqlarını nəzərə alır. Lakin müstəqil oxunun nəticəsi olan ilkin qavramanı qənaətbəxş saymaq olmaz. Dərslikdəki *"Müstəqil oxuduğunuz"Məni candan usandırdı..." şeirini nəzərdən keçirin, məzmunu ilə bağlı bildiklərinizi dərinləşdirin"* tapşırığı müəllimin birbaşa istiqamətləndirmələri əsasında yerinə yetirilir. Məktəb təcrübəsində uğurla tətbiq edilən izahlı oxudan istifadə etmək faydalıdır. Səsli oxunu izləyən şagirdlər misra və beytlərin izahında fəal iştirak edirlər. Ən zəruri hallarda işə qoşulan müəllim yaranan çətinliyi istiqamətləndirici suallar və ya izahla aradan qaldırır. Tanış olmayan sözlərin mənasının aydınlaşdırılması oxu prosesində həyata keçirilir. Bu məqamda şagirdlərin fərdi fəaliyyətlərinə diqqət yetirilir. Oxu başa çatdıqdan sonra şagirdlərə əsərdəki *məcazları* fərdi olaraq müəyyənləşdirmək təklif edilə bilər.

Şagirdlər kiçik qruplarda işləyərkən qəzəldə epitet, bənzətmə, mübaliğə, metafor, bədii sualdan istifadə olunduğunu, beytlərdəki daxili qafiyələrin (canım, çeşmi giryanım, əfqanım və s.) əsərdə güclü ahəng yaratdığını dəqiqləşdirir və müzakirə edirlər.

Ayrı-ayrı beytlərdə ifadə olunmuş fikirlərin, lirik qəhrəmanın hiss və düşüncələrinin aydınlaşdırılması üzrə iş davam və inkişaf etdirilir. Bu məqamda məcazların növünün müəyyənləşdirilməsinə ayrıca diqqət yetirilir.



LAYİHƏ

Əsərin bədii xüsusiyyətləri ilə bağlı müzakirədə şeirin əruz vəzninin həzəc bəhrində yazıldığı nümunə əsasında aydınlaşdırılır.

| məfA İlün | məfA İlün | məfA İlün | məfA İlün |
|---|---|---|---|
| Məni candan<br>Fələklər yan | usandırdı,<br>dı ahimdən, | cəfadan yar<br>muradım şəm | usanmazmı?<br>i yanmazmı? |

Kiçik qrupların təqdimatları əsasında **məlumat mübadiləsi** və **müzakirə** aparılır. Təqdimatların fəal dinlənilməsinə, müzakirədə daha çox şagirdin iştirak etməsinə səy göstərilir.

**Nəticənin** çıxarılması, **ümumiləşdirmənin** aparılması şagirdlərin fəal iştirakı ilə həyata keçirilir. Bu mərhələnin uğurlu olmasında müəllimin istiqamətləndirici sualları mühüm əhəmiyyət kəsb edir. Şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, Füzuli bu şeirdə sevən insanın qəlbinin ən incə, zərif duyğularından söz açmışdır. Aşiqin dilindən söylənilən bu qəzəldə şair sevən bir gəncin iztirablarını, sevgilisinə qovuşmaq arzusunu dilimizin zəngin ifadə imkanlarından, məcazlardan sənətkarlıqla istifadə ilə əks etdirmişdir. Klassik şeirin lirik qəhrəmanına xas olan bütün keyfiyyətləri – sədaqətlilik, səmimilik, dözümlülük, sevgilisini uca tutmaq və s. Füzulinin qəhrəmanında görmək mümkündür.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə müəyyənləşdirilmiş meyarlar əsasında aparılır (bax: səhifə 96).

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

## *Mövzu:* **Məhəmməd Füzuli. Məni candan usandırdı...** – 2 saat
## *İkinci saat:* **Təhlil üzrə iş**

| **Standartlar** | **Təlim nəticələri** |
|---|---|
| **1.1.2.** İfadəli oxudan müxtəlif ədəbi növdə olan əsərlərin emosional-obrazlı qavranılması, təhlili məqsədi ilə istifadə edir. | • İfadəli oxunu şeirin emosional-obrazlı qavranılması və təhlili vastəsi kimi tətbiq edir. |
| **1.2.2.** Davranış və əməllərinə, başqaları ilə qarşılıqlı münasibətlərinə, yazıçının mövqeyinə, digər surətlərin mühakimələrinə əsaslanmaqla obrazları təhlil edir. | • Davranış və əməllərindən çıxış etməklə lirik qəhrəmanı təhlil edir. |
| **1.2.3.** Müxtəlif vəznli (heca, əruz, sərbəst) şeirlərdə, süjetli ədəbi nümunələrdə bədii təsvir və ifadə vasitələrinin obrazlılığın yaradılmasındakı rolunu aydınlaşdırır və münasibət bildirir. | • Şeirdəki məcazların obrazlılığın yaradılmasındakı rolunu aydınlaşdırır və münasibət bildirir. |
| **1.2.4.** Bədii nümunələrin mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün sosial-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə təhlil edir və nəticə çıxarır. | • Şeirin mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün mənəvi dəyərləri kontekstindən çıxış etməklə təhlil edir və nəticə çıxarır. |

**Dərsin tipi**: induktiv, bədii əsərin öyrənilməsi.
**İş forması**: fərdi iş, cütlük şəklində iş, kiçik qruplarda iş, bütün siniflə birgə iş.



LAYİHƏ

**Metod və priyomlar:** müsahibə, müzakirə, diskussiya, problemin həlli, təqdimat.
**İnteqrasiya:** Az.d. 2.1.1., X.d. 3.1.4.
**Təchizat:** dərslik, iş vərəqləri, lüğətlər, B.Vahabzadənin "Şıbi-hicran" poeması, Füzulinin yaradıcılığı ilə bağlı kitablar.

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilməsi və müzakirəsi əsasında müəyyənləşdirilə bilər. Mənşəyi müstəqil aydınlaşdırılmış sözlər yenidən nəzərdən keçirilir, zəruri düzəlişlər edilir. Şagirdlərin hazırladıqları ikihissəli gündəliyin müzakirəsi isə əsərin məzmununun hansı səviyyədə mənimsənildiyi barədə müəllimin aydın təsəvvür qazanmasına imkan yaradır. Sonda müvafiq qiymətləndirmə meyarlarından istifadə olunur.

**Motivasiya, problemin qoyuluşu.** Motivasiyanın yaradılmasına fərqli yollarla nail olmaq mümkündür. Suallardan istifadə etməklə motivasiya yaratmağı qarşısına məqsəd qoyan müəllim məzmunla bağlı qazanılmış biliklərə əsaslanmaqla yığcam müzakirə təşkil edir. Müzakirəyə müəllimin: *Şeirdə diqqətinizi daha çox cəlb edən nə oldu?* sualı ilə başlanılır və şagirdlərin fəal iştirakı ilə davam etdirilir. Müzakirə tədqiqat sualının formalaşdırılması ilə yekunlaşdırılır.

Motivasiyanın bir variantı da xalq şairi B. Vahabzadənin "Şəbi-hicran" poemasından aşağıdakı parçanın ifadəli oxunması və müzakirəsi ola bilər:

"Şəbi-hicran yanar canım, tökər qan-çeşmi giryanım,
Oyadar xəlqi əfqanım, qara bəxtim oyanmazmı?"
Bu bir qəlbin səsi deyil, milyon qəlbin bir səsidir,
Ömrü-günü əsarətdə keçən xalqın naləsidir.
"Şəbi-hicran" – qoca Şərqin öz varlığı, öz adıdır,
Məhkum olan millətlərin "yandım" deyən fəryadıdır.

**Tədqiqat sualı:** Şeirdə şairi daha çox düşündürən və oxucuya çatdırmaq istədiyi başlıca fikir, sizcə, nədir?

Fərziyyələr dinlənilir və qeyd edilir.

**Tədqiqatın aparılması.** Dərslikdəki sualların *(Qəzəl hansı mövzuda yazılıb? Əsərdə təsvir edilən məhəbbəti necə izah etmək doğru olar? Lirik qəhrəman – aşiq hansı cəhətləri ilə diqqəti cəlb edir? Onun öz eşqində sabit, dönməz olmasının səbəbi nədir? Qəzəlin bədii keyfiyyətini artıran vasitələr hansılardır?)* və onların aydınlaşdırılmasına istiqamət verən mətnin oxusu ilə araşdırmaya başlanılır. Oxunu fərqli formalarda təşkil etmək mümkündür. Vaxta qənaət məqsədi ilə kiçik qruplar yaradaraq hərəsinə dərslikdəki sualın biri üzərində işləmək təklif oluna bilər.

Unudulmamalıdır ki, "Məni candan usandırdı..." qəzəlinin tədrisi müəllimdən xüsusi yanaşma, böyük diqqət tələb edir. Qəzəldə ilahi məhəbbətin əlamətləri açıq-aşkar hiss olunur və bu, dərslikdəki mətndə də əksini tapmışdır. Əsərin tədrisində bunun həddindən artıq qabardılması məqsədəuyğun deyildir. Mənbələr üzərində işləyərkən şagirdlərə aydın olur ki, Füzulinin məhəbbət lirikasında gerçək insani duyğuların tərənnümü heç də az yer tutmur. Başqa sözlə, Füzulinin lirik şeirlərində sufiyanə məhəbbət real insani məhəbbəti inkar etmir. Deməli, "Məni candan usandırdı..." şagirdlərə ilk növbədə dərin məhəbbətlə sevən və sevdiyi qızın yolunda hər cəfaya dözməyə hazır olan aşiqin qəlb çırpıntılarını ifadə edən əsər kimi (əvvəlki illərin dərsliklərində və məktəb təcrübəsində də məhz bu yol tutulmuşdur) təqdim edilməlidir.



LAYİHƏ

İlk iki sual (dərslikdə birləşdirilmişdir) üzərində işləyən qrup dərslikdəki mətndə bu barədə əksini tapmış yığcam izahla tanış olur, məlumat mübadiləsi və müzakirədə digər qruplara da məlumat verirlər. Dərslikdəki izah müstəqil araşdırma zamanı mənbələrdəki məlumatları şagirdlərin başa düşməsinə, doğru nəticə çıxarmalarına əhəmiyyətli təsir edir.

Növbəti sualla bağlı (*Lirik qəhrəman – aşiq hansı cəhətləri ilə diqqəti cəlb edir? Onun öz eşqində sabit, dönməz olmasının səbəbi nədir?*) dərslikdəki mətndə yığcam təhlil səciyyəli məlumat var. Bu məlumat şagirdlərin mənbələrdə nələrə diqqət etməyin lazım olduğuna istiqamət verir. Nəcib, həssas aşiq yüksək mənəvi-əxlaqi dəyərlərə malik obraz kimi diqqəti cəlb edir və müxtəlif mənbələrdə də beləcə səciyyələndirilir. Qeyd edilir ki, qəzəldə şair həssas qəlbli, nəcib aşiqin vüsal həsrətini, mənəvi sarsıntılarını, keçirdiyi əzablı hisləri əks etdirmişdir. Aşiqin monoloq səciyyəli şikayətləri, ah-nalə dolu sözləri özü bilavasitə əsərdə iştirak etməsə də, məşuqənin də obrazını göz önündə canlandırır. Oxucu qeyri-adi gözəlliyi ilə lirik qəhrəmanın qəlbində böyük məhəbbət oyatmış məşuqənin etinasızlığının səbəbi barədə düşünür, aşiqin vəziyyətinə, sevən qəlbin acı fəryadına laqeyd qala bilmir.

Təqdimat və müzakirədə əsərdəki epitet, metafor, mübaliğə, bədii sualların, daxili qafiyələrin obrazlılığın artmasında rolunun aydınlaşdırılması ön plana çəkilir və mənbələrdən istifadə zamanı buna diqqət yetirməyin vacib olması barədə təsəvvür yaradılır.

Sonuncu sualın (*Qəzəlin bədii keyfiyyətini artıran vasitələr hansılardır?*) aydınlaşdırılmasına istiqamət verən məlumat dərslikdə yığcam olsa da, mənbələrdən hansı məzmunda bilik əldə etməyin lazım olması barədə şagirdlərdə təsəvvür yaradır. Şagirdlərə aydın olur ki, orijinal məcazlar, ustalıqla seçilən və misralarda əlaqələndirilən sözlər, mükəmməl qafiyə sistemi və s. qəzəldə bədiiliyi təmin edən vasitələrdən yalnız bir qismidir. Şeirdə "Gül üz" epitetindən istifadə ilə aşiqin sevgilisinin gözəlliyi, qanlı göz yaşının bulanıq yaz suları ilə müqayisəsi ilə yaradılan bənzətmə aşiqin dərdinin böyüklüyü barədə dolğun təsəvvür yaradılır. Məntiqlə təbii görünən "yatan bəxt" əvəzinə "qara bəxt" ifadəsinin işlədilməsi ilə daha qüvvətli epitet yaradılmış, lirik qəhrəmanın ümidsiz vəziyyəti, cəfakeş aşiq olması təsəvvürü gücləndirilmişdir. Mübaliğə (Fələklər yandı ahimdən, muradım şəmi yanmazmı?) və metafor (Şəbi-hicran yanar canım, tökər qan çeşmi-giryanım) vasitəsilə şair sevən bir qəlbin acı fəryadlarını, fədakar məhəbbətini təsirli bir dillə çatdırmağa müvəffəq olmuşdur.

Əsərdəki mətlə və məqtə beyt, şah beyt (Şəbi-hicran yanar canım, tökər qan çeşmi-giryanım, Oyadar xəlqi əfğanım, qara bəxtim oyanmazmı?), hər beytin mükəmməl bitkinliyi, beytlər arasında məna, məzmun əlaqəsi, şairin sonda təxəllüsünü işlətməklə özü barədə üçüncü şəxs kimi danışması və s. müzakirədə ön plana çəkilməklə qəzəlin bədii dəyəri barədə təsəvvürün dərinləşdirilməsi mümkündür. Təsadüfi deyil ki, şeirdəki musiqililiyi, bədiiliyi, coşqun hissiyyatı, məzmun və ahəngin vəhdətini əsas tutan bəstəkar C.Cahangirov məşhur "Füzuli" kantatasını yaratmışdır.

Əsərin məzmunu ilə bağlı qazanılmış biliklərdən də istifadə edən qruplar hazırladıqları təqdimat əsasında **məlumat mübadiləsi** və **müzakirə** aparırlar. Bu mərhələdə bədii əsərdən nümunələrin göstərilməsinə xüsusi önəm verilir.

**Nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması** mərhələsində müəllimin istiqamətləndirici sualları şagirdlərin daha fəal olmasına imkan yaradır.

Bütün bunlar şeirin ifadəli oxusuna imkan yaradır. Əruz vəznli şeirlərin oxu xüsusiyyətləri müsahibə ilə xatırladıldıqdan sonra ifalar dinlənilir və onlara münasibət bildirilir.

LAYİHƏ

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə müəyyənləşdirilmiş meyarlar əsasında aparılır (bax: səhifə 98-99).

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

## *Mövzu:* **Məhəmməd Füzuli. Leyli və Məcnun (ixtisarla)** – *4 saat*
### *Birinci saat:* **Məzmun üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.1.1.** Müxtəlif vəznli şeirlərdə (heca, əruz, sərbəst) və süjetli əsərlərdə (dastan, poema, hekayə, povest, roman, dram, komediya, faciə) tanış olmayan sözlərin mənasını mənşəyinə və işlənmə məqamına görə izah edir. | • Poemada tanış olmayan sözlərin mənasını mənşəyinə və işlənmə məqamına görə izah edir. |
| **1.1.4.** Müxtəlif ədəbi növ və janrda olan bədii nümunələrdə əksini tapan mühüm mənəvi, əxlaqi-etik dəyərləri müəyyənləşdirir. | • Poemada əksini tapmış mühüm mənəvi, əxlaqi-etik dəyərləri müəyyənləşdirir. |
| **1.1.5.** Müxtəlif vəznli (heca, əruz) şeirlərdə, mürəkkəb süjet və kompozisiyalı bədii nümunələrdə bədii təsvir və ifadə vasitələrini (epitet, bənzətmə, metafor, metonimiya, simvol, mübaliğə, litota, bədii sual, təkrir, bədii təzad, inversiya) müəyyənləşdirir. | • Poemada məcazları müəyyənləşdirir. |

**Dərsin tipi**: induktiv, bədii əsərin öyrənilməsi.
**İş forması**: fərdi iş, cütlük şəklində iş, kiçik qruplarda iş, bütün siniflə birgə iş.
**Metod və priyomlar:** müsahibə, müzakirə, diskussiya, problemin həlli, təqdimat.
**İnteqrasiya:** Az.d. 2.1.1., X.d. 3.1.1.
**Təchizat:** dərslik, iş vərəqləri, lüğətlər, əsərin məzmunu üzrə şəkillər, "Leyli və Məcnun" flmindən fraqmentin video yazısı, "Leyli və Məcnun poeması", əsərlə bağlı təhlil materialları.

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilməsi və müzakirəsi yolu ilə müəyyənləşdirilə bilər. Araşdırılan sualların hər biri ilə əlaqədar mənbələrdən əldə edilmiş məlumatın məzmunu və həcmi ilə əlaqədar təsəvvür qazanılır. Yeni məlumatların dərslikdən əldə olunanlarla necə əlaqələndirildiyi, cavabların hansı səviyyədə tamamlandığı və zənginləşdirildiyi aşkara çıxarılır. Müvafiq qiymətləndirmə meyarlarına müraciət edilir.

**Motivasiya, problemin qoyuluşu.** Bu mərhələ fərqli məzmunda təşkil oluna bilər. Eyniadlı operadan fraqmentin nümayiş etdirilməsi, yaxud səsləndirilməsi, poema haqqında elmi əsərdən parçanın oxunması, illüstrasiyadan istifadə və s. bu qəbildəndir. Şagirdlərin poema haqqında müəyyən təsəvvürləri olduğu üçün suallardan istifadə yolu da seçilə bilər. Göstərilənlərdən birinin tətbiqi tədqiqat sualının formalaşdırılmasına imkan yaradır.



LAYİHƏ

Motivasiya yaradılmasının bir variantı "Leyli və Məcnun" flmindən (https://www.youtube.com/ watch? v= T43AHNVdjgQ) atasının Məcnunu sağaltmaq ümidi ilə Məkkəyə ziyarətə aparması səhnəsinin nümayişi və yığcam müzakirəsi ola bilər.

**Tədqiqat sualı:** Mənəvi azadlığa, müstəqil düşüncəyə düşmən kəsilən adətlərlə, qaydalarla yaşamaq istəməyənlər hansı yolu tuta bilərlər?

Fərziyyələr dinlənilir və təkrara yol verilmədən qeyd edilir.

Tədqiqata başlanmazdan əvvəl müəllim əsərin yazılma tarixi, Türkiyə hökmdarı Sultan Süleyman Qanuniyə ithaf edildiyi, təsvir olunan dövrün səciyyəsi, Şərq ədəbiyyatında, xüsusən Nizami yaradıcılığında Leyli və Məcnun mövzusunun yeri haqqında yığcam məlumat verir.

**Tədqiqat sualı:** Mənəvi azadlığa, müstəqil düşüncəyə düşmən kəsilən adətlərlə, qaydalarla yaşamaq istəməyənlər hansı yolu tuta bilərlər?

**Tədqiqatın aparılması.** Araşdırmaya dərslikdə verilmiş parçaların *("Kitabın yazılmasının səbəbi", "Məcnunun anadan olması və uşaqlığı"," Məcnunun Leylini məktəbdə görməsi", "Anasının Leyliyə nəsihəti")* oxusu ilə başlanılır. Bu parçaların və onların nəsr variantının dərsə bir neçə gün qalmış mütaliə edilməsi məzmunun öyrənilməsi üzrə işin səmərəli təşkilinə əhəmiyyətli dərəcədə təsir edir. Lakin təcrübə göstərir ki, sinifdə həmin parçaların yenidən nəsr variantları ilə paralel oxunması, tanış olmayan sözlərin mənasının aydınlaşdırılması, məcazların müəyyənləşdirilməsi səmərəli nəticənin əldə edilməsi üçün vacibdir.

Oxunu fərqli formalarda təşkil etmək mümkündür. Bunlardan biri səsli oxunun izlənilməsi və izaha şagirdlərin cəlb edilməsi ola bilər. Oxunu iki şagird (müəyyən məqamlarda əvəzlənməklə) yerinə yetirir. Bir nəfər poemadan parçanı beyt-beyt oxuyur, ikinci şagird oxunmuş beytlərin nəsr qarşılığını səsləndirir. Digər şagirdlər ehtiyac yaranan hallarda misranın, beytin, yaxud nəsr variantının təkrar oxunmasını xahiş edir, əlavə izaha ehtiyac duyduqlarını yerindəcə bildirirlər. Belə oxuda tanış olmayan sözlərin mənasının, mənşəyinin aydınlaşdırılmasına və məcazların müəyyənləşdirilməsinə (bu məqamda şagirdlərin fərdi fəaliyyətinə diqqət yetirilir) əlverişli imkan yaranır.

Oxuya ayrılan vaxt başa çatdıqdan sonra şagirdlər kiçik qruplarda birləşib dərslikdəki suallara *(Əsəri yazmağı Füzulidən kimlər və necə xahiş edirlər? Şair mövzu ilə bağlı düşüncələrini necə ifadə edir? və s.)* cavab hazırlayırlar. Bu, məzmunla bağlı qazanılmış məlumatın sistemə salınmasında əhəmiyyətli rol oynayır. Əsərin "Rum zəriflərinin"– türk ədiblərinin xahişi ilə ana dilində yazılmasının da sənətkarın doğma dilinə münasibətini əks etdirən nümunə kimi qeyd edilməsi məqsədəuyğundur. Özünü Nizaminin şagirdi adlandıran şair bu dahi sənətkardan sonra həmin mövzuda əsər yazmağın çətinliyini aydın dərk etmiş, lakin bu ağır yaradıcılıq yükünün altına girərək böyük istedadının gücü ilə orijinal sənət abidəsi yaratmağa müvəffəq olmuşdur. Müəllim şagirdlərin diqqətini əsərdə şairin zəmanədən şikayəti ilə bağlı məqamlara yönəldir, özü "Saqinamə" dən nümunələr gətirməklə (Bir dövrdəyəm ki, nəzm olub xar...)bu şikayətin səbəblərinin aydınlaşdırılmasına nail olur.

Müəllim dərslikdəki *"Şair Leylini neçə təqdim edir?", "Anası Leyliyə nələri nəsihət edir? Ana zəmanənin hansı mənəvi-əxlaqi dəyərlərinə önəm verir?"* suallarına cavab hazırlayan şagirdlərin diqqətini poemanın *"Məcnunun Leylini məktəbdə görməsi", "Anasının Leyliyə nəsihəti"* parçalarında əksini tapmış mənəvi, əxlaqi dəyərlərin müəyyənləşdirilməsinə cəlb edir. Eləcə də digər suallarla bağlı poemaya müraciət olunur.



LAYİHƏ

Oxunmuş hissələrdə şairin söylədiyi fikirlərin necə qavranıldığını aşkara çıxarmaq məqsədilə diskussiya zamanı şagirdlərə əlavə suallarla da müraciət olunur. Müəllim əsərdən ayrı – ayrı beytləri nümunə gətirərək şagirdlərin məzmunla bağlı fikirlərini öyrənir:

...Yaxşı adını yaman edirsən?
...Nəyçün sənə tənə edə bədgu?
... Namusuna layiq işmidir bu?
...Oğlan əcəb olmaz olsa aşiq,
Aşiqlik işi qıza nə layiq?
... Xoş ol ki, qızı həmişə gizlər,
Xud gizli qala həmişə qızlar.

Kiçik qrupların təqdimatlarında tanış olmayan sözlərin mənşəyi, məcazların növü ilə bağlı məlumatlar da əhatə olunur və **məlumat mübadiləsi** və **müzakirədə** diqqət mərkəzində saxlanılır. Müzakirə zamanı əsərin yazıldığı dövrdə insanın mənəvi azadlığı problemi, qarşılıqlı sevgiyə münasibət, qadın hüquqları ilə bağlı məsələlərə aydınlıq gətirilir.

Aparılmış işə yekun vurulduqdan sonra (nəticənin çıxarılması məzmunun öyrənilməsi üzrə iş başa çatdırıldıqdan sonra – ikinci dərsdə həyata keçirilir) qiymətləndirmə mərhələsinə keçilir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə müəyyənləşdirilmiş meyarlar əsasında aparılır (bax: səhifə 101).

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

## *Mövzu:* **Məhəmməd Füzuli. Leyli və Məcnun (ixtisarla)** *– 4 saat*

### *İkinci saat:* **Məzmun üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.1.1.** Müxtəlif vəznli şeirlərdə (heca, əruz, sərbəst) və süjetli əsərlərdə (dastan, poema, hekayə, povest, roman, dram, komediya, faciə) tanış olmayan sözlərin mənasını mənşəyinə və işlənmə məqamına görə izah edir. | • Poemada tanış olmayan sözlərin mənasını mənşəyinə və işlənmə məqamına görə izah edir. |
| **1.1.4.** Müxtəlif ədəbi növ və janrda olan bədii nümunələrdə əksini tapan mühüm mənəvi, əxlaqi-etik dəyərləri müəyyənləşdirir. | • Poemada əksini tapmış mühüm mənəvi, əxlaqi-etik dəyərləri müəyyənləşdirir. |
| **1.1.5.** Müxtəlif vəznli (heca, əruz) şeirlərdə, mürəkkəb süjet və kompozisiyalı bədii nümunələrdə bədii təsvir və ifadə vasitələrini (epitet, bənzətmə, metafor, metonimiya, simvol, mübaliğə, litota, bədii sual, təkrir, bədii təzad, inversiya) müəyyənləşdirir. | • Poemada məcazları müəyyənləşdirir. |

**Dərsin tipi**: induktiv, bədii əsərin öyrənilməsi.
**İş forması**: fərdi iş, cütlük şəklində iş, kiçik qruplarda iş, bütün siniflə birgə iş.
**Metod və priyomlar:** müsahibə, müzakirə, diskussiya, problemin həlli, təqdimat.
**İnteqrasiya:** Az.d. 2.1.1., X.d. 3.1.1.
**Təchizat:** dərslik, iş vərəqləri, lüğətlər, əsərin məzmunu üzrə şəkillər.

LAYİHƏ

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi müsahibə və təqdimatların dinlənilməsi, müzakirəsi əsasında müəyyənləşdirilə bilər. Oxunmuş parçalardakı (*"Leylinin anasına cavabı", "Məcnunun Leyliyə səhrada rast gəlməsi" və s.)* başlıca fikirlərin, tanış olmayan sözlərin və onların mənasının, mənşəyinin, eləcə də məcazların hansı səviyyədə aydınlaşdırıldığı aşkara çıxarılır. Bütün bunlar sonrakı mərhələlərdə işi necə təşkil etməyin daha səmərəli olduğunu müəyyənləşdirməyə imkan verir. Təcrübədən məlumdur ki, şagirdlər müstəqil oxuduqları parçalardakı fikirləri ümumi şəkildə qavramaqla məhdudlaşırlar. Məhz buna görə sinifdə davam etdirilən iş zamanı həmin parçaların nəsr variantları ilə paralel oxusunun həyata keçirilməsi, ehtiyac yaranan məqamlarda izahlara yer verilməsi məqsədəuyğundur.

Müəllim "Leylinin anasına cavabı" hissəsindən aşağıdakı beytlərin mənasını aydınlaşdırmağı tapşırır:

Sözlər dersəm ki, bilməzəm mən,
Məzmunun fəhm qılmazam mən.
Eşqin qılmaz idi kimsə yadın,
Ha səndən eşitdim indi adın.

Cavablarda qeyd edilir ki, öz məhəbbətini etiraf etməkdən çəkinən Leylinin sözləri ananı sakitləşdirir. O inanır ki, qızı cəmiyyətin qanunlarını pozmamışdır, eşqin nə olduğundan xəbərsizdir. Ağıllı Leyli öz zəmanəsinin övladı olan anasının əzab çəkməsinə qıymır, Məcnuna olan məhəbbətini gizlətməklə ailəsini söz-söhbətdən qoruyur. Şair onu "bir türfə sənəm ki, əqli kamil" adlandırır.

"Məcnunun Leyliyə rast gəlməsi" başlıqlı hissədən aşağıdakı beytlərin məzmunu haqqında fikirlər öyrənilir, müzakirə edilir:

Leyli demə - cənnət içrə bir hur,
Məcnun demə- zülmət içrə bir nur.

Səhrada qarşılaşan sevgililərin davranışı, ovqatı, yoldaşlarının onlara münasibəti müvafiq parçanın məzmunu əsasında aydınlaşdırılır. Məsələn:

Gül suyu səpib rəvan üzünə,
Leylini gətirdilər özünə.
Hər yan dedilər ona ki: "-Ey mah!
Hagəh olur atan-anan agah
Kim, qeyrilə aşina olubsan,
Bir dilbərə mübtəla olubsan!
Yaxşı nəzər eyləsən, yamandır,
Həm bizə və həm sənə ziyandır!"

Seçilmiş parçalar poemanın ideya-məzmunu ilə bağlı bir çox mühüm mətləblərin başa düşülməsinə imkan yaradır. İstər oxu prosesində, istərsə də sonra reallaşdırılan işlərdə (kiçik qruplarda suallara cavab hazırlanarkən, təqdimatlarda, müzakirədə və s.) həmin mətləblər diqqət mərkəzində saxlanılır. Məsələn, *"Leylinin anasına cavabı", "Məcnunun atasının Leyli üçün elçiliyə getməsi və rədd cavabı alması", "Nöfəlin ikinci dəfə vuruşub qalib gəlməsi və əhdinə yalan olması", "Atasının Məcnunu səhrada tapması və nəsihətlə yola gətirməkdə aciz qalması"* parçaları nəinki obrazların xarakteri, həyata baxışı barədə aydın təsəvvür qazanmağa imkan verir, həm də o dövrdə cəmiyyətdə mövcud olan ictimai görüşə, mənəvi-əxlaqi dəyərlərə, əxlaq normalarına münasibəti barədə tutarlı nəticə çıxarmağa səbəb olur.



LAYİHƏ

Qeyd edildiyi kimi, dərslikdəki suallar *(Leyli günahsız olduğuna anasını necə inandırır? Gəzintidə təsadüfən qarşılaşan Leyli və Məcnun üçün bu görüş necə nəticələnir? və s.)* üzrə iş bir neçə cəhətdən faydalıdır. Kiçik qruplarda birləşən şagirdlər onlara cavab hazırlayarkən izahlı oxuda qazandıqları məlumatla kifayətlənmir, əsərin özünə dönə-dönə müraciət etməli olurlar.

Şagirdlər təqdimatlarda, həmçinin tanış olmayan sözlər, onların mənşəyi, məcazların növü (epitet, bənzətmə, metafor, bədii təzad, mübaliğə və s.), əsərdə istifadə edilmiş qəzəllər barədəki son qənaətlərini də qeyd edirlər.

**Məlumat mübadiləsi** və **müzakirə** mərhələsinin səmərəli təşkili oxunmuş parçalarda qaranlıq mətləblərin qalmasına imkan vermir. Bu mərhələnin uğurlu olması əsaslandırılmış **nəticənin** çıxarılmasına, **ümumiləşdirmənin** aparılmasına da şərait yaradır. Şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, böyük humanist sənətkar olan Füzuli zəmanəsinin ən ağrılı problemlərindən yan keçməmiş, mənəvi azadlığın vacibliyini, gəncliyin arzu və istəklərini, sevmək, sevilmək kimi təbii hislərini, xoşbəxtlik arzularını Leyli və Məcnunun taleyi timsalında əks etdirmişdir. Leyli və Məcnunun faciəli taleyinin təsviri ilə şair cəmiyyətdəki ədalətsizliyə, insan hüquqsuzluğuna etirazını bildirmişdir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə müəyyənləşdirilmiş meyarlar əsasında aparılır (bax: səhifə 103).

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

### *Mövzu:* **Məhəmməd Füzuli. Leyli və Məcnun (ixtisarla)** *– 4 saat*
### *Üçüncü saat:* **Təhlil üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.2.2.** Davranış və əməllərinə, başqaları ilə qarşılıqlı münasibətlərinə, yazıçının mövqeyinə, digər surətlərin mühakimələrinə əsaslanmaqla obrazları təhlil edir. | • Davranış və əməllərindən, başqaları ilə qarşılıqlı münasibətlərindən, yazıçının mövqeyindən, digər surətlərin mühakimələrindən çıxış etməklə poemadakı qəhrəmanları təhlil edir. |
| **1.2.4.** Bədii nümunələrin mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün sosial-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə təhlil edir və nəticə çıxarır. | • Poemanın mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün sosial-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə təhlil edir və nəticə çıxarır. |

**Dərsin tipi**: induktiv, bədii əsərin öyrənilməsi.
**İş forması**: fərdi iş, cütlük şəklində iş, kiçik qruplarda iş, bütün siniflə birgə iş.
**Metod və priyomlar:** müsahibə, müzakirə, diskussiya, problemin həlli, təqdimat.
**İnteqrasiya:** Az.d. 1.2.4., X.d. 3.1.4.
**Təchizat:** dərslik, iş vərəqləri, lüğətlər, "Leyli və Məcnun" operasından fraqmentin video yazısı, poemanın müxtəlif nəşrləri, əsərlə bağlı təhlil materialları.

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsinin müəyyənləşdirilməsi onun mənimsənilməsinin dərinləşdirilməsi ilə paralel həyata keçirilir. Bu mərhələ müəllimdən ciddi hazırlıq, gərgin iş tələb edir. Evdə oxunmuş parçalarda qabarıq ifadə olunmuş fikirləri ümumi şəkildə öyrənən şagirdlərlə dərsdə az vaxt içərisində



LAYİHƏ

səmərəli iş aparılmalı, məzmunun qavranılması dərinləşdirilməlidir. Bu mərhələdə, həmçinin azı beş sözün mənşəyi barədə fikir mübadiləsi aparılmalı, müəyyənləşdirilmiş məcazlara münasibət bildirilməlidir. Təcrübə göstərir ki, bu mərhələdə müsahibədən istifadə vaxta qənaət baxımından daha məqsədəuyğundur.

Poemanın nəsr variantından istifadə edilməklə aparılan işin səmərəliliyinə müəllimin məzmunla bağlı əvvəlcədən hazırladığı suallar da əhəmiyyətli dərəcədə təsir edir.

Müvafiq qiymətləndirmə meyarlarına müraciət olunur.

**Motivasiya, problemin qoyuluşu.** Motivasiyanın yaradılmasına fərqli yollarla nail olmaq mümkündür. Başqa sözlə, bu mərhələni rəmzi materiallardan (poemadan, https://www.youtube.com/watch?v=qWgpBPnFhPw ünvanından yaxud operadan parça, rəssamlıq əsəri, hikmətli söz, məsəl və s.), suallardan istifadə etməklə təşkil etmək mümkündür. Variantlardan biri aşağıdakı məzmunda ola bilər. Baş qəhrəmanların faciəsinin əsl səbəbini şairin *"Sözün (əhvalatın) tamamlanması"* parçasında necə izah etdiyi müsahibədən istifadə ilə bir daha xatırladılır. Müsahibə tədqiqat sualının formalaşdırılması ilə yekunlaşdırılır.

**Tədqiqat sualı:** "Poemada yalnız nakam məhəbbət deyil, ciddi ictimai problemlər də əksini tapmışdır" fikrini doğru saymaq olarmı?

Fərziyyələr dinlənilir və qeyd edilir.

**Tədqiqatın aparılması.** Araşdırmaya dərslikdəki sualların *(Poema hansı mövzuda yazılmışdır? Bu mövzu şairin yaradıcılıq meylinə, həyata baxışına nə dərəcədə uyğundur?)* araşdırılmasına istiqamət verən mətnin oxusu ilə (bunu fərdi, yaxud cütlük şəklində iş formasını tətbiq etməklə həyata keçirmək daha faydalıdır) başlanılır. İlk iki sualla (onlar dərslikdə birləşdirilmişdir) bağlı mətndə maraqlı, lakin tamamlanması və zənginləşdirilməsi vacib olan məlumat verilmişdir. Mətndə birbaşa tədqiqat sualı ilə bağlı əks olunmuş fikirlərin mənbələrdən istifadə ilə zənginləşdirilməsinə ehtiyac duyulduğunu şagirdlərin özləri anlamış olurlar. Füzulinin dövründə cəmiyyətdə hökm sürən ictimai münasibətlər, mövcud mənəvi dəyərlərə, əxlaqi-etiq normalara baxış poemada bədii həlli verilən problemlər kimi mənbələrdə əhatəli təhlil edilmişdir. Dərslikdəki mətn bütün bunların mənbələr əsasında araşdırılmasına istiqamət verir.

Dərslikdəki mətn və poemanın məzmunu ilə bağlı qazanılmış bilik şagirdlərə növbəti sualın *(Məcnun və Leyli obrazlarının xarakteri, davranış və əməlləri üçün səciyyəvi olanlar hansılardır? Onları müasirlərindən – həmyaşıdlarından fərqləndirən nədir?)* cavabı ilə bağlı fikir söyləməyə imkan yaratsa da, mənbələrə müraciət olunmasına ehtiyac vardır. Bu qəhrəmanların xarakteri, davranış və əməlləri, müəllifin və digər obrazların onlara münasibəti və s. barədə qazanılmış bilik həm poemadan, həm də mənbələrdən əldə edilmiş məlumat əsasında dərinləşdirilməli və zənginləşdirilməlidir.

Əsərin mövzusu, şairin bu mövzuya münasibəti, baş qəhrəmanla dövrün mənəvi dəyərləri arasındakı bağlılıq diqqət mərkəzində saxlanılır.

Müəllimin təklifi ilə kiçik qruplarda birləşən şagirdlər fikir mübadiləsi aparır, cavabları əsərdən seçdikləri nümunələrlə zənginləşdirirlər. İstər **məlumat mübadiləsində**, istərsə də **müzakirədə** cavablara nələrin əlavə edilməsinin vacib olması barədəki təsəvvürün zənginləşdirilməsinə diqqət yetirilir.

Müzakirə zamanı Məcnun surəti ilə bağlı aşağıdakılara diqqət yetirilir:



LAYİHƏ

– Məcnunun ailəsi, aldığı tərbiyə, nəcib, ağıllı, dünyanın həqiqətlərini dərk edən bir insan olması;
– Leylini dərin məhəbbətlə sevməsi, öz məhəbbətinə ömrünün sonuna kimi sadiq qalması;
– Məcnunun həyata, insana, sevgiyə fərqli münasibəti, köhnə baxışlara, zehniyyətə etirazı;
– Məcnunun faciəsinin səbəbləri;
– şairin Məcnuna münasibəti;
– şagirdlərin bu obraza münasibəti.

Leyli obrazının təhlilində diqqət daha çox onun xarakterindəki, davranış və əməllərindəki başlıca cəhətlərin aydınlaşdırılmasına yönəldilir:

– Leyli obrazı timsalında şairin qadına humanist münasibəti;
– Leylinin ailədə aldığı tərbiyə, həmyaşıdlarından fərqi;
– anasının Leyliyə nəsihətində və Leylinin anasına cavabında qadına münasibətlə bağlı dövrün həqiqətlərinin ifadəsi;
– Leylinin öz məhəbbətinə sadiq qalması, sevgilisinə qovuşmaq üçün göstərdiyi fədakarlıq;
– Leylinin öz hüquqsuzluğunu dərk etməsi və buna etirazı;
– şairin Leyliyə münasibəti;
– şagirdlərin bu obraza münasibəti.

Bu məzmunda aparılan iş yekunlaşdırıldıqdan sonra (nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması isə təhlil üzrə iş tamamlandıqdan sonra – ikinci dərsdə həyata keçirilir) qiymətləndirmə mərhələsinə keçilir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə müəyyənləşdirilmiş meyarlar əsasında aparılır (bax: səhifə 105).

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

## *Mövzu:* **Məhəmməd Füzuli. Leyli və Məcnun (ixtisarla***) – 4 saat*

## *Dördüncü saat:* **Təhlil üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| **1.2.2.** Davranış və əməllərinə, başqaları ilə qarşılıqlı münasibətlərinə, yazıçının mövqeyinə, digər surətlərin mühakimələrinə əsaslanmaqla obrazları təhlil edir. | • Davranış və əməllərindən çıxış etməklə obrazları təhlil edir. |
| **1.2.3.** Müxtəlif vəznli (heca, əruz, sərbəst) şeirlərdə, süjetli ədəbi nümunələrdə bədii təsvir və ifadə vasitələrinin obrazlılığın yaradılmasındakı rolunu aydınlaşdırır və münasibət bildirir. | • Poemadakı məcazların obrazlılığın yaradılmasındakı rolunu aydınlaşdırır və münasibət bildirir. |
| **1.2.4.** Bədii nümunələrin mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün sosial-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə təhlil edir və nəticə çıxarır. | • Poemanın mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün mənəvi dəyərləri kontekstindən çıxış etməklə təhlil edir və nəticə çıxarır. |

**Dərsin tipi**: induktiv, bədii əsərin öyrənilməsi.
**İş forması**: fərdi iş, cütlük şəklində iş, kiçik qruplarda iş, bütün siniflə birgə iş.
**Metod və priyomlar:** müsahibə, müzakirə, diskussiya, problemin həlli, təqdimat.
**İnteqrasiya:** Az.d. 1.2.3., 2.1.1., X.d. 2.1.1., 2.1.3., 3.1.4.



LAYİHƏ

**Təchizat:** dərslik, iş vərəqləri, lüğətlər, poemanın müxtəlif nəşrləri, poema ilə bağlı təhlil materialları.

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi müsahibə və təqdimatların dinlənilməsi, müzakirəsi əsasında müəyyənləşdirilə bilər. Araşdırılan sualların hər biri ilə əlaqədar əldə edilmiş məlumatın nə dərəcədə faydalı olduğunun aydınlaşdırılmasına xüsusi diqqət yetirilir. Əsərin zəngin ideyasının necə qavranıldığı, müəllifin qaldırdığı problemlərin və onların bədii həlli ilə bağlı mənbələrdəki fikirlərin necə mənimsənildiyi bu mərhələdə xüsusi diqqət yetirilən məsələlərdən olur. Baş qəhrəmanların təhlili ilə bağlı yeni öyrənilənlərin aşkara çıxarılması və dəyərləndirilməsinə vaxt ayrılır.

Bu mərhələdə müvafiq qiymətləndirmə meyarlarına müraciət edilir.

Yeni dərsdə araşdırma dərslikdəki sualların *(Poemadakı digər obrazların səciyyəvi xüsusiyyətləri hansılardır? "Poemanın uzunömürlü olmasının bir mühüm səbəbi misilsiz bədii gözəlliyidir" fikrini necə əsaslandırardınız?)* araşdırılmasına istiqamət verən cavabların oxusu ilə (bunun üçün cütlük şəklində iş formasının tətbiqi məqsədəuyğundur) başlanılır. Poemadakı obrazların dərslikdə ətraflı təhlili verilməmişdir. Bu, mənbələrin müstəqil araşdırılması nəticəsində mümkün olur.

Dərslikdəki mətndə ata, ana obrazları, eləcə də İbn Səlam barədə deyilənlər təhlil baxımından şagirdlərə aydın istiqamət verir. Məzmunun öyrənilməsi prosesində əldə edilən məlumatlardan da bəhrələnən şagirdlər istər bu obrazlar, istərsə də digərləri – Nofəl, Zeyd barədə fikir söyləyə bilirlər. Bu məqamda onlara bir daha aydın olur ki, bədii mətndən səciyyəvi nümunələrin seçilməsi fikirlərinin təsdiqi, əsaslandırılması üçün çox əhəmiyyətlidir.

Növbəti sualların ("*Poemanın uzunömürlü olmasının bir mühüm səbəbi misilsiz bədii gözəlliyidir" fikrini necə əsaslandırardınız? Poemanın ideyaca zəngin olduğunu necə əsaslandırmaq olar?)* cavabı ilə bağlı dərslikdəki yığcam məlumat şagirdlərin məzmun üzrə qazandıqları biliklərin əsasında genişləndirilir. Oxunmuş parçalardan seçilmiş məcazların və digər bədii vasitələrin əsərə gətirdiyi gözəlliyi, poemanın ideyaca zənginliyini aydınlaşdırmağa çalışan şagirdlər dərslikdəki mətndə verilmiş nümunələrdən, izahdan çıxış edirlər. Öyrəndiklərinə mənbələr əsasında əlavələr etməyin zəruriliyini anlayan şagirdlər müstəqil tədqiqat apararkən nələrə diqqət etməyin vacib olduğu barədə də təsəvvür qazanmış olurlar.

Müəllimin təklifi ilə kiçik qruplarda birləşən şagirdlər qənaətlərini bölüşür, cavablarını dəqiqləşdirirlər. Ümumi fikri əks etdirən təqdimatlar qrupdaxili müzakirə əsasında tədricən ərsəyə gəlir. Təqdimatlar əsasında həyata keçirilən **məlumat mübadiləsi** və **müzakirədə** fəal dinləmə təmin edilir, müzakirənin diskussiya səciyyəli olmasına səy göstərilir.

**Nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması** mərhələsinin səmərəli keçməsində müəllimin istiqamətləndirici sualları əhəmiyyətli rol oynayır. Şagirdlərdə əsərin ideya-bədii dəyəri ilə bağlı belə bir qənaət yaranır ki, bir-birini böyük məhəbbətlə sevən iki gəncin nakam taleyi timsalında Füzuli cəmiyyətdəki ictimai, mənəvi problemlərə münasibətini bildirmiş, dünyəvi gözəllik və məhəbbətlə yanaşı, sufi baxışlarını, ilahi məhəbbət, Allaha qovuşmaqla bağlı fəlsəfi düşüncələrini də əks etdirmişdir.

Nəticələrin fərziyyələrlə müqayisəsinə vaxt ayrılır.

**Qiymətləndirmə.** Formativ qiymətləndirmə müəyyənləşdirilmiş meyarlar əsasında aparılır (bax: səhifə 107).

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

LAYİHƏ

**Mənbələr**

1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. Azərbaycan müəllimi qəzeti: № 41 (8558), 25 oktyabr, 2013.
2. "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli sərəncama uyğun olaraq nəşr edilərək bütün məktəb kitabxanalarına paylanılmış və elektron formada internetdə yerləşdirilmiş kitablar (dərslikdəki mövzular üzrə).
3. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün ədəbiyyat fənni kurikulumu. V–XI siniflər. (Təlim Azərbaycan dilində olan məktəblər üçün). www.kurikulum.az/ images/.../edebiyyat.pdf)
4. Abbasov Ə. Şagird nailiyyətlərinin qiymətləndirilməsi: müasir baxış və konseptual yanaşmalar.// Azərbaycan məktəbi, 2007. № 4, 2005.
5. Azərbaycan ədəbiyyatı tarixi. 10 cilddə, I cild, Bakı: Elm, 2018.
6. Azərbaycan ədəbiyyatı tarixi. 10 cilddə, II cild, Bakı: Elm, 2020.
7. Azərbaycan ədəbiyyatı tarixi. 10 cilddə, III cild, Bakı: Elm, 2020.
8. Azərbaycan ədəbiyyatı tarixi. 10 cilddə, IV cild, Bakı: Elm, 2021.
9. Azərbaycan ədəbiyyatı tarixi. 6 cilddə, I cild, Bakı: Elm, 2004.
10. Azərbaycan ədəbiyyatı tarixi. 6 cilddə, II cild, Bakı: Elm, 2007.
11. Azərbaycan ədəbiyyatı tarixi. 6 cilddə, III cild, Bakı: Elm, 2009.
12. Azərbaycan ədəbiyyatı tarixi. 6 cilddə, IV cild, Bakı: Elm, 2011.
13. Araslı H. Böyük Azərbaycan şairi Füzuli, Bakı, 1958.
14. Babayev Y. Azərbaycan ədəbiyyatı tarixi.(XIII–XVIII əsrlər). Bakı: Elm, 2014.
15. Cəfər Ə. Əruzun nəzəri əsasları və Azərbaycan əruzu. Bakı: Elm, 1977.
16. Dadaşzadə A. XVIII əsr Azərbaycan lirikası. Bakı: Elm, 1980.
17. Əliyev P.B. Ümumtəhsil məktəblərində poetikanın tədrisinin nəzəri və praktik problemləri. Bakı: Nurlan, 2000.
18. Ərəb-fars sözləri lüğəti. I–II cild. Bakı: Şərq-Qərb, 2005.
19. Əliyev S. Füzuli. Bakı, 1996.
20. Əsgərli Z. Poetika. İzahlı sözlük. Bakı: Elm, 2014.
21. Əsgərli Z. N.Vəzirovun "Müsibəti-Fəxrəddin" faciəsi. Bakı: Maarif, 1985.
22. Əfəndiyev P. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı: Maarif, 1992.
23. Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti. Bakı: Şərq-Qərb, 2007.
24. Köçərli F. Azərbaycan ədəbiyyatı. I–II cild. Bakı: Elm, 1981.
25. Qasımzadə F. XIX əsr Azərbaycan ədəbiyyatı. Bakı: Maarif, 1974.
26. Qarayev Y. Faciə və qəhrəman. Bakı: EA-nın nəşriyyatı, 1965.
27. Quluzadə M. Böyük ideallar şairi. Bakı: Gənclik, 1973.
28. Mir Cəlal, P.Xəlilov. Ədəbiyyatşünaslığın əsasları. Bakı: Maarif, 1988.
29. Hacıyev T. Yazıçı dili və ideya-bədii təhlil. Bakı: Maarif, 1979.
30. Həsənli B.A. Ədəbiyyatın tədrisi metodikası. Bakı: Müəllim, 2016.
31. Həsənli B., Abdullazadə. N. İfadəli oxu. Bakı: Müəllim, 2015.
32. Hüseynoğlu S. Ədəbiyyat dərslərində yeni texnologiyalar: fəal/interaktiv təlim. Bakı: ADPU, 2009.
33. Hüseynoğlu S. İfadəli oxunun əsasları. Bakı: ADPU-nun nəşri, 2009.
34. Hüseynoğlu S. Ədəbiyyatın məktəbdə öyrədilməsi. Bakı, 2019.
35. Səfərli Ə.,Yusifli X. Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı. Bakı: Ozan, 1998.
36. Veysova Z.A. Fəal/interaktiv təlim. Bakı, 2007.



LAYİHƏ

**Ədəbiyyat – 10**

*Ümumtəhsil məktəblərinin 10-cu sinfi üçün*
*Ədəbiyyat fənni üzrə dərsliyin*
*metodik vəsaiti*


**Tərtibçi heyət:**

Müəlliflər: **Soltan Hüseyn oğlu Əliyev**
**Bilal Ağabala oğlu Həsənov**
**Aynur Cəfər qızı Mustafayeva**



Nəşriyyat redaktoru **K.Abbasova**
Texniki redaktor **Z.İsayev**
Dizayner **P.Məmmədov**
Korrektor **A.Məsimov**



**© Azərbaycan Respublikası Təhsil Nazirliyi – 2022**

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.



Hesab-nəşriyyat həcmi 11,6. Fiziki çap vərəqi 13. Səhifə sayı 208.
Kağız formatı 70x100 1/16. Tiraj 7200. Pulsuz. Bakı – 2022

"BAKI" nəşriyyatı
Bakı, AZ 1001, H.Seyidbəyli küç. 30


LAYİHƏ

Pulsuz

LAYİHƏ